**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

# AZƏRBAYCAN TARİXŞÜNASLIĞI

## ELMİ ƏSƏRLƏR

**2021, №1 (82)**

**1947-Cİ İLDƏN NƏŞR OLUNUR**

*1947-2020-ci illərdə "Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri" adı ilə nəşr olunmuşdur*

**BAKI – 2021**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur**

**Baş redaktor:**

**Kərim Şükürov**
tarix elmləri doktoru, professor

**Redaksiya heyəti:**

**Azərbaycan**
**Nərgiz Axundova** – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İradə Bağırova** – tarix elmləri doktoru, professor (baş redaktorun müavini)
**Allahverdi Əlimirzəyev** – tarix üzrə fəlsəfə doktoru, dosent
**Mais Əmrahov** –tarix elmləri doktoru, professor
**Şahin Fərzəliyev** – tarix elmləri doktoru, professor
**İsmayıl Hacıyev** – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Hacı Həsənov**, tarix üzrə fəlsəfə doktoru, dosent
**Ədalət Qasımov** – tarix elmləri doktoru, dosent
**Yaqub Mahmudov** – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Nigar Maksvell** – tarix üzrə fəlsəfə doktoru, dosent
**Tofiq Mustafazadə** – tarix elmləri doktoru, professor
**Tofiq Nəcəfli** – tarix elmləri doktoru, dosent
**Güntəkin Nəcəfli** – tarix üzrə fəlsəfə doktoru, dosent
**İlqar Niftəliyev** – tarix üzrə fəlsəfə doktoru, dosent
**Nailə Vəlixanlı** – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru

**Xarici ölkələrdən**
**Van Chaoquanq** – tarix elmləri doktoru, professor (Çin)
**Arşi Xan** – tarix elmləri doktoru, professor (Hindistan)
**Pyotr İsgəndərov** – tarix üzrə fəlsəfə doktoru (Rusiya)
**Sergey Karpov** – Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Andrey Kudryachenko** – Ukrayna Milli Elmlər Akademiyasının həqiqi üzvü
**Kahramon Rajabov** – tarix elmləri doktoru, professor (Özbəkistan)
**Kipke Rudiger** – professor (Almaniya)
**Piotr Taraxa** – tarix elmləri doktoru, professor (Polşa)
**Con Vuds** – tarix elmləri doktoru, professor (ABŞ)
**Selma Yel** – tarix elmləri doktoru, professor (Türkiyə)
**Hakan Yılmaz** – (Türkiyə)
**Elmira Zulpıxarova** – tarix elmləri doktoru, professor (Qazaxıstan)

**Məsul katib:**
**Ellada Bəkirova**
tarix üzrə fəlsəfə doktoru

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
A.A. BAKIKHANOV INSTITUTE OF HISTORY

# AZERBAIJAN HISTORIOGRAPHY

## SCIENTIFIC WORKS

## 2021, №1(82)

**PUBLISHED SINCE 1947**

*In 1947-2020, was published as "Scientific works" of A.A.Bakikhanov Institute of History of the Azerbaijan National Academy of Sciences*

**BAKU - 2021**

**Published by the decision of the Scientific Council of A.A. Bakikhanov Institute of History of Azerbaijan National Academy of Sciences**

**Editor-in-Chief:**

**Kerim Shukurov**
Doctor of historical sciences, professor,

**Editorial board:**

**Azerbaijan**
**Nargiz Akhundova** – full member of ANAS, Doctor of Historical Sciences, professor;
**Irada Bagirova** – Doctor of Historical Sciences, Professor (*Deputy Editor-in-Chief*);
**Allahverdi Alimirzayev** – Doctor of Philosophy in history, associate professor;
**Mais Amrahov** – Doctor of Historical Sciences, professor;
**Shahin Farzaliyev** – Doctor of Historical Sciences, Professor;
**Ismail Hajiyev** – full member of ANAS, Doctor of Historical Sciences, professor;
**Haji Hasanov** – Doctor of Philosophy in history, associate professor;
**Adalat Gasimov** – Doctor of Historical Sciences, associate professor;
**Yagub Mahmudov** – full member of ANAS, Doctor of Historical Sciences, professor;
**Nigar Maxwell** – Doctor of Philosophy in history, associate professor;
**Tofig Mustafazadeh** – Doctor of Historical Sciences, professor;
**Tofig Najafli** – Doctor of Historical Sciences, associate professor;
**Guntekin Najafli** – Doctor of Philosophy in history, associate professor;
**Ilgar Niftaliyev** – Doctor of Philosophy in history, associate professor;
**Naila Velikhanli** – full member of ANAS, Doctor of Historical Sciences.

**From foreign countries**
**Van Chaoquang** – Doctor of Historical Sciences, professor (China);
**Arshi Khan** – Doctor of Historical Sciences, professor (India);
**Pyotr Isgandarov** – Doctor of Philosophy in history, (Russia);
**Sergey Karpov** – Full member of the Academy of Sciences of Russia, Doctor of Historical Sciences, professor;
**Andrey Kudryachenko** – full member of the National Academy of Sciences of Ukraine;
**Kahramon Rajabov** – Doctor of Historical Sciences, professor (Uzbekistan);
**Kipke Rudiger** – professor (Germany);
**Piotr Taracha** – Doctor of Historical Sciences, professor (Poland);
**John Woods** – Doctor of Historical Sciences, professor (USA);
**Selma Yel** – Doctor of Historical Sciences, professor (Turkey);
**Hakan Yilmaz** – (Turkey);
**Elmira Zulpikharova** – Doctor of Historical Sciences, professor (Qazaxıstan).

**Executive Secretary:**
**Ellada Bekirova**
Doctor of Philosophy in history

# M Ü N D Ə R İ C A T – C O N T E N S

## M Ə Q A L Ə L Ə R – A R T I C L E S

### AZƏRBAYCAN TARİXİ – HISTORY OF AZERBAIJAN


***Mahir İbrahimov*** **(Bakı)** – Xəzər regionunda cərəyan edən hadisələrin tarixi-siyasi təhlili yeni dünya düzəninin formalaşması kontekstində 7

***Fəxri Valehoğlu*** **(Bakı)** – 1917-1918-ci illərdə Cavaxetdə türk-müsəlman əhaliyə qarşı soyqırım və nəticələri 27

***Aygün Əzimova*** **(Bakı)** – Azərbaycanda siyasi qüvvələrin mübarizəsi və kəndli amili (fevral 1917 – may 1918) 57

***Şövkət Pənahova*** **(Bakı)** – 17 Oktyabr manifesti və anadilli mətbuatın inkişafı 85

***Elçin Cabbarov*** **(Bakı)** – Şimali Azərbaycanda erməni terrorunun yayılmasında ermənilərin köçürülməsi siyasətinin rolu (1813-1907) 96

***Aysel Sadıqova*** **(Bakı)** – Qarabağın Xaçın məlikliyi: tarixi reallıq və mahiyyəti 114

***Ellada Bəkirova*** **(Bakı)** – Albaniya tarixinin bəzi elmi-nəzəri problemləri 127

***Selcan Məmmədzadə*** **(Bakı)** – Urmiya hövzəsi Urartunun işğal siyasətində: yeni torpaqlar və yeni nəzarət-dayaq məntəqələri 148


### QƏDİM ŞƏRQ TARİXİ – ANCIENT EASTERN HISTORY


***Əsmər Göyüşova*** **(Bakı)** – Urartu dövlətinin sərhəd problemləri qərb tarixşünaslığında 158


### ÜMUMİ TARİX – GENERAL HISTORY


***Sevinc Rəhimova*** **(Bakı)** – Ermənistanda Sovet hakimiyyətinin qurulmasında RK(b)P-nin Qafqaz bürosunun rolu 166

***Хаджар Вердиева*** **(Баку)** – Армяно-григорианская церковь: история на матрице истины 179

BEYNƏLXALQ MÜNASİBƏTLƏR – INTERNATIONAL RELATIONS


| | | | |
|---|---|---|---|
| ***Məleykə Adıgözəlova* (Bakı)** | – | İkinci İraq böhranı kontekstində ABŞ-Suriya münasibətlərinin bəzi aspektləri | 187 |


SİYASƏT TARİXİ – HISTORY OF POLITICS


| | | | |
|---|---|---|---|
| ***Günel Məlikli* (Bakı)** | – | Siyasətin formalaşması və tarixi inkişafı | 198 |


RESENZİYALAR- REVIEWS


| | | | |
|---|---|---|---|
| ***Selma Yel* (Ankara)** | – | Kafkasya'nın yükselen yıldızı İlham Aliyev döneminde Azerbaycan | 209 |
| ***Марзия Искендерова* (Баку)** | – | Россия и Азербайджанские ханства во второй половине XVIII – нач. XIX веков. 1751-1775 гг. (Сборник документов), Баку, 2018; Россия и Азербайджанские ханства во второй половине XVIII – нач. XIX веков. 1776 – 1800гг. (Сборник документов). Баку, 2020. | 217 |
| ***Ahmad Guliyev* (Baku)** | – | Tofig Najafli. The foreign policy of Azerbaijani Safavid state (in Turkish historiography), Baku: "Turkhan NPB", 2020, 520 pp. | 223 |


*Nəşr olunan materialların AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun, həmçinin redaksiya heyətinin nöqteyi-nəzərini əks etdirməsi məcburi deyil. Məqalələrdə göstərilən məlumatların dəqiqlik və doğruluğuna müəlliflər məsuliyyət daşıyır. Müvafiq ekspertizadan və Tarix İnstitutunun Elmi Şurasından keçən məqalələr nəşr üçün qəbul edilir.*

Redaksiyanın ünvanı
AZ1143, Bakı şəhəri, H.Cavid Pr., 115
AMEA-nın binası – 6-cı mərtəbə
e-mail: azerbaijan.historigraphy@gmail.com

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2021

**AZƏRBAYCAN TARİXİ – HISTORY OF AZERBAIJAN**

# XƏZƏR REGİONUNDA CƏRƏYAN EDƏN HADİSƏLƏRİN TARİXİ-SİYASİ TƏHLİLİ YENİ DÜNYA DÜZƏNİNİN FORMALAŞMASI KONTEKSTİNDƏ

©2021

MAHİR İBRAHİMOV*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0003-3559-8842; mahir.ibrahimov1969@gmail.com

***Xülasə*: *Məqalədə böyük dünya dövlətlərinin, transmilli güclərin və regionun bölgə dövlətlərinin Xəzər hövzəsində mübarizəsinə və əməkdaşlığına aid başlıca məqamlar tədqiq olunur. Bu strateji cəhətdən vacib regionun yeni dünya nizamının formalaşmasında yeri və rolu işıqlandırılır.*

***Açar sözlər*: *Xəzər hövzəsi; iqtisadi layihələr; transmilli şirkətlər; geosiyasi proseslər; bir kəmər bir yol; region ölkələri.*

# HISTORICAL AND POLITICAL ANALYSIS OF EVENTS OCCURRING IN THE CASPIAN REGION IN THE CONTEXT OF FORMATION OF A NEW WORLD ORDER

©2021

MAHIR IBRAHIMOV*

*A.A. Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0003-3559-8842; mahir.ibrahimov1969@gmail.com

***Abstract:*** *The article analyzes the main issues related to the struggle and cooperation of big world powers, transnational forces and the regional local states in the Caspian Basin. The place and role of this strategically important region in the formation of a new world order are emphasized.*

***Keywords:*** *Caspian Basin; economic projects; transnational companies; geo-political processes; a belt a way; regional countries.*

# ИСТОРИКО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ СОБЫТИЙ В КАСПИЙСКОМ РЕГИОНЕ: В КОНТЕКСТЕ ФОРМИРОВАНИЯ НОВОГО МИРОПОРЯДКА

©2021

МАХИР ИБРАГИМОВ*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0003-3559-8842; mahir.ibrahimov1969@gmail.com

***Резюме***: *В статье исследуется основные моменты проблем, касающихся борьбы и сотрудничества больших мировых держав, транснациональных сил и местных государств региона в Каспийском бассейне. Подчеркиваются место и роль этого стратегически важного региона в формировании нового мирового порядка.*

***Ключевые слова:*** *Каспийский бассейн; экономические проекты; транснациональные компании; геополитические процессы; пояс-путь; региональные страны.*

***Giriş***

XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından beynəlxalq münasibətlər sistemində baş vermiş ciddi dəyişikliklər nəticəsində yeni siyasi-iqtisadi durumun müəyyənləşməsində Qərbin böyük dövlətlərinin mövqeyi və fəal xarici siyasəti əsas amillərdən biri kimi ön plana çıxdı. Belə bir şəraitdə Mərkəzi Asiyadan keçərək Şərqlə, Qafqazdan keçərək Qərblə, İrandan keçərək Cənubla, Rusiya və slavyan regionlarından keçərək Şimalla əlaqələrin qurulmasında mühüm rol oynayan zəngin karbohidrogen ehtiyatlarına malik Xəzər dənizi və Cənubi Qafqaz yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Özünün xüsusi geosiyasi, geostrateji və geoiqtisadi xarakterinə görə seçilən bu bölgə XVIII əsrdən başlayaraq Çar Rusiyası və Osmanlı dövlətinin, XX əsrin əvvəllərində Avropa imperiyalarının və ABŞ-ın, SSRİ dağılandan sonra isə bütün transmilli qlobal dünyanın diqqətini daima cəlb edib. Məlumdur ki, çar Dəli Pyotr tərəfindən işğalının əsası qoyulan Xəzər dənizi və Cənubi Qafqaz Sovetlər Birliyinin süqutuna qədər müxtəlif adlarla mövcud olan Rusiya imperiyasının tərkibində olmuşdu.

Qeyd edildiyi kimi, ötən əsrin sonlarına yaxın dünya kommunist sisteminin dərin böhranı, Rusiya prezidenti Vladimir Putinin təbirincə desək, XX əsrin geosiyasi

fəlakətinə – SSRİ-nin və bütövlükdə Varşava müqaviləsinin dağılmasına gətirib çıxardı[1]. Xüsusilə Cənubi Qafqazda və Mərkəzi Asiyada yeni müstəqil dövlətlərin meydana gəlməsi Rusiyanın cənub-şərq sərhədlərini şimala doğru min kilometrdən çox məsafəyə geri çəkdi ki, bu da keçmiş Sovet İttifaqının ərazisində geosiyasi şəraiti kökündən dəyişmiş oldu. Nəticədə, Rusiyanın özü faktiki olaraq XVII əsrdəki sərhədlərinə qayıtmış oldu. Lakin, Rusiya eyni zamanda, özünün iqtisadi və hərbi potensialı sayəsində postsovet məkanında tam olmasa da, müəyyən dərəcədə nüfuzunu qoruyub saxlaya bildi. Son nəticədə bölgə müasir dövrdə yeni dünya nizamının formalaşması prosesində "atlantizmlə" "avrasiyaçılığın" geosiyasi qarşıdurmasında əsas mübarizə meydanlarından birinə çevrildi.

Xəzər hövzəsində Rusiya və Qərbin mövcud maraqları ilə yanaşı, digər regional böyük və kiçik ölkələrin milli maraqlarını da unutmaq olmaz. Bunların sırasına dörd Xəzər hövzəsi ölkələrini – Azərbaycanı, Qazaxıstanı, Türkmənistanı, İranı, ayrıca, bölgənin əsas geosiyasi oyunçusu hesab olunan Türkiyəni, habelə "bir kəmər, bir yol" təşəbbüsü ilə çıxış edən Çini və Cənubi Qafqazda xüsusi strateji coğrafi ərazisi ilə seçilən Gürcüstanı qeyd etmək olar. Bölgəyə yönələn əsas maraqlar da bəllidir: zəngin karbohidrogen ehtiyatları və alternativ ticarət yolları. Əsas məqamlardan biri də budur ki, dünyanın və Xəzər hövzəsinin təbii ehtiyatlarının həcmi haqda beynəlxalq, regional və milli mənbələrdə səsləndirilən rəqəmlər də bir-birindən xeyli fərqlənir. Ehtimal var ki, bu fərqlər də müəyyən geosiyasi və geoiqtisadi amillərin təsiri ilə formalaşır. Hazırda dünya geosiyasətinin və geoiqtisadiyyatının ən aktual mövzularından biri Xəzər hövzəsinin zəngin karbohidrogen yataqlarının azad və açıq rəqabət şəraitində işlənməsi, dünyanın artan enerji tələbatına cəlb edilməsi və bu məhsullar hesabına Avropa enerji bazarlarında Rusiyanın monopolist mövqelərinin qismən zəiflədilməsidir.

Xəzər hövzəsinin əhəmiyyətli geosiyasi xarakteristikası, dünya siyasətində oynadığı rol haqqında bütün dövrlərdə – orta əsrlərdən başlamış günümüzə qədər müxtəlif tədqiqatçılar və politoloqlar çoxsaylı elmi-siyasi araşdırmalar aparmış, cild-cild kitablar yazmış və çoxsaylı geosiyasi xəritələr tərtib etmişlər. Anqlo-saks geosiyasi məktəbinin əsas yaradıcılarından hesab olunan Helford Con Makkinder (1861-1947) "Tarixin coğrafi oxu" əsərində Xəzər, Qara, Aralıq, Qırmızı kimi dənizləri və Fars körfəzi də daxil olmaqla beşbucaq təşkil edən bu bölgəni "beş dəniz" adlandırmış və onun geosiyasi funksional əhəmiyyətə malik olduğunu vurğulamışdır. Müasir Qərb politoloqları isə öz əsərlərində bu bölgəyə müxtəlif kombinasiyalarda – "Yeni Yaxın Şərq", "Böyük Yaxın Şərq", "Böyük Orta Şərq", "Avrasiya Balkanları" adları vermiş və sözügedən bölgəni daha geniş geosiyasi müstəvidə nəzərdən keçirməyə çalışmışlar. Unutmaq olmaz ki, böyük Avrasiya məkanının ənənəvi geotarixi və geosiyasi mərkəzi Rusiyadırsa, Mərkəzi

[1] «Путин обяснил, почему считает распад СССР крупнейшей катастрофой XX века», **https://ria.ru/20170613/1496353896.html**, istifadə tarixi: 03.03.2020.

Avrasiya meqaregionunun ürəyi Xəzər dənizi hövzəsidir. Makkinderə görə “Qafqaz və Xəzər bölgəsinə daha geniş geosiyasi müstəvidə baxmaq lazımdır[2].

Onun məşhur nəzəri düsturu bundan ibarətdir: “Şərqi Avropanı idarə edən “Hartlənd”(dünyanın ürəyi) üzərində hökmranlıq edir; “Hartlənd”i idarə edən “Dünya Adası” üzərində hökmranlıq edir; Dünya okeanını idarə edən dünyada hökmranlıq edir”[3]. H.Makkinderin konsepsiyası geosiyasi baxışların sonrakı inkişafına çox güclü təsir göstərmişdir. Bu nəzəriyyənin bəzi aspektləri mübahisəli və köhnəlmiş hesab olunsa da, ingilis geosiyasətinin əsas ideyaları yaşadığımız XXI əsrdə də öz aktuallığını itirməmişdir. Müasir dövrdə bu nəzəriyyənin tərəfdarlarından biri də Zbiqnev Bjezinskdi. O “Nəzarətdən kənar” adlı kitabında yazır: “Sovet İttifaqının dağılması Avrasiya “Hartlend”ini geosiyasi boşluğa çevirdi… Avrasiyada yaranan bu boşluq, xüsusən də dağılmış SSRİ məkanını konsolidasiya etməklə təkcə Amerikanın potensial təsiri üçün imkanlar yaratmadı, həm də Avrasiyanın cənub-qərb hissəsində həlledici geosiyasi nəticələrə səbəb oldu və gələcəkdə heç bir dövlət və ya dövlətlər koalisiyası ABŞ-ı Avrasiyadan sıxışdırıb çıxara biləcək geosiyasi qüvvə halına gəlməməlidir”[4]. Amerikanın aparıcı politoloqunun nəzəri baxışlarına görə yeni dünya düzənində güc tarazlığının təmin edilməsi Rusiya ərazisinin bölünməsi hesabına olmalıdır. Ərazi itkisi Rusiya üçün əsas problem deyil. Rusiyanın üç hissəyə parçalanması Avrasiyada Amerika maraqları baxımından güc tarazlığına nail olmaq üçün əsas olacaqdır... Bu konfederativ birliklərin hər biri yerlərdə yaradıcılıq potensialını uğurla inkişaf etdirə biləcək, hansı ki, Moskva əsrlər boyu buna daima bürokratik maneələr yaradırdı. Parçalanmış ərazilərin inkişafı isə ABŞ-ın liderliyi altında onun tərəfdaşlarıyla birlikdə həyata keçirilməlidir. Onun nəzəri baxışına görə Almaniya və Fransa Ukraynada, Türkiyə və qismən də İran Azərbaycan və Özbəkistanda, Yaponiya və Çin isə Sibir və Uzaq Şərqdə ABŞ-ın siyasi maraqlarının təminatında iştirak etməlidirlər[5].

---

[2] Фабрицио Виелмини, «Роль теории Маккиндера в нынеш стратегическом развертывание США в Евразии: проблемы и перспективы», **Центральная Азия и Кавказ**, №4 (40), издательство CA and Cpress AB (Lulea, Sweden), 2005, с.72.

[3] Mackinder Halford John, (1861-1947). **Democratic ideals and reality**: a study in the politics of reconstruction / by Sir Halford J. Mackinder; [edited by and] with a new introduction by Stephen V. Mladineo, NDU Press defense classic ed. p. m Includes index. 1. Reconstruction (1914-1939) 2. Geopolitics. 3. World politics – 1919-1932. 1. Mladineo, Stephen V. II. Title. D655. M.18 1996 940.5'1- dc20/ National Defense University Press, Washington, DC. 1996, s.106.

[4] Цит. по Николай фон Крейтор, «Бжезинский и американская геополитика экспансионизма», **Известия (**газета), Москва 26 ноября 2001.

[5] Сергей Глазьев, Альтернативы. Новая книга З. Бжезинского Альтернативы. «Геостратегия для Евразии», выдержки из которой недавно в «Независимой газете» (от 24.10.97), вносит ясность во многие направления современной американской геополитики. Цена баланса. «Россофобия. Чтобы выжить, нам надо перестать надеяться на других», **Независимая газета**, (электронная версия (EVNQ)). Номер 217 (1542), вторник. Полоса 5, Москва 18 ноября 1997.

Buna görə də təəccüblü deyil ki, Qafqaz-Xəzər regionu geosiyasi maraqların həm gizli, həm də açıq şəkildə toqquşduğu ən yeni dövrdə də bir tərəfdə ABŞ başda olmaqla Qərbin böyük dövlətlərinin, digər tərəfdə Rusiyanın apardığı qızğın rəqabət mübarizəsi məkanına çevrilmişdir. Bu regionda cərəyan edən hadisələri dərk etmək üçün tarixi proseslərin səbəblərini və müasir geosiyasətin əsas qanunauyğunluqlarını təhlil etmək tələb olunur. Vaxtilə Rusiya geosiyasətçisi, general A.Y.Snesarev əsərlərində tarixin dərinliklərinə tez-tez baş çəkməyi məsləhət görürdü[6]. Doğrudan da ötən əsrlərin tarixi-siyasi hadisələrini müasir geosiyasi proseslərlə əlaqələndirməyə cəhd edərkən hərdən həm keçmişin, həm də bu günün mürəkkəb və ziddiyyətli hadisələrini birmənalı həqiqət kimi götürmək istəyi yaranır. Çünki, XXI əsr əvvəlki əsrlərlə görünməyən tellərlə, özü də göründüyündən də möhkəm tellərlə bağlıdır. XX əsrin əvvəllərindən başlayan dünyanın yenidən bölünməsi prosesi yeni müstəvidə və yeni siyasi çalarlarla davam etməkdədir. SSRİ-nin süqutundan sonra Xəzər dənizinin enerji ehtiyatları uğrunda başlayan geosiyasi rəqabət ötən əsrin 80-ci illərinin sonunda Cənubi Qafqazda alovlanmış etno-ərazi münaqişələrində də özünü göstərdi. Nəhayət, bu proseslər 90-cı illərin ortalarından etibarən, xüsusilə 20 sentyabr 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" imzalandıqdan sonra daha real konturlar aldı. Bununla yanaşı geoiqtisadi nöqteyi-nəzərdən həm Azərbaycan, həm də onunla həmsərhəd olan Rusiya, İran, Türkiyə, Türkmənistan, Qazaxıstan, Gürcüstan və Ermənistan qarşısında Xəzər dənizindən, əsasən Qərbin transmilli şirkətləri və Rusiya tərəfindən hasil olunan neft və qazın nəqli marşrutlarının seçimi məsələsi ön plana çıxdı[7]. Beləliklə, Cənubi Qafqaz və Xəzəryanı ölkələr dünyanın və regionun böyük dövlətlərinin "Xəzər şahmat taxtası"nda apardıqları geosiyasi oyuna qoşulmağa başladılar.

### Azərbaycan

Əvvəlki əsrlərdə olduğu kimi, bu gün də dünyanın və bölgənin böyük dövlətlərinin birbaşa geosiyasi maraqlarının mərkəzində Xəzər bölgəsində çox mühüm coğrafi mövqedə yerləşən Azərbaycan Respublikası durur. Vaxtilə, müasir Türkiyə dövlətinin yaradıcısı M.K.Atatürk Azərbaycanın geosiyasi durumunu bütün türk dünyası üçün önəmli olduğunu qiymətləndirərək, Azərbaycanın Ankaradakı diplomatik nümayəndəsi İbrahim Əbilova 1921-ci ildə yazmış olduğu məktubunda qeyd edirdi: "Coğrafi baxımdan göz önünə gətirilərsə, gerçəkdən Azərbaycanın Asiyadakı qardaş hökumət və millətlər üçün bir əlaqə və dayanacaq nöqtəsi olduğu görünür. Azərbaycanın bu özəl mövqeyi

[6] Олег Зотов, «Транскаспийский регион в начале XXI века: геополитика регионального сотрудничества» **www.transcaspian.ru /cgi-bin/web.exe/rus/** s.1, 3, istifadə tarixi: 30.08.2001.

[7] Parvana Mustafazade, «Зовнішньополітичні відносини Азербайджану та США в Каспійському регіоні», **Вісник Львівського університету. Серія «Міжнародні відносини»** (lnu.edu.ua), (Polşa), ISSN 2078-4333), vipusk. 46. /19.552 (17.026), Львів, 2019, с.182-183.

onun mühüm bir mövqedə olduğunu sübut edir”[8]. Geostrategiya sahəsində tanınmış mütəxəssis Z.Bjezinski qeyd edir ki, məhdud əraziyə və əhali sayının az olmasına baxmayaraq, nəhəng enerji resurslarına malik olan Azərbaycan geosiyasi planda da aparıcı əhəmiyyət kəsb edir. Sanki bu ölkə, Xəzər dənizi hövzəsinin və Mərkəzi Asiyanın sərvətlərinin yerləşdiyi “şüşə qabda bir tıxac” rolunu oynayır. Onun nəzəri fikirlərinə görə, “Azərbaycan tam olaraq Moskvanın nəzarətində olarsa, onda Mərkəzi Asiya dövlətlərinin müstəqilliyini mənasız bir anlayış kimi nəzərdən keçirmək olar”[9]. Qeyd etmək lazımdır ki, istər ABŞ, istərsə də Avropa daima Azərbaycanla strateji əməkdaşlıq dairəsini genişləndirməkdə maraqlı olublar. Xüsusilə ABŞ bu regionda Azərbaycanın mövqeyinə üstün məsələ kimi baxır[10].

Hazırda balanslaşdırılmış xətt götürən, Avropa İttifaqı, ATƏT, Avropa Şurası və NATO ilə siyasi, iqtisadi və humanitar əlaqələrini intensiv şəkildə inkişaf etdirən Azərbaycan özünün geosiyasi gələcəyini yenidən müəyyənləşdirməkdədir. Xüsusilə, 44 gün davam edən və Azərbaycanın qələbəsi ilə başa çatan II Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyət onu tələb edir. Beləliklə, 15 iyun 2021-ci ildə Azərbaycan və Türkiyə tarixi addım ataraq, bölgənin geosiyasi mənzərəsini dəyişəcək Bəyannaməyə imza atdı[11]. Bəyannaməni həm də Azərbaycanın və Türkiyənin düşmənlərinə də tutarlı mesaj hesab etmək olar. Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Geosiyasi nöqteyi-nəzərdən Zəngəzur dəhlizinin açılışı sözsüz ki, yüz ildən çoxdur, bölgədə ermənilərin apardığı anti-Turan təbliğatına mühüm zərbədir. Bildiyimiz kimi, ermənilər xristian ölkələrindəki lobbi qrupları vasitəsilə uzun müddət idi ki, Qafqazda xristian-vassal dövlətin qurulmasının vacibliyini vurğulayır, Turan bəhanəsini gətirərək öz geosiyasi çəkilərini artırmağa cəhd edirdilər. Lakin 2020-ci ilin payızında Qarabağda müharibənin Azərbaycanın qalibiyyəti ilə nəticələnməsi və üçtərəfli imzalanmış müqavilədə Zəngəzur vasitəsilə yeni nəqliyyat dəhlizinin açılmasının nəzərdə tutulması Ermənistan Respublikasının bu vaxta qədər davam edən geosiyasi çəkisinə mühüm zərbə olacaq və bir sıra dövlətlərin baxış bucaqlarında ermənilərin indiyə qədər olan “əhəmiyyəti” xeyli azalacaq. Ümumiyyətlə, Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanı nəzərdə tutur. Ən əsası, bu Bəyannamə region üçün yeni tarixi gerçəklik deməkdir. Azərbaycan eyni zamanda, MDB ölkələri ilə, o cümlədən özünün şimal qonşusu olan Rusiya ilə də qarşılıqlı faydalı əlaqələr qurmağa

---

[8] **Atatürk”ün söylev ve demeçleri'nin konular indeksi**, hazırlayan Mehmet Evsile, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştrma Merkezi, Ankara 1999, s.11.

[9] Збигнев Бжезинский, **Великая шахматная доска. Господство Америки и его геостратегические императивы,** Международные отношения, Москва 1999, с.62.

[10] Xarici İşlər Nazirliyinin Tarix Arxiv İşləri. 2004-cü il üçün cari arxivi. **İqtisadi məsələlərə dair**. ABŞ qovluğu. 14.06.2004. f.28, s.11.

[11] “Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər”, **https://president.az/az/articles/view/52116,** istifadə tarixi: 10.12.2020.

çalışır. 22 fevral 2022-ci ildə Prezident İlham Əliyevin Rusiyaya səfəri çərçivəsində iki ölkə arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalandı[12]. 43 bənddən ibarət Moskva Bəyannaməsi ilə Azərbaycan-Rusiya münasibətləri yeni mərhələyə qədəm qoyur. Sənəd Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verir. Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi kimi, Moskva Bəyannaməsi ilə də hər iki ölkə bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı fayda, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlik götürür. Beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq və digər bu tipli təhdidlərin qarşısının alınması üçün səylərin birləşdirilməsi qeyd olunur. Türkiyədən sonra Rusiya ilə də müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi təhlükəsizliyin və sülhün daha etibarlı təmin olunması imkanlarını genişləndirir. Beləliklə, Cənubi Qafqazda yeni bir regional nizam, konfiqurasiya formalaşır. Bu yeni regional nizamın formalaşmasında əsas oyunçular Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, hər iki ölkə ilə müttəfiqlik bəyannamələrinin imzalanması bu yeni konfiqurasiyanı rəsmən təsbit edir. Geosiyasi münasibətlər sistemində mühüm həlqələrdən biri olan Azərbaycan müasir şəraitdə Xəzər dənizində geostrateji rəqabətin mərkəzində durur və Cənubi Qafqazda lider olaraq qalmaqdadır. Azərbaycan Respublikasının müasir qloballaşma proseslərinə qoşulması problemlərinə toxunarkən qeyd etmək lazımdır ki, yüksək texnologiyalar və kommunikasiya sistemləri dövründə bu ölkə qloballaşmanın iqtisadi inkişaf və ölkənin çiçəklənməsi üçün verəcəyi pozitiv hər şeyi etməyə çalışır.

**Ermənistan**

Rusiyanın Cənubi Qafqazda mühüm strateji tərəfdaşı və ənənəvi “forpostu” olan Ermənistan haqqında da bir neçə kəlmə demək istərdim. Əvvəla Ermənistan ərazisində Rusiyanın Cənubi Qafqazda ən iri 102-ci hərbi bazası, hava hücumundan müdafiə hissələri, sərhəd, raket və digər mobil reaksiya vasitələri yerləşir. Rusiya Ermənistanın quru yol sərhədlərinin və hava məkanının müdafiəsini öz üzərinə götürmüş, bu ölkəni bütün lazımi silahlarla təchiz edir. Digər tərəfdən, neft və qaz ehtiyatlarından məhrum olam Ermənistan özünün enerji daşıyıcılarına olan tələbatını əsasən İranın hesabına ödəyir. Ümumilikdə Rusiya-Ermənistan münasibətləri müttəfiq, hərbi-strateji xarakter daşıyır. Rusiya analitiklərinin fikirlərinə görə, Ermənistan sadəcə “Rusiyanın əbədi müttəfiqi olmağa məhkumdur” və “Ermənistanın geosiyasi kodunda ənənəvi olaraq Rusiya vektoru üstünlük təşkil edir”[13]. Eyni zamanda, bu ölkə Rusiya ilə əməkdaşlıqla yanaşı Qərbə inteqrasiyaya istiqamətlənmiş balanslaşdırılmış xarici siyasət yürütməyə də

[12] «Декларация о союзническом взаимодействие между Российской Федерацией и Азербайджанской Республикой», http://www.kremlin.ru/supplement/5777, istifadə tarixi: 22.02.2022.

[13] Pərvin Darabadi, “Cənubi Qafqaz düyünü: çoxgedişli “geosiyasi oyun”, **http://newtimes.az/az/processes-trends/3573/**, istifadə tarixi: 06.05.2015.

cəhdlər edir. Belə ki, Ermənistan maraqlı dövlətlərin iştirakıyla Türkiyə ilə özünün qarşılıqlı münasibətlərini yoluna qoymağa və bu istiqamətdə Qərbə yol açmağa çalışdı. Hətta 11 oktyabr 2009-cu ildə Sürixdə Ermənistanla Türkiyə arasında diplomatik əlaqələrin qurulmasına və sərhədlərin açılmasına yönəlmiş "Diplomatik münasibətlərin təsisi" və "İkitərəfli əlaqələrin inkişafı" protokolları da imzalandı. Bu sənədlərdə Türkiyənin də Cənubi Qafqazda öz siyasətini daha da aktivləşdirmək cəhdləri öz əksini tapdı[14]. Lakin sonradan bu proses donduruldu. Bununla belə, Moskva-İrəvan-Tehran geostrateji zəncirində Ermənistan müəyyən mənada Türkiyəni Mərkəzi Avrasiya məkanlarından təcrid etməyə çalışan strateji bir həlqə olaraq qalır[15].

**Gürcüstan**

Cənubi Qafqazda Qara dənizə çıxışı olan yeganə ölkə Gürcüstandır ki, bu ölkə də regionda mühüm strateji mövqelərə sahibdir. Gürcüstanın ərazisindən transqafqaz nəqliyyat xətləri – dəmir yolu və avtomobil yolları keçir. Son illər bunların sırasına yeni magistral neft-qaz boru kəmərləri də əlavə olunmuşdur. Bununla yanaşı Gürcüstan ərazisi Xəzəryanı ölkələr üçün Qara və Aralıq dənizlərinə ən qısa çıxış yoludur. Bu ölkə xüsusən də 2003-cü ilin "qızılgül inqilabı"ndan sonra açıq şəkildə Qərb yönümlü siyasət yürüdür. Rusiya isə dərk edir ki, özünün gələcəyini Qərblə, xüsusən də NATO ilə görən Gürcüstan Türkiyə və Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya Qərbin və ilk növbədə NATO təsirinin yayıldığı zəncirdə mühüm bir həlqədir. Gürcüstanın NATO-ya birləşməsi perspektivi kifayət qədər real olan bir şəraitdə – 2008-ci ilin avqustunda Rusiya Gürcüstan rəhbərliyinin hərbi-siyasi addımlarından istifadə edərək birbaşa hərbi-güc metodlarını tətbiq etdi ki, bu da son nəticədə Abxaziyanın və Cənubi Osetiyanın Gürcüstandan qoparılmasına və faktiki olaraq Rusiyaya ilhaq edilməsinə səbəb oldu. Əvəzində isə elə həmin ilin payızında Gürcüstan MDB-dən çıxdığını elan etdi. Əvvəla bu hadisə Rusiyaya Qara dənizdə öz təsir sferasını genişləndirmək və Cənubi Qafqazdakı neft-qaz kəmərləri və digər kommunikasiya infrastrukturları üzərində nəzarəti ələ keçirməyə cəhd göstərmək imkanı verdi. İkincisi, Rusiya NATO-nun Şərqə doğru, "Qafqaz-Xəzər istiqamətində" genişlənməsində hədləri göstərən qadağa zonasını çəkdi. Üçüncüsü, bu hadisələr Qərbin Cənubi Qafqazda mövqelərinin zəif olduğunu göstərdi və həm Avropa ölkələri, həm də "Qoca Avropa" ilə Birləşmiş Ştatlar arasında fikir ayrılıqlarını üzə çıxardı. Onlar, əsasən, "narahatlıq ifadə edən qətnamələrlə" və səmərəsiz diplomatik demarşlarla kifayətləndilər. Nəhayət, dördüncüsü, NATO-ya daxil olan və daxil olmaq istəyən digər postsovet ölkələri birmənalı şəkildə sərt siqnal – "xəbərdarlıq" aldılar ki, onların Şimali Atlantika Alyansına daxil olmaq niyyətləri müharibə və ərazilərinin

[14] Первин Дарабади, **Кавказ и Каспий в мировой истории и геополитике XXI века** (ISBN 978-5-7777-0501-3), Издательство «Весь мир», Москва 2010, с.167.

[15] Александр Дугин, Указ. соч., с.243; Анджей Панковский, «Большая игра» на Кавказе» http.press.net.by \1998\98_02_12.441/40 armen.htm.

parçalanması ilə nəticələnə bilər[16]. Ona görə də Gürcüstan iqtisadi yöndə Qərblə sıx əlaqələr qursa da xarici siyasətdə bir qədər fərqlilik nümayiş etdirir. Bu fərqlilik Zəngəzur dəhlizinə münasibətdə də özünü göstərməkdədir. Hesab edirik ki, Gürcüstanda bir sıra dairələrin Zəngəzur dəhlizinə ehtiyatla yanaşmasının ciddi geosiyasi, geoiqtisadi və kommunikativ əsası yoxdur. Belə ki, açılması nəzərdə tutulan Zəngəzur dəhlizi Gürcüstan marşrutuna alternativ deyil, hətta onların bir-birini tamamlamasıdır. Çünki söhbət yalnız Azərbaycandan Gürcüstana yüklərin daşınmasından getmir. Gürcüstan həm özünün, həm Qara dəniz hövzəsi ölkələrinin, həm də Avropadan yüklərin Zəngəzur dəhlizi vasitəsilə İrana, Körfəz ölkələrinə və başqa regionlara münasib qiymətə çatdıra və bundan xeyli gəlir əldə edə bilər. Bu o deməkdir ki, Zəngəzur dəhlizi ancaq bir istiqamətdə və seçilmiş hansısa ölkələrin mənafeyinə xidmət edəcək nəqliyyat yolu olmayacaq. Ondan bütün region ölkələri müxtəlif istiqamətlərdə yaradılacaq əlaqələr əsasında faydalanacaqlar.

**Türkiyə**

Digər tərəfdən, Gürcüstandakı avqust böhranı Türkiyənin Cənubi Qafqazda fəallaşması üçün yeni imkanlar açdı. Yaranmış vəziyyəti dəyərləndirərək Türkiyə regionda öz nüfuzunu və regional güc mərkəzi kimi statusunu möhkəmləndirmək üçün Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistanın da daxil olduğu regional təhlükəsizlik sisteminin (Qafqazda sülh və stabillik platforması) yaradılması təşəbbüsü ilə çıxış etdi və Ermənistanla hələ 1993-cü ildə kəsilmiş münasibətlərini nizama salmağa başladı. Maraqlısı odur ki, Qafqazdakı vəziyyəti nəzərə alan Rusiya Türkiyənin "Qafqazda sülh və stabillik platforması"nın yaradılması ilə bağlı təşəbbüsünə pozitiv yanaşır və İranın da tərəf kimi iştirakını mütləq sayır. ABŞ və Avropa İttifaqı isə bu prosesə regionda təsir imkanlarının xeyli məhdudlaşdırılması kimi baxırlar. Bununla yanaşı Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında əsas rollardan birini oynamaqda da israrlıdır. Digər tərəfdən Ankara, Tbilisi və Bakının maraqlarının üst-üstə düşməsi enerji və nəqliyyat sahəsində irimiqyaslı layihələri həyata keçirmək imkanı yaradır. Türkiyənin strateji kursunun əsas məqsədlərindən biri də məhz Cənubi Qafqazda geosiyasi təsirini gücləndirməyə imkan verən enerji axınlarının mərkəzinə çevrilməkdir.

Lakin, Türkiyə xüsusən son on ildə Avrasiyada "Şimali Atlantika Alyansının maraqlarının müdafiəçisi" olmaq və "ABŞ-ın strateji müttəfiqi kimi" çıxış etmək rolundan imtina etmədən, həm də öz fərdi roluna, məxsusi nüfuzuna, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mənafelərinə diqqət yetirməyə başlamışdır. Ankara ABŞ və Avropa İttifaqının bəzi təzyiqlərini hesaba almadan, XXI əsrin başlanğıcından regionda bir qədər fərqli geostrateji xətt yürütməyə başlayır. Xüsusilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin Asiyaya yeni dönüş etməyə başladığı haqqında bəyanatı siyasi

[16] Pərvin Darabadi, "Cənubi Qafqaz düyünü: çoxgedişli "geosiyasi oyun", **http://newtimes.az/az/processes-trends/3573/**, istifadə tarixi: 06.05.2015.

dairələrdə qızğın müzakirələrə yol açıb. Yanaşmalar fərqli olsa da, bütövlükdə, mütəxəssislər Ankaranın məqsədinin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışırlar. Əlbəttə, Türkiyə böyük dövlətdir və onun xarici siyasəti geniş geosiyasi məkanı əhatə edə bilər. Bununla yanaşı hesab edirik ki, müasir qlobal geosiyasi vəziyyət də nəzərə alınıb. Bu aspektdə isə müxtəlif risklər, qeyri-müəyyənliklər və güclü rəqabət özünü göstərir. Bütün bu faktorları əsas götürsək, Türkiyənin Asiya siyasətində nə kimi nəticələr əldə edə biləcəyi maraq doğurur. Türkiyə artıq əvvəlki geosiyasi statusundan daha yüksək olan bir səviyyəyə iddialıdır. Onun üçün indi "kiminləsə bir yerdə olmaq" və ya "kimlərinsə yanında olmaq" kimi prinsiplər keçərli deyil. Görünən odur ki, Türkiyə yeni dünya nizamında öz sözü olan və böyük bir geosiyasi məkanda sayılan dövlət olmaq yolunu tutub[17]. Haşiyə çıxaraq qeyd etmək lazımdır ki, türk xalqları tarix boyu bölgədə daima dominant olmuşdur. Türkiyəni regionla bağlayan tarixi mədəni əlaqələr və xüsusilə dil yaxınlığı onun təsir imkanlarını daha da artırır[18]. XIX-XX əsrlərdə müstəmləkəçi proyektlərin hədəfi halına gələn türklər çox acılar çəkmiş, bölünmüş, parçalanmışdı. Türklərin birliyi fikri də o acılar içində cəbhələrdə formalaşmışdır.

2021-ci il noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü yeni dünya nizamının formalaşması fonunda diqqət çəkir. Son zamanlar Cənubi Qafqaz və Mərkəzi Asiya sərhədlərində cərəyan edən proseslər bəzi coğrafi bilgilərə siyasi məzmun qataraq onları yenidən nəzərdən keçirmək zərurəti yaradır. Türk Şurası ölkə başçılarının İstanbul sammiti Ankara-Bakı müştərək maraqlarının digər üzv ölkələrlə və müşahidəçi qismində olan dövlətlərlə (Macarıstan, Türkmənistan) sinxronlaşdırılması baxımından önəmli idi. Qurumun adını dəyişərək Türk Dövlətləri Təşkilatı adlandırılmasına gəlincə, bu, simvolik mənadan çox, qlobal rəqabətdə alternativ siyasi güc formalaşdırılmasına eyham vuran mesajdır. İstanbul sammitinin nəticəsi olaraq dövlət başçılarının verdiyi ortaq bəyanatın mətnində qeyd olunur ki, Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayev tərəfindən başlanan "Türk Vizyonu 2040" konsepsiyası strateji bir sənəddir. Bu sənəd türk dövlətlərinin ortaq maraqlarının güclənməsi üçün bütün sahələr üzrə əməkdaşlıq prioritetlərini özündə cəmləşdirir. Artıq XXI əsrin əvvəllərindən başlayaraq Qafqazda geostrateji müstəvidə Türkiyə-Azərbaycan, gələcəkdə isə Mərkəzi Asiyanın Türk dövlətləri də daxil olmaqla digər maraqlı dövlətlərini də əhatə edən üfüqi oxu formalaşmağa başlayır ki, bu da regionda özünün bir sıra mühüm mövqelərini itirmiş Rusiyanın maraqlarına heç də cavab vermir.

---

[17] "Ankaranın Asiyaya dönüşü: Türkiyənin yeni geosiyasi "yol xəritəsi", **http://newtimes.az/az/ processes-trends /6200/**, istifadə tarixi: 30.08.2019.

[18] Savaş Yanar, **Türk-rus İlişkilerinde Gizli Güç Kafkasya**. İQ kültür sanat yayıncılıq, İstanbul 2002, 256 s.

**Rusiya**

Rusiyaya gəlincə onun Cənubi Qafqaz, ümumilikdə Xəzər regionu istiqamətində xarici siyasət xətti çoxaspektlidir. İlk növbədə hələ əsası Dəli Pyotr (1689-1725) tərəfindən qoyulan "isti dənizlərə çıxış" Rusiya üçün xüsusi əhəmiyyət daşıyır[19]. Geosiyasi planda isə region Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunu oynayır. Bu isə Rusiyanın sözügedən regionun ölkələri ilə münasibətlərini müxtəlif səviyyələrdə qurmağa təhrik edir. Belə ki, Gürcüstanla münasibətlərdə sərtlik, Ermənistanla münasibətlərdə müttəfiqlik, Azərbaycanla münasibətlərdə isə stabillik önə çəkilir. Ümumiyyətlə Rusiyanın postsovet məkanının Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz kimi ayrı-ayrı regionlarında geostrategiyasına gəlincə, qeyd etmək lazımdır ki, onlarda coğrafi vəziyyətlərindən asılı olaraq həm təkrarlanan qanunauyğunluqlar, həm də spesifik xüsusiyyətlər müşahidə olunur[20]. Belə ki, ABŞ-ın təşəbbüsü ilə yaradılan Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova və 2005-ci ilə qədər Özbəkistanın da daxil olduğu GUAM – Demokratiya və İqtisadi İnkişaf naminə regional təşkilatın (1997-ci il oktyabrın 10-da yaradılmışdır) mövcudluğu ilk vaxtlar Rusiyanın hərbi-siyasi dairələrində ciddi narahatlıq doğururdu. Rusiya təhlilçilərinin fikirlərinə görə, antirusiya yönümlü bu geosiyasi quruma üzv olan dövlətlərin əraziləri bugünkü müstəvidə NATO üçün Avropadan Əfqanıstana qədər birbaşa dəhliz yaratdı. Lakin iştirakçı ölkələrin bir-birindən məkanca uzaq olması, habelə indiki mərhələdə onların strateji maraqlarının çox vektorluluğu bu beynəlxalq təşkilatın geosiyasi perspektivlərini də sual altına alır.

**Qazaxıstan**

İstənilən dəyişikliklərdə müsbət məqamları hər zaman qeyd etmək olar. Qazaxıstanın da bir gün Avropaya çevriləcəyi bir ssenarini təsəvvür etsək, o zaman üstünlüklər barədə danışmaq məqsədəuyğun ola bilər. Qazaxıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Gömrük İttifaqının üzvüdür. Ancaq fakt budur ki, rəsmi Astana Rusiyanın hegemon olduğu təşkilatlarda üzv olmaqla yanaşı son illər müstəqil daxili və xarici siyasət yürütməyə başlayıb və regional layihələrdə müstəqil şəkildə iştirak etməyə can atır. Xüsusilə İpək Yolu layihəsi çərçivəsində Çindən Avropaya Qazaxıstandan tranzit mühüm rol oynayacaq. Qazaxıstan üçün xüsusi əhəmiyyət kəsb edən yol – "Çin-Qazaxıstan – Rusiya – Qərbi Avropa", "Çin-Qazaxıstan – Qərbi Asiya", "Çin-Qazaxıstan – Cənubi Qafqaz – Türkiyə-Avropa" nəqliyyat dəhlizlərinin yaradılmasıdır[21]. Belə bir ərəfədə Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" Partiyasından olan üzvü Vyaçeslav Nikonovun Qazaxıstana qarşı ərazi iddiaları irəli sürməsi heç də təsadüf

[19] **AMEA TİEA**, Fond 1, Siyahı 3, iş 158. Hissə I. Xanvey. 32 / Далнейщие щаги, предпринятые м-ром Эльтоном… Оппозиция Восточно-Индийкой и Турецкой Компаний...

[20] Adil Mirabdullayev, **Rusiyanın postsovet məkanında geostrategiyası**. Elm, Bakı 2008, s.50.

[21] «Специальный репортаж: Инициатива «Пояс и Путь» открывает новые возможности для взаимовыгодно сотрудничества между Китаем странами Центральной Азии», **Sinxua novosti,** http:// russian.ews. cn /2020-09/21/c_139384423.htm, istifadə tarixi: 21.09.2020.

sayıla bilməz[22]. 2022-ci ilin başlaması ərəfəsində dünya siyasi meydanında baş verən proseslər isə gözlənildiyindən də "sürpriz" hərəkətliliyi ilə yadda qaldı. Hər kəsin Şərqi Avropaya – Ukrayna ilə Rusiya sərhədindəki gərginliyə başı qarışdığı vaxtda Mərkəzi Asiyanın dominant dövlətlərindən birinə çevrilməkdə olan Qazaxıstan bir anın içində qarışdı. Hadisələrin gedişi göstərir ki, Qazaxıstan dövlətçiliyini zəiflətməyi qarşılarına məqsəd qoyan xaricdəki və daxildəki qruplar tərəfindən əvvəlcədən hazırlanmış təxribatlar plan üzrə işə düşdü. Görünən odur ki, Qazaxıstan hakimiyyətinin bəzi qərarları bir çox qlobal aktorların ssenarisinə zidd idi. Son illər ərzində Qazaxıstanda dövlətçiliyin inkişafı üçün atılan ciddi addımlar görünür ki, daxili və xarici müxtəlif qüvvələrin ürəyincə deyildi. Xüsusilə nəzərə alsaq ki, son illərdə Qazaxıstanın Türkiyə ilə müdafiə və digər sahələr üzrə əldə etdiyi əməkdaşlığı, Türk Dövlətləri Təşkilatındakı aktivliyi nəzərə çarpan dərəcədə sezilirdi. Bu isə regionda marağı olan dövlətləri narahat edə bilərdi. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Qazaxıstandakı çevrilişlə bağlı açıqlaması isə məsələnin əslində qiymət artımı ilə bağlı olmadığını təsdiqlədi: "Qazaxıstanın latın əlifbasına keçməsi və türk millətçiliyinə dəstək verməsi nəticəsində bu hallar ortaya çıxdı. Bu dar düşüncəli millətçiliyi təşviq etmək və Rusiya ilə əməkdaşlığı gözdən salmaq məqsədi daşıyan xarici dəstəyin nəticəsidir"[23]. Əslində Rusiya XİN rəhbəri bu bəyanatı ilə açıq şəkildə etirazların əsl səbəbini elan etmiş oldu. Görünən odur ki, Kreml Qazaxıstanın regional layihələrdə, xüsusilə "Cənubi Qafqaz – Türkiyə-Avropa" dəhlizində iştirakını öz geosiyasi maraqları çərçivəsində saxlamağa çalışır. Ancaq, Qazaxıstanın həm də Avrasiyada Türk-rus uzlaşması, gerçək əməkdaşlıq modeli üçün də önəmli bir ölkə olduğu unudulmamalıdır. O da nəzərdən qaçmamalıdır ki, həm Mərkəzi Asiya, həm Cənubi Qafqaz, eləcə də bütün yaxın coğrafiya böyük və irticaçı dövlətlərin gözünə yağlı tikə kimi görünür və onlar yarana biləcək ən cüzi fürsətdən belə yararlanmağa çalışacaq. Məhz Qazaxıstanda olduğu kimi...

## İran

İranın regional siyasətində Orta Asiya, Cənubi Qafqaz və Xəzər hövzəsinin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji hədəfləri xüsusi yer tutur. Orta Asiya və Xəzər hövzəsində İran sadəcə olaraq öz sərfəli geoiqtisadi mövqelərindən çıxış edərək, Rusiya ilə yanaşı bölgənin ikinci əsas lider dövləti statusuna sahib olmaq istəyir. Beləliklə, İran rəhbərliyi öz fəaliyyətində şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək və bölgədəki siyasi və iqtisadi mövcudluğunu gücləndirmək üçün Xəzər bölgəsində aktiv siyasət yürütməyə daim diqqət yetirir. Bu gün Rusiya və İranın Xəzər bölgəsindəki maraqları

---

[22] «Кул-Мухаммед ответил на провокационные высказивания российского депутата», **https:// tengrinews. kz/sng/kul-muhammed-otvetil-provokatsionnyie vyiskazyivaniya-422946/** istifadə tarixi: 12.12.2020.

[23] "Qazaxıstandakı hadisələrin sifarişçisi – detallar", **https://news.milli.az/world/1009520.html**, istifadə tarixi: 06.01.2022.

böyük ölçüdə üst-üstə düşür[24]. Bu ölkənin regional siyasəti ilə bağlı əsas geosiyasi və geoiqtisadi vəzifələrini aşağıdakı kimi qruplaşdıra bilərik:

Əvvəla, Qərb ölkələrini və onlara məxsus transmilli şirkətləri nəyin bahasına olursa-olsun Xəzər regionuna buraxmamaq və onların bölgədəki əsas tərəfdaşı hesab olunan Türkiyəni öz mövqelərindən sıxışdırmaq. İkinci, Rusiya ilə regional geosiyasi məsələlərdə müttəfiqlik etmək, lakin onunla rəqabət aparılan sahələrdə öz mövqelərini əldən verməmək və müxtəlif vasitələrlə regionda öz mövqelərini gücləndirmək. Üçüncü, bölgəni dini təsir altına almaq məqsədilə müxtəlif dini-ideoloji düşərgələr təşkil etmək. Dördüncü, Azərbaycan və Türkiyə kimi rəqib ölkələrin iqtisadi, siyasi, sosial və mədəni inkişafını əngəlləmək, bununla da onların İrandakı əsas əhali Azərbaycan türkləri üçün cəlbediciliyini azaltmaq. Nəhayət beşinci, bölgədə Qərb ölkələrinə məxsus dəyərlərin, iqtisadi, siyasi, ideoloji təsisatların fəaliyyətinin güclənməsinə və Xəzər hövzəsində demokratik rejimlərin bərqərar olmasına və İran cəmiyyəti üçün "yad proseslərin" vüsət almasına mane olmaq.

### Türkmənistan

Orta Asiya ilə İran arasında yerləşən Türkmənistanın da çox əhəmiyyətli bir strateji mövqeyi var. Başqa sözlə, Türkmənistan İranın Orta Asiyaya açılan qapısıdır və Xəzər dənizinin Özbəkistan, Tacikistan və Əfqanıstana qapılarını açır. Regional və qlobal geosiyasi rəqabəti nəzərə alsaq, Türkmənistan Moskva, Pekin, Tehran və Ankaranın təsirlərinin kəsişməsində dayanır. Sözügedən güc mərkəzlərindən heç biri Aşqabadın digər ölkələrin təsiri altında olmasını istəmir. Buna görə bu baxımdan bütün regional və hətta qlobal qüvvələr Türkmənistanın "daimi bitərəfliyi" statusundan razıdırlar. Lakin bu ölkənin özünün də maraqları var. Belə ki, Türkmənistan qazının Azərbaycan üzərindən Avropaya nəqli üçün Transxəzər Qaz Kəməri layihəsi mövcuddur, bu da hələlik gerçəkləşməyib. Bununla yanaşı Çinə qaz nəqli üçün yeni qolun inşası gündəmdədir.

### Çin Xalq Respublikası

Qeyd edildiyi kimi Çin Xalq Respublikası 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir. 14-15 may 2017-ci ildə Pekində Çinin müəllifliyi ilə baş tutan "Bir kəmər – bir yol" beynəlxalq forumu dünya mediasının diqqət mərkəzində olmaqda davam edir. 29 ölkə liderinin iştirak etdiyi forumda qonaqlar sırasında Rusiya və Türkiyə

[24] Елена Дунаева, «Каспийский регион и Иран», **Исламская Революция в Иране: Прошлое, Настоящее, Будущее,** Сборник статьей, Институт Востоковедения РАН, Москва 1999, с, 136. ISBN5-89282-110-2.

prezidentləri – Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan, Pakistanın baş naziri Nəvaz Şərif, BMT-nin baş katibi Antonio Qutteriş, BVF-nin rəhbəri Kristin Laqard, Dünya Bankının prezidenti Cim En Kim olub. Bundan əlavə, tədbirdə 100-dən çox ölkədən dövlət və özəl sektor nümayəndələri, sərmayədarlar, 60-dan çox beynəlxalq təşkilatın nümayəndəsi iştirak edib[25].

Yolun bir qolu Qafqaz-Xəzər regionundan keçdiyi üçün bu layihənin reallaşması bölgədəki dövlətlərin də iqtisadi cəhətdən güclənməsi, geosiyasi və geoiqtisadi nüfuzunun artmasına və öz milli maraqlarının təmininə şərait yaradacaq. Qeyd edək ki, İpək yolunun bir hissəsi olan Orta Dəhliz layihəsi Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Pakistanı əhatə etməklə Çində başa çatacaq ticarət yoludur. Çinin qəbul etdiyi bu layihə İspaniyaya qədər uzanır və bütövlükdə infrastrukturun dəyişilməsini nəzərdə tutur. Çin təkcə özü bu layihəyə infrastrukturun yenilənməsi üçün 113 milyard dollar investisiya qoymağı planlaşdırır.

Lakin Hindistanın forumu rəsmən boykot etməsi ən qalmaqallı hadisə olub. Hindistan bu addımını Çin-Pakistan iqtisadi dəhlizi ilə əlaqələndirib. Rəsmi Dehli hesab edir ki, Çinin kreditləri bir sıra ölkələrin Çindən asılılığını gücləndirəcək. Bu ölkənin xarici işlər nazirinin sabiq müavini Kanval Sibal da hesab edir ki, Çin-Pakistan layihəsi Hindistanın suverenliyinə ciddi zərbədir. Onun sözlərinə görə, bu layihə nəhəng Avrasiya bölgəsində Çinin liderliyinə gətirib çıxaracaq[26]. Honkonqlu ekspert Brayana Yena isə Hindistanın bu forumda iştirakdan imtinasının Asiyanın iki nəhəngi – Çinlə Hindistan arasında gərginliyin başlamasından xəbər verdiyini yazıb. Maraqlıdır ki, Çinin bu layihəsi Rusiyadan dəstək alıb. Lakin ekspertlər bildirir ki, Çin-Mərkəzi Asiya-Avropa layihəsi Rusiyanın Transsibir kəmərinin rolunu azalda bilər. Digər tərəfdən hesab edilir ki, bu layihə ilə Çinin postsovet ölkələrində rolu artmış olacaq, Rusiyanın isə əksinə, rolu minimuma düşəcək. Moskva isə hələ ki bu qorxunu bölüşmür. Pekində keçirilən müasir İpək Yolu layihəsinin sammitində çıxış edən Rusiya prezidenti Vladimir Putin Çinin infrastruktur layihəsinin Avrasiya İqtisadi Birliyi ilə mükəmməl şəkildə uyğun olduğunu bildirib. O həm də bildirib ki, Rusiya Avrasiya tərəfdaşlığını dövlətlər arasında əməkdaşlıq kimi nəzərdən keçirir. Çin Rusiyanın ən iri ticarət tərəfdaşıdır. İlin sonuna kimi ticarət dövriyyəsi 80 mlrd. dolları ötəcək. Rusiya prezidenti ümid edir ki, bu layihə Avrasiya İqtisadi İttifaqını gücləndirəcək: “Avrasiya İqtisadi İttifaqı ilə əməkdaşlığa Avropa, Asiya və Latın Amerikasının təxminən 50 ölkəsi maraq göstərir”. Onun sözlərinə görə, Avrasiya İqtisadi İttifaqı və Çin arasında ticari-iqtisadi əməkdaşlıq haqqında saziş məsələsi üzrə, İsrail dövləti ilə azad ticarət haqqında danışıqlar aparılır. Misir, İran,

---

[25] Yitzhak Shichor, “China’s Belt and Road Initiative Revisited. Challengesand Ways Forward”, **https://www.worldscientific.com/doi/pdf 10.1142/S237774001850001X,** istifadə tarixi: 12.12.2020. **p.27-45.**

[26] Kumar Surendra S.Y. (Bangalore University), “China’s Belt and Road Initiative (BRI): India’s Concerns, Responses and Strategies”, **International Journal of China Studies**. 27 Vol. 10, No1, June 2019, 140 p.

Hindistan, Serbiya və Sinqapur ilə isə məsləhətləşmələrə başlamaq üçün razılıq əldə olunub[27]. Burada Rusiyanın məqsədi aydındır. Belə ki, Rusiya ucuz xammal mənbəyi ilə yanaşı avro-atlantika və Sakit okean regionları arasında nəqliyyat kommunikasiya körpüsü olarsa onun hərbi-siyasi və iqtisadi sahələrdə milli mənafeyinin təmin edilməsi ilə yanaşı regional təhlükəsizlikdə rolu da əhəmiyyətli dərəcədə artmış olur.

Yeri gəlmişkən, Hindistanla yanaşı, Yaponiya da forumda iştirakdan imtina edib. Rəsmi Tokio ehtiyat edir ki, inkişaf şüarının altında geosiyasi oyunlar oynanılır. ABŞ və digər qərb ölkələrinin də nümayəndələri tədbirə qatılmaq istəməyiblər. Onlar hesab edirlər ki, Amerika və Avropanın başı daxili problemlərə qarışdığı vaxt Çin qlobal liderliyə can atır. 1979-cu ildə Çin və ABŞ-ın rəsmi diplomatik əlaqələr qurmasına yol açmasında mühüm rol oynayan ABŞ-ın keçmiş dövlət katibi Henry Kissincerin Almaniyanın "Die Welt" qəzetində nəşr olunan bir müsahibəsi də maraq doğurur. O müsahibəsində belə deyir: "ABŞ və Avropa arasında daha güclü transatlantik əlaqələr olmalıdır. Lakin hər iki tərəfin arasında hələ də ciddi fikir ayrılıqları var və onlar qorxurlar ki, tərəflərin "muxtariyyəti" Avropanı Avrasiyanın bir hissəsinə çevirəcəkdir... Hər bir yerli məsələdə və hər bir iqtisadi siyasətdə razılaşmamağa ehtiyacımız yoxdur, ancaq Atlantik bölgəsinin istədiyimiz istiqamətdə tarixən və strateji olaraq inkişafı haqqında ümumi bir konsepsiyamız olmalıdır.., Avropa ABŞ-Çin arasında olan fikir ayrılığından istifadə edərək siyasətini təqib edərsə, qarşıdurmaları daha kəskin və böhranları daha çox artıracaqdır. Mən Çinə qarşı səlib yürüşünün tərəfdarı deyiləm. Fəqət mənfəət naminə davamlı manevr etməklə vəziyyəti gərginləşdirməmək üçün ortaq bir strateji anlaşmanın inkişaf etdirilməsinin tərəfdarıyam"[28].

Dünyada yeni düzənin formalaşması istiqamətində iqtisadi layihələrin effektiv şəkildə icrası və bunun nəticəsində birgə güclü siyasi iradə nümayiş etdirilməsi aktuallıq qazanır. Dünyanın bir sıra nüfuzlu mətbuatı Çin faktorunu önə çəkərək yeni dünya nizamında Çinlə əməkdaşlığın dərinləşdirilməsini vacib sayır, Pekinin maraqlarının xarakterini izah etməyə çalışır. Əslində, bunun üçün olduqca ciddi səbəblər də var. Belə ki, Böyük Britaniya Çinlə əməkdaşlıqdan imtina etmək tələblərinə uymağa həvəsli olmadığını büruzə verməkdədir. İsrail isə Çinlə ortaq layihələrdən imtina etməyəcəyini qətiyyən gizlətmir. Son məlumatlara görə, bu ölkə Çinlə indiyə qədər əldə olunmuş bütün anlaşmalara sadiq qalmaq qərarı verib. Şübhəsiz ki, ABŞ bundan narazıdır, hətta qəzəblidir. Ağ Ev İsrail hökumətindən israrla tələb edir ki, Çini dəstəkləməkdən vaz keçsin, bu ölkə ilə bütün iqtisadi layihələr üzrə anlaşmaları ləğv etsin.

---

[27] "Çin "Bir kəmər – bir yol" layihəsini reallaşdırır", **http://www.kaspi.az/,** istifadə tarixi: 16.05.2017.

[28] "Kissinger warns China and US to guard against all-out artificial intelligence conflict", **https://www.scmp.com/news/china/diplomacy/article/3131771/china-and-us-must-guard-against-all-out-artificial**, istifadə tarixi: 30.04.2021.

**Avropa Birliyi**

Son dövrlər gedən proseslər göstərir ki, AB Çinin yeni İpək Yolu layihəsinə rəqib olmağı hədəfləyir. Belə ki, 1 dekabr 2021-ci ildə tarixində AB Komissiyasının sədri Ursula von der Leyen Brüsseldə keçirdiyi mətbuat konfransında AB-nin "Global Gateway" (Qlobal Dəhliz konsepsiyası) adlı yeni strategiyasını təqdim edib. Sözügedən planın yaxşı idarə olunacağını, şəffaf olacağını və davamlı olmayan borc səviyyələri ilə nəticələnməyəcəyini vurğulayan von der Leyen "Qlobal Gateway"-in Çinin təşəbbüsünə "əsl alternativ" olduğunu da vurğulayıb.

İctimaiyyətə təqdim edilən bu layihə çərçivəsində 2027-ci ilə qədər dövlət və özəl resurslardan istifadə etməklə dünya miqyasında avtomobil yolları, dəmir yolları, elektrik şəbəkələri yaradılması, Afrikada hidrogen istehsalı, dənizin altından keçməklə fiber optik kabellər vasitəsilə Qara dənizə yüksək sürətli internet bağlantısının təmin edilməsi, İordan çayı ilə İsrail arasında olan Qərb Sahili ərazisində yeni körpünün inşası kimi infrastruktur layihələr həyata keçiriləcək, səhiyyə sisteminə investisiyalar qoyulacaq. "Global Gateway" layihəsinin 300 milyard avroya başa gələcəyi planlaşdırılır.

Məlumdur ki, Çin "Bir kəmər – bir yol" layihəsi çərçivəsində kredit dəstəyi ilə yardım etməklə yanaşı, eyni zamanda həmin ölkələrə siyasi və iqtisadi üstünlüklər də verir. Rəsmi Çinin məlumatlarına əsasən, Pekin hökuməti 2020-ci ilə qədər layihə üçün təxminən 124 milyard avro təmin edib. Buna cavab olaraq "Global Gateway" layihəsində Avropa şirkətlərinə ixrac dəstəyinin veriləcəyi nəzərdə tutulub. Bu yolla Avropa şirkətləri regionlardakı rəqiblərinə və Çin şirkətləri kimi dövlət dəstəyindən faydalanan tərəf müqabillərinə qarşı rəqabət qabiliyyətini artıracaqdır. Lakin məsələ ondadır ki, layihəni həyata keçirmək və resursların maliyyələşdirilməsinə başlamaq üçün elan edilən "Global Gateway" adlı yeni strategiya Avropa Şurası və Avropa Parlamenti tərəfindən də rəsmi təsdiq olunmalıdır.

***Nəticə***

Nəticə olaraq deyə bilərik ki, geniş bir coğrafiyada rezonans effekti yaradacaq "Bir kəmər – bir yol" layihəsi yeni strateji reallıqların tərənnümü kimi qeyd olunur. Burada əsas oyunçu rolunda Çinin çıxış etməsi gerçək amil olsa da, Şanxaydan Avropanın son Atlantik sahillərinə qədər bir nəqliyyat oxunda düzlənən bütün region ölkələri bundan fayda götürəcək. Xüsusilə bu çoxsaylı ölkələr içərisində öz geosiyasi və geostrateji mövqeyi ilə seçilən, həmçinin tarixi İpək yolunun Şimal-Cənub nəqliyyat marşrutu ilə kəsişdiyi mühüm geostrateji məkanda qərarlaşan Azərbaycan Respublikasının özünəməxsus yeri var. Qeyd etmək lazımdır ki, müvafiq nəqliyyat-infrastrukturuna və logistik imkanlara malik olan Azərbaycan mühüm tranzit üstünlükləri ilə fərqlənir.

2021-ci il aprelin 26-da BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" möv-

zusuna həsr edilən 77-ci sessiyasında çıxışı zamanı (videoformat) Prezident İlham Əliyev Azərbaycan tərəfinin mövqeyini bir daha təsdiqləmişdir. “Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan bir çox regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq “Zəngəzur nəqliyyat dəhlizi” üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm”[29].

Aydın məsələdir ki, Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən digər marşrutlar sisteminin də fəaliyyət qabiliyyətini artıracaq. Bu da öz növbəsində Azərbaycan və İran Culfası arasında dəmiryol xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Zəngəzur dəhlizi təkcə dəmir yolları ilə məhdudlaşmır, o həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin açılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq. Məlumdur ki, hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Belə bir marşrutun yaradılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kommunikasiya xətti türk dünyası coğrafiyasında, eləcə də Asiya və Avropa arasında əlaqələrin daha sürətli və əlverişli olmasına şərait yaradacaq.

Hazırda dünyada gedən proseslər onu göstərir ki, Çinin təqdim etdiyi “Bir kəmər, bir yol” layihəsinin qlobal geosiyasi və geoiqtisadi düzənin formalaşmasında xüsusi rolu olacaq. Layihə quru və dəniz marşrutları üzrə müxtəlif ölkələri əhatə edən nəhəng bir sistemi xatırladır. Qeyd edildiyi kimi, prosesə Asiya və Avropanın çoxlu sayda dövləti qatılmaqdadır. Layihə üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri odur ki, iqtisadi əlaqələr ucuz, təhlükəsiz, sürətli, maneəsiz təşkil edilsin. Bu məqsədlə layihədə şərti olaraq üç marşrut – “Şimal yolu”, “Orta yol” və “Cənub yolu” müəyyən edilib. “Şimal yolu” Rusiya ərazisindən keçərək Avropaya uzanan, “Orta yol” Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan-Türkiyəni əhatə edən marşrutu, “Cənub yolu” isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir.

Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda Azərbaycan ərazisində kəsişir. Rusiyadan “Şimal-Cənub” dəhlizi vasitəsilə Azərbaycana istiqamət vardır, Mərkəzi Asiyadan gələn əsas yol – “Şərq-Qərb” dəhlizi timsalında Azərbaycandan keçir, “Cənub yolu” isə “Cənub-Qərb” marşrutu ilə yenə də Azərbaycan ərazisindən keçir. Cənub-Qərb” marşrutu ilə Azərbaycanda iki istiqamət mövcuddur: biri Gürcüstan istiqaməti, digəri isə Zəngəzur vasitəsilə Türkiyə-Avropa istiqaməti. Eyni zamanda,

[29] “Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı təqdim edilib”, **https://azertag.az/xeber,** istifadə tarixi: 26.04.2021.

cənubdan gələn yolun bir qolu şimala, Rusiyaya tərəf ayrıla bilər. Buna oxşar qayda ilə Türkiyədən gələn yolun bir istiqaməti İran, digər istiqaməti isə Rusiya ola bilər. Onların arasında isə tamamilə Azərbaycan ərazisindən keçməklə Mərkəzi Asiyaya uzanan marşrut vardır. Bununla yanaşı, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində "Şimal-Cənub" və "Cənub-Qərb" marşrutlarının Azərbaycan ərazisində kəsişərək Zəngəzur dəhlizi vasitəsilə Avropaya yönləndirilməsi planı da mövcuddur.

Nəhayət, yeni dünya nizamının formalaşması kontekstində yanaşsaq Avropa ilə Asiyanı birləşdirən və yeni alternativ bağlantı olan "bir kəmər bir yol" layihəsi Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin yaradılması, Şimal-Cənub və həmçinin Zəngəzur nəqliyyat dəhlizlərinin yenidən qurulması fonunda daha real görkəm alacaq.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. "Ankaranın Asiyaya dönüşü: Türkiyənin yeni geosiyasi "yol xəritəsi", **http://newtimes.az/az/processestrends/6200/**, istifadə tarixi: 30.08.2019.
2. "Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı təqdim edilib", **https: // azertag.az/xeber/**, istifadə tarixi: 26.04.2021.
3. **AMEA TİEA. Fond 1, опис 3, p. 158, Ч.I. Ханвей** //32 Далнейщие щаги, предпринятые м-ром Эльтоном… Оппозиция Восточно-Индийкой и Турецкой Компаний...
4. "Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər" **https://president.az/az/articles/view/52116**, istifadə tarixi: 10.12.2020.
5. "Çin "Bir kəmər – bir yol" layihəsini reallaşdırır", **http://www.kaspi.az**/, istifadə tarixi: 16.05.2017.
6. Pərvin Darabadi "Cənubi Qafqaz düyünü: çoxgedişli "geosiyasi oyun", **http://newtimes.az/az/processestrends/3573/,** istifadə tarixi: 06.05.2015.
7. Xarici İşlər Nazirliyinin Tarix Arxiv İşləri, 2004-cü il üçün cari arxivi. **İqtisadi məsələlərə dair**. ABŞ qovluğu. 14.06.2004. f.28, s.11.
8. "Qazaxıstandakı hadisələrin sifarişçisi – detallar", **https://news.milli.az/world/1009520.html**, istifadə tarixi: 06.01.2022.
9. Adil Mirabdullayev, **Rusiyanın postsovet məkanında geostrategiyası**. Elm, Bakı 2008, 332 s.
10. **Atatürk"ün söylev ve demeçleri'nin konular indeksi,** hazırlayan Mehmet Evsile, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu Atatürk Araştrma Merkezi, Ankara 1999.
11. Yanar Savaş, **Türk-rus İlişkilerinde Gizli Güç Kafkasya**, İQ kültür sanat yayıncılıq, İstanbul 2002.

12. Збигнев Бжезинский, **Великая шахматная доска. Господство Америки и его геостратегические императивы,** Международные отношения, Москва 1999. 256 с.
13. Фабрицио Виелмини, «Роль теории Маккиндера в нынеш стратегическом развертывание США в Евразии: проблемы и перспективы», **Центральная Азия и Кавказ**, №4 (40), издательство CA and Cpress AB (Lulea, Sweden), 2005, 140 с.
14. Глазьев Сергей, Альтернативы. Новая книга З. Бжезинского Альтернативы. «Геостратегия для Евразии», выдержки из которой недавно в «Независимой газете» (от 24.10.97), вносит ясность во многие направления современной американской геополитики. Цена баланса. «Россофобия. Чтобы выжить, нам надо перестать надеяться на других», **Независимая газета**, (электронная версия (EVNQ)). Номер 217 (1542), вторник. Полоса 5, Москва 18 ноября 1997.
15. Парвин Дарабади, **Кавказ и Каспий в мировой истории и геополитике XXI века**, Издательство «Весь мир», Москва 2010, 216 с.
16. «Декларация о союзническом взаимодействие между Российской Федерацией и Азербайджанской Республикой», http://www.kremlin.ru/supplement/5777, istifadə tarixi: 22.02.2022.
17. Александр Дугин. **Указ. соч**. с.243.
18. Анджей Панковский, «Большая игра» на Кавказе», **http.press.net.by \1998\98_02_12.441/40 armen.htm.**
19. Олег Зотов, «Транскаспийский регион в начале XXI века: геополитика регионального сотрудничества» **www.transcaspian.ru /cgi-bin/web.exe/rus/** s.1, 3, istifadə tarixi: 30.08.2001.
20. Елена Дунаева, «Каспийский регион и Иран», **Исламская Революция в Иране: Прошлое**, **Настоящее**, **Будущее**, Сборник статьей, Институт Востоковедения РАН, Москва 1999, 214 с.
21. «Кул-Мухаммед ответил на провокационные высказивания российского депутата», **https://tengrinews. kz/sng/kul-muhammed-otvetil-provokatsionnyie vyiskazyivaniya-422946/**, istifadə tarixi: 12.12.2020.
22. «Путин объяснил, почему считает распад СССР крупнейшей катастрофой XX века», **https: // ria.ru/20170613/1496353896.html**, istifadə tarixi: 03.03.2020.
23. «Специальный репортаж: Инициатива «Пояс и Путь» открывает новые возможности для взаимовыгодно сотрудничества между Китаем странами Центральной Азии», **Sinxua novosti,** http://russian.ews. cn /2020-09/21/c_139384423.htm, istifadə tarixi: 21.09.2020.
24. Фон Крейтор Николай, «Бжезинский и американская геополитика экспансионизма», **Известия** (газета), Москва 26 ноября 2001.
25. "Kissinger warns China and US to guard against all-out artificial intelligence conflict", **https://www. scmp.com/news/china/diplomacy/article/3131771/china-and-us-must-guard-against-all-out-artificial**, istifadə tarixi: 30.04.2021.
26. Kumar Surendra S.Y. (Bangalore University), "China's Belt and Road Initiative (BRI): India's Concerns, Responses and Strategies", **International Journal of China Studies**. 27 Vol. 10, No1, June 2019.

27. Mackinder Halford John, (1861-1947). **Democratic ideals and reality**: a study in the politics of reconstruction / by Sir Halford J. Mackinder; [edited by and] with a new introduction by Stephen V. Mladineo, NDU Press defense classic ed. p. m Includes index. 1. Reconstruction (1914-1939) 2. Geopolitics. 3. World politics – 1919-1932. 1. Mladineo, Stephen V. II. Title. D655. M.18 1996 940.5'1- dc20/, National Defense University Press, Washington, DC. 1996, 231 p.
28. Shichor Yitzhak, "China's Belt and Road Initiative Revisited. Challengesand Ways Forward", **https://www.worldscientific.com/doi/pdf 10.1142/S237774001850001X** istifadə tarixi: 12.12.2020.
29. Парвана Mustafazade, «Зовнішньополітичні відносини Азербайджану та США в Каспійському регіоні», **Вісник Львівського університету. Серія «Міжнародні відносини»** (lnu.edu.ua), (Polşa). ISSN 2078-4333), vipusk.46./19.552 (17.026), Львів, 2019, 326 с.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

İbrahimov Mahir Nadir oğlu – tarix üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, Azərbaycan, Bakı.

Ibrahimov Mahir Nadir – doctor of Philosophy in history, leading researcher, A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

# 1917-1918-Cİ İLLƏRDƏ CAVAXETDƏ TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIM VƏ NƏTİCƏLƏRİ

© 2021

FƏXRİ HACIYEV*

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi
ORCID: 0000-0002-8370-8316; e-mail: haciyevf@yahoo.com

***Xülasə:*** *1917-ci il Oktyabr çevrilişindən sonra Cənubi Qafqazın bir sıra qəzalarında olduğu kimi, qarışıq etnik tərkibə malik Axalkələk qəzasında (Cavaxetdə) da millətlərarası münasibətlər dözülməz həddə çatır. Bu qəzanın erməni kəndləri sürətlə silahlanaraq özünümüdafiə dəstələri adı altında silahlı dəstələr yaradır və yerli türk-müsəlman əhaliyə (azərbaycanlılara və müsəlman gürcülərə) qarşı qətliamlar törədirlər. Daşnak silahlı dəstələri Göyyə, Varevan, Kiçik Xosbiyyə, Böyük Xosbiyyə, Kulalis, Sağamoy və digər kəndləri mühasirəyə alıb yerlə-yeksan edirlər, uşaq və qadınları amansızcasına qətlə yetirir, sağ qalanları isə girov götürürlər.*

*Məqalədə 1917-ci ilin sonu və 1918-ci ilin ilk yarısında Axalkələk qəzasında türk-müsəlman əhaliyə qarşı törədilən qətliam faktları arxiv mənbələrinə və həmin dövrün mətbuat məlumatlarına istinadən üzə çıxarılaraq elmi dövriyyəyə gətirilir, tədqiq olunur.*

***Açar sözlər:*** *Cavaxet, Axalkələk, Göyyə, Xosbiyyə, qətliamlar.*

# THE CRIMES OF GENOCIDE AGAINST THE TURKIC-MUSLIM POPULATION IN JAVAKHETI IN 1917-1918 AND ITS CONSEQUENCES

© 2021

FAHRI HAJIYEV*

* Ministry of Foreign Affairs of the Republic of Azerbaijan
ORCID: 0000-0002-8370-8316; e-mail: haciyevf@yahoo.com

***Abstract:*** *After the Bolshevik Coup (the October Revolution) of 1917, as in a number of South Caucasian uyezds (administrative subdivision), the inter-ethnic relations reached an unbearable level in the Akhalkalaki uyezd (Javakheti), which has mixed ethnic composition. The Armenian villages of this uyezd were armed under the pretext of self-defense forces and these armed groups carried out the massacres against the local Turkish-Muslim population (Azerbaijanis and Muslim Georgians). The paramilitary Dashnak detachments, called self-defense forces, committed massacres of the local Turkic-Muslim*

*(Azerbaijani and Georgian) population, by sieging the Goyye (Kokia), Varevan, Khosbiyye (Khospia), Kulalis, Sagamoy and other villages not sparing killed children, women and the elderly people of the region.*

*In the article, the facts of the massacre of the Turkish-Muslim population in Akhalkalaki district in late 1917 and the first half of 1918 were investigated with reference to archival sources and press reports of the period and included in the scientific circulation.*

***Keywords:*** *Javakheti, Akhalkalaki, Goyye (Kokia), Hosbiye (Khospia), Massacres.*

## ПРЕСТУПЛЕНИЯ ГЕНОЦИДА ПРОТИВ ТЮРКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ ДЖАВАХЕТИИ В 1917-1918 ГГ. И ЕГО ПОСЛЕДСТВИЯ

© 2021

ФАХРИ ГАДЖИЕВ*

*Министерство Иностранных Дел Азербайджанской Республики
ORCID: 0000-0002-8370-8316; e-mail: haciyevf@yahoo.com

***Резюме:*** *В начале 1918-го года межэтнические отношения в Ахалкалакском уезде (в Джавахетии), как и в ряде провинций Южного Кавказа, имеющих смешанный этнический состав, резко обострились. Военизированные дашнакские отряды, именуемые силами самообороны, совершили массовые убийства местного тюрко-мусульманского (азербайджанского и грузинского) населения, жестоким образом расправляясь над жителями сёл Гёййе (Кокия), Вареван, Хосбийе (Хоспия), Кулалис, Сагамой этого региона, не щадя детей, женщин и стариков.*

*В статье, на основе первичных исторических источников и документов, исследуются факты преступления геноцида против тюрко-мусульманского населения в Джавахетии, совершенные армянскими вооруженными группами в конце 1917 – первой половине 1918 года.*

***Ключевые слова:*** *Джавахетия, Ахалкалаки, Гёййе (Кокиа), Хосбийе (Хоспия), геноцид.*

### *Giriş*

1918-ci ilin birinci yarısında türk-müsəlman əhalisi erməni şovinist-quldur dəstələrinin kütləvi qırğınlarına məruz qalmış Cənubi Qafqaz bölgələrindən biri də Cavaxetdir. Mənbələrdən bəlli olur ki, bu bölgənin erməni kəndlərinin sakinləri 1917-ci ilin sonlarından etibarən tiflisli soydaşlarının dəstəyi ilə sürətlə silahlanaraq özünü-müdafiə

qüvvələri adı altında silahlı dəstələr yaradıb, yerli azərbaycanlılara və müsəlman gürcülərə qarşı qətliamlar törətmişdirlər. Daşnak silahlıları Cavaxetin Göyyə, Varevan, Kiçik Xosbiyyə, Böyük Xosbiyyə, Kulalis, Sağamoy və digər kəndlərini mühasirəyə alıb yerləyeksan edərək, uşaq və qadınları amansızcasına qətlə yetirmiş, sağ qalanları isə girov götürmüşdürlər.

Qeyd olunmalıdır ki, 1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsinə qədər Cavaxet bölgəsinin əhalisinin böyük əksəriyyəti Azərbaycan türklərinin subetnik qruplarından olan Qazax-Borçalı əsilli qarapapaqlardan ibarət idi. Sözügedən müharibənin nəticəsində imzalanmış 1829-cu il Ədirnə sülh müqaviləsinin şərtlərinə əsasən bölgəyə kütləvi şəkildə ermənilər məskunlaşdırılmış, yerli türksoylu əhali isə sıxışdırılıb Osmanlıya köçməyə məcbur edilmişdir. Beləliklə, Cavaxetin etnik xəritəsi süni şəkildə dəyişdirilmişdir[1].

1 yanvar 1916-cı ilə aid statistik göstəricilərə görə, inzibati bölgüyə uyğun olaraq ərazisi Cavaxet bölgəsini əhatə edən Axalkələk qəzasının əhalisi 100118 nəfərdən ibarət olmuş, onlardan ermənilər – 76624 nəfər (76, 53%), gürcülər – 10039 (o cümlədən, xristian gürcülər – 7162, müsəlman gürcülər – 2877), Azərbaycan türkləri (qarapapaqlar) – 5431 (5,42%), duxoborlar – 7106, kürdlər – 904 nəfər təşkil etmişlər. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə qonşu Axısqa qəzasında 71477 nəfər qeydə alınmış, müsəlmanlar (türklər və gürcülər) – 51892 (72, 6%), xristian gürcülər – 7497 (10,5%), ermənilər – 10060 (14%), kürdlər – 1801 nəfərdən ibarət olmuşlar[2].

1918-ci ildə Cənubi Qafqazın digər bölgələrində – Bakı, İrəvan və Gəncə quberniyalarında ermənilərin törətdikləri soyqırımları Azərbaycan tarixşünaslığında geniş araşdırılsa da, həmin dövrdə Tiflis quberniyasının Axalkələk qəzasında törədilən soyqırımı cinayətləri tədqiqat obyektinə çevrilməmişdir. Məqalədə bu sahədə mövcud boşluğun doldurulmasına cəhd edilərək, 1917-ci ilin sonu və 1918-ci ilin ilk yarısında Axalkələk qəzasında türk-müsəlman əhaliyə qarşı törədilən qətliam faktları və onun doğurduğu nəticələr əsas etibarilə ilkin mənbələrə istinadən tədqiq olunur.

## 1917-ci ilin sonu – 1918-ci ilin ilk yarısında Axalkələk qəzasında ictimai-siyasi proseslər və türk-müsəlman əhaliyə qarşı qırğınlar

1917-ci il Oktyabr çevrilişindən sonra yaranmış hakimiyyət boşluğu və xaos nəticəsində Cənubi Qafqazın bir sıra qəzalarında olduğu kimi, qarışıq etnik tərkibə malik Axalkələk (Osmanlı mənbələrində Ahılkələk) və Axısqa (rus və gürcü mənbələrində Axalsıx, Axaltsixe) qəzalarında da millətlərarası münasibətlər gərginləşir. Çar Rusiyasının Axısqa şəhərində dislokasiya olunmuş 116-cı alayının silah-sursatının və əmlakının yeni formalaşan erməni və gürcü silahlı dəstələrinə təhvil verilməsi yerli türk-müsəlman

---

[1] Fahri Valehoğlu, "Cavahet (Ahılkelek) Karapapakları", **Bizim Ahıska**, №9, Ankara 2008, s. 45-46; Fahri Valehoğlu, "Axalkələk qarapapaqları XIX-XX əsrin əvvəllərində: yaşam tərzi və statistik göstəricilər", **Prof. Dr. Hacali Necefoğluna ərmağan**", Kanyılmaz Matbaacılık, İzmir 2016, s. 81-86.

[2] **Кавказский календарь на 1917 год**, Гл. упр. Кавказ. Наместника, Тифлис 1916, с. 210-213.

əhalinin narazılığına və hiddətinə səbəb olur. Bu əhali qrupunun nümayəndələrinin onlara da silah verilməsi tələbi ilə Axısqa qəza mərkəzinə dinc yürüşü şəhərin xristian sakinləri arasında təlaş doğurur. Sonuncular tərəfindən "özünümüdafiə komitəsi" yaradılır və ordu silah anbarları talan olunur. 26 dekabr 1917-ci ildə Axısqa İcraiyyə Komitəsindən müxtəlif ünvanlara şəhərin silahlı müsəlmanlar tərəfindən mühasirəyə alındığı barədə teleqraflar ünvanlanır. Axısqadakı rus qarnizonunun rəisi panikada olan xristian əhalini sakitləşdirməyə cəhd edərək, şəhərin heç kəs tərəfindən mühasirəyə alınmadığını və sakinlərin həyatına heç bir təhlükə olmadığını bəyan edir[3].

Çox keçmədən silahlı türk-müsəlman dəstələrinin Axalkələk qəza mərkəzini də mühasirəyə aldığı, Axısqa və Axalkələk arasında teleqraf naqillərini kəsdiyi və zorakılıqlar törətdiyi barədə yalan şayiələr yayılmağa başlayır. Tiflisin ermənipərəst mətbu orqanlarında bu məzmunda teleqramlar dərc olunur[4]. Axalkələkdə də rus ordu birliyinə məxsus silah anbarı talan edilir. Həmin ərəfədə (1917-ci ilin dekabr ayının ortaları) Axalkələkdən 18 verstlik məsafədə, Aleksandropol (Gümrü) yolu üzərində yerləşən duxobor kəndi Boqdanovkada qonşu Xocabəy kəndinin erməniləri tərəfindən qəddarcasına Ağbaba mahalının 8 qarapapaq sakini öldürülmüşdü. Qatillər öz əməllərinə haqq qazandırmaq üçün qətlə yetirilən şəxslərin teleqraf xətlərini kəsmək məqsədilə poçt kontoruna hücum etdiyini desələr də, şahidlərin sözlərindən Boqdanovkada öldürülən azərbaycanlıların tamamən suçsuz olduğu aşkar olur. Tiflisdə yayımlanan rusdilli "Vozrojdeniye" qəzetində bu barədə yazılırdı:

> "...Qətlin şahidləri bildirirlər ki, tatarlar* tərəfindən teleqraf xətlərinə heç bir təcavüz olmamışdır. Sayları 10 nəfərdən ibarət olan tatarlar daimi köç yerlərinə apardıqları qoyun sürüsünün önündə gedirdilər. Cəmi ikicə xəncərlə silahlanmış 10 tatarın gəlişi Boqdanovkada həyəcan yaratdı. Qorxudan ağıllarını itirmiş kəndlilər (ermənilər) tatarlara atəş açdılar və atlarını çapıb uzaqlaşmağı bacaran ikisindən başqa hamısını öldürdülər. Öldürülənlərin cəsədlərini kəsib-doğradılar. Tatarların bu təhqir olunmuş cəsədləri onların qətli zamanı Boqdanovkada olan əsgərlərin dediyinə görə, yandırıldı. Deyirlər ki, tatarların teleqraf xəttinə hücum etməsi görüntüsü yaratmaq məqsədilə teleqraf sütunlarından biri milis tərəfindən yüngülcə mişarlanmışdı. Ümumiyyətlə, hadisələri şişirtmək, Axalsıx müsəlmanlarının ermənilər və gürcülər kimi, onlara da silah verilməsi tələblərini qiyam, üsyan və müharibəyə çevirmək tendensiyası müşahidə olunur..."[5].

---

[3] **Возрождение** (газета), №10, Тифлис 14 января 1918.
[4] **Кавказское слово** (газета), №288, Тифлис 31 декабря 1917.
[*] tatar – burada və bundan sonra Azərbaycan türkü.
[5] **Возрождение**, №10, 14 января 1918.

1918-ci il yanvarın 22-də Axalkələk qəzasının icraiyyə komitəsi qəzanın Tiflis quberniyasından ayrılıb ermənilərin çoxluq təşkil etdiyi Aleksandropol quberniyasına birləşdirilməsi haqqında qərar qəbul edir[6]. Bu qeyri-qanuni qərar yerli gürcü, türk və rus (duxobor) əhalinin narahatçılığına səbəb olur[7]. Erməni millətçi təşkilatları tərəfindən eyni səpkili tələblər Borçalı qəzası ilə bağlı da səsləndirilir. Baş verənlərə gürcü ictimaiyyəti və mətbuatı sərt təpki göstərir. “Vepxvi” (gürcü dilindən tərcüməsi: *bəbir*) imzalı müəllif “Sakartvelo” qəzetinin 1918-ci il 10-cu sayında dərc etdirdiyi yazısında Borçalı və Axalkələk qəzalarının sərhədlərinin dəyişdirilməsinə heç bir əsas olmadığına diqqəti çəkir[8]. Çox keçmədən “Sakartvelo”nun başqa bir buraxılışında görkəmli gürcü ictimai xadimi, Cavaxetdə (Axalkələk qəzasında) yaşayan yazıçı-publisist İlya Alxazişvilinin “Cavaxetin Gürcüstandan “qoparılması” başlıqlı irihəcmli məqaləsi çap olunur. Məqalədə müəllif tərəfindən Cavaxetin coğrafi mövqeyi barədə məlumat verilir və onun Gürcüstan üçün iqtisadi cəhətdən önəmi qeyd olunur, eyni zamanda ermənilərin Cavaxetə 1828-1830-cu illərdə Ərzurumdan köçürüldükləri və hələ M.Vorontsovun canişinliyi dövründən Cavaxeti Tiflis quberniyasından ayırıb İrəvan quberniyasına birləşdirməyə çalışdıqlarını xatırladılaraq cavaxlıların[*] “su və torpağı” onlara güzəştə getməyəcəkləri ifadə olunur[9].

Qeyd olunan siyasi fəaliyyətlərə paralel olaraq Axalkələk və Axısqa qəzalarının erməni kəndləri Gürcüstan ermənilərinin milli şurasının (GEMŞ) dəstəyi ilə sürətlə silahlanaraq özünümüdafiə dəstələri adı altında yerli türk-müsəlman (Azərbaycan türkləri və müsəlman gürcü) əhaliyə qənim kəsilən quldur dəstələri yaradırlar. Erməni mənbələrindən bəlli olur ki, Axısqa qəzasında ilk olaraq Damala kəndində, Axalkələk qəzasında isə Azarvet və Alastan kəndlərində silahlı quldur dəstələri formalaşdırılır. 250 nəfərlik Damala dəstəsinə Mato (Martiros) Saakyan, 300 nəfərlik Azarvet və Alastan dəstəsinə isə Petros (Petuş) Darbinyan başçılıq edirlər. Axalkələk şəhər başçısı M.Markaryanın rəhbərliyi altında “Axalkələk qəzasının müdafiə komitəsi” yaradılır. Erməni silahlı dəstələrinin təşkil olunmasına köməklik göstərməsi və bu dəstələrə komandanlıq etməsi məqsədilə GEMŞ polkovnik Arakelyanı və bir neçə kiçik rütbəli zabiti Tiflisdən Axalkələyə ezam edir. Eyni zamanda GEMŞ tərəfindən Axalkələk ermənilərinə 1200 nəfərlik hərbi sursat, 500 tüfəng, 66 min patron və 4 pulemyot göndərilir[10].

Hadisələrin sonrakı inkişafı göstərir ki, ermənilərin yuxarıda vurğulanan hazırlıq fəaliyyətlərinin özünümüdafiə ilə heç bir əlaqəsi yox idi və öncəliklə Axısqa-Axalkələk

---

[6] **Sakartvelo (**gürcü dilində qəzet**)**, №28, Tiflis 4 fevral (17 fevral) 1918.
[7] **Возрождение**, №34, 13 февраля 1918.
[8] **Sakartvelo**, №10, 13 (26) yanvar 1918.
[*] Cavaxlı - gürcülərin Cavaxetdə yaşayan etnoqrafik qrupu.
[9] **Sakartvelo**, №28, 4 fevral (17 fevral) 1918.
[10] Артюш Саносян, «Плечом к плечу против врага», **Хорурдаин Айастан (газета),** Ереван 1988-1989, http://javakhk1915-23.com/index_en.php?rpage=http://javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_sanosian_1_shoulder_ru.html, istifadə tarixi 26.09.2018.

bölgələrində etnik təmizləmələr həyata keçirmək məqsədini daşıyırdı. Axısqadan fərqli olaraq Axalkələk qəzasında əhalinin böyük say üstünlüyünə malik olmalarından istifadə edərək, onlar burada Göyyə, Xosbiyyə, Kulalis, Varevan, Okam, Patkana, Alandza, Sağamoy və digər kəndlərin yerli türk-müsəlman əhalisinə qarşı talanlar, amansız qırğınlar və qətliamlar törətməkdən belə çəkinmirlər. Bu barədə faktlar həm dövrün qəzet səhifələrində, həm də türk, rus, gürcü və erməni məmur və hərbçilərinin raportlarında öz əksini tapır.

Osmanlının Şimal-Şərqi Anadoluda dislokasiya olunmuş hərbi korpusun komandanı general-mayor Yaqub Şevki (Subaşı) Oltu qəsəbəsindən tabe olduğu 3-cü ordu komandanlığına 21 aprel 1918-ci il tarixli məruzəsində bildirirdi:

> “Axalkələk məntəqəsində təcəmmü etmiş (cəmləşmiş) ermənilərin Axalkələk ətrafında və Axalkələk ilə Ərdahan arasında yerləşən məntəqələrdəki əhaliyi-İslamiyyəyi qətliam etməkdə olduqları barədə mükərrərən (təkrarən) və mevsukan (etibarlı) mənbələrdən xəbər alınmaqdadır. Qrup (komandanı olduğu hərbi korpus nəzərdə tutulur – F.V.) bütövlükdə Qars ətrafına göndərilmiş və bu məntəqədəki ermənilərlə məşğul olduğundan Axalkələk ətrafına kuvayi-qafiyə (yetərli qədər hərbi qüvvə) göndərilməsi hazırda mümkün deyil. İslam əhlinin can və mallarının xilas edilməsi üçün mümkünsə, Batum ətrafından kuvayi-qafiyənin Ərdahan-Axalkələk xəttinə təcili şəkildə göndərilməsinə əmr və icazə verilməsini xahiş edirəm”[11].

Y.Şevki 3-cü ordu komandanlığına 16 may 1918-ci ildə ünvanlandığı başqa bir məktubunda isə 1 may 1918-ci ildə Axalkələk ətrafındakı kəndlərin ermənilər tərəfindən yandırıldığını, əhalisinin yox edildiyini məruzə edirdi[12].

Cavaxetdə törədilmiş soyqırım cinayətləri barədə rus hərbi həkimi(1-ci Aksire Dairəsi müfəttişi) Xoroşenko raportunda yazırdı:

> “1917-ci ilin dekabrından 21 may 1918-ci il tarixinə qədər ermənilərin Axalkələk qəzasındakı yerli və müti müsəlman xalqa qarşı törətdikləri vəhşiliklərdən bəhs edəcəyəm.
>
> İstər yerli gürcülərin mənə anlatdıqlarına görə, istərsə də, gözlərimlə gördüklərimi dolu göz yaşlarımla yazmağa başlayıram:
>
> Keçən ilin (1917 – F.V.) dekabr ayının ortasına doğru ağbabalı 8 müsəlman duxoborlardan quru ot satın almaq üçün Boqdanovka kəndinə (Axalkələyin cənubundakı Xonçalı gölünün şərqində yerləşən rus kolonistlərinin yaşadığı kənd) gəlmişdilər. Bunu əvvəlcədən bildirim ki,

[11] **Askeri Tarih Belgeleri Dergisi**, Genelkurmay Askeri Tarih ve Stratejik Etüt (ATASE) Daire Başkanlığı Yayınları, Ankara 1983, №83, sənəd №1938, s. 227, 229.

[12] **Askeri Tarih Belgeleri Dergisi**, №81, sənəd №1879, s. 428-432.

həmin zaman təhlükəsizlik məsələləri yerində olduğundan adıçəkilən müsəlmanların üzərilərində silah deyilən bir şey yox idi. Xocabəy kəndinin ermənilәri bu xəbəri eşidincə, tez oraya gəlib bu 8 müsəlmandan 4-nü xəncərləyərək öldürdükdən sonra gözlərini ovmuş, dilləri ilə bədənlərinin digər qismini də kəsib vücudlarını parça-parça edərək, müxtəlif təhqirlər etmişdilər. Qalan 4-nü də tüfənglə öldürmüşdülər. Bundan sonra parçalanmış cəsədləri oda verərək yandırmış, tüfənglə öldürülən 4-nün cəsədini də sonradan ağbabalılara vermişdilər.

Ermənilər 1918-ci ilin yanvar ayından etibarən müsəlman kəndlərinə hücum etməyə başladılar. Öncə "silahlarınızı bizə təhvil verin, sizlərə əsla toxunmayacağıq" deyərək söz verdilər. Ermənilər bu sözlərinə inanan müsəlmanların əllərindəki silahları aldıqdan sonra onların kəndlərinə hücum edib sakinləri öldürməyə, kəndlərini dağıdıb yandırmağa və əşyalarını yağmalamağa başladılar. Beləliklə, Xosbiyyə, Kokia,* Varevan, Tok, Okam, Kulalis, Patkana, Sağamoy, Kuvaşa, Alandza və Xumris kəndlərini yandırdılar; dirriklərini, heyvanlarını və bütün əşyalarını özləri ilə apardılar; buralarda yaşayanların bəzilərini yerindəcə öldürdükdən sonra sağ qalan kişilər ilə bütün qadınları dustaq olaraq Axalkələk qəzasındakı bir düşərgədə topladılar. Axalkələk kampında dustaq edilmiş müsəlmanlara 24 saatda 1 funt (400 qr) çörək ilə sudan başqa bir şey vermədilər. Soyuq düşərgədə ac və sağlamlığa zərərli şərtlər içində olan müsəlmanlar arasında tif (yatalaq) xəstəliyi yayıldı. Həkimlər əsirlərin daha yaxşı bəslənmələri, təmiz saxlanılmaları üçün müraciət etsələr də, ermənilər buna qulaq asmayaraq müsəlmanları soyuq və natəmiz düşərgədə ac saxlamağa davam etdilər. Nəticədə müsəlmanlar hər gün ölürdülər. Müsəlmanlara edilən yardımlara belə ermənilər əngəl olur, hətta onları ziyarətə gələn yaxınlarının da əsir düşərgələrinə yaxınlaşmalarına icazə vermirdilər.

Fəqət 21 may 1918-ci ildə türk silahlı qüvvələri Karsak kəndinə gələndə bütün ermənilər qaçışmağa başladılar. Qaçışarkən də axşam saat 5-də dustaq müsəlmanları xəncər və tüfənglərlə öldürdükdən sonra onların qaldığı evlərin damlarını üzərilərinə aşıraraq, cəsədlərini də bu evlərin dağıntıları altında buraxdılar. Bir çoxlarının cəsədlərini də üzərinə kirəc tökərək çuxurlara atdıqdan sonra üstlərinə kerosin tökərək yandırdılar.

* Kokia – rus, gürcü və erməni mənbələrində Göyyə belə adlandırılır (F.V.).

Bu da XX əsrin "Ermənistan"ında yaşayan mədəni ermənilərin törətdikləri vəhşilik"[13].

Xoroşenkonun bu raportu həmin dövrdə Tiflisdə yayımlanan "Albayraq" qəzetində və İstanbulda yayımlanan "İkdam" qəzetinin 1919-cu il 1 yanvar tarixli 7863-cü sayında dərc olunur.

Qeyd edək ki, raportda adı çəkilən Qarapapaq kəndi Sağamoyda ermənilər tərəfindən talanlar və qarətlərin törədildiyini Gürcüstan Müsəlmanları Milli Şurasının sədri Əlimirzə bəy Nərimanovun imzası ilə kənd sakini Böyük ağa Əbdüləziz ağa oğlu Həsənova verilmiş 4 dekabr 1919-cu il tarixli 311 nömrəli arayış da təsdiq edir[14].

Cavaxetdə qarapapaqların üzləşdiyi acı tale qonşu mahallardakı soydaşlarını ciddi narahat edirdi. Erməni mənbələri Ağbaba qarapapaqlarının cənub-şərqdən Cavaxet ermənilərinin başının üstə hücum üçün uyğun vaxt gözləyən "Damokl qılıncı" tək asıldığını bildirirdilər. "Haraç" (tərcüməsi: "İrəli") erməni qəzeti 1919-cu ildə nəşr olunmuş 4-cü sayında ağbabalıların 1918-ci ilin mart ayında Gümrüyə gəlmiş Axalkələk ermənilərinin nümayəndə heyətini bu sözlərlə hədələdiyini yazırdı: "Sizin ömrünüz bu dağlarda qar əriyənədək uzanacaq"[15].

### Göyyə qətliamı

Cavaxetin müsəlman kəndlilərinə qarşı ilk dəhşətli qətliam 1918-ci ilin mart ayında Göyyə kəndində törədilir. Göyyə Axalkələk qəzasının iri qarapapaq yaşayış məntəqələrindən idi. Bölgənin nüfuzlu ağalarından Kamaloğulları bu kənddə məskunlaşmışdılar və məşhur Alqazaxlı-Şıxlinskilər soyunun bir budağını təşkil edirdilər.

Usul-Xeço adı ilə tanınan axısqalı Xaçatur Ter-Karapetyanın başçılıq etdiyi silahlı daşnak quldurları 7 mart 1918-ci ildə Göyyəni mühasirəyə alıb top atəşinə və güllə yağmuruna tuturlar. Göyyəlilər iki gün dirəniş göstərə bilirlər. Silah-sursatları bitmək üzrə olan kənd müdafiəçiləri 9 marta keçən gecə ağ çarşablara bürünərək ən yaxındakı türk kəndi Otaya (Axısqa qəzası) keçirlər. Səhəri gün Göyyəyə daxil olan erməni silahlı quldurları kəndi yerlə-yeksan edir, evlərini tərk edə bilməyən və ya ermənilərin silahsız əhaliyə toxunmayacaqlarına inanan qoca, qadın və uşaqlardan ibarət dinc əhalinin bir qismini [*Kamaloğullarından Yusuf ağa və arvadı Xədicə xanım, Həsənpaşa, Rüstəm ağa və qardaşı Əli bəy; Pirməmmədlilərdən Məmməd; Nəbioğullarından Zübeydə nənə; Qırıq Şərəfəddingillərdən Səhər nənə; Kor Həsəngillərdən Namaz və İlyas/Əlləz qardaşları; Güləhmədoğlu Molla Niyaz/Namaz (Göyyə məscidinin imamı); Dursungillərdən Topal*

[13] Fahrettin Kırzıoğlu, **Kars İli ve Çevresinde Ermeni Mezalimi: 1918-1920**, Kardeş Matbaası, Ankara 1970, s.50-51; **Arşiv Belgeleriyle Ermeni Faaliyetleri. 1914-1918**, Cilt II. Genelkurmay Basım Evi, Ankara 2005, s. 256.

[14] **Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA)**, fond 897, siyahı 1, iş №11, v. 521.

[15] Sanosyan, **a.g.m.**

*Əlinin nişanlı qızı Billur və 17-18 yaşlarında 2 gənc (Molla Niyazın qayınları) və digərlərini*][16] qanına qəltan edir, sağ qalanları isə girov götürüb qonşuluqda yerləşən erməni kəndi Alastana aparırlar[17].

Bölgənin türk-müsəlman əhalisinə qarşı soyqırımı cinayətləri çox keçmədən Mesxet-Cavaxetin (Axısqa-Axalkələk bölgəsinin) cənubuna bitişik Ərdahan vilayətində ermənilərə qarşı əks həmlələrlə nəticələnir. Bəzi mənbələrdə qisasyönlü Ərdahan hadisələrində yaxınları qətliama məruz qalmış göyyəlilərin də iştirak etdiyi vurğulanır[18].

"Droebit Cavaxeli" (gürcücədən tərcüməsi: "Müvəqqəti Cavaxeti") imzalı müəllif gürcüdilli "Ertoba" qəzetində dərc olunmuş "Daşnakların qana bulanmış əlləri" sərlövhəli irihəcmli məqaləsində Ərdahan hadisələrinin daşnakların Göyyədə törətdikləri vəhşiliyin nəticəsi olduğunu vurğulayaraq yazırdı:

> "Ərdahan fəlakətindən düz bir həftə qabaq Axalkələk daşnakları gürcü müsəlmanların *(Gürcüstan müsəlmanlarının – F.V.)* yaşadığı tarixi Göyyə kəndini tarmar etdilər. Burada Zoryanın *("Daşnaksutyun" partiyasının fəal üzvlərindən biri, həmin dövrdə Axısqa şəhər başçısı vəzifəsini tutan Zori Zoryan nəzərdə tutulur – F.V.)* yaxşı tanıdığı, öz "zinvorları"nın *(döyüşçülərinin – F.V.)* köməyi ilə kəndi mühasirəyə alıb viran qoyan, qadınların və uşaqların əsir götürülməsini, kəndin isə yerlə bir edilməsini əmr edən Usul-Xeço fəaliyyət göstərirdi... Mən xüsusi qeyd edirəm ki, Göyyə kəndinin dağıdılması təşəbbüsü Axalkələk ermənilərinin daşnakçı şəhər rəhbərləri Markaryan və Ayvazyanın başçılığındakı milli şurasına məxsusdur. Elə bu şuranın qərarı ilə Usul-Xeçoya Axalkələkdən toplar verilmişdi. Elə bu toplarla dinc kəndi qorxutdular,... uşaq və qadınları süngülərə taxdılar, sağ qalanları isə əsir götürüb erməni kəndi Alastana apardılar.
>
> Bu, Ərdahan ermənilərinin qırğınına səbəb oldu, hansında ki, birbaşa kəndləri dağıdılmış, evləri viran qoyulmuş, bütün mal-mülkləri əllərindən alınmış, əkilib-səpilmiş tarlaları isə üç erməni kəndi arasında bölüşdürülmüş Göyyə müsəlmanları iştirak edirdi"[19].

Göyyə qətliamından düz bir ay sonra – 9 apreldə Axısqa qəzasının gürcülər yaşayan Saro kəndində Göyyə, Varevan, Tok və digər kəndlərin girov götürülmüş türk-müsəlman sakinləri ərdahanlı ermənilərlə dəyişdirilərək azad edilirlər.

---

[16] **Göyyə`də Türk Çağı** (hazırlayan: M.Kemaloğlu), RAF Yayınları, Ankara 2020, s. 55.

[17] Artyüş Sanosyan, **1918-ci ildə Axalsıx və Axalkələk qəzalarının özünümüdafiəsi**, "Hayastan" nəşriyyatı, İrəvan 1992, s. 144 (ermənicə); Kemaloğlu, **a.g.ə.,** s. 46-48.

[18] **Ermənistan Tarix Arxivi**, fond 114, siyahı 2, iş №3, vv. 122-134 (Bax: http://www.javakhk1915-23.com/index_en.php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, istifadə tarixi: 26.09.2018); **Ertoba (**gürcü dilində qəzet**)**, №248, Tiflis 16 noyabr 1918, s. 3.

[19] Droebit Cavaxeli, "Daşnakların qana bulanmış əlləri", **Ertoba**, №248, 16 noyabr 1918, s. 3.

Mübadilə yolu ilə Axalkələkdə əsirlikdən qurtulan Xosbiyyə sakini Əli Rəşid oğlu ifadəsində bildirirdi:

> "2/4/34-də (rumi təqvimi ilə 2 aprel 1334-cü il – miladi təqvimi ilə 2 aprel 1918-ci ildə) ermənilər Axalkələkin cənubunda Kolaksi (çox güman ki, Kulalis – F.V.) kəndinə getdilər və Çopurzadə Kamil, oğlu, qardaşı İlyas, İlyasın oğlu Əhməd və digər oğlu Gülməmməd, Yusufun oğlu Əli, Yusufun oğlu İsgəndər, İlyas oğlu Yəhya, Yəhyanın oğlu Hümmət, Qazının oğlu Abbas, Osmanın oğlu Əskər, hasomalı Dursun adında kimsələri qapılarının qarşısına gedib evlərindən çıxararaq qətl etmişdilər.
>
> 11/4/34-də (miladi 11 aprel 1918-ci ildə) Tok-Xertvisin şərqində qəryəli İsgəndər bəy adından kimsəyi Axalkələkdə həbsdən çıxartdılar və gözümün önündə qətl etdilər.
>
> Bundan başqa Varevan, Göyyə-Xertvis ətrafından, kəndlərindən bir çox müsəlmanı qətl etmişdilər"[20].

Erməni müəllif A.Sanosyan "1918-ci ildə Axalsıx və Axalkələk qəzalarının özünümüdafiəsi" kitabında Göyyə qətliamı barədə yazır:

> "Bakuryanlı osetinlərin də aktiv şəkildə iştirak etdiyi bir səhər hücumunda varlı ağaların yaşadığı türk kəndi yağmalandı. Hücum zamanı hər iki tərəfdən ölən və yaralananlar oldu. Ermənilər və müttəfiqləri tərəfindən 10 nəfər yaralandı və ya öldürüldü (alastanlı Peter Eroyan, Ağababe Avakyan və varevanlı Kürd Akon da öldürülənlər arasında idi). Türklərdən ölən və yaralananların sayı bilinmir. Bundan bir neçə ay öncə alastanlı özünümüdafiə birliklərinin komandanı Petuş Darbinyan tərəfindən qürurunu sındırdığı üçün öldürülən kokialı torpaq sahibi Məmməd bəyə aid torpaqların bu ay (aprelin əvvəli – F.V.) kəndlər arasında paylanılması ilə yanaşı, bəylərindən bəzilərinin öldürülməsi Kokia üçün böyük itkilər oldu.
>
> Kokialı əsirlər (qadın, uşaq və yaşlılar) qonşu kənd Alastanda öncə böyük bir çadır düşərgəyə, daha sonra məktəb binasına yerləşdirildi.
>
> Kokia, Varevan və Tok kəndlərindən əsir edilən türklər 9 aprel tarixində gürcü kəndi Saroda Ərdahan və digər yerlərdən gətirilən 1500 erməni əsir ilə mübadilə edildi.
>
> Kokia kəndindəki olaylar Axalkələkdəki digər türk kəndlərində də təkrarlandı. Kiçik Xosbiyyə, Kulalis kimi bəzi türk kəndlərinin əhalisi əsir alındı, qalanı isə qaçdı...

---

[20] **Askeri Tarih Belgeleri Dergisi**, № 83, sənəd №1937, s. 223, 225.

> Bu kəndlər talan edildi, amma Kokia qədər yox”[21].

> Göyyəli Xəlil ağa Kamaloğlunun (Xəlil ağa Kamalov*) xatirələrindən:

> “Seyfəddin və Ələddin ağabəylərimlə birlikdə dayım Dursun bəyin *[Sağamoylu Dursun bəy Həsənov – F.V.]* bizə təsis etdiyi dükanda *[Tiflisin Şeytanbazar məhəlləsində – F.V.]* yun ticarəti ilə məşğul olmağa başladıq. Bu sıralarda ermənilərin müsəlman-türk köylərini *[Cavaxetdə – F.V.]* basıb talan etdiklərinə dair acı xəbərlər aldıq... Əmizadə Əli ağa Şıxlinski Zaqafqaziya əsgəriyyəsində böyük mövqe-vəzifə sahibi idi. Yanına gedib ona durumu anlatdım. Bu sırada Göyyə köyünün də ermənilər tərəfindən basıldığını və babam Həsənpaşanın, əmizadələrindən Yusuf ağanın, Pirməmmədoğlu Məmmədin və kəndimizin digər öndə gələnlərinin toplu halda şəhid edildiklərini öyrəndik”[22].

Göyyə əsilli Bahadır Kamaloğlu babası Hüseyn ağanın Kor Həsənin oğullarından Namaz və Əlləz kişilər, babası Həsənpaşa və əmizadələrindən Yusuf ağa ilə birlikdə ermənilərlə danışıqlar aparmaq üçün Göyyənin şimal-şərqindəki Azarvet kəndinə elçilik heyəti olaraq gedərkən Göyyənin çıxışında silahlı ermənilər tərəfindən alnından vurularaq şəhid edildiyini söyləyir[23].

Göyyənin erməni qırğınından xilas olan sakinləri bir müddət sonra yerlə-yeksan edilmiş doğma kəndlərinə qayıtdıqları zaman ən elementar həyat şərtləri belə olmadığından böyük çətinliklərlə üzləşirlər və Azərbaycan Demokratik Respublikası (ADR) hökumətinə yardım üçün müraciət edirlər. Xəlil ağa Kamalovun Göyyə sakinləri adından ADR himayədarlıq nazirinə ünvanlandığı 21 oktyabr 1919-cu il tarixli məktubda bu barədə yazılırdı:

> “1918-ci ilin mart ayında ermənilər bizim kəndi mühasirəyə alıb güllələrlə atəş açmağa başladılar. Evlərin hamısını dağıtdılar, uşaq və qocalara rəhm etmədən kişi əhalinin demək olar ki, hamısını qətl etdilər. Əhalinin sağ qalan hissəsi müxtəlif istiqamətlərdə qaçaraq zorla başqa-başqa kəndlərə çata bildi. Orada da ermənilər bu qaçqınları öldürməyə və olub-qalanlarını qarət etməyə başladılar. Beləliklə bizim kəndin hər iki cinsə mənsub 800 sakinindən bəzi uşaqlarla birlikdə cəmi 40 dul, qoca qadın xilas oldu. Müxtəlif yerlərdə daldalandıqdan sonra bu bədbəxt dullar özlərinin tamamilə dağıdılmış, sığınmaq üçün evləri,

---

[21] Sanosyan, **a.g.ə.**; Kemaloğlu, **a.g.ə.,** s. 45.

* Xəlil ağa Kamaloğlunun fotoşəkli üçün bax: *Əlavə 2.*

[22] Kemaloğlu, **a.g.ə.,** s. 40.

[23] Kemaloğlu, **a.g.ə.,** s. 40.

qidalanmaq üçün çörəkləri, geyimləri olmayan kəndlərinə qayıtdılar...”[24].

Məktub-müraciətin davamında Axalkələk qəzasında fəaliyyət göstərən Amerika komissiyasının yalnız ermənilərə kömək etdiyini vurğulayan X.Kamaloğlu Azərbaycan hökumətindən yardım istəmək məqsədilə göyyəlilərin öz aralarından onu seçib Bakıya göndərdiklərini qeyd edir və çıxılmaz vəziyyətdə olan dul qadınlara, yetim qalmış uşaqlara un, paltar və pul yardımı göstərilməsini xahiş edir.

Xəlil ağa Kamalovun müraciəti ADR himayədarlıq nazirinin dərkənarı əsasında 8 noyabr 1919-cu il tarixli müşayiət məktubu ilə baxılması üçün Gürcüstandakı diplomatik nümayəndəyə göndərilir[25].

Qeyd edək ki, ADR-in Gürcüstandakı diplomatik nümayəndəliyində qeydiyyatdan keçmiş 18 noyabr 1919-cu il 4655 nömrəli sənəddən “Göyyə qaçqını” Xəlil ağa Kamalovun ADR Əkinçilik Nazirliyinin Dəftərxanasında işlə təmin olunduğu bəlli olur. Həmin sənəd X.Kamalovun dövlət qulluğuna qəbul olunduğu Bakı şəhərinə ev əşyalarının (tikiş maşını və s.) aparılması və 5 nəfərdən ibarət ailə üzvləri ilə birlikdə qaçqın vaqonunda ödənişsiz getməsinə icazə verilməsi xahişini özündə ehtiva edirdi[26].

Mətbuat səhifələrindən aydın olur ki, Göyyə qətliamı çox keçmədən ermənilərin öz aralarında məhkəmə çəkişməsinə səbəb olur. İv. Pnçikyan Tiflisdə ermənicə yayımlanan “Mşak” (tərcüməsi: “Zəhmətkeş”) qəzetinin 1918-ci il 119-cu sayında Axalkələk şəhərinin həmin dövrdəki başçısı M.Markaryanı “daşnak qəhrəmanı Usul Xeço” ilə birlikdə Göyyədə etnik təmizləmə aparmaqda ittiham edir. M.Markaryan böhtana görə Pnçikyanın hüquqi məsuliyyətə cəlb olunmasını tələb edir[27].

Göyyə-Ərdahan hadisələri ilə eyni zamanda Axısqa (Axalsıx) qəzasında da ermənilərlə müsəlmanlar arasında silahlı qarşıdurma yaranır. General Q.Arcevanidzenin komandanlığı altında gürcü hərbi birləşmələrinin qəzaya yeridilməsi toqquşmaların daha böyük miqyas almasını əngəlləyir. Adıçəkilən məqaləsində Axısqa hadisələrinə də ötəri nəzər yetirən D.Cavaxeli yazırdı: “Məhz bu dövrlərdə Axalsıxın civarlarında da belə mürəkkəb vəziyyət yaranmışdı və daşnak “zinvor”ları hər gün müsəlman qadın və uşaqlarını əsir götürüb Axalsıxa aparırdılar, sonra isə danışıqlar və həqiqi ticarət başlayırdı. Axalsıxın sabiq şəhər başçısı və hazırda Gürcüstan parlamentinin üzvü olan daşnak Zoryan yəqin ki, bu mənzərələri xatırlayır. O, daşnak “zinvor”larının qumbara ilə Axalsıx qalasına sığınmış müsəlman uşaq və qadınlara hücum etdiyini də xatırlamalıdır.

[24] **ARDA**, fond 897, siyahı 1, iş №26, v. 521; **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA)**, fond 276, s. 9, iş №9.
[25] **ARDA**, fond 897, siyahı 1, iş №26, v. 548-549.
[26] **ARDA**, fond 897, siyahı 1, iş №26, v. 550.
[27] **Возрождение**, №129, 3 июля 1918.

O zaman xalq qvardiyaçıları yetişməsə, Axalkələk kimi, burada da günahsız insanların qanı axıdılacaqdı”[28].

## Ərdahan olaylarının Zaqafqaziya Seymində müzakirəsi

Zaqafqaziya Seyminin 18 mart (köhnə tarixlə 5 mart) 1918-ci il tarixli iclasında Göyyə faciəsi barədə söz belə açılmadan Ərdahandakı vəziyyət müzakirə olunur. İclasın stenoqramı Tiflisin gürcüdilli mətbuatında – milli-demokrat yönümlü “Sakartvelo” qəzetində və sosial-demokrat yönümlü “Ertoba” qəzetində çap olunur[29]. Stenoqramdan bəlli olur ki, Zaqafqaziya Komissarlığının sədri Yevgeni Qeqeçkori iclasda Ərdahandan daxil olan depeşalara (təcili teleqramlara) əsaslanaraq bu şəhəri və ətrafındakı kəndləri müsəlmanların mühasirəyə aldığını və yerli xristian əhalini qırmaqla hədələdiyini bildirir, Seymi məsələ ilə bağlı görülə biləcək mümkün tədbirləri aydınlaşdırmağa çağırır. Y.Qeqeçkori çıxışında, həmçinin, Gümrü administrasiyasının Şörəyel mahalındakı Molla Musa kəndinə və digər müsəlman məntəqələrinə hökumətin icazəsi olmadan erməni dəstələri göndərdiyini Seym üzvlərinin nəzərinə çatdırır. Ondan sonra söz alan menşevik fraksiyasının üzvü Aleksandr Lomtatidze aralarında demokratiya cəbhəsinə qarşı işləyən daxili əlin olduğunu deyir və Ərdahana hücum edən qüvvələrə də xarici agentlərə bağlı bu əlin rəhbərlik etdiyini vurğulayır, onu xəyanətkar adlandırır və hökuməti ona qarşı ciddi ölçü götürməyə çağırır. Daşnak Arutyunyants oxşar hadisələrin eyni şəxslərin rəhbərliyi ilə Gəncədə və İrəvan quberniyasında da törədildiyini, bunun xəyanət olduğunu, sülh və ya silah yolu ilə, fərqi yoxdur, ona son qoyulmalı olduğunu deyir və Ərdahana istintaq komissiyasının göndərilməsini təklif edir. Sonra müzakirəyə müsavatçı Şəfi bəy Rüstəmbəyov, yenidən Y.Qeqeçkori və müsəlmanların sosialist blokundan Əlixan Qantəmirov, “İttihad” firqəsindən Sultan Məcid Qəniyev (Qənizadə) və müsavatçı Mustafa Mahmudov qoşularaq öz fikirlərini aşağıdakı ardıcıllıqla ifadə edirlər:

**Ş.Rüstəmbəyov**:

> “Ciddi tədbirlərin görülməsi ilə bağlı biz razılaşa bilərik, ancaq müvafiq sənədlər olmayınca, burada gizli əlin olduğunu qəti şəkildə söyləyə bilmərik. Biz menşeviklərin və daşnakların nümayəndələrinin yekun rəyi ilə razılaşa bilmərik. Qoy istintaq komissiyası yaradılsın və xəyanət barədə danışan şəxslər bu komissiyaya təsdiqləyici sənədlər təqdim etsinlər. Belə istintaq tədbirləri İrəvan quberniyasında da aparılsın. Onda bəlkə tarix göstərə, bu gizli əl sistematik şəkildə harada və necə işləyirdi. Mən bizim aramızda sülhün bərqərar olmasının qarşısını alan ustalaşmış əlin olduğu barədə menşeviklərin nümayəndələrinin fikrini bölüşmürəm. Ərdahandakına bənzər hadisələr Rusiyada da çox

[28] Cavaxeli, **a.g.m**.
[29] Bax: **Sakartvelo**, №51, 8 (21) mart 1918, s. 3; **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

> baş verir, orada da bütöv şəhərləri ələ keçirirlər və yandırırlar, ancaq sənədlər və faktlar olmayınca, xəyanət barədə danışmaq qeyri-mümkündür”[30].

Ş.Rüstəmbəyov nitqində Gümrü ətrafındakı türk-müsəlman kəndlərinə yerli hakimiyyət dairələri tərəfindən erməni silahlı dəstələrinin göndərilməsi məsələsinə də toxunaraq, belə dəstələri göndərmə səlahiyyətinə yalnız Zaqafqaziya hökumətinin malik olduğunu deyir.

**Y.Qeqeçkori:** “Müzakirə xüsusi hal aldı. Mən bəyan edirəm ki, hökumətdə burada danışılan nəticələrə gəlməyə imkan verən heç bir sənəd olmayıb və yoxdur. Ərdahan hadisələri barədə əlavə olaraq daha bir məlumatı diqqətinizə təqdim edim: Qarsdan oraya hökumətdən soruşmadan nizam-intizam yaratmaq üçün erməni-yunan cəza dəstəsi göndərilib”.

**Ə. Qantəmirov**: “Köhnə rejim və Kerenskinin* hakimiyyəti dövründə də müsəlmanları xəyanətdə günahlandırırdılar, ancaq bu düzgün deyildi. Müsəlman kəndlərində xəyanət yoxdur və sənədlər olmayıncaya qədər, onlara qarşı cəza dəstələrini göndərmək olmaz. İnqilabi təşkilatlar müsəlman kütlələrinin yeni hökumətə qarşı etimadını qazanmaq üçün heç nə etməyiblər. Başa salmayıblar ki, köhnə Rusiya yoxdur və yeni hökumət də onların əleyhinə deyil”[31].

Sonra natiq bir neçə nümunə gətirir və müsəlman kütlələrin yeni hökumətə etimad göstərməsinin mümkün olmadığını bildirir:

> “Qars vilayətində bu günədək bizim inqilabi təşkilatlar millətlərin öz müqəddəratını təyin etmə prinsipini həyata keçirməyiblər. 1914-cü ildə, müharibənin ilk dövründə Ərdahanı məhv etdilər, məscidini dağıtdılar, sakinlərini – müsəlmanları isə öz ev-eşiyindən çıxarıb didərgin saldılar. Onların yurd yerlərinə, evlərinə digərlərini – qeyri-müsəlmanları yerləşdirdilər. Bu gün müsəlman kəndlilər Ərdahanı alıblarsa, bununla onlar öz evlərini, öz mülklərini geri qaytarıblar. Çünki onların əllərindən alınanları geri qaytarmadılar və onlar zorla öz mülklərini qaytarmağa məcbur oldular. Bu isə xəyanət yox, ədalətdir (alqışlar və səslər: doğrudur!). Bu dövlət yox, yerli səviyyəli məsələdir. Müsəlman kəndlilər hamıdan çox inqilabın (1917-ci il Oktyabr çevrilişi nəzərdə tutulur – F.V.) qazanclarının təsdiq olunmasında maraqlıdır və həmrəylik göstərsək, anarxiyanın da sonu gələr”[32].

---

30 **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

* Aleksandr Kerenski (1881-1970) – 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabının öndərlərindən biri, 1917-ci ilin iyul ayından Oktyabr bolşevik çevrilişinədək Müvəqqəti hökumətin sədri – (F.V.).

31 **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

32 **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

**S.Qəniyev**: "Rüstəmbəyov sanki ittihamlara qarşı özünü doğrultmağa çalışırdı. Mən bununla razılaşmıram. Burada heç kəs müsəlmanlar haqqında danışmadı, kimsə xəyanətkardırsa, hökumət ona qarşı tədbir görməlidir".

**M.Mahmudov:**

> "Mən dünən Axalsıxdan qayıtdım. Orada müsəlmanlar və gürcülər arasında ixtilaf baş vermişdir. Anlaşılmazlığın səbəbi 116-cı alayın mal-mülkü idi. Zaqafqaziya Komissarlığının qərarı ilə bu mal-mülk bərabər şəkildə müsəlman və gürcü alayları arasında bölünməli idi. Bir müddət sonra Tiflisdən ikinci qərar gəldi ki, müsəlmanlara bu mal-mülkün yarısını verməyin. Bu halda Zaqafqaziya Komissarlığı hansı məcburiyyət altında qalaraq hərəkət edirdi, yoxsa bu həmin təşkilati qüvvənin işi deyildi? Müsəlmanlar Axalsıxda alay yaradıblar, Abastumanı qoruyurlar, ancaq hələ ki, silah almayıblar. Bəli, bizim aramızda müsəlmanların etimadsızlığını yaradan təşkilati qüvvələr var. Menşeviklər və daşnaklar əmin edir ki, burada təşkilati qüvvə fəaliyyət göstərir. Aydındır ki, bizi günahlandırırlar. Biz isə bütün müharibə boyu loyallığımızı qoruyurduq və əgər biz xəyanət etsək, rusun ordusu Qafqaz dağlarının o tərəfindən başını sıyırıb çıxarardı, necə ki, Sarıqamışdan Ərzuruma doğru çıxarmışdı"[33].

Bu çıxışlardan sonra yenidən söz istəyən A.Lomtatidze bütöv bir milləti ittiham etmədiklərini, Ərdahanda hər şeyin təşkilatlanmış şəkildə baş verdiyini deyir və Ə.Qantəmirovun nitqi üzərində dayanır: "Ərdahanda baş verənlər Qantəmirovun xoşuna gəlir, ancaq o demədi ki, onlar Osmanlı imperializminə qarşı gedəcəklər". Bu çıxışa cavab olaraq Ə.Qantəmirov A.Lomtatidzenin hadisələri düzgün təhlil etmədiyini söyləyərək müsəlman kəndlilərinin inqilabın hərarətini hiss etmədikləri barədə fikrini təkrarlayır.

Daha sonra Seymin üzvlərindən Nəsib bəy Usubbəyov, İ.Qobeçiya, İ.Ramişvili və İ.Tsereteli söz alaraq müzakirəyə qatılırlar.

**N.Usubbəyov** ("Müsavat") Ərdahan hadisələrini araşdırmaq üçün oraya təcili şəkildə nümayəndə heyətinin göndərilməsini tələb edir.

**İ.Qobeçiya** (sosialist-inqilabçı): "Bizdə Rusiyada baş vermiş hadisələr təkrarlanır. Burada kimisə ittiham etmək olmaz. Burada xəyanətkarlar yoxdur, əks halda bütün Zaqafqaziya məhv olardı. Ərdahana silahlı qüvvə yox, nümayəndə heyəti göndərilməlidir".

**İ.Ramişvili** (sosial-demokrat) çıxışında heç kəsin müsəlmanları günahlandırmadığını və müsəlmanlara qarşı cəza qüvvələrinin göndərilməsini dilinə gətirmədiyini

---

[33] **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

söyləyərək, 1905-ci ildə erməni-tatar qırğınını xatırladıqlarını, bunun da nə ermənilər, nə də tatarlar tərəfindən deyil, başqaları tərəfindən təşkil edildiyini, gürcü vilayətlərində baş vermiş qarışıqlıqda da, eşelonların sakinlərə hücumunda* da qara qüvvələrin əli olduğunu deyir: "Mən düşünürdüm ki, biz ümumiyyətlə anarxiyaya qarşı ölçü götürmək üzərində işləyəcəyik. Ancaq burada mövzu üzrə deyil, kim nə barədə istəyir, o haqda danışırdı. Aydın oldu ki, biz fərqli düşünürük"[34].

**İ.Tsereteli** (sosial-demokrat) də Ərdahanda xəyanət yox, anarxiya olduğunu deyir və ona qarşı ciddi tədbirlərin görülməsini tələb edir. İ.Tseretelinin çıxışından sonra müzakirələr bitir və menşeviklərin qətnaməsi qəbul olunur. Qətnamədə Seym hökumətə Osmanlı ilə həmsərhəd bölgələrdə anarxiyanın qarşısının alınması üçün təcili və qəti tədbirlər həyata keçirilməsini təklif edirdi[35].

Seymdəki müzakirələrdən göründüyü kimi, Zaqafqaziya Demokratik Federativ Respublikasının bu ali qanunverici orqanının bəzi daşnak və menşevik təmsilçilərinin Ərdahan müsəlmanlarını dövlətə və 1917-ci ildə baş vermiş inqilabın prinsiplərinə xəyanətdə suçlayıb hadisələrə siyasi don geyindirmək cəhdləri, eləcə də müsəlmanlara qarşı cəza tədbirləri görmək üçün bu şəhərə silahlı dəstələr göndərmək barədə təklifləri Seymin müsəlman deputatlarının sərt təpkisi ilə üzləşərək nəticəsiz qalır. Seymdə Müsəlman Sosialistlər Qruplarının üzvü Ə.Qantəmirov və müsavatçı M.Mahmudovun əsaslı nitqlərindən Ərdahan və Axısqa (Axalsıx) hadisələrinin əsl mətləbini müəyyən etmək mümkündür.

Göyyə qətliamı barədə susmağa üstünlük verən gürcü mətbuatı da Ərdahan və Şimal-Şərqi Anadolunun digər yaşayış məntəqələrindəki durum barədə xəbərlərlə mütəmadi olaraq öz oxucusunu bilgiləndirirdi. "Ertoba" qəzeti Qars vilayətinin komissarı Dzamoyevin Ərdahandan məlumatlarını yayımlayırdı. Qəzet 1918-ci il tarixli 54-cü sayında "Yeni xəbərlər" xronikasında Ərdahan vilayətində yaşayan xristianların müsəlman milli şurası vasitəsilə evakuasiya olunmasının zəruriliyini vurğulayaraq, Dzamoyevə istinadən yazırdı: "Merdenik və Ərdahan ətrafında şiddətli döyüşlər gedir. Tatarlar Qarsı ələ keçirmək istəyir. Hərbi vəziyyət elan olunub. Şəhərdə bütün hakimiyyət hərbçilərin əlindədir. Sarıqamışdan şəhər idarəsinin üzvü Şarafyan bildirir ki, məcburi köçkünlərin sayı günü-gündən artır və hazırda 10 min nəfərə yaxındır"[36].

Dzamoyev tərəfindən Daxili İşlər Nazirliyinin komissarı Qantəmirova 18 martda ünvanlanmış və "Ertoba"nın 1918-ci il tarixli 55-ci sayında dərc olunmuş məktubundan

---

* 5 (18) dekabr 1917-ci ildə imzalanmış Ərzincan andlaşması nəticəsində Birinci Dünya müharibəsinin Qafqaz cəbhəsindən öz vətənlərinə çəkilən rus əsgəri eşelonları Cənubi Qafqaz üzərindən keçən dəmiryolu xətlərindən istifadə edirdilər. Bu zaman dəmiryol stansiyalarında əsgərlərlə yerli sakinlər arasında toqquşmalar baş verirdi. Bu toqquşmalar sırasında Borçalı və Gəncəbasar türkləri daha çox insani itkilər vermişdi.

[34] **Ertoba**, №53, 6 (19) mart 1918, s. 3.

[35] **Ertoba**, №54, 7 (20) mart 1918, s. 2.

[36] **Ertoba**, №54, 7 (20) mart 1918, s. 2.

bəlli olur ki, Sarıqamışın hərbi komissarı vəzifəsinə milliyətcə erməni Arzumanov təyin olunubmuş[37]. Bu fakt Əhməd bəy Ağayev tərəfindən Seymin 20 mart tarixli iclasında narazılıqla dilə gətirilirdi:

"Mən Seymin üzvü Qrişa Arzumanovun (daşnak) Qarsın hərbi komissarı təyin olunması barədə eşitdim. Onun belə məsuliyyətli vəzifəyə təyin olunması qeyri-mümkündür, ən əsası ona görə ki, o, Seymin üzvüdür, ikinci də onun Şaumyana bağlılığı var..."[38].

Qeyd edək ki, "Sakartvelo" qəzeti Qars vilayətindəki vəziyyətə dair bəzi məlumatları Q.Arzumanova istinadən yayımlayırdı[39].

24 martda Ərdahan xristianlarının təmsilçiləri Tiflisə gəlib Y.Qeqeçkoriylə görüşürlər və təxliyə olunmaları üçün hökumətdənköməklik göstərilməsini istəyirlər. Onlara istəklərinin yerinə yetirilməsində yardım ediləcəyi barədə söz verilir[40]. Nəticədə Ərdahan ermənilərinin çoxu Axalkələyə və Axısqaya yerləşdirilir. Mətbuat səhifələrində Axısqaya gəlmiş bu ermənilərin dilindən Ərdahanda baş vermiş hadisələr zamanı Karatarov, Behiş bəy, Maçabeli adlı və ya soyadlı şəxslərin, Behzad bəy Abaşidzenin, Teymur bəy, Cəlal bəy və Aslan bəy Acaralıların orada olduqları, müsəlmanların başçılarından Hafiztikaneli, Qaraşarov,* Abaşidze soyadlı şəxslərin xalqı nizam-intizama səslədiyi bildirilirdi[41].

**Xosbiyyə müsəlmanlarının qətliamı**

Tiflisdəki erməni milli şurasının əslən cavaxetli fəal üzvü, Axalkələk qəzasının erməni icmasının idarə heyətinin katibi Poqos Abelyan Ermənistan Sovet Sosialist Respublikasının xalq xarici işlər komissarı Askanaz Mravyana sonuncunun istəyi əsasında hazırladığı 17 iyul 1921-ci il tarixli hesabat məruzəsində Cavaxetin tarixi və coğrafi mövqeyi barədə qısa məlumat verərək, 1918-ci ildə Axalkələk qəzasında baş vermiş hadisələrə də ardıcıllıqla, fəqət erməni təbliğatı prizmasından nəzər yetirirdi[42]. Bu hesabat hər nə qədər qərəzli şəkildə tərtib olunsa da, digər mənbələrlə müqayisəli təhlil prinsipi əsasında tarixi həqiqətlərin ortaya çıxarılması baxımından əhəmiyyət kəsb edir. P.Abelyanın Cavaxetin türk-müsəlman əhalisinin başına açılan zülmlər, xüsusən də Axalkələk qəza mərkəzinin yaxınlığında yerləşən Xosbiyyə kəndinin müsəlman gürcülərdən və qarapapaq tərəkəmələrindən ibarət olan əhalisinə qarşı ermənilərin törətdiyi qətliam barədə məlumatları önəmlidir. Xosbiyyə sakinlərinin məruz qaldığı amansızlıqlar barədə P.Abelyan aşağıdakıları açıqlayırdı:

---

[37] **Ertoba**, №55, 9 (22) mart 1918.
[38] **Ertoba**, №56, 10 (23) mart 1918, s. 3.
[39] **Sakartvelo**, №52, 9 (22) mart 1918, s. 3.
[40] **Ertoba**, №58, 13 (26) mart 1918, s. 2.
* Rza bəy Qaraşarlı – Azərbaycan Demokratik Respublikasının parlament üzvü olmuş, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qars-Ərdahan bölgəsində fəaliyyətinin tənzimlənməsində fəal iştirak etmişdir.
[41] **Sakartvelo**, №71, 1 (14) aprel 1918, s. 2.
[42] **Ermənistan Tarix Arxivi**, fond 114, siyahı 2, iş №3, vv.122-134 (http://www.javakhk1915-23.com/index_en.php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, istifadə tarixi: 26.09.2018).

> “Hakimiyyətin qayda-qanuna riayət etməyə dəvət etmədiyi xuliqanlıq edən yerli ünsürlər, erməni eserləri (sosialist-inqilabçılar – F.V.) və daşnaklarının (sonuncular daha nüfuzlu idilər) başçılığı altında həbsxanada oturan 300-400 türk əsirinin, əsasən də aralarında mülkədar nəsli Palavandovların da bütün üzvləri olan zənginlərin üstünə hücum edirlər, onların namusunu ləkələyirlər, qarət edirlər və hamısını evdə yandırırlar. Seym və Milli şura hadisələrin bu cür inkişafının qarşısının alınması üçün heç nə etmədilər”[43].

Xosbiyyə qətliamında əslən Çıldır gölü sahilində yerləşən Gerəşen (indiki Bozyiğit) kəndindən olub Xosbiyyədə məskunlaşmış Şərif ağa, onun kəndin imamı olan oğlu Molla Əbubəkir camaatı ilə bərabər məscidin önündə öldürülürlər[44].

D.Cavaxeli özünün “Daşnakların qana bulanmış əlləri” məqaləsində Xosbiyyə kəndinin sakinlərinin başına gətirilmiş müsibət – “bənzərini erməni-tatar nifaqı xatırlamayan böyük və tükürpədici vəhşilik” barədə də məlumat verərək, daşnakların əvvəlcə xosbiyyəlilərin hamısını, hətta məşhur xeyriyyəçi Məmmədəli bəy Palavandovu əsir götürüb Axalkələyə apardıqlarını və əksərini qəddarlıqla qətl etdiklərini yazırdı:

> “Axalkələk yaxınlığında qədim gürcü kəndi var – Xosbiyyə, harada ki, indi Palavandişvili soyadlı müsəlmanlaşmış gürcülər yaşayırlar. Daşnaklar bu kəndi bütünlükdə əsir götürüb Axalkələyə apardılar. Onlar məşhur xeyriyyəçi, o zaman Cavaxetin gürcü xeyriyyə cəmiyyətinin sədri olan və bütün mədəni ictimaiyyətə səxavətlə yardım göstərən Məmmədəli bəy Palavandovun özünə də mərhəmət etmədilər. Ötən il Axalkələkdə açılmış müsəlman gürcü uşaqlarının təhsil aldığı gürcü gimnaziyasının xərclərinin yarısını o çəkmişdir. Daşnaklar Palavandişvilinin ailəsini əsir götürdülər və onun mal-mülkünü talan etdilər. Bu, Batum sülh müqaviləsi ilə geri çəkilməyə məcbur olub iki qəzanı (Axısqa və Axalkələk qəzaları – F.V.) düşmənə (Osmanlı nəzərdə tutulur – F.V.) verənə qədər davam etdi. Məhz bu zaman indiyədək bənzəri görünməyən bir böyük vəhşilik baş verdi. Şəhəri (Axalkələyi – F.V.) boşaldana qədər xosbiyyəli müsəlmanları çıxarıb Axalkələk küçələrində başlarını kəsdilər”[45].

---

[43] **Ermənistan Tarix Arxivi**, fond 114, siyahı 2, iş №3, vv.122-134 (http://www.javakhk1915-23.com/index_en.php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, istifadə tarixi: 26.09.2018).

[44] Kemaloğlu, **a.g.ə.,** s. 50-51.

[45] Cavaxeli, **a.g.ə.**

Göründüyü kimi, P.Abelyan Xosbiyyə müsəlmanlarının yandırılaraq, gürcü müəllif D.Cavaxeli isə başlarının kəsilərək öldürüldüyünü yazırlar. İstənilən halda Xosbiyyənin müsəlman-gürcü və türk-azərbaycanlı əhalisinin insanlıq çərçivəsinə sığışmayan vəhşiliklə və qəddarlıqla qətliama məruz qaldığı bəlli olur.

Daşnakların xosbiyyəlilərdən yalnız Məmmədəli bəy Palavandovu və ailəsini öldürməyərək şəhərdən çıxardıqlarını qeyd edən D.Cavaxeli onların gürcülər tərəfindən xilas edilərək Tiflisə göndərildiyini bildirir, məqaləsinin davamında Xosbiyyədə törədilmiş vəhşiliklərin sonradan Axalkələk qəzasının erməni əhalisini didərgin salıb “Bakuryan meşələrində aclıqdan-soyuqdan qəbirədək gətirdiyini” söyləyirdi:

> “Bütün bunlardan sonra qəza sakinləri qorxudan öz kəndlərində qala bilmədilər, intiqamdan qorxurdular. Ona görə kor xalq tərpəndi, özünün qidasını-yemini atıb Bakuryan meşələrində və Tsalka civarlarında daldalandı. Markaryan-Ayvazyanlar isə vaxtında gizlənə bildilər. Həyəcanlanmış xalq onları yaman axtarırdı. Onlar isə ermənilərin nümayəndələrinin sonradan Bakuryanda xalqı dəhşətli vəhşiliyi törədənləri axtarıb tapmağa və cəzalandırmağa çağırmasına baxmayaraq, indi Tiflis küçələrində sərbəstcə gəzirlər”[46].

Xosbiyyə qətliamının törədildiyi gün ilə bağlı təqdim etdiyimiz mənbələrdə fərqli tarixlər qeyd olunur. Dr. Xoroşenko raportunda qətliamın Osmanlı ordu birliklərinin sərhədyanı Karsak kəndində döyüş mövqeyi tutduğu zaman – 21 may 1918-ci ildə, D.Cavaxeli isə Batum sülh müqaviləsinin[*] şərtləri əsasında türk əsgərlərinin Axalkələk qəza mərkəzinə gəlişinə qədər, yəni 4-5 iyun 1918-ci ildə baş verdiyini yazırdı. Zənnimizcə, Xoroşenkonun göstərdiyi tarix daha məntiqə uyğun və dəqiqdir.

### Gürcü mətbuatı cavaxetli erməni qaçqınlar barədə

Axalkələk qəzasında müsəlmanlara qarşı həyata keçirilən etnik təmizləmələr Şimal-Şərqi Anadoluda ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində uğurlu əməliyyatlar aparan Osmanlı ordu birliklərini 4 iyun 1918-ci ildə imzalanmış Batum andlaşmasının şərtlərinə görə rəsmən onlara məxsus olan bu qəzaya doğru vaxt itirmədən yön almağa sövq edir. 5 iyunda Osmanlı ordusunun VI korpusunun iki həftədən çox Karsak kəndində mövqe tutub əmr gözləyən 123-cü alayı Axalkələk qəza mərkəzini ələ

---

[46] Cavaxeli, **a.g.ə.**

[*] 1918-ci ilin 11 mayında Batumda Osmanlı Dövləti ilə Zaqafqaziya (Məvareyi-Qafqaz, Transqafqaz) Demokratik Federativ Respublikası arasında başlayan danışıqlar 4 iyunda sülh müqaviləsinin imzalanması ilə yekunlaşır. Bu müqavilə Osmanlı ilə Cənubi Qafqazda yeni yaranan üç dövlət – Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan Demokratik Respublikası və Ararat Respublikası arasında imzalanır. Batum andlaşmasına görə Əlviye-i Selase (Batum, Qars və Ərdahandan ibarət olan üç sancaq) rəsmən Osmanlıya qaytarılır, Osmanlı-Gürcüstan sərhədi Çolok çayı, Abastuman və Azqurun cənubundan keçir və beləliklə, Axısqa və Axalkələk qəzaları da (Azqur və Abastuman istisna olmaqla) Osmanlı hakimiyyəti altına verilir.

keçirir. Bundan sonra müsəlmanlara qarşı qeyri-insani davranışların, törətdikləri amansız qətliamların cavabsız qalmayacağından ehtiyat edən qəzanın erməni əhalisi heç bir zorakılıq tətbiq olunmadan kütləvi şəkildə öz ev-eşiklərini atıb Borjom-Bakuryan meşələrinə, Tsalka (Barmaqsız, Trialet) dağlarına qaçırlar. Qışın başlanğıcına qədər dağlarda daldalanan bu qaçqınlar soyuqların düşməsi və yayılmış xəstəliklər səbəbindən ağır fəlakətlə üzləşirlər. Erməni ictimaiyyəti və mətbuatı buna görə Gürcüstan Demokratik Respublikasının (GDR) hökumətini kəskin ittiham edir.

Məhz bu ittihamlar "Droebit Cavaxeli" imzalı müəllifi 1918-ci ilin mart-iyun aylarında Axalkələk qəzasında və Ərdahanda baş vermiş faciələrdən xeyli sonra onların üzərindən sirr pərdəsini götürüb həqiqəti üzə çıxaran, haqqında bəhs etdiyimiz "Daşnakların qana bulanmış əlləri" sərlövhəli irihəcmli məqalə* ilə çıxış etməyə, "Ertoba" qəzetini isə nəhayət ki, biganəliyini pozaraq bu məqaləni özünün 16 noyabr 1918-ci il tarixli sayında çap etdirməyə vadar edir.

P.Abelyan yuxarıda istinad etdiyimiz hesabat məruzəsində Osmanlı qüvvələrinin 1918-ci ilin iyun ayında Axalkələyə gəlişi məsələsinə toxunaraq, oradakı silahlı erməni dəstələrinə komandanlıq edən polkovnik Arakelyanın türk əsgərlərinin görünməsi ilə Bakuryan istiqamətində ilk qaçanlar arasında olduğunu bildirirdi. P.Abelyanın sözlərinə görə, onun özü Tiflisdən Axalkələyə osmanlılardan 2 gün əvvəl erməni-müsəlman bloku və icmalarının nümayəndəsi** qismində xalqlar arasında sülhün yaradılması missiyası ilə gəlmiş, Axalkələkdəki erməni ziyalılarının rəhbərinin və Tiflisdəki erməni milli şurasına tabe olan polkovnik Arakelyanın fərariliyindən sonra on minlərlə əhalinin təhlükəsiz şəkildə qəzanı tərk etməsi üçün rus kapitan Reznikov ilə birlikdə 2-3 gün türk əsgərlərinə müqavimət göstərilməsini təşkil etmişdir.

1918-ci il may ayının sonunda Borcom şəhərindən teleqrafla GDR hərb naziri Qiorqi Qeorqadzeyə Axalkələyi tərk etmiş erməni silahlı dəstələrinin yalnız gürcülərin səyi nəticəsində geri qaytarılması barədə məruzə edilirdi: "Qəzetlərdə Axalkələk qəzasının guya ki, türklər tərəfindən tutulduğu barədə məlumat yayılıb... Bu məlumat yəqin ki, erməni qoşunlarının şəhərdə hər şeyi atıb dağılışması nəticəsində Axalkələkdə yayılmış panika ilə bağlıdır. Bizim Saro-Kilda-Qoqaşen xəttindəki dəstəmiz öz mövqelərini tərk etməmiş və erməni qoşunlarını Axalkələyə qayıtmağa məcbur etmişdir"[47].

P.Abelyan Axalkələyi fəth edən Osmanlı hərbi birləşmələrinin 1000-2000 arası əsgərdən ibarət olduğunu vurğulayaraq, qəzanı sayı elə də çox olmayan türk əsgərlərindən qoruya bilməməkdə polkovnik Arakelyanla bərabər GDR hökumətini günah-

---

* Məqalənin tam tərcüməsi üçün bax: *Əlavə 1.*

** Bölgələrdə anarxiyanın qarşısının alınması məqsədilə birgə müsəlman-erməni bürosunun yaradılması Müstəqil Zaqafqaziya Hökumətinin – Zaqafqaziya Komissarlığının ticarət və sənaye naziri Məmməd Yusif Cəfərovun başçılığı altında müsəlmanların və ermənilərin Tiflisdə keçirilən toplantısında qərara alınmışdır (Bax: **Sakartvelo**, №10, 13 (26) yanvar 1918).

[47] **Возрождение**, №104, 1 июня 1918.

landırırdı. O, gürcü hökumətini, həmçinin, Bakuryan sərhədində qaçqınların silahlarını əllərindən almaqda və "türk bozqurdu" qarşısında müdafiəsiz buraxmaqda, onlar arasında qayda-qanunu tənzimləmək üçün göndərdiyi milislərin isə əksinə talançılıq etməsinə, eləcə də Tiflis və Kutais alverçilərinin və qəssablarının fürsətdən yararlanaraq, öz mallarını bazara çıxara bilməyən qaçqınların hesabına qazanc əldə etməsinə şərait yaratmaqda ittiham edirdi.

Hesabatında Osmanlı diplomatik nümayəndəsi Əbdül Kərimlə* görüşdüyünü və ondan qaçqınların Axalkələk qəzasına geri dönməsinə şifahi razılıq aldığını ifadə edən P.Abelyan buna rəğmən, GDR hökumət dəftərxanasının rəhbəri Kojuxovun GEMŞ nəzdindəki qaçqınların məsələləri üzrə ali şuraya ünvanlandığı məktubda Gürcüstanda ərzaq böhranının yarandığını və guya ki, Osmanlı hökumətinin qaçqınların qayıtmasının qəti əleyhinə olduğunu bildirdiyini, bu səbəbdən onları Şimali Qafqaza köçürməyi təklif etdiyini yazırdı. O, bununla gürcü hökumətinin Axalkələyi ermənilərsiz əldə etmək istədiyini sözlərinə əlavə edirdi.

P.Abelyan, həmçinin, küyə düşərək ermənilərlə birlikdə öz kəndlərini tərk etmiş gürcülərin Qarayazı qışlaqlarına yerləşdirildiyini, ermənilərə isə Bakuryan və Tsalka sərhədlərindən kənara çıxmağa icazə verilmədiyini qeyd edərək oktyabr ayından etibarən düşən kəskin soyuqlar nəticəsində çox sayda qaçqının həyatını itirməsində GDR hakimiyyətini ittiham edirdi. O, bu fəlakətin qaçqınları qida və isti paltarla təmin etmədikləri üçün Gürcüstan ermənilərinin milli şurasının da vicdanına düşdüyünü dilə gətirərək, qaçqınlar Axalkələyə qayıdandan sonra onlar üçün nəzərdə tutulmuş ərzaq və geyimlərin anbarlardan çıxarılıb satıldığını bildirirdi.

Qeyd edək ki, gürcü mətbuatı Axalkələk qəzasından və digər bölgələrdən olan qaçqınların durumunu daim diqqət mərkəzində saxlayırdı. "Sakartvelo" qəzetinin 1918-ci il 6 avqust tarixli sayında qəzanın gürcü qaçqınlarının Gürcüstanın müxtəlif bölgələrinə yerləşdirilməsi ilə bağlı Torpaq məsələləri üzrə Nazirliyə sorğu göndərildiyi barədə məlumat verilirdi. Qəzet həmin buraxılışında erməni qəzetlərinin artıq intonasiyalarını dəyişdiyini və öz səhifələrində indi "gürcülərlə həmrəylik vacibdir", "Gürcüstan məzlum erməni millətinin min bir ehtiyacdan və qırğından başını qurtara biləcəyi yeganə dövlətdir" və s. kimi ifadələrə yer ayırdığını yazırdı. Bütün bunların erməni mətbuatında gürcülərə qarşı təhqirlərdən və "yıxıb-sürümələrdən" sonra baş verdiyini qeyd edən "Sakartvelo", bu mövqe dəyişməsinin səmimiliyinə inanmır, "növbəti xoşagəlməz nəyinsə hazırlandığını və bunun şirin sözlər altında pərdələndiyini" güman edirdi[48].

* Osmanlı diplomatik missiyasının səlahiyyətli nümayəndələri Əbdül Kərim Paşa və Məmməd Əli Paşanın, eləcə də missiyanın xidməti əməkdaşlarının Tiflisə gəlişi barədə "Sakartvelos Respublika" qəzetinin 1918-ci il 5 sentyabr tarixli sayında məlumat verilirdi.

[48] **Sakartvelo**, №154, 6 avqust 1918, s. 3.

"Sakartvelo" 1918-ci il 27 avqust tarixli sayında 5000 erməni qaçqınının Tiflisin Ortacala məhəlləsində yerləşdirildiyini və həmin məhəlləyə yaxınlarda qaçqınların yeni qrupunun gələcəyini yazırdı[49].

Rəsmi dövlət qəzeti olan "Sakartvelos Respublika" 1918-ci il 10 oktyabr tarixli sayında Borçalı qəzasının gürcü kəndlərinə (Qələmçə, Mica, Bosleb və s.) çox sayda axalsıxlı və cavaxetli gürcü qaçqının sığındığı barədə məlumat dərc edirdi[50].

Ermənilər də Borçalı qəzasında məskunlaşmağa can atırdılar. Axalkələk erməni icmasının gürcü və erməni hökumətlərinə, Osmanlı və Ermənistanın Gürcüstandakı diplomatik nümayəndələrinə, GEMŞ-ə və Amerika Xeyriyyə Komitəsinə ünvanlandığı müraciətdə Gürcüstan hökuməti tərəfindən Axalkələk qaçqınlarının əvvəlcə Şimali Qafqaza, son zamanlarda isə 2/3-nin Ermənistana köçürülməsinin təklif olunduğu, ancaq Ermənistanın bunun üçün imkanları olmadığı vurğulanır və hazırkı məqamda vəziyyətdən ən uyğun çıxış yolunun onların Borçalı qəzasının tərk edilmiş erməni və müsəlman kəndlərində yerləşdirilməsindən ibarət olduğu bildirilirdi[51].

"Sakartvelos Respublika" qəzeti 1918-ci il 5 sentyabr tarixli sayında Tiflisdə yayımlanan "Mşak" erməni qəzetinə istinadən 40 min Axalkələk qaçqınından 1500-nün Borçalı qəzasına – Ağbulağa gələrək keçmiş rus ordu kazarmalarında yerləşdiyi barədə məlumat yayımlayırdı. Məlumatdan bəlli olur ki, Ağbulağın yerli hakimiyyət orqanları bu kazarmaların gürcü ordusuna lazım olduğu üçün boşaldılmasını tələb edir. Cavabında qaçqınların səlahiyyətlisi kazarmaların sayının həm ordu bölmələri, həm də qaçqınlar üçün yetərli olduğunu və gürcü yerli hərbi hissələrinin komandanı polkovnik Saqinaşvili ilə görüşüb məsələ barədə razılığa gəldiyini deyir[52]. Qeyd edək ki, "Sakartvelos Respublika" öz səhifələrində yenə də "Mşak"a istinad edərək Qars və Aleksandropol vilayətindən olan erməni qaçqınlarının böyük hissəsinin Kuban və Stavropol vilayətlərində məskunlaşması barədə xəbər dərc edirdi[53].

Ermənilərin Çar Rusiyasının son dövrlərindən etibarən Borçalı və Axalkələk qəzaları ərazilərinə irəli sürdükləri torpaq iddiaları Gürcüstan 1918-ci ilin 26 may tarixində müstəqilliyini elan etdikdən sonra da davam edirdi. Ermənistan (Ararat) Respublikasının Gürcüstandakı diplomatik nümayəndəliyinin rəhbəri Arşak Camalyan öz hökumətinin ona verdiyi səlahiyyət əsasında Gürcüstan Demokratik Respublikasının xarici işlər nazirinə aşağıdakı məzmunda nota göndərmişdi: "Keçmiş Borçalı qəzasının Lori rayonunu Ermənistan hökuməti Gürcüstanın ərazisi hesab etmir və ona görə o, Gürcüstanın bu rayonda qaçqınların yerləşdirilməsinin qadağan olunması barədə qərarını

---

[49] **Sakartvelo**, №170, 27 avqust 1918, s. 2.
[50] **Sakartvelos Respublika** (gürcü dilində qəzet), №62, Tiflis 10 oktyabr 1918, s. 5.
[51] **Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Arxivi**, Leo adına fond 1, siyahı 1, iş №264, vv. 1-2 (http://javakhk1915-23.com/index_en.php?rpage=http://javakhk1915-23.com/J15-23_docs /J15-23_docs_ to _turkish_military_ru.html, istifadə tarixi: 26.09.2018).
[52] **Sakartvelos Respublika**, №34, 5 sentyabr 1918, s. 6.
[53] **Sakartvelos Respublika**, №20, 18 avqust 1918, s. 4.

tanımır. Əgər Gürcüstan hökuməti bu köçürülməni yenə də qadağan etsə, Ermənistan hökuməti bunu zorakılıq və hüquqa zidd akt hesab edəcək”[54].

Axalkələk erməni icmasının idarə heyətinin sədri V.Oqancanovun Gürcüstan hökumətinə və GEMŞ-ə ünvanlanmış, “Kavkazskoye slovo” qəzetinin 27 oktyabr 1918-ci il tarixli sayında dərc olunmuş müraciətində soyuqların düşməsi ilə əlaqədar qaçqınların üzləşdiyi problemlərə diqqət yönəldilir və onların tezliklə öz evlərinə dönmələri üçün köməklik göstərilməsi xahiş olunurdu[55].

1918-ci ilin noyabr ayında qaçqınların Axalkələyə dönüşünə razılıq verilir. GEMŞ-in 26 noyabr 1918-ci ildə Tiflisdə keçirilmiş iclasında bununla bağlı Barmaqsız bölgəsinin Beştaşen kəndindən göndərilmiş teleqram oxunur. Teleqramda Cavaxet ağalarından Məhəmməd Hidayət oğlu, Ağa Əbdül-Əziz və Yusuf ağa Yaradanquluyevin rus dilində yazdıqları və duxoborlar vasitəsilə çatdırdıqları məktubda qaçqınlar üçün Rodionovka kəndində qəbul məntəqəsinin yaradıldığının bildirildiyi qeyd olunurdu[56]. Eyni zamanda Ararat Respublikasının Xarici İşlər Nazirliyi Osmanlının Gürcüstandakı diplomatik nümayəndəliyinin əməkdaşı Məmməd Əli Paşanın teleqramına istinadən GMEŞ-ə bildirir ki, osmanlılar qayıdan qaçqınları Axalkələk sərhədində qəbul etmək üçün komissiya yaradıblar[57].

Məsələ ilə bağlı general A.Makaşvili tərəfindən də GEMŞ-ə teleqram ünvanlanır. Bu teleqrama istinadən özünün Cavaxet qaçqınları üzə səlahiyyətli nümayəndəsi Torosyantsı xəbərdar edir ki, osmanlılar qaçqınların Axalkələk qəzasına qayıtmasına və qəzanın sərhəd kəndlərində deyil, mərkəzi ərazilərində məskunlaşmasına icazə verirlər[58]. Axalkələyə qayıdış şəhadətnamələrini kapitan Kandelaki verir.

***Nəticə***

Göründüyü kimi, daşnakların Axalkələk qəzasında müsəlmanlara qarşı həyata keçirdikləri dəhşətli vəhşiliklər və qırğınlar axalkələkli erməni qaçqınların Trialet dağlarında faciəsi ilə nəticələnir. Ancaq buna rəğmən, erməni millətçiləri cavaxetli soydaşlarının üzləşdikləri problemlərdə əsas səbəbkar kimi həqiqətə uyğun olaraq özlərini yox, digərlərini, o cümlədən 1918-ci ildə GDR hökuməti tərəfindən Axısqa-Axalkələyin general-qubernatoru təyin edilmiş Abel (Balo) Makaşvilini (Makayev) görürdülər və onun “Daşnaksutyun”un çıxardığı ölüm hökmü ilə 1920-ci ildə Bakıda güllələndiyini bildirirdilər[59]. Mənbələrdən A.Makaşvilinin Azərbaycan sovet işğalına məruz qalandan

---

[54] **Sakartvelo**, №206, 30 oktyabr 1918.
[55] **Кавказское слово**, №231, Тифлис 27 октября 1918.
[56] **Борьба (газета)**, Тифлис 30 ноября 1918.
[57] **Sakartvelo**, №226, 24 noyabr 1918, s. 2.
[58] **Sakartvelo**, a.g.s., s. 2.
[59] **Ermənistan Tarix Arxivi**, fond 114, siyahı 2, iş №3, v.122-134 (http://www.javakhk1915-23.com /index _en. php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, istifadə tarixi: 26.09.2018).

sonra, 14 iyun 1920-ci ildə Fövqəladə Komissiyanın ("ÇK") qərarı ilə antisovet fəaliyyətində ittiham olunaraq ölüm hökmünə məhkum edildiyi, hökmün məhkumun əl-ayağı bağlı şəkildə Xəzər dənizinə atılaraq icra olunduğu aşkarlanır[60].

Qeyd edək ki, A.Q.Makaşvili 1919-cu ilin avqust ayından etibarən Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri S.Mehmandarovun 354 nömrəli əmri ilə Cümhuriyyət ordusuna xidmətə götürülmüş, I piyada diviziyasının rəis müavini, eyni zamanda Xankəndi qarnizonunun rəisi vəzifəsinin icraçısı təyin olunmuşdur. O, daha sonra II piyada diviziyasının rəis müavini, 1920-ci ilin mart ayında isə Gəncə hərbi məktəbinin müdiri və mühəndis-istehkam sahəsinin rəisi vəzifəsini tutmuşdur[61].

Antanta blokunun Birinci Dünya Müharibəsində qalibiyyəti nəticəsində 30 oktyabr 1918-ci ildə Osmanlı ilə Antanta dövlətləri arasında bağlanmış Mondros (Mudros) müqaviləsinin şərtlərinə əsasən, düz 6 ay sonra – 5 dekabr 1918-ci ildə Osmanlı ordu birləşmələri Axalkələkdən çəkilərək öz mövqeyini gürcü hərbi hissələrinə təhvil verir. 5 dekabr səhər saat 10-da general-mayor A.Makaşvilinin komandanlığı altında gürcü hərbi birləşmələri Axalkələyə daxil olurlar[62]. Çox keçmədən Axalkələk və Borçalı qəzalarına iddialarından əl çəkməyən Ararat Respublikası bu əraziləri silah gücü ilə işğal etmək qərarına gəlir və Gürcüstana qoşun yeridir. Beləliklə, Borçalı və Axalkələk uğrunda Gürcüstan-Ermənistan müharibəsi başlanır.

1918-ci il Gürcüstan-Ermənistan müharibəsinin başlıca səbəbi, həmçinin yuxarıda da qeyd olunduğu kimi, Rusiya İmperiyasının süquta yaxın dövrlərindən etibarən erməni millətçi təşkilatlarının Axalkələk qəzasını Aleksandropol quberniyasına birləşdirmək çabaları belə bir nəticəyə gəlməyə əsas verir ki, bu qəzada ermənilərin türk-müsəlman (azərbaycanlı və gürcü) əhaliyə qarşı həyata keçirdikləri soyqırımı cinayətləri etnik dözümsüzlüklə yanaşı, qəzanın gələcəkdə əhalisi əsasən ermənilərdən ibarət olan inzibati-ərazi vahidinə (quberniya, respublika və s.) asanlıqla, maneəsiz birləşdirilə bilməsi üçün monoetnik bölgə yaratmaq məqsədindən qaynaqlanırdı.

***Əlavə 1***

**Daşnakların qana bulaşmış əlləri[63]**

Bu gün erməni qaçqınlarla bağlı baş verənlər daşnakların elə başdanca yürütdükləri məhvedici siyasətin, sona yetməyən təxribatlarının birbaşa davamıdır. Daim silah dınqıltısı, qan ehtirası və sonra sıxışdırılmış, təqib olunmuş mantiyasına bükülməsi, bütün dünyanın qarşısında özlərini yazıqlatmaları – bax, erməni xalqının başçılarının tutduğu

---

[60] http://www.nplg.gov.ge/emigrants/ka/00000695/ (Gürcüstan Parlamentinin Milli Kitabxanasının rəsmi veb-saytı), istifadə tarixi: 08.10.2018.

[61] **Адрес-календарь Азербайджанской Республики**, Издание Министерства призрения, Баку 1920, с.303; **Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документы и материалы)**, "Azərbaycan" nəşriyyatı, Баку 1998, с. 278.

[62] **Sakartvelo**, №234, 1918, 7 dekabr, s.2.

[63] **Ertoba**, №248, 16 noyabr 1918, s.3.

yol budur, verilən çoxlu dərslərə baxmayaraq bu gün də ənənələrinə xəyanət etmirlər, bu gün də qana bulaşmış əlləri axtarmağa başlayırlar.

Bir həftədir ki, daşnaklar Axalkələyin erməni qaçqınlarının geri qayıtması ilə bağlı bütün əndazələri aşan iyrənc təxribatlar törədirlər. Dəqiqliklə hadisələrin inkişafını bilməyən düşünəcək ki, Gürcüstan hökuməti doğrudan da qorxunc yol tutub və erməni xalqının bədbəxtçiliyi üçün hələ ölçülər də götürüb.

Axalkələyin qaçqınlar məsələsi və bu insanların yerdəyişmə səbəbləri indi də bizim ictimaiyyət üçün naməlumdur. Nə hökumət, nə də ictimai təşkilatlar qəzanın bütün əhalisinin köçmə səbəbinin nə olduğunu bilmirlər.

Biz, Batum sülh müqaviləsinə qədər bu bölgələrdə işləyənlər indi də həqiqəti deməmişik, hələ bədbəxtçiliyin səbəblərini müzakirə etməmişik və ola bilər ki, bu, xalq qarşısında böyük cinayətdir. Ola bilər ki, unudulmaz yaddaşımız bu günədək sükutumuzu labüdləşdirirdi. Ancaq biz fikirləşirdik ki, o zamanlar bunun deyilməsi, oda neft tökülməsinə səbəb ola bilərdi, onsuz da cücərmiş milli qisası daha da cücərdərdi və yeni qan tökülməsinə gətirib çıxarardı.

Bu gün isə, bir halda ki, daşnaklar öz günahlarında bizi ittiham edirlər və bununla xalqın qəzəbindən yaxa qurtarmaq istəyirlər, hər şeyi deməyə, Axalkələk kəndlilərinin kürəyi arxasında gizlənən dəhşətli məxfilik pərdəsini qaldırmağa məcburuq. Bəlkə Zoryanların* özləri bu mənzərələri – özünün də sıx əlaqədə olduğu yoldaşlarının orada nə etdiklərini xatırlayalar.

Oxucular xatırlayar ki, Zaqafqaziya seymində müzakirəyə bir dəfə Ərdahan ermənilərinin qırğını barədə məsələ daxil edilmişdi və müsəlmanların törətdiyi bu vəhşi hərəkətlər hamı tərəfindən qınanmışdır. Hər şeyin özünün yaranma səbəbləri var və burada da qan tökülməsinin astarı başqa yerdə idi. Mən bəyan edirəm ki, Ərdahan qanlı hadisələri Axalkələk qəzasında daşnakların törətdiklərinin birbaşa nəticəsi idi. Ərdahan fəlakətindən düz bir həftə qabaq Axalkələk daşnakları gürcü müsəlmanların (Gürcüstan müsəlmanlarının – F.V.) yaşadığı tarixi Göyyə kəndini tar-mar etdilər. Burada Zoryanın yaxşı tanıdığı, öz “zinvorları”nın (daşnak döyüşçülərinin – F.V.) köməyi ilə kəndi mühasirəyə alıb viran qoyan, qadınların və uşaqların əsir götürülməsini, kəndin isə yerlə bir edilməsini əmr edən Usul-Xeço fəaliyyət göstərirdi. Bax beləcə də etdilər. Qədim Mesxetin onsuz da bir neçə dəfə dağıdılmış tarixi kəndini bir dəfə yenə dağıtdılar. İndiyədək onu Osmanlı “ordaları” dağıdırdılar, indi isə daşnaklar. Mən xüsusi qeyd edirəm ki, Göyyə kəndinin dağıdılması təşəbbüsü Axalkələk ermənilərinin daşnakçı şəhər rəhbərləri Markaryan və Ayvazyanın başçılığındakı milli şurasına məxsusdur. Elə bu

* 1918-ci ildə Axalsixin şəhər başçısı olmuş daşnak Zori Zoryan Gürcüstan Demokratik Respublikasının Müəssislər Məclisinin (parlamentinin), bolşevik işğalından sonra isə inqilabi komitənin (revkom) üzvü olmuşdur. O, Gürcüstan-Ermənistan müharibəsi zamanı bir neçə dəfə həbs edilsə də, tezliklə azadlığa buraxılmışdır. 1927-ci ildə antidövlət fəaliyyətində ittiham olunaraq sürgün edilmiş Z.Zoryan 1943-cü ildə Tiflisdə avtomobil qəzası nəticəsində ölmüşdür – (F.V.).

şuranın qərarı ilə Usul-Xeçoya Axalkələkdən toplar verilmişdi. Elə bu toplarla dinc kəndi qorxutdular və kişilər qaçaraq canlarını qurtararkən, uşaq və qadınları süngülərə taxdılar, sağ qalanları isə əsir götürüb erməni kəndi Alastana apardılar.

Bu, Ərdahan ermənilərinin qırğınına səbəb oldu, hansında ki, birbaşa kəndləri dağıdılmış, evləri viran qoyulmuş, bütün mal-mülkləri əllərindən alınmış, əkilib-səpilmiş tarlaları isə üç erməni kəndi arasında bölüşdürülmüş Göyyə müsəlmanları iştirak edirdi.

Sonradan bütün müsəlman kəndlərinin ayağa qalxmasına və ardı-arası kəsilməyən qırğına səbəb olan fəlakət buradan başladı. Məhz bu dövrlərdə Axalsıxın civarlarında da belə mürəkkəb vəziyyət yaranmışdı və daşnak "zinvor"ları hər gün müsəlman qadın və uşaqlarını əsir götürüb Axalsıxa aparırdılar, sonra isə danışıqlar və həqiqi ticarət başlayırdı. Axalsıxın sabiq şəhər başçısı və hazırda Gürcüstan parlamentinin üzvü olan daşnak Zoryan yəqin ki, bu mənzərələri xatırlayır. O, daşnak "zinvor"larının qumbara ilə Axalsıx qalasına sığınmış müsəlman uşaq və qadınlara hücum etdiyini də xatırlamalıdır. O zaman xalq qvardiyaçıları yetişməsə, Axalkələk kimi, burada da günahsız insanların qanı axıdılacaqdı.

O zaman bu bir başlanğıc idi. Məsələ get-gedə qəlizləşirdi. Bəylər gizlicə Osmanlını dəvət etməyə hazırlaşırdılar və "əsgərlərə" yardım etmək üçün yerli dəstələr yaradırdılar. Cavaxetin gürcü dəstəsi öz kəndlərinin xəttində dayanırdı və öz qapı civarlarını mətin şəkildə qoruyurdu. Axalkələyin özünü isə erməni alayı qoruyurdu. Bu alay şəhəri döyüşsüz-filansız tərk etdi. Fəqət orada bir böyük və tükürpədici vəhşilik baş verdi. Sonradan bütöv qəzanın əhalisinin didərgin düşməsinə səbəb olan və onu aclıqdan-soyuqdan Bakuryan meşələrində qəbirədək gətirən bu vəhşiliyin bənzərini erməni-tatar nifaqı xatırlamır. Axalkələk yaxınlığında qədim gürcü kəndi var – Xosbiyyə, harada ki, indi Palavandişvili soyadlı müsəlmanlaşmış gürcülər yaşayırlar. Daşnaklar bu kəndi bütünlükdə əsir götürüb Axalkələyə apardılar. Onlar məşhur xeyriyyəçi, o zaman Cavaxetin gürcü xeyriyyə cəmiyyətinin sədri olan və bütün mədəni ictimaiyyətə səxavətlə yardım göstərən Məmmədəli bəy Palavandovun özünə də mərhəmət etmədilər. Ötən il Axalkələkdə açılmış müsəlman gürcü uşaqların təhsil aldığı gürcü gimnaziyasının xərclərinin yarısını o çəkmişdir. Daşnaklar Palavandişvilinin ailəsini əsir götürdülər və onun mal-mülkünü talan etdilər. Bu, Batum sülh müqaviləsi ilə geri çəkilməyə məcbur olub iki qəzanı (Axısqa və Axalkələk qəzaları – F.V.) düşmənə (Osmanlı nəzərdə tutulur – F.V.) verənə qədər davam etdi. Məhz bu zaman indiyədək bənzəri görünməyən bir böyük vəhşilik baş verdi. Şəhəri (Axalkələyi – F.V.) boşaldana qədər xosbiyyəli müsəlmanları çıxarıb Axalkələk küçələrində başlarını kəsdilər, yalnız Məmmədəli bəy Palavandişvilini ailəsi ilə birlikdə saxladılar. Onları daşnaklar şəhərdən harayasa apardılar. Məhz bu vaxt Cavaxetin gürcü dəstəsi sərhədə doğru can atırdı. Bu dəstə Palavandişvilini xilas etdi və onu ailəsi ilə birlikdə Tiflisə göndərdi.

Bütün bunlardan sonra qəza sakinləri qorxudan öz kəndlərində qala bilmədilər, intiqamdan qorxurdular. Ona görə kor xalq tərpəndi, özünün qidasını-yemini yerə tullayıb

Bakuryan meşələrində və Tsalka civarlarında daldalandı. Markaryan-Ayvazyanlar isə vaxtında gizlənə bildilər. Həyəcanlanmış xalq onları yaman axtarırdı. Onlar isə ermənilərin nümayəndələrinin sonradan Bakuryanda xalqı dəhşətli vəhşiliyi törədənləri axtarıb tapmağa və cəzalandırmağa çağırmasına baxmayaraq, indi Tiflis küçələrində sərbəstcə gəzirlər.

Bunlardır, cənablar, Bakuryan dağlarındakı qardaşlıq məzarlığında qeyri-məhdud müddətə sığınmış insanların günahkarları. Soyuq dağlarda torpağı isidən və bitməyən əziyyətin əmələ gəlməsinə səbəb olan o göz yaşlarının, o ağı deyib ağlamanın günahkarları bunlardır.

Bu gün isə Ermənistanın diplomatik nümayəndəsi Kiyevli Ermənistan səfirindən xahiş edir ki, Gürcüstan hökumətinin qaçqınlara zülm verdiyini, Osmanlıdan artıq icazə almalarına rəğmən, onları Axalkələyə geri buraxmadığını dünyaya çatdırmağı xahiş edir.

Nə çatdırmaq istəsəniz də cənab Camalyanlar, Zoryanlar və onlarını kompanyonları, bütün dünya bilir ki, sizin Axalkələkli dostlarınız günahsız müsəlmanların başını kəsib, sizin dostlarınız daşnaklar onda oradan qaçdılar və insanlar bütün bunlara görə didərgin düşüb ac-soyuq meşələrdə qırıldılar.

Və yaxud niyə onu da demirsiniz ki, erməni qaçqınlarla bərabər gürcü qaçqınlar da qırıldı, sonuncular mesxlər və cavaxlılar idilər. Bir Azğur meşələrinə gedin, qarlı düzlərə tökülüşmüş gürcü qaçqınlarına baxın, gedib-gələni yolun ortasında açıq əllə qarşılayan və aclıq-soyuqdan titrəmə səviyyəsinə çatıb kömək göstərilməsini xahiş edən yetim uşaqları dinləyin. Əgər Gürcüstan hökumətinin imkanı olsa idi, özü üçün əziz olan bu mesx və cavaxlıları, bizim mədəniyyətin beşiyinin sonuncu nəsillərini öz yurdlarına qaytarmazdımı, onlara kömək etməzdimi?

Daşnaklar, siz qana bulanmış əllərinizi yelləyirsiniz və onun ləkəsi ilə gürcü demokratiyasını çirkləndirmək istəyirsiniz. Bu dəhşətli bəladan və 6 noyabrda olan hadisələrin bənzərindən, nə zaman ki, osmanlılar tərəfindən öldürüləcəklərini əvvəlcədən bildiyinizə baxmayaraq, onları Baralet dağlarına doğru təqib etdiniz, xilas olan bu bədbəxt insanları günahlandıra bilməzsiniz. Bax bu yolla Baralet dağlarında günahsız uşaqların və qadınların 150 məzarı əlavə olundu, hansıları ki, siz əvvəlcədən ölümə məhkum etdiniz və onların qanı ilə möhtəkirlik (alver) edirsiniz.

Bu qanlı əllərinizi bizdən uzaq tutun! Onları oynatmayın, onlar “Hayastan”ın və Bakuryan meşələrinin döşəndiyi yetim qəbirlərə layiq deyil!

*Droebit Cavaxeli*”

***Əlavə 2***



Göyyəli Xəlil ağa Kamaloğlu.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. **Адрес-календарь Азербайджанской Республики**, Баку, Издание Министерства призрения, 1920.
2. **Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA)**, fond 897, siyahı 1, iş №11, 26.
3. **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA)**, fond 276, siyahı 9, iş №9.
4. **Азербайджанская Демократическая Республика (1918-1920). Армия. (Документы и материалы)**, Баку, "Azərbaycan" nəşriyyatı, 1998.
5. **Arşiv Belgeleriyle Ermeni Faaliyetleri. 1914-1918**, Cilt II, Genelkurmay Basım Evi, Ankara 2005.
6. **Askeri Tarih Belgeleri Dergisi**, Genelkurmay Askeri Tarih ve Stratejik Etüt (ATASE) Daire Başkanlığı Yayınları, №81, Ankara dekabr 1982; №83, Ankara mart 1983.
7. **Борьба (газета)**, Тифлис 30 ноября 1918.
8. Cavaxeli Droebit, "Daşnakların qana bulanmış əlləri", **Ertoba**, №248, 16 noyabr 1918, s. 3.

9. **Ermənistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Arxivi**, Leo adına fond 1, siyahı 1, iş №264, vv. 1-2 (Bax: http://javakhk1915-23.com/index_en.php? rpage=http://javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_to_turkish_military_ru.html, istifadə tarixi: 26.09.2018).
10. **Ermənistan Tarix Arxivi**, fond 114, siyahı 2, iş №3, v. 122-134 (Bax: http://www javakhk1915-23.com/index_en.php?rpage=http://www.javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_abelian_ru.html, istifadə tarixi: 26.09.2018).
11. **Ertoba ("ერთობა"), gürcü dilində** qəzet, №53, Tiflis 6 (19) mart; №54, 7 (20) mart; №55, 9 (22) mart; №56, 10 (23) mart; №58, 13 (26) mart; №248, 16 noyabr 1918.
12. **Göyye`de Türk çağı** (hazırlayan: M.Kemaloğlu), Ankara, RAF Yayınları, 2020.
13. http://www.nplg.gov.ge/emigrants/ka/00000695/ (Gürcüstan Parlamentinin Milli Kitabxanasının rəsmi veb-saytı), istifadə tarixi: 08.10.2018.
14. **Кавказский календарь на 1917 год**, Гл. упр. Кавказ. Наместника, Tiflis 1916.
15. **Кавказское слово** (газета), №288, Тифлис 31 декабря 1917; №231, 27 октября 1918.
16. Kırzıoğlu Fahrettin. **Kars İli ve Çevresinde Ermeni Mezalimi: 1918-1920**, Kardeş Matbaası, Ankara 1970.
17. Саносян Артюш, «Плечом к плечу против врага», **Хорурдаин Айастан (газета),** Ереван, 1988-1989 (Bax: http://javakhk1915-23.com/index_en.php?rpage =http://javakhk1915-23.com/J15-23_docs/J15-23_docs_sanosian_1_shoulder_ru. html, istifadə tarixi: 26.09.2018).
18. Sanosyan Artyuş, **1918-ci ildə Axalsıx və Axalkələk qəzalarının özünümüdafiəsi**, İrəvan, "Hayastan" nəşriyyatı, 1992 *(ermənicə).*
19. **Sakartvelo ("საქართველო"),** gürcü dilində qəzet, №10, Tiflis 13 (26) yanvar, №28, 4 fevral (17 fevral); №51, 8 (21) mart; №52, 9 (22) mart; №71, 1 (14) aprel; №154, 6 avqust; №170, 27 avqust; №206, 30 oktyabr; №226, 24 noyabr; №234, 7 dekabr 1918.
20. **Sakartvelos Respublika ("საქართველოსრესპუბლიკა"),** gürcü dilində qəzet, №20, Tiflis 18 avqust 1918; № 34, 5 sentyabr 1918; №62, 10 oktyabr 1918.
21. Valehoğlu Fahri. "Cavahet (Ahılkelek) Karapapakları", **Bizim Ahıska**, №9, Ankara 2008, s. 45-46.
22. Valehoğlu Fəxri, "Axalkələk qarapapaqları XIX-XX əsrin əvvəllərində: yaşam tərzi və statistik göstəricilər", "**Prof. Dr. Hacali Necefoğluna ərmağan" kitabında**, Kanyılmaz Matbaacılık, İzmir 2016, s. 81-86.

23. **Возрождение** (газета), №10, Тифлис 14 января; №34, 13 февраля; №104, 1 июня; №129, 3 июля 1918.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Hacıyev Fəxri Valehoğlu – riyaziyyat üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Şərqi Avropa şöbəsinin müdiri, Azərbaycan, Bakı.

Hajiyev Faxri Valehoglu – doctor of Philosophy in mathematics, Ministry of Foreign Affairs of the Republic of Azerbaijan, head of the Eastern European department, Azerbaijan, Baku.

AZƏRBAYCANDA SİYASİ QÜVVƏLƏRİN MÜBARİZƏSİ VƏ KƏNDLİ AMİLİ (FEVRAL 1917 – MAY 1918)

©2021
AYGÜN ƏZİMOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0002-1119-1816; aygun.azimova77@gmail.com

***Xülasə:*** *Məqalədə 1917-1918-ci illərdə Azərbaycanda siyasi qüvvələrin mübarizəsində kəndli amilinin rolu təhlil edilmişdir. Bu zaman həm Azərbaycan kəndlilərinin sosial vəziyyəti, həm Fevral inqilabından sonra onların yerli idarəçilikdə iştirakı, həm də siyasi qüvvələrin aqrar məsələyə münasibətlərinə diqqət yetirilmiş və 1917-1918-ci illərdə siyasi qüvvələrin mübarizəsinə kəndli amilinin əhəmiyyətli təsiri göstərilmişdir.*

*Kəndlilər nə qədər siyasi cəhətdən passiv olsalar da, onların say üstünlüyü və siyasi cəhətdən yetkin kütlə olmaması siyasi qüvvələr üçün təhlükəli vəziyyət yaradırdı. Bu səbəbdən siyasi qüvvələrin ritorikasında kəndlilərlə bağlı şüarlar səsləndirilir və aqrar məsələnin həlli yolları göstərilirdi. Xüsusən, aqrar məsələnin həll edilməməsi istənilən hakimiyyətə kəndlilərin müxalifliyini təmin etmiş olurdu.*

*Siyasi vəziyyətin əlverişsizliyindən dolayı Müsavat partiyasının və ümumiyyətlə milli qüvvələrin aqrar məsələdə gözləmə mövqeyi tutması bolşeviklərin ritorikasında bu partiyanı "burjua və mülkədar-bəy partiyası" kimi ittiham olunması ilə nəticələnirdi. Lakin ümum-Azərbaycan milli partiyası – Müsavat mövcud şəraitdə ilk növbədə Bakıdakı müsəlman fəhləsinə və ətalətli müsəlman kəndlisinə deyil, milli burjuaziya və mülkədar təbəqəsinə arxalanmalı idi. Milli maraq bunu tələb edirdi.*

*Bolşeviklərin birinci hakimiyyəti dövründə (1918 mart-iyul) Azərbaycan kəndlisinə müncər etmək istədikləri, lakin onlar üçün yad olan torpağın sosiallaşdırılması barədə dekret isə həyata keçirilməmiş qalmışdı. Bakı XKS anti-Azərbaycan mahiyyəti aqrar siyasətdə də özünü göstərmişdi.*

***Açar sözlər:*** *Azərbaycan kəndliləri, aqrar məsələ, aqrar hərəkat, Bakı Soveti, Müsavat partiyası, Zaqafqaziya Seymi, bolşevik hakimiyyəti, torpağın sosiallaşdırılması*

# INFLUENCE OF THE PEASANT FACTOR ON THE ACTIVITIES OF POLITICAL FORCES IN AZERBAIJAN (FEBRUARY 1917 – MAY 1918)

©2021

AYGUN AZIMOVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0002-1119-1816; aygun.azimova77@gmail.com

**Abstract:** *The article illuminates from different aspects the influence of the peasant factor on the activities of national and socialist political forces in Azerbaijan in 1917-1918. Referring to the archival materials and numerous periodicals, factors that determine the socio-political activity of Azerbaijani peasants are identified, certain issues such as agrarian relations and the socio-economic situation of peasants in the village, the level of participation of peasants in local administrative management after the February Revolution, the attitude of peasants and political forces to the agrarian issue, which has become urgent in the period under review, are relatedly analyzed. But, in this case, the main attention was paid to the influence of the peasant factor on the activities of the main political rivals in the Azerbaijani political arena since the second half of 1917 – the Musavatists and the Bolsheviks.*

*Taking into account the specific features of the period, delays in resolving the agrarian issue and its impact on the activities of the Musavat party and consequences are analyzed; it is stated that in the national interests Musavat should rely on the national bourgeoisie and the class of landowners under the existing conditions, but not on Muslim workers in Baku, and in general on politically immature, in particular, inert Muslim peasants.*

*While studying the activities of the socialists among the Azerbaijani peasants, attempts of the Bolsheviks, interested in exacerbating social conflicts in the village for their political purposes, to expand their agrarian movements, especially the activities of S. Shaumyan in this sense, the interests of the Dashnaks in this matter, were analyzed. Also were stated the essence of the agrarian policy pursued by Baku Soviet of People's Commissars and the reasons for its failure.*

**Keywords:** *peasant factor, agrarian issue, agrarian movement, Musavat party, Transcaucasian Sejm, Bolsheviks, socialization of land.*

# ВЛИЯНИЕ КРЕСТЬЯНСКОГО ФАКТОРА НА ДЕЯТЕЛЬНОСТЬ ПОЛИТИЧЕСКИХ СИЛ В АЗЕРБАЙДЖАНЕ (ФЕВРАЛЬ 1917 – МАЙ 1918)

©2021

АЙГЮН АЗИМОВА*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0002-1119-1816; aygun.azimova77@gmail.com

***Резюме:*** *В статье рассмотрено с разных сторон влияние крестьянского фактора на деятельность национальных, социалистических и политических сил в Азербайджане в 1917-1918 гг. На основе материалов архива и многочисленных периодических изданий, были выявлены факторы, определяющие общественно-политическую активность азербайджанских крестьян; были проанализированы отдельные вопросы, такие, как аграрные отношения и социально-экономическое положение крестьян в селе, уровень участия крестьян в местном административном управлении после Февральской революции, отношение крестьян и политических сил к аграрному вопросу, ставшему актуальным в рассматриваемый период. Однако, в данном случае основное внимание было уделено влиянию крестьянского фактора на деятельность основных политических соперников на азербайджанской политической арене со второй половины 1917 года – мусаватистов и большевиков.*

*С учетом специфических особенностей периода, проанализирована задержка решения аграрного вопроса, ее влияние на деятельность партии «Мусават» и последствия; показано, что в существующих условиях «Мусават» должен опираться на национальную буржуазию и класс помещиков, а не на рабочих-мусульман в Баку, и в общем на политически незрелых, в частности, инертных крестьян-мусульман в национальных интересах.*

*При изучении деятельности социалистов среди азербайджанских крестьян, были проанализированы попытки большевиков, заинтересованных в обострении социальных конфликтов в селе в своих политических целях, расширить свои аграрные выступления, особенно, деятельность С.Шаумяна в этом направлении, интересы дашнаков в этом вопросе. Также была показана суть аграрной политики, проводимой Бакинским Советом Народных Комиссаров, и причины ее провала.*

***Ключевые слова:*** *крестьянский фактор, аграрный вопрос, аграрное движение, партия «Мусават», Закавказский сейм, большевики, земельная социализация.*

***Giriş***

Fevral inqilabı bir çox məsələlər kimi Azərbaycan kəndində sosial-ictimai həyata, aqrar münasibətlərə ciddi təsir edərək burada mövcud qaydaların, ictimai-iqtisadi münasibətlərin dəyişilməsini labüdləşdirirdi. İdarəçilikdə olunan dəyişiklik, perspektivdə də ola biləcək dəyişikliklərin xəbərləri Rusiyanın hər yanında olduğu kimi, lakin bir qədər gecikmiş şəkildə Azərbaycan kəndlilərinə də sirayət etməkdə idi. Nə qədər də ətalətdə olsalar da, artıq Azərbaycan kəndliləri də torpaq əldə etmək və yerli idarəçilik orqanlarına seçilmək arzularını ifadə etməyə başlamışdılar.

Təbii ki, aqrar bir ölkədə inqilabi dəyişikliklərin diktəsi altında mübarizə aparan siyasi qüvvələr fəal və ya qeyri-fəal olmasından asılı olmayaraq kəmiyyət baxımından hadisələrin gedişinə təsir edə biləcək qüvvə kimi kəndliləri də nəzərə almalı idilər. Azərbaycan kəndliləri mürəkkəb ictimai-siyasi proseslərin təsiri altında olan çoxsaylı sosial qrup idi və onun hansı istiqamətə yönəlməsi hadisələrin gedişinə təsir edə bilərdi. Bu səbəbdən də 1917-1918-ci illərdə Azərbaycanda siyasi qüvvələrin mübarizəsi tarixinin tədqiqində kəndli amilinə diqqət yetirilməlidir. Kəndli amili isə bu dövrdə özünü müxtəlif məsələlərdə: mövcud siyasi rejimin devrilməsinin kənddəki sosial proseslərə təsiri və kəndlilərin ictimai-siyasi həyatda iştirakında, aqrar məsələdə və onunla bağlı olaraq kəndlilərin aqrar hərəkat forması almış çıxışlarında göstərmişdi.

Qeyd etmək lazımdır ki, Fevral inqilabından sonrakı ilk aylarda Azərbaycan siyasi səhnəsində yer alan qüvvələr iki – sosialist və milli düşərgədə qərarlaşmış, Müsavat partiyasının get-gedə liderinə çevrildiyi milli demokratik qüvvələr ümum-Rusiya sosialist qüvvələri olan eser, menşevik və bolşeviklərin daxil olduğu sosialistlərlə qarşı-qarşıya mövqe tutmuşdular. Azsaylı müsəlman sosial demokratları (hümmətçilər) və müsəlman sosialist-inqilabçıları (müsəlman eserlər) da sonuncularla bir mövqedə idilər.

Müxtəlif dövrlərdə Azərbaycan tarixşünaslığında 1917-1918-ci illərdə baş verən hadisələrin tədqiqi zamanı kəndli amili daha çox aqrar məsələ ilə bağlı diqqət mərkəzində olsa da, mürəkkəb bir hadisə olan siyasi qüvvələrin fəaliyyətini hərtərəfli təhlil etmək üçün bu amilin özünü büruzə verdiyi bütün istiqamətləri nəzərdən keçirmək məqsədəuyğundur. Bu baxımdan Fevral inqilabından sonra kənddə inzibati idarəçiliyin dəyişməsi və bu dəyişikliyin kəndli-dövlət, kəndli-bəy münasibətlərinə təsiri, həm bu zaman Azərbaycan kəndlərində aqrar çıxışların artması, onların çoxunun 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərinə təsadüf etməsi və məhz Gəncə-Qazax bölgəsində baş verməsi, həm də Azərbaycanda aqrar çıxışların baş qaldırmasında bolşeviklərin, ələlxüsus da, S.Şaumyanın rolu yenidən araşdırılması tələb olunan məsələlərdəndir. Əlbəttə ki, Azərbaycan milli-siyasi qüvvələrinə geniş sosial baza olan kəndliləri onlardan ayırmaq bolşeviklərin taktiki addımı hesab oluna bilər. Lakin işə erməni siyasi maraqlarının qarışması məsələnin daha diqqətlə təhlilini tələb edir. Məqalədə məhz bu məsələlər diqqət mərkəzində olmuş, siyasi qüvvələrin fəaliyyətində kəndli amilinin rolu obyektiv sosial-siyasi şəraitin nəzərə alınması şərti ilə və təhlil edilmişdir.

## Fevral inqilabı ərəfəsində Azərbaycan kəndində sosial-ictimai vəziyyət

İnqilab baş verən zaman Azərbaycan kəndlilərinin böyük əksəriyyəti (adətən bu nisbət 70% kimi qeyd olunur – A.Ə.) dövlət kəndlisi idi. Torpaq mülkiyyəti göstəriciləri isə bu cür qərarlaşmışdı: torpaqların 18%-i kəndlilərə, 26,6%-i mülkədarlara, 68,6%-i dövlətə məxsus idi[1].

Çarizmin həyata keçirdiyi sonuncu – 1912-ci il aqrar islahatı kənddə torpaq problemini həll etmədiyindən burada kəndlilər aztorpaqlılıq və torpaqsızlıqdan əziyyət çəkirdilər. Həmin dövrdə Azərbaycanda kəndli təsərrüfatlarının nisbətinə gəldikdə isə, yoxsul təsərrüfatları 54%, ortabablar 34%, qolçomaq təsərrüfatı isə 8,6% təşkil edirdi[2]. Hətta Azərbaycanda ortabab kəndlilər (34%) Rusiya (20%) ilə müqayisədə daha çox idi[3]. Bu dövrdə Azərbaycan kəndlisinə I Dünya müharibəsinin yaratdığı böhranlı vəziyyət də öz təsirini göstərməkdə idi. Müharibə illərində isə Azərbaycanda torpaqsız kəndlilərin sayı 50 faiz artmışdı ki, onların da 81,5 faizi Yelizavetpol quberniyasında yaşayırdı[4]. Təqribən bu dövrdə Bakı quberniyasında olan dövlət kəndlilərinin 68%-i aztorpaqlı, 37%-i torpaqsız kəndlilər idi[5]. Kəndlilər həm də sələmçilərin asılılığına düşmüşdülər. Təqribi hesablamalara görə 1917-ci ildə Azərbaycanda 120 min kəndli öz təsərrüfatını buraxıb sənaye müəssisələrinə işləməyə getmişdi[6]. Digər tərəfdən bu həm də, Azərbaycan kəndlisinin siyasi cəhətdən daha oyanıq olan fəhlə kütləsi ilə təmasının yaranması demək idi.

XX əvvəllərində kapitalist münasibətlərinin Azərbaycan kəndinə sürətlə nüfuz etməsi kəndlilər arasında sosial təbəqələşməni daha da sürətləndirmişdi. Daxilində feodal istismarı qaydalarının daha zəif olduğu dövlət kəndində kapitalist münasibətlərinin inkişafı üçün münbit şərait yaranmışdı və XX əsrin əvvəllərində burada iki antoqonist sinif – kənd burjuaziyası və kənd proletariatı təşəkkül tapmışdı[7]. Başqa sözlə, Azərbaycan kəndi daxilində sosial ziddiyyətlər mövcud idi. Dini-mənəvi dünyagörüşü Azərbaycan kəndlilərini bəyə qarşı loyal münasibətdə saxlasa da, kəndlilərin öz daxilində təbəqələşmənin artması, varlı kəndlilərin – qolçomaqların meydana gəlməsi kənddəki yeni ziddiyyətlərin spesifik vəziyyətini yaradırdı. Bəhs edilən dövrdə dövlət kəndlilərinin onda birini[8] təşkil edən qolçomaq təbəqəsi azsaylı olsa da, demək olar ki, hər bir kənddə

---

[1] Rəşad Rüstəmov vd., **Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü**, Bakı, Turxan NPB, 2018, s.127.
[2] Əli Rəhimov, **1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi**. Bakı, Azərnəşr, 1962, s.32.
[3] Гаджибаба Азимов, **Великий Октябрь в Азербайджане**, Баку, Аз. Гост. Изд., 1987, с.25.
[4] Cahangir Hüseynov, **Birinci dünya müharibəsi illərində Azərbaycanda aqrar münasibətlər,** Azərbaycanda inqilabi hərəkatın sosial-iqtisadi zəmini (XIX-XX əsrin əvvəli), Bakı, Bakı Dövlət Universitetinin nəşriyyatı, 1983, s.68.
[5] Алевсат Умаев, **Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX века.** Баку, Элм, 2002, с.132.
[6] Cahangir Hüseynov, **a.g.m.**, s.77.
[7] Гаджи Гасанов. **Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв**. Баку, Тахсил, 2007, с.196.
[8] Гаджи Гасанов, **a.g.ə.**, s. 180.

var idi və kəndlinin sosial cəhətdən fəal və iddialı hissəsini təşkil edirdi. Xüsusən, onların kənd idarəsində iştirakı, yəni kətxuda vəzifəsinə seçilmələri bunda öz rolunu oynamışdı. Adətən, bu vəzifə Azərbaycan kəndli hərəkatının cəhətdən fəal təbəqəsi olan qolçomaqlar tərəfindən tutulurdu. Kətxuda seçkisi prosesi (1865-ci il "Kənd cəmiyyətləri haqqında qanun"dan sonra – A.Ə.) uzun illər idi ki, kəndlərdə daxili münaqişələrə meydan açmışdı[9]. Digər tərəfdən kətxuda, kətxuda köməkçisi və s. vəzifədə olan qolçomaqlar bundan dövlət torpaqlarının mənimsənilməsi üçün də istifadə edirdilər[10]. Fevral inqilabı ərəfəsində Azərbaycan kəndlilərini sosial-ictimai durumu məhz bu vəziyyətdə idi.

## Fevral inqilabının Azərbaycan kəndində sosial-ictimai vəziyyətə və idarəçiliyə təsiri

İnqilabdan sonra yaranan yeni ictimai-siyasi vəziyyət kəndlilərin geniş şəkildə idarəçiliyə qatılmasını mümkün edirdi. Belə ki, Müvəqqəti Hökumətin qərarına müvafiq olaraq Xüsusi Zaqafqaziya Komitəsinin (XZK) 27 aprel tarixli qərarından sonra kəndlərdə yerli idarəçiliyin yenidən təşkili başlanmışdı. Kənd cəmiyyətlərində kətxuda və kətxuda köməkçiləri vəzifəsi ləğv edilir və kənd icraiyyə komitələri yaradılırdı. Qərara görə kənd icraiyyə komitələri üzvlərinin sayı 15-50 nəfər (100 nəfər başına 1 nəfər seçilirdi.) ola bilərdi. Komitə isə 1 kənd komissarı və 2 müavin seçirdi. Komitələr kəndlərdə asayişin qorunması, milisin təşkili, kənd komissarları (kətxudanı əvəz edirdi – A.Ə.) və vergi yığanlarının seçilməsi, ərzaq, yol, məktəb məsələləri və s. ilə məşğul olmalı idilər. 20 yaşından yuxarı hər bir vətəndaş həmin vəzifələrə seçilə bilərdi[11].

Yeni şəraitdə yalnız qolçomaqlar deyil, ortabab və yoxsul kəndlilərin də belə vəzifələrə seçilməsi imkanı yaransa da, yenə də kəndlərdə qolçomaqların mövqeyi möhkəmlənməkdə idi. Doğrudur, bir sıra yerlərdə kəndlilər qolçomaqların idarə orqanlarına seçilməsinə etiraz edirdilər. Məsələn, Lənkəran qəzasında Kosalar, Şürük, Sərnəkəran, Səfidor kəndləri qolçomaqlar üstünlük təşkil etdiyinə görə Gərmətük kənd cəmiyyətindən ayrılmış və müstəqil kənd komitəsi yaratmışdılar[12]. Lakin bu bütün kəndlərə aid xüsusiyyət deyildi. Bəhs edilən Azərbaycan kəndində kəndlinin sosial-siyasi fəallığından danışılarkən əsas subyekt kimi varlı kəndlilər önə çıxır. 30-cu illərin repressiya qurbanlarından biri olan və maraqlı tədqiqatların müəllifi tarixçi Ə. Əhmədov kənddə qolçomaq təbəqəsinin mövqeyini izah edərək belə bir xüsusiyyətə diqqəti cəlb etmişdi ki, çarizm dövründə həcc ziyarətinə getməklə Azərbaycandan kənara çıxmaq imkanı qazanan bu şəxslər daha dünyagörüşlü idilər və məhz onlar mülkədar torpaqları hesabına öz

---

9 Ахмед Ахмедов, **Азербайджанские тюрки в революции 1905 года**, ИПО Азербайджан Милли Энсиклопедия. Баку, 2002, с. 54.
10 Əlövsət Umayev, **a.g.ə.**, s. 134.
11 Hacıbaba Azimov, **a.g.ə.**, s. 171.
12 Hacıbaba Azimov, **a.g.ə.**, s. 43.

torpaqlarını artırmaqda maraqlı idilər[13]. Təsadüfi deyil ki, mülkədarlardan fərqli olaraq kapitalist istehsal üsulunun daşıyıcıları olan qolçomaqlar sonradan sovet hakimiyyətinə qarşı da daha ardıcıl müxaliflik göstərmişdilər.

Beləliklə, Azərbaycan qəzalarında kəndlilər ictimai-siyasi hadisələrin hansı istiqamətdə inkişaf edəcəyində maraqlı idilər. Əgər qolçomaqlar mövcud sosial-iqtisadi vəziyyətlərinin daha yaxşılaşmasında və imtiyazlı mövqelərinin möhkəmlənməsini istəyirdilərsə, çoxsaylıaztorpaqlı və torpaqsız kəndli kütləsi də aqrar məsələnin onların istək və ehtiyaclarının nəzərə alınmaqla həllində maraqlı idilər. Kənd idarəçiliyinin kimin əlində olması burada siyasi qüvvələrin işinə birbaşa təsir edəcəkdi. Ümumiyyətlə, bir təbəqə olaraq Azərbaycan kəndliləri idarəçilik işlərinə qoşulmaqda fəallıq göstərirdilər. 1917-ci ilin noyabrında Azərbaycanda kəndli komitələri təşkil edilib qurtarmışdı və siyasi qüvvələr bu məsələni çox da qabartmırdılar. Lakin kəndli amilinin özünü etiva etdiyi digər mühüm məsələ – aqrar məsələ isə siyasi qüvvələr arasında polemika predmeti olmuşdu.

### Azərbaycanda kəndli hərəkatı

Qeyd edildiyi kimi, Rusiyanın hər yanında olduğu kimi, inqilabdan sonra Azərbaycan qəzalarında da kəndlilər hərəkətə gəlmişdilər. Artıq 1917-ci ilin yazından tədricən kəndlilərin itaətdən boyun qaçırmaqla nəticələnən fəallığı özünü göstərməyə başlamışdı. Belə ki, yaz əkini vaxtında xəzinə və mülkədar torpaqlarının tutulması, vergilərin verilməməsi, mal-qaranın aparılması kimi hallar ortaya çıxmışdı. Həmin dövrə aid mətbuat səhifələrində də kəndli mübahisələrinə dair xeyli xəbərlər öz əksini tapmışdı.

Lakin kəndlilərin çıxışları Azərbaycan qəzaları üçün yeni bir hal deyildi. XIX əsrin sonlarından Azərbaycan kəndində müəyyən mərhələlərlə bu cür çıxışlar baş verirdi. Torpaq və su üstündə münaqişələr, 1901-1903 və 1912-ci il aqrar qanunlarından sonra yaranan yer mübahisələri kəndlilərin özləri və onlarla mülkədar arasında münasibətlərinin müəyyən spesifikasını ortaya çıxarmışdı. Nəticə etibarilə, Azərbaycan kəndlilərinin bəhs edilən dövrdəki çıxışları əvvəlkilərin davamı, bəzi yerlərdə isə daha genişlənmiş forması idi. Başqa sözlə, illərdən bəri qəti olaraq həllini tapmayan aqrar məsələ yenidən aktuallıq qazanmışdı. Sözsüz ki, 1917-ci ildə – siyasi hadisələrin sürətlə dəyişdiyi bir vaxtda Azərbaycan kəndlisinin sosial-ictimai vəziyyəti onun sonrakı sosial-ictimai və siyasi meyillərini də müəyyən etməli idi.

Yeni hakimiyyət isə aqrar məsələnin həllinə tələsmirdi. Müvəqqəti Hökumət və onun yerli hakimiyyət orqanı olan XZK siyasi səbəblərdən dolayı bu istiqamətdə ehtiyatlı davranmağa çalışır, iri torpaq sahiblərinin mənafeyinə və mülkiyyətinə toxunmamaq şərtilə Ümum-Rusiya Müəssislər Məclisinə qədər kəndlərdə sakitliyə nail olmaq istəyirdi. Bu səbəbdən də XZK əhaliyə ünvanladığı müraciətində vergi və ödənclər əvvəlki

[13] Hacıbaba Azimov, **a.g.ə.**, s. 171.

qaydada torpaq banklarına ödəməyi tapşırmışdı[14]. Öz həllini gözləyən bu məsələyə gec-tez Azərbaycanda mübarizəyə başlayan siyasi qüvvələr diqqət yetirməli idilər.

Sosialist təşkilatları üçün aqrar məsələ prioritet məsələlərdən biri olduğundan hələ inqilabdan öncə onlar bununla bağlı öz proqramlarını elan etmiş, fəhlə və kəndli məsələlərinin həllini əsas sosial tələblər kimi irəli sürmüşdülər.

### Sosialistlərin fəaliyyətində kəndli amili

Əsas tələbləri torpağın sosiallaşdırılması olan eserlər bu tədbirin fəhlələrin sayının artmasına və sənayenin inkişafına təsir edəcəyi, son nəticədə inqilabi mübarizənin müvəffəqiyyətinə təsir edəcəyini bildirmişdilər. Onların fikrincə, sosiallaşdırılma nəticəsində ümumi icmanın istifadəsində olan və hər kəsin tələbatını ödəyəcək torpaq payı alqı-satqı obyekti olmaqdan çıxarılmış olacaqdı[15]. Menşeviklər torpağın yerli özünüidarələrin əlinə verilməsini və onlar vasitəsilə kəndlilər arasında bölüşdürülməsini, lakin bu zaman müəyyən ölçüdə xüsusi torpaq sahibkarlığının saxlanılmasını, bolşeviklər isə, torpağın milliləşdirilməsi və xüsusi mülkiyyətin tamamilə ləğvini tələb edirdilər. Doğrudur, Azərbaycanda geniş miqyasda ümumrusiya sosialistlərinin aqrar proqramını həyata keçirmək uğrunda mübarizəsindən danışmaq olmaz. Lakin bu müddəalar sosialistlərin aqrar ideyalarının burada əsas daşıyıcıları olan müsəlman sosialistlərin – hümmətçilər (bolşevik və menşevik) və qismən müsəlman eserlərin fəaliyyəti nəticəsində kəndə sirayət edirdi. Ümumiyyətlə, sosialistlərin Azərbaycan kəndlilərinə bu və ya digər dərəcədə təsiri Cənubi Qafqazın iki sosialist mərkəzi – Tiflisdə yerləşən Cənubi Qafqaz Kəndliləri Sovetinin Diyar Mərkəzi və Bakı Fəhlə və Əsgər Deputatları Soveti (Bakı Soveti) vasitəsi ilə edilirdi. Birinci halda eser-menşevik, ikinci halda isə bolşevik təbliğatından söhbət gedir. Sosialistlər ilk növbədə kənd komitələrinin təşkili ilə əlaqədar olaraq kəndlərə getmişdilər. Əvvəlcə, menşeviklərin üstünlük təşkil etdiyi Diyar Mərkəzindən təlimatçılar göndərilmiş, sonra isə kənd komitələri yaratmaq üçün təyin olunan səlahiyyətlilər sırasında da sosialistlər yer almışdılar. Bunlardan Cavanşir qəzasına göndərilmiş M.H. Vəzirovu, Yelizavetopl qəzasına R.Hüseynovu, Lənkərana göndərilən bolşevik hümmətçi B.Şahtaxtinskini qeyd etmək olar. Bakı quberniyası üzrə isə səlahiyyətli kimi müsavatçı M.H.Hacınski ilə yanaşı Şaumyan da təyin edilmişdi[16].

Bəzi qəzalarda bir-iki təşkilatı çıxmaqla demək olar ki, əsas etibarilə "fəhlə Bakısı"nda cəmlənən sosialistlər fəhlələrin problemlərini önə çəkir və siyasi mübarizədə onların dəstəyinə arxalanır, kənddə inqilabi tədbirləri hələ ki, şüarlar kimi səsləndirirdilər. Mövcud şəraitdə onlar tərəfindən kəndli amilinin nəzərə alınması ilk növbədə özünü kəndlilərin ictimai-siyasi işlərə cəlb olunmasında göstərməli idi. Qeyd etmək lazımdır ki, Bakı Soveti ilk vaxtlar Bakı quberniyası kəndləri arasında əlaqə yaradılmasına cəhdlər

[14] Arifə Adıgözəlova, **a.g.ə.**, s.124.
[15] «Что даст рабочим социализация земли?», **Знамя труда**, №7, Баку, 22 мая 1917, с.1.
[16] Hacıbaba Azimov, **a.g.ə.**, s. 171.

etmişdi. Sovetin yaratdığı Qeyri-şəhər komissiyası məhz kəndlərdə (ilk növbədə Bakı quberniyası kəndlərində – A.Ə.) iş aparmaq üçün təşkil edilmişdi. İlk dövrlərdə ictimai-siyasi cəhətdən fəallaşan kəndlilər özləri də Bakı Sovetinə üz tuturdular. Məsələn, Qubanın Uzunkənd kəndində kəndlilər may ayında kənd komitəsinin düzgün seçilmədiyi barədə Bakı Sovetinə şikayət məktubu yazmışdılar[17]. Təsadüfi deyil ki, Bakı qradonaçalnikliyinin kənd cəmiyyətlərinin qurultayı (Bunlar müsəlman kəndləri idi. – A.Ə.) öz nümayəndələrini Bakı Sovetinə göndərərək burada yer istəmişdi. Bakı Sovetinin mətbuat orqanında verilən məlumata görə həmin kəndlilərə həlledici səslə 2 yer verilmişdi[18]. Sovetin sonrakı iclaslarında müsəlman kəndlilərin iştirakı barədə məlumata rast gəlinmir, lakin Sovet bir sıra hallarda Bakı kəndlərindəki vəziyyəti də müzakirə edərək kəndlilərin şikayətlərinə baxırdı.

Sosialistlərin kəndlilərin ictimai-siyasi işlərə cəlb olunması istiqamətində cəhdləri ilk növbədə həmin dövrdə mühüm olan ərzaq məsələsinin həlli üçün kəndlilərin səfərbərliyinə nail olunması ilə bağlı idi. Bir qayda olaraq, yerlərdəki kəndli komitələri də daha çox iki məsələ ilə – ərzaq və torpaq məsələsi ilə məşğul olurdular. Hətta onlar yerlərdə mövcud ərzaq komitələrinə qarşı çıxaraq məsələni özləri həll etməyə çalışırdılar[19]. 1917-ci ilin may ayının 25-26-da Lənkəranda ərzaq komissarı olan Ryabininin təşəbbüsü ilə Muğan və Şirvan düzü kəndlilərinin 1-ci qurultayı da ərzaq məsələsinin həlli məqsədilə keçirilmişdi. Lakin əksəriyyəti müsəlman olan 122 deputatın iştirak etdiyi həmin qurultayda aqrar məsələyə də toxunulmuş və torpağın onu becərənlər məxsus olduğu bildirilmişdi. Qeyd etmək lazımdır ki, qurultayda torpağın müsəlman və ya rus kəndlisinə (Rus kolonistləri nəzərdə tutulur. – A.Ə.) məxsus olması sualı ortaya çıxmış, lakin onun milli mənsubiyyətdən asılı olmadan becərənə aid olduğu bildirilmişdi[20].

Hər halda, Azərbaycan kəndində baş verən proseslər kəndlilərin müəyyən hissəsini ictimai-siyasi cəhətdən fəallaşdırmaqda idi və belə vəziyyətdə Bakıda formalaşmaqda olan siyasi qütbləşmə prosesi tərəflərdən birinin – Müsavat partiyasının çevik şəkildə "xalqın içərisinə getməsi" qarşı tərəfdə – sosialistlərdə narahatlığa səbəb olurdu. Təsadüfü deyildi ki, Bakı Sovetinin mətbuat orqanı may ayının əvvəllərindən ilk həyəcan təbilini döyməyə başlamışdı: "Kəndlilər milli birlik şüarı altında öz sahibkarlarının arxasınca gedirlər. Bununla mübarizəyə başlamaq lazımdır"[21].

Qeyd etmək lazımdır ki, siyasi qüvvələrin mübarizəsində kəndli amili özünü daha çox aqrar məsələnin həlli yollarının siyasi diskussiya predmetinə çevrilməsində özünü

---

[17] Hacıbaba Azimov, **a.g.ə.**, s. 114.

[18] «Протокол заседания Совета рабочих и военных депутатов сост. 12 апреля», **Известия Совета рабочих и военных депутатов Бакинского района**, №11, Баку 14 апреля 1917, с.2.

[19] Hacıbaba Azimov, **a.g.ə.**, s. 178.

[20] **Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг**. Azərnəşr, Баку 1957, с.26.

[21] «Воззвание Бакинского Совета...». **Известия Совета рабочих и военных депутатов Бакинского района**, №32, Баку 11 мая 1917, с.1-2.

göstərirdi. Eserlər və menşeviklər Müvəqqəti Hökuməti dəstəklədiklərindən aqrar məsələnin həllində də gözləmə mövqeyində durmuşdular. Bolşeviklər isə digər məsələlər kimi aqrar məsələnin həlli ilə bağlı tələbləri öz siyasi leksikonlarına daxil edərək öz rəqiblərinə qarşı onu ideoloji siyasi təzyiq vasitəsinə çevirməkdə idilər. Mövcud vəziyyətdə onsuz da həll edilməsi mümkün olmayan aqrar məsələ ətrafında müzakirələr bolşeviklərə digər siyasi rəqiblər üzərinə hücum üçün imkan yaradırdı. O ki qaldı Azərbaycanın bir sıra qəzalarında kəndlilərin çıxışlarına, bunları yalnız bolşeviklərin fəaliyyəti ilə əlaqələndirmək doğru olmazdı.

## Azərbaycan milli partiya və təşkilatlarının fəaliyyətində kəndli amili

Milli partiya və təşkilatların aqrar məsələdə mövqeyinə gəlincə, qeyd edilməlidir ki, inqilabi tələblər onlar tərəfindən dərhal və deklorativ olaraq qəbul edilmişdi. Azərbaycan kəndlilərinin özlərinin aqrar məsələnin həlli ilə bağlı tələbləri isə rəsmi tribunadan ilk dəfə Qafqaz Müsəlmanları Qurultayında səsləndirilmişdi. Qurultayda yaradılan bir sıra komissiyalar sırasına kəndli nümayəndələrinin tələbi ilə X. Sultanovun başçılığı altında fəhlə və aqrar məsələ üzrə də komissiya da əlavə edilmişdi[22]. Burada torpaq məsələsini nəzərdə tutan təklif aşağıdakı kimi ifadə olunmuşdu: "Qafqazda əməkçi kəndlilərin torpaq ehtiyaclarını ödəmək məqsədilə bütün dövlət, udel və idarə torpaqları müsadirə olunsun və iri xüsusi torpaq mülkiyyəti ədalətli qiymətlərlə məcburi şəkildə özgələşdirilsin"[23]. Lakin Azərbaycan milli qüvvələri qurultayın bu məsələnin həllinə səlahiyyəti olmadığını hesab edərək, onun Ümum-Rusiya Müəssislər Məclisinə saxlanılmasını məqbul saymışdılar[24]. Sözsüz ki, Rusiyanın tərkib hissəsi olan Azərbaycanda problemin həlli dövlətin bu istiqamətdə siyasətindən asılı idi.

Azərbaycan milli qüvvələrinin öncülü olan Müsavat partiyasının kütlələr içərisində nüfuzu əhəmiyyətli dərəcədə aqrar məsələnin həllindən asılı olsa da hələ ki, onun proqramı müəyyənləşməmişdi. Lakin hadisələrin inkişafı bu məsələdə qəti mövqeyin nümayiş edilməsinin zəruri olduğunu göstərirdi. Belə ki, 1917-ci ilin yayında Ümum-Rusiya siyasi hadisələrinin alqoritminə uyğun olaraq Azərbaycanda da bolşeviklər fəallaşır, eyni zamanda milli qüvvələr daxilində Müsavat partiyasının mövqeyi möhkəmlənirdi. Bu zaman Müvəqqəti Hökumətin aqrar məsələnin həllini yubatması bolşeviklərin fəaliyyətinə geniş yol açır, əksinə milli qüvvələrin işini çətinləşdirirdi. Müsavat başda olmaqla milli qüvvələr üçün bir tərəfdən onun milli və sosial bazasının fəal hissəsinin mülkədar təbəqəsindən olması, digər tərəfdən isə inqilabın kəndlinin torpaq sahibi olmaq kimi əzəli arzusunu reallaşmaq imkanı təzadlı vəziyyət yaradırdı. Bu səbəbdən də Azərbaycan milli siyasi qüvvələri bir növ seçim qarşısında qalırdılar: siyasi cəhətdən daha şüurlu və getdikcə iddialı olan Azərbaycan mülkədarlarına, yoxsa siyasi

---

[22] «Мусульманский съезд», **Каспий,** №86, Баку, 20 апреля 1917, с.3.
[23] **Azərbaycan tarixi: [7 cilddə] (1900 – 27 fevral – 1920),** c.5, Elm, Bakı 2001, s.276.
[24] «Мусульманский съезд», **Каспий**, №89, Баку, 23 апреля 1917, с.4.

cəhətdən daha çox ətalətdə olan, lakin çoxluq təşkil edən kəndli kütlələrinə arxalanmaq. Bu səbəbdən idi ki, milli qüvvələrin gücünün artması istiqamətində mühüm addım atan Müsavat partiyası 1917-ci ilin yayında Gəncədəki Türk Ədəmi Mərkəziyyət Partiyası ilə birləşdikdə aqrar məsələnin həllinin hələ ki, açıq qaldığı və partiya qurultayında həll ediləcəyi bildirilmişdi[25]. Müsavatçılar bütün torpaqların kəndlilərə verilməsi tərəfdarı idilər. Ədəmi mərkəziyyətçilər isə bununla razı deyildilər. Bu məsələnin həlli partiyanın qurultayınadək təxirə salınmışdı. Partiyanın qurultayında isə ədəmi mərkəziyyətçilərin fikri əsas götürülmüşdü[26]. Təbii ki, Gəncə qrupunun mülkədarlar tərəfindən dəstəklənməsi onların maraqlarının nəzərə alınmasını tələb edirdi.

Lakin digər tərəfdən Müsavat partiyası kəndlilərin sovetlərə daxil olmasında maraqlı olduğunu göstərirdi. 1917-ci ilin iyunun 16-19-da Tiflisdə keçirilən Cənubi Qafqaz kəndli qurultayı ilə bağlı M.Ə.Rəsulzadənin mövqeyi bu baxımdan maraq kəsb edir. O, Rusiyada inqilabı hadisələrin gedişatından bütün hakimiyyətin sovetlərə keçəcəyini proqnozlaşdıraraq müsəlman kəndlilərin həmin qurultayda və bundan sonra kəndli məsələləri ilə məşğul olacaq orqanda – Diyar Kəndli Sovetində geniş iştirakına nail olunmasının zəruriliyini bildirmişdi[27]. Fəhlə və əsgər sovetlərində təmsil olunmayan müsəlmanlar kəndli sovetinə keçməklə inqilabi orqanlara daxil olmuş olurdular.

Qurultayda gürcü menşeviki İ.Ramişvilinin rəhbərliyi altında Kəndli Deputatlarının Diyar Mərkəzi yaradılmış və müsəlmanlardan oraya D.Zeynalov, X.Sultanov, H.Hacıyev, M.Quliyev, C.Hacınski, Ə.Pepinov, Ə.Bayramov, (Alay Bayramov?) C.Axundov, M.Məhərrəmov, Ə.Qarayev, A.Yüzbaşov, Ə.Maqsudov, M.Əliyev daxil olmuşdular[28]. Qeyd etmək lazımdır ki, menşeviklərin üstünlükdə olduğu qurultayda aqrar məsələ ilə bağlı onların mövqeyi qəbul edilmiş və burjuaziya və mülkədarlarla saziş qərara alınmışdı. Belə ki, qurultay özbaşına torpaq tutulmasını təqdir etməmiş, nəticədə kəndlilərin narazılığı üçün səbəb yaratmışdı. Həmin dövrdə mətbuatda bu məsələ təhlil olunarkən menşevik qətnaməsinin qəbulunda müsəlman kəndlilərin həlledici rol oynadığı qeyd olunmuşdu. Müsəlmanların torpağın sosiallaşdırılması barədə eser proqramına deyil, menşevik proqramına səs vermələrinin səbəbi onlarda Rusiyadakı kimi icma münasibətlərinin olmaması və xüsusi mülkiyyətin onlara daha cəlbedici gəlməsi ilə əlaqələndirilmişdi[29]. Bu fikirdə həqiqət var idi. Belə ki, vaxtilə Azərbaycanda da mövcud olan icma torpaq mülkiyyəti çarizm dövründə demək olar ki, artıq aradan qalxmışdı. Bəhs edilən dövrdə də burada muzdlu əmək üzərində qurulan təsərrüfatlar deyil, daha çox kəndlinin öz əməyi ilə becərdiyi kiçik təsərrüfatlar üstünlük təşkil edirdi. Yarımfeodal

[25] «Мусульманская жизнь», **Каспий**, №135, Баку 20 июня 1917, с.6.
[26] Nəsiman Yaqublu, **Müsavat partiyasının tarixi**. Adiloğlu, Bakı 2012, s.55.
[27] Məmməd Əmin Rəsulzadə, "Kəndçilər ittifaqı", **Açıq söz**, №497, Bakı 14 iyun 1917, s.1.
[28] «Мусульманская жизнь», **Каспий**, №149, Баку 7 июля 1917, с.6.
[29] Игорь Рубенович Пичикян, «Резолюция крестьянского съезда», **Баку,** №150, Баку 8 июля 1917, с.3.

torpaq sahibliyinin mövcudluğuna baxmayaraq burada istehsal üsulu kapitalist üsulu idi[30]. Aqrar məsələnin həlli siyasi qüvvələrin bu reallığı nəzərə almalarından da asılı idi.

Kəndlilərin narazılığının gücləndiyini nəzərə alaraq XZK iyulun 7-də müvəqqəti mükəlləfiyyətli kəndlilərin ödənc haqqının ödənilməsini dayandırmaq və qalığını onların ayağından silmək haqqında Müvəqqəti Hökumətin qarşısında məsələ qaldırmaq qərarına gəlsə də[31], hökumət bu təşəbbüsü dəstəkləməmişdi. Belə olduqda XZK quberniya, vilayət, qəza və dairə komissarlarına müəyyən təkliflər etməli olmuşdu. Bu təkliflər özbaşına tutulma hallarına yol verməmək üçün tədbirlərin görülməsi, bunda təqsiri olan şəxslərin sərt qanunlarla cəzalandırması, qanunsuz yaranan torpaq komitələrinin fəaliyyətini dayandırılması, Ümum-Rusiya Müəssislər Məclisi bu məsələni həll edənədək vergilərin verilməsini davam etməyi əhaliyə bildirmək, yaxın vaxtlarda yerli icraiyyə komitələri tərəfindən sahə, qəza, quberniya torpaq komitələri yaradılacağı və onlara da barışıq kameralarının yaradılması ilə məşğul olacaqları barədə kəndlilərə məlumat verilməsi kimi müddəalardan ibarət idi[32]. Faktiki olaraq isə yerli hakimiyyət hansısa qəti bir tədbir görə bilmirdi.

Aqrar məsələnin həllinin gecikməsi və üstəlik həmin il yayın quraqlıq və qıtlıq ilə keçməsi kənddə sosial münasibətlərin gərginləşməsinə təsir edərək kəndlilərin çıxışlarının artmasına səbəb olmuşdu. Yelizavetpol (Gəncə) quberniya komissarı olan X.Xasməmmədov XZK-ə ünvanladığı məktubunda Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Ağdam və Zəngəzur qəzalarında kəndli iğtişaşlarının qorxulu vəziyyət aldığını göstərirdi[33].

Doğrudur, ümumən idarəçilik səlahiyyətinə malik olmayan milli demokratlar bir tərəfdən obyektiv olaraq aqrar məsələnin həlli məsuliyyətindən azad idilər. Lakin siyasi iddiaların artması sosial dəstəyin də artırılmasını zəruri edirdi. Hadisələrin axarı siyasi qüvvələrdən çeviklik tələb edirdi və onlar hər biri manevrlərə əl atırdılar.

### Müsavat partiyası ilə müsəlman sosialistlərin münasibətlərində kəndli amili

Vəziyyətdən istifadə edən və Bakıda fəhlələr arasında (o cümlədən müsəlman fəhlələr arasında) mövqelərini möhkəmlənməyə çalışan bolşeviklər öz çıxışlarında aqrar məsələnin həllində israrlı olduqlarını nümayiş etdirməyə çalışırdılar. Belə ki, Bakı Komitəsinin sentyabrın 12 (25)-də olan iclasında torpağın ödəncsiz olaraq kəndlilərə verilməsi barədə qərar qəbul olunmuşdu[34]. Mədən Zavod Komissiyalarının 18 sentyabr

---

[30] **Azərbaycan tarixi**, c.5, s.21-22.
[31] Arifə Adıgözəlova , **a.g.ə.**, s.126; «Кавказ и Закаспий», **Баку**, №55, Баку 14 июля 1917, с.3.
[32] «Бакинская жизнь. Циркулярь Особого Закавказского Комитета», **Каспий**, №194, Баку 31 августа 1917, с.3.
[33] Hacıbaba Azimov, **a.g.ə.**, s. 136.
[34] Xasay Əliyev, **Azərbaycanda sosialist inqilabının bir sıra xüsusiyyətləri**. Bakı, Azərnəşr, 1970, s.38.

qətnaməsinə isə torpaq məsələsinin inqilabi yolla həlli barədə maddə daxil edilmişdi[35]. Həmin dövrdə qəzalarda kəndlilərin fəallığından öz məqsədləri üçün yararlanan bolşevik təşkilatı hümmətçilərdən istifadə etməyə cəhd edirdi. Lakin Hümmət təşkilatının Azərbaycan qəzalarında geniş təbliğat işi aparmaq üçün nə kifayət qədər kadrı, nə də maliyyəsi var idi. Hümmət vasitəsi ilə Azərbaycan milli hərəkatına parçalanma salmağa çalışan bolşeviklər Müsəlman Milli Komitəsinin fəhlə və kəndli məsələləri ilə bağlı heç bir tədbir görmədiyinə diqqət yönəldirdilər. Bu səbəbdən də Müsəlman Milli Şurasının yenidən seçilməsi məsələsi ortaya çıxdıqda Hümmət təşkilatı onun yeni tərkibində fəhlə və kəndli nümayəndələrinin artırılmasını təklif etmişdi. Milli Şuranın 23 avqust iclasında kəndlilərin nümayəndələri özləri çıxış edərək şurada 30 yer istədikdə bu təklif qəbul olunmuşdu[36]. Kəndli və fəhlə məsələlərinin mühümlüyünü düzgün anlayan M.Y.Cəfərov (XZK nümayəndəsi kimi – A.Ə.) isə Milli Komitənin 14 iyul iclasında komitənin nəzdində kəndli və fəhlə məsələləri ilə də məşğul olan Əmək komissiyasının yaradılmasını təklif etmişdi[37].

Kəndli amili münasibət tək bolşevik hümmətçilərlə deyil, digər müsəlman sosialistlərlə də Müsavat Partiyası arasında münasibətləri gərginləşməsinə səbəb olmuşdu. Aydın idi ki, Müsavatın nüfuzunun artması onunla müsəlman sosialistləri arasında ziddiyyətləri də artırırdı. Lakin 1917-ci ilin oktyabrın 7-də Gəncədə Azərbaycan siyasi təşkilatlarını təmsil edən 40 nəfər nümayəndənin iştirakı ilə keçirilən müşavirədə Ümum-Rusiya Müəssislər Məclisinə vahid seçki siyahısının tərtibi ilə əlaqədar ortaya çıxan ciddi fikir ayrılığı bu qüvvələr arasında ümumiyyətlə kompromisin mümkünsüzlüyünü göstərmişdi. Müşavirə iştirakçıları ilk gündən iki cəbhəyə bölünmüşdülər. Belə ki, torpaqların əvəzi ödənilmədən kəndlilərə verilməsi şərtini layihənin əsas şərti kimi irəli sürən Müsəlman sosialist bloku Müəssislər Məclisi seçkilərində təqdim olunacaq vahid namizəd siyahısının üçdə ikisini istəyirdi. Barışdırıcılıq mövqeyi ilə tanınan XZK nümayəndəsi M.Y.Cəfərov tərəfləri razılılığa gətirmək istəsə də buna müvəffəq olmamışdı. Sonda 5 nəfəri sosialist blokundan olmaqla 10 nəfərdən ibarət komissiya yaradılması təklif edilmişdi. Lakin bununla razılaşmayan müsəlman sosialistlər müşavirəni tərk etmişdilər[38]. Müsavat partiyası xəzinə, kilsə və xüsusi torpaqların əvəzsiz olaraq zəhmətkeş əhaliyə verilməsinə razılıq versə də, bu qərarın həyata keçirilməsini Müəssislər Məclisinə qədər gözləməyi, sosialist bloku isə əksinə, Müəssislər Məclisini gözləmədən aqrar proqramın həyata keçirilməsini təklif edirdi. Müşavirədə Müsavat partiyası öz iradəsini qəbul etdirə bilmişdi. Lakin siyasi vəziyyət Müsavat partiyasından aqrar məsələdə öz aydın mövqeyini ortaya qoymağı tələb edirdi və partiya da oktyabrın 26-da başlayan I qurultayında bunu

[35] Hacıbaba Əzimov, **İnqilab dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə**, Bakı, Elm, 1976, s.24.

[36] «Заседания Совета Бакинских Мусульман Общественных Организаций 23 августа», **Каспий**, №190, Баку 25 августа 1917, с.6.

[37] «В Мусульманском комитете», **Каспий**, №157, Баку 16 июля 1917, с.6.

[38] Hadji - bey, «Елисаветпольские впечатления», **Каспий**, №232, Баку 17 октября 1917, с.6.

etdi. Müsavatın qurultayında elan olunan aqrar proqramında qeyd olunurdu ki, bütün xəzinə, kilsə, və sahibkar torpaqları pulsuz və əvəzsiz olaraq (müəyyən hissəsi sahibkarların özündə saxlanılmaqla – A.Ə.) kəndlilərə paylanmalı və torpaq kəndlilərin tam mülkiyyətinə keçməlidir. Proqrama görə torpaq mülkiyyətinin minimum həcmi müəyyən edilir, xüsusi mülkiyyətə yalnız torpağın üstü verilirdi[39]. Müsavat partiyasının proqramı həyata keçirildiyi halda aqrar məsələni Azərbaycan kəndində sosial təbəqələr arasında ciddi ziddiyyət yaratmadan həll etmiş olurdu.

## Oktyabr çevrilişinin Azərbaycan kəndində sosial-ictimai münasibətlərə təsiri

Bolşevik çevrilişindən sonra isə Cənubi Qafqazda siyasi vəziyyətin gərginləşməsi başlanmış təbliğatların genişlənməsinə münbit şərait yaradaraq Azərbaycan kəndlərində aqrar çıxışlara yeni təkan verir və kəndli amilini önə çıxarırdı. Üzü payıza doğru kəndlərdə vəziyyət daha da pisləşdiyindən kəndlilər torpağa görə vergi verməkdən qəti şəkildə imtina edirdilər. Artıq sentyabr-oktyabr aylarından Azərbaycan kəndlərində müntəzəm silahlı kəndli çıxışları baş verməkdə idi.

Kəndli etirazlarının əsas mərkəzləri isə yenə də Yelizavetpol (Gəncə) quberniyası, xüsusən, onun Qazax və Tovuz qəzaları idi. Hələ XIX əsrin son rübündən kəndli çıxışlarının, qaçaqçılıq hərəkatının mərkəzləri olan bu bölgələr mübarizə təcrübəsinə malik idi və burada kəndli çıxışları əslində demək olar ki, dayanmamışdı. Sözsüz ki, Qazax qəzasında kəndlilərin 72,6%-nin aztorpaqlı olması[40] buna imkan yaradan səbəblərdən idi.

Fürsətdən istifadə etməyə çalışan bolşeviklər imkanları olduğu yerlərdə bəy və mülkədarlara qarşı siyasi təbliğatı gücləndirirdilər. Qeyd etmək lazımdır ki, müəyyən ərazilərdə Azərbaycan kəndlilərinin bolşeviklərin təsirinə düşməsinə əlverişli şərtlər də mövcud idi. Məsələn, Tovuz ərazisində rus fəhlələrlə ünsiyyət bu şərtlərdən biri idi. Cənubi Qafqaz dəmir yol stansiyalarına yaxın yerləşməsi və burada sənaye müəssisələrinin olması, üstəlik hərbi qarnizonların mövcudluğu burada dəmir yol işçilərinin siyasi şüuruna təsir etmişdi. Hələ 1917-ci ilin martında Tovuzda Fəhlə və Əsgər Deputatları Soveti təşkil edilmişdi və S.Şəkibəyov, Q.Tağıyev və M.Məmmədov onun tərkibinə seçilmişdilər[41]. Beləliklə, fəhlələrlə sıx təmasda olan kəndlilər vasitəsilə bolşeviklərin ideyaları bir sıra qəzalara sirayət etməkdə idi. Bunun nəticələrindən biri idi ki, 1917-ci il oktyabr ayının ortalarında bölgədə iri torpaq sahiblərindən biri olan Süleyman bəy Şamxorski XZK-ə göndərdiyi ərizəsində 700 desyatindən çox nəsli torpaq mülkiyyətinin Dəllər kəndliləri tərəfindən zəbt edilməsindən, kəndlilərin Rəhim Hüseynovun və

---

39 **Azərbaycan tarixi**, c.5, s.285.

40 Hacıbaba Azimov, **a.g.ə.**, s.174.

41 «Воспоминания Мамедова М.Д. о крестьянском движении в 1917-1920 гг. и установлении советской власти в Елисаветпольской губернии», **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA)**, fond 268, siyahı 23, iş 440, v.7.

Qafqaz bolşevikləri qurultayında iştirak edən Dastan (Astan) Kərbəlayı Ələsgər oğlunun bolşevik təbliğatının təsirinə düşdüklərindən şikayət edirdi[42].

Eləcə də kəndli narazılığı da qeyd olunan əlverişli şərtlərə daxil idi. Bölgədə kəndlilərin narazılığının səbəblərindən biri kəndli komitələrinə qolçomaqların seçilməsi idi. Bəzi yerlərdə, kəndlilər müqavimət göstərərək öz iradələrini qəbul etdirmişdilər və hətta Tovuzun Öysüzlü kəndində kənd icraiyyə komitəsini daha yoxsul kəndlilər seçilmişdi. Bolşevik M.Əliyev Tovuz sahə komissarı, kənd fəalı M.Hacıhəsənov isə Yelizavetpol qəzasının 4-cü sahə komissarı vəzifəsinə keçə bilmişdilər[43].

Bununla belə, Azərbaycan kəndlilərinin çıxışları yalnız bolşeviklər tərəfindən aparılan təbliğat ilə bağlı deyildi. Bu həm də Azərbaycanın qərbində menşevik və eser təmayüllü müsəlman sosialistlərin də fəaliyyətinin də nəticəsi idi. Qazax, Gəncə, Tovuz və Naxçıvan ərazisində hümmətçilərdən bəhs edilərkən də əslində menşevik-hümmətçilər nəzərdə tutulurdu. Menşevik təmayülünü seçən Tiflis Hümmət təşkilatının şöbələri də məhz həmin ərazilərdə açılmışdı[44]. 1917-ci ilin dekabrında Gədəbəyə gələn və soyğunçuluqla mübarizə məqsədi ilə burada qırmızı qvardiya yaratmaq məsələsini qaldıran Ə.Qarayev özü də (Qafqaz Diyar Kəndli Deputatları Soveti İK-nın üzvü idi. – A.Ə.)[45] həmin vaxt menşevik idi.

Noyabr ayının sonlarında Ümum-Rusiya Müəssislər Məclisinə keçirilən seçkilər də həmin dövr üçün Azərbaycan kəndlilərinin müəyyən bir hissəsinin müsəlman sosialistlərə dəstək verdiyini nümayiş etdirmişdi. Baxmayaraq ki, Müsavat partiyası səslərin əksəriyyətini qazanmışdı, lakin eyni zamanda Müsəlman sosialist bloku da 159.770 səs toplamaqla[46] Rusiyada Müsəlmanlıq (İttihad) partiyasını qabaqlamışdı. Məhz kəndlilərin daha "hərəkətli" olduğu Azərbaycanın qərb bölgələrində blok daha çox səs qazanmışdı. Bu nəticələr həm də məqsədli sosialist təbliğatının gec tez burada nəticə verə biləcəyinin də göstəricisi idi.

Rusiyada bolşevik çevrilişindən sonra Cənubi Qafqazı idarə etməyə başlayan Zaqafqaziya Komissarlığı burada aqrar məsələnin həlli istiqamətində də ilkin addımlar atdı. Aydın idi ki, regionda da bolşeviklərin fəallaşdığı bir dövrdə Cənubi Qafqazda aqrar məsələnin həlli işinin zəif getməsi də kəndlilərin mövqeyinə təsir edə bilərdi. Buna görə də, dekabrın 8-də Tiflisdə Zaqafqaziya Komissarlığının və Diyar Kəndli Mərkəzinin birgə iclasında xüsusi və xəzinə torpaqlarının torpaq komitələrinə verilməsi barədə müzakirələr aparılmışdı. Burada Azərbaycan milli siyasi qüvvələrin nümayəndələri Ümum-Rusiya Müəssislər Məclisinin çağırılacağını və onsuz da torpaqların milliləşdiriləcəyini əsas gətirərək bu müzakirələrin keçirilməsinə etiraz etmişdilər. Onlar bu mövqe ilə mülkə-

---

[42] «Постановления Гянджинского Окружного Суда», **ARDA**, fond 6, siyahı 2, iş 11, v.25.
[43] Hacıbaba Azimov, **a.g.ə.**, s. 176.
[44] **Очерки Коммунистической Партии Азербайджана**, Аз. Гос.изд. Баку 1963, с.231.
[45] Məcid Katibli, **Gədəbəy bolşevik təşkilatının tarixindən**, Azərnəşr, Bakı 1962, s.40.
[46] Tadeuş Svyatoçovki, "Rusiya Azərbaycanı 1905-1920", **Azərbaycan**, №11, Bakı 1989, s.118.

darları mövcud vəziyyətdə özündən uzaqlaşdırmaq istəmirdilər və əslində də bu məntiqli addım idi. Onlara qarşı əks mövqedə olan menşevik-eser-daşnak nümayəndələri öz növbələrində dekretin diyarda asayişi qoruyacağı və hakimiyyətin nüfuzunu möhkəmləndirməyə kömək edəcəyi fikri ilə dekabrın 9-da müvafiq qərarın qəbul edilməsinə nail olmuşdular[47]. Dekabrın 16-da isə komissarlıq "Dövlət, keçmiş xanədan, kilsə, monastır, hüquqi şəxslərə aid və xüsusi mülkiyyətdə olan torpaqların torpaq komitələrinə verilməsi" haqqında dekret vermişdi. Dekretə görə, mülkədar torpaq sahibliyi qalır, üstəlik də Müəssislər Məclisi çağırılana və torpaq məsələsi orada həll olunana qədər kəndlilər vergiləri ödəməkdə davam edirdilər[48]. Lakin Azərbaycan qəzalarında bu istiqamətdə işlər getməmiş, torpaq komitələri lazımınca təşkil edilməmişdi. Bu yerlərdə hakimiyyətin mülkədarların başçılıq etdiyi milli komitəyə keçməsi ilə bağlı idi[49].

Təbii ki, belə vəziyyət artıq Qafqazda bolşevik hakimiyyətinin bərqərar edilməsi uğrunda Zaqafqaziya komissarlığına müharibə elan edən Bakı bolşeviklərinin fəaliyyətinə imkan yaratmışdı. Bölgədə kəndlilərin mülkədarlardan narazılığından öz siyasi məqsədi üçün istifadə etmək istəyən S.Şaumyanın başçılıq etdiyi Bakı bolşeviklərinin əlinə rəqibinə – Azərbaycan milli siyasi qüvvələrinə qarşı ideoloji hücum üçün də əsl fürsət düşmüşdü. Yaranmış şəraitdə məsələnin siyasi əhəmiyyəti Azərbaycan milli-siyasi qüvvələrinin bolşeviklərin hakimiyyəti ələ keçirməsi qarşısında əsas maneə olması ilə bağlı idi. Mövcud hakimiyyətin problemin həllini yubatması və ələlxüsus da, müsəlman mülkədarların bu məsələdə mövqeyi Bakı bolşeviklərinin Azərbaycan milli qüvvələrinə qarşı barışmaz münasibətini konkret fəaliyyətdə nümayiş etdirməyə imkan yaradırdı.

Kəndli hərəkatının başlanılması üçün təşviqatın məhz dekabr ayında gücləndirilməsi isə yaranmış siyasi vəziyyətlə bağlı idi. Məlum olduğu kimi, bu zaman Zaqafqaziya Komissarlığı Rusiyadakı bolşevik hakimiyyətini tanımayaraq faktiki olaraq Cənubi Qafqazda milli qüvvələrin hakimiyyətini bərqərar etmişdi. Digər tərəfdən isə, dekabrın 16-da Rusiya XKS sədri Lenin əmri ilə S.Şaumyan Qafqazın Fövqəladə Komissarı təyin edilmiş və bölgədə bolşevik Rusiyasının hakimiyyətinin bərqərar edilməsi üçün göstəriş verilmişdi. Məhz belə vəziyyətdə 1917-ci ilin dekabrın 5 (18) dən start götürən Qafqaz Cəbhəsindən rus ordusunun tərxis olunması prosesi "fürsət"dən düzgün istifadə olunacağı halda bölgədə bolşeviklərin planlarının həyata keçməsinə imkan yarada bilərdi. Tərxis olunan ordunun tərksilah edilməsi hesabına silahlanmaq istəyən milli qüvvələr bolşeviklər üçün böyük təhlükə idi. Dəmir yolu boyu qəzaların ərazisində müsəlman kəndlilərin torpaq sahiblərinə qarşı mübarizəsini alovlandırmaqla bolşeviklər Azərbaycan milli qüvvələrinin diqqətini yayındırmış olurdular.

---

[47] «В Закавказском Комиссариате», **Каспий**, №272, Баку 13 декабря 1917, с.5, **Закавказский Сейм.** Стенографический отчет. Сессия первая, 16-ое заседание, Тифлис 1918, с.22.

[48] Almaz İbrahimova. **Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər)**, Bakı, Elm, 2010, s.116.

[49] Rəşad Rüstəmov vd., **a.g.ə.**, s.89.

Məsələnin mühümlüyü səbəbindən 10-17 dekabr tarixlərində Tiflisdə keçiriləcək Ordu qurultayına gedən Şaumyan yolüstü Tovuzda dayanaraq buradakı vəziyyətlə tanış olmuş və bundan sonra bölgədə kəndlilərin bəylərə qarşı silahlandırılmasını sürətləndirməyə qərar verilmişdi. Tiflisə çatan Şaumyan Tiflis arsenalından Tovuza silahlar göndərilməsini təşkil etmişdi[50]. Şaumyanın gəlişinə qədər artıq burada kəndlilərin də daxil olduğu 70-dən çox üzvü olan qvardiya dəstəsinin də təşkil edilməsi bu planı asanlaşdırırdı. Sonradan Yelizavetpol quberniyasında vüsət alan aqrar çıxışların təşkilatçıları sırasında ilk yerdə Müseyib Əliyevin adı çəkilir. Onun Bakı bolşevikləri ilə əlaqələri hələ 1917-ci ilin yayında yaranmışdı. Hadisələrin iştirakçılarından olan Tovuz qvardiyaçısı M.Məmmədovun yazdığına görə M.Əliyev Cənubi Qafqaz kəndli qurultayında Caparidze ilə tanış olmuşdu[51]. Eləcə də həmin ilin oktyabrında Cənubi Qafqaz bolşeviklərinin I qurultayına gedən Şaumyanın və Gəncədə fəaliyyət göstərən erməni bolşeviki A.Mravyanın və bəzi məlumatlardan isə A.Mikoyanın M.Əliyevlə görüşməsi barədə də məlumatlar vardır[52].

Bölgədə kəndlilərin çıxışını təşkil etmək məqsədilə dekabrın 24-26-da Qovlar stansiyasında Qazax, Tovuz, Şamaxı, Gəncə, Gədəbəyin “inqilabçı kəndlilərinin” nümayəndələrinin iştirakı ilə müşavirə çağırılmış və müxtəlif ərazilərdə kəndliləri ayağa qaldırmaq üçün adamlar təyin edilmişdi[53]. Gəncə quberniyasında yaranan gərgin vəziyyətə görə Zaqafqaziya Komissarlığı 1917-ci ilin dekabrın 26-dan etibarən burada hərbi vəziyyət də elan etmişdi[54].

Əvvəlcədən müəyyən edilmiş plana uyğun olaraq, 1918-ci il yanvarın 6-dan 20-dək Qazaxda kəndlilərinin geniş miqyaslı silahlı üsyanı baş vermişdi[55]. Yanvarın 19-da bir gecədə bəy zümrəsindən 75 nəfər şəxs öldürülmüşdü ki, təkcə Zülqədərovların nəslindən öldürülənlərin sayı 20 nəfər idi. Bir neçə gün ərzində Gəncə və Qazaxda mülkədarlar Şamxorskilərin, Zülqədərovların, Qarabəyovların, Sultanovların və başqalarının Şamxor, Dəllər, Zəyəm, Qovlar, Xılxına, Yuxarı Ayıblı və s. malikanələrində kəndlilər tərəfindən 100 min hektar torpaqları zəbt olunmuşdu[56]. Sultanovlara və Zülqədərovlara qarşı hərəkata Kərbəlayı Əsgər və Rəhim Hüseynov (bolşevik) rəhbərlik edirdi. Yanvarın əvvəlində Qazax sahə komissarı M.Hacıhəsənovun və Tovuz sahə komissarı M.Əliyevin

---

[50] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.17.

[51] «Революционного движения в Тауском районе Аз СССР». **ARPİİİSSA**, fond 456, siyahı 18, iş 49, v.31.

[52] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.11.

[53] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.4.

[54] Zülfəli İbrahimov, **Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi**, Azərnəşr, Bakı 1957, s.274.

[55] Исмаил Гусейнов, «Крестьянское движение в Азербайджане в 1917-1920 гг». **В сборнике Великий Октябрь и борьба за советскую власть в Азербайджане**, Баку, изд-во Академии Наук Азербайджана, 1958, с.224.

[56] **Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг**. Баку, Azərnəşr, 1957, с.276.

rəhbərliyi altında üsyankar qüvvələr böyük torpaq sahibkarları Zülqədərovların 6 malikanəsini ələ keçirmişdilər. Sonradan Zülqədərovlar bu barədə Zaqafqaziya Komissarlığına şikayət məktubu ilə müraciət etmişdilər[57].

Qeyd etmək lazımdır ki, kəndli çıxışlarının belə bir miqyas alması müsəlman sosialist blokunu da narahat etmişdi. Seymin 15 (28) fevral iclasında İ.Heydərov müsəlman sosialistlər adından Cənubi Qafqazın müxtəlif yerlərində talanların eybəcər hal aldığını və bu səbəbdən Seymin təcili bu məsələyə baxmasını tələb etmişdi[58].

Təsadüfi deyil ki, bu üsyan rus ordusunun əsas eşelonlarının yola düşdüyü bir vaxta təsadüf etmişdi. Qeyd etmək lazımdır ki, Şaumyan Qafqazın fövqəladə komissarı kimi öz vəzifəsinin icrasına başlamaq üçün yanvarın 7-də İ.Vasekin və İ.Kolomiytsovun müşayiəti ilə Bakıdan Tiflisə gedərkən Şamxor hadisələri ilə əlaqədar olaraq 8-13 yanvar tarixləri arasında Gəncədə qalmışdı[59]. Daha sonra Tovuzda olmuş və yenidən erməni və Azərbaycan kəndlərində görüşlər keçirmişdi[60]. S.Şamxorskinin Zaqafqaziya Komissarlığına ünvanladığı 1918-ci il 7 mart tarixli məktubunda da hadisələrdən öncə Şaumyanın M.Əliyevlə görüşdüyü bildirilir[61]. Bolşeviklər milli hərəkatın əsas mərkəzində – Yelizavetpol quberniyasında kəndli hərəkatını qızışdırmaq və pərakəndə kəndli çıxışlarını mütəşəkkil üsyana çevirməklə Azərbaycan milli qüvvələrinə qarşı mübarizə üçün istifadə etməyə çalışmışdılar. Belə ki, hərəkatın məhz 1918-ci ilin yanvarında baş verməsi ilk növbədə cəbhəni tərk edən rus ordusunu tərksilah etməyə başlayan Azərbaycan milli qüvvələrinin diqqətini yayındırmış olurdu. Hərəkat eyni zamanda milli hərəkatın sosial-iqtisadi bazasına da güclü zərbə endirmiş olurdu. Qeyd etmək lazımdır ki, Zülqədərovlar və Şamxorskilər, Sultanovlar Azərbaycanın ən iri torpaq sahibi olan bəylərindən idilər.

## Müxtəlif təmayüllü erməni siyasi qüvvələrinin Azərbaycanda kəndli çıxışlarını gücləndirmək cəhdləri

Azərbaycan kəndlilərinin aqrar hərəkatında diqqət çəkən məqamlardan biri bu məsələ ilə bağlı bolşeviklər və daşnaklar arasında ortaq mövqeyin olmasıdır. Aqrar məsələyə dair tədqiqatlar aparan E.Hacıbababəyov öz məqaləsində məhz bu məsələyə diqqət çəkmişdi[62]. Belə ki, Zaqafqaziya Seyminin 20 mart (köhnə stillə 7 mart) iclasında Müsəlman fraksiyasının üzvü H.Ağayev daşnak partiyasının üzvü M.Arzumanovun Şaumyana məktubunu oxuyaraq sonuncunun Azərbaycan kəndlilərini mülkədarlara qarşı qaldırmaqla əslində daşnaklarla bir mövqedən çıxış etdiyini göstərmişdi. Həmin məktub-

---

[57] **Большевики в борьбе ..,** с.246.
[58] Rəşad Rüstəmov vd., **a.g.ə.**, s.129.
[59] Zülfəli İbrahimov, **a.g.ə.**, s.276.
[60] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.20.
[61] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.21.
[62] Эльчин Гаджибабаев, «Первые попытки разрешения аграрного вопроса в Азербайджане накануне независимости (март 1917 – май 1918)», **Müstəqillik yollarında. Azərbaycan Xalq Cümhuriyyətinin 86 illiyinə həsr olunmuş məqalələr toplusu**, Bakı 2004, s.67.

da M.Arzumanov Şaumyana yazırdı: "Əziz Stepan, mən inanıram ki, sən bu hərəkatın (müsəlman kəndlilərin mülkədarlara qarşı çıxışlarının – A.Ə) inkişafı üçün hər cür kömək edəcəksən"[63].

Azərbaycan kəndlilərinin ayağa qaldırılması həmin vaxt həm bolşeviklərin, həm daşnakların marağına uyğun idi. Məsələ burasında idi ki, bölgədə müsəlman kəndlilərinin üsyanı olduğu halda, erməni kəndlisinin bundan nümunə götürərək sinfi düşmən kimi erməni mülkədarı üzərinə qalxması təhlükəsi də yox idi. Həmin vaxt Yelizavetpol quberniyasında təqribən 419 min erməni yaşayırdı[64] və onun da böyük hissəsi dövlət torpaqlarında yaşayan erməni kəndliləri idi. Çarizmin köçürmə siyasəti nəticəsində buraya köçürülən və daha sonra müharibə dövründə qaçqın kimi gələn ermənilər sözsüz ki, dövlət mülkiyyətində olan torpaqlarda yerləşdirilmişdi. Başqa sözlə, erməni bolşeviki və ya daşnak üçün erməni kəndlisinin sinfi oyanışı heç nə vermirdi. Yəqin ki, eyni səbəbdən də digər erməni sosialistləri (əsasən eser və qismən menşevik) müsəlman kəndlərinin sinfi şüurunun artmasının qayğısına qalmaqda xüsusi canfəşanlıq göstərməkdə idilər. Hələ sentyabr ayında "Kafkazskiy teleqraf" qəzetində Bakıda yerləşən və qarşısına Gəncə ərazisində erməni kəndlilərini təşkilatlandırmaq məqsədi qoyan "Yelizavetpol erməniləri təşkilatı" barədə ardıcıl çap olunan bir neçə məqalədə tatar (azərbaycanlı) kəndliləri arasında da iş aparmağın zəruri olduğu göstərilirdi. Burada erməni və müsəlman kəndliləri arasında "qarşılıqlı anlaşmanın olmaması səbəbindən yerli seçkili orqanlarda yerləri bəylər və ağalar tutduğuna" diqqət çəkilirdi[65]. Erməni sosialistlərinə çağırış edilirdi ki, onlar müsəlman kəndlilərini bəy, xan və ağaların himayəsindən azad etsinlər. Bildirilirdi ki, müsəlman kəndliləri arasına "demokratik amalları olan təbliğatçıları göndərin və onlara, azadlıq və demokratiya reallığına inamı təlqin edin[66]. Hətta məqalə müəllifi Baqaturov (erməni sosial demokratı – A.Ə.) daha irəli gedərək müsəlmanlar arasında demokratik orqanların yaradılması işinin məsuliyyətini də erməni təşkilatlarının öz üzərinə götürməsini də təklif edirdi[67].

Ermənilərin özlərinə gəldikdə isə, hesab olunurdu ki, erməni xalqının 80 faizinin kəndlilərdən ibarət olması və burada iri torpaq sahibkarlarının azlığı ermənilər arasında torpağın sosiallaşdırılmasını asanlıqla keçirməyə imkan yarada bilərdi[68]. Cənubi Qafqazda aqrar məsələ barədə məqalədə erməni bolşeviki A.Mikoyan erməni kəndliləri ilə bağlı yuxarıda qeyd olunan bu cəhəti nəzərə alaraq niyə məhz müsəlman kəndlilərinin

---

[63] **Закавказский Сейм.** Стенографический отчет. Сессия первая, 16-ое заседание, Тифлис 1918, с.14.

[64] **Адрес-календарь Азербайджанской Республики на 1920 год**, с.125.

[65] Алексей Демосфенович Богатуров, **«М. Об организации армян Елисаветпольской губернии», Кавказский телеграф, № 49, Тифлис 11 сентября 1917, с.3.**

[66] «Об организации армян Елисаветпольской губернии. Ответ Т. Тер-Григорянца Багатурову», **Кавказский телеграф**, №51, Тифлис 18 сентября 1917, с.3.

[67] «Об организации армян Елисаветпольской губернии. Ответ Багатурова», **Кавказский телеграф**, №52, Тифлис 25 сентября 1917, с.3.

[68] «Армянская жизнь. Крестьянский вопрос», **Баку,** №91, Баку 25 апреля 1917, с.5.

bəylərə qarşı mübarizə qaldırılmasının zəruri olduğunu bolşevik nöqteyi-nəzərindən izah etmişdi. Erməni və müsəlman kəndlisi arasında fərqi göstərən Mikoyan erməni mülkədarlarının az olmasına görə ermənilərdə sinfi mübarizənin mümkün olmadığı və digər tərəfdən isə erməni kəndlilərinin asılı olduqları müsəlman bəylərinə qarşı mübarizə aparacaqları halda bunun milli zülmə qarşı mübarizə xarakteri daşıyacağını bildirirdi. Müsəlman kəndlisinin bu cür fəaliyyətinin perspektivini isə Mikoyan belə izah edirdi: "Bu yolla tatar bəylərinin və müsəlmanlıq bayrağı altında aldadılmış kəndlilərin "müqəddəs birliyi"ni qırmaq və zəhmətkeş tatar kütlələrinin özləri üçün də təhlükəli olan "milli birlik"də çat yaratmaq olardı"[69]. Erməni kəndlisi milli zülmə qarşı, müsəlman kəndlisi isə sinfi zülmə qarşı mübarizə etməklə zərbəni eyni hədəfə – bolşeviklərin əsas rəqibi olan Azərbaycan bəy və mülkədarlarına vurmuş olurdular. Nəticə etibarilə, müsəlman kəndlilərinin bəylərə qarşı çıxışları istənilən halda erməni siyasi maraqlarına cavab verildi.

Bir məsələni də qeyd etmək lazımdır ki, həm Zaqafqaziya Komissarlığı, həm də sonradan AXC dövründə aqrar çıxışların iştirakçılarının istintaqı zamanı zərərçəkənlər eyni mövqedə dayanaraq həmin yerdə aqrar hərəkatın olmasını inkar etmiş, baş verənləri kəndlilərin bəy əmlakını mənimsəməyə yönələn talançılıq və quldurluq hərəkəti kimi səciyyələndirmişdilər. Hücumlarda kasıb kəndlilərin deyil, daha varlı kəndlilərin iştirak etdiyi əsas kimi göstərilmişdi[70]. Bununla belə baş vermiş aqrar hərəkatın xarakterik xüsusiyyətindən birinə, kəndlilərin bəylərə qarşı xüsusi amansızlığına diqqət yetirmək lazım gəlir ki, bu da öz növbəsində məhz sinfi düşmənçilik təbliğatının nəticəsi idi. Hərəkata rəhbərlik edən Müseyib və Səlim Əliyevlər, eləcə də digər kəndlilərin sırf sosial bərabərsizliyə qarşı mübarizə apardıqları göstərən faktlar kifayət qədərdir[71]. Onlar hələ müharibədən əvvəl Gəncə-Qazax və Tovuz ərazilərində kəndli çıxışlarının təşkilatçıları kimi Yelizavetpol Jandarm idarəsinin daimi nəzarəti altına düşmüşdülər[72]. Eyni zamanda onların hər ikisi bu hadisələrdən əvvəl hümmətçi kimi Müəssislər Məclisi seçkiləri zamanı fəal təbliğat aparmışdılar[73].

Komissarlığın tədbirləri nəticəsində aqrar hərəkatın vüsəti xeyli düşsə də, ümumiyyətlə hərəkat 1918-ci ilin mayına kimi davam etmişdi. Hətta mövcud vəziyyətdə hərəkat iştirakçıları Tovuzda öz idarəçiliklərini ("Bolşevik respublikası" kimi də qeyd

---

[69] Анастас Микоян, «Аграрный вопрос и помещичья контрреволюция в Закавказье» **Известия Совета рабочих и военных депутатов Бакинского района**, №231, Баку 13 января 1918, с.2.

[70] «Копия документов из Гянджинского Горархива о рев-ных событиях в Елисаветполья 1917-1918 гг.». ARPİİİSSA, fond 276, siyahı 3, iş 217, v.32.

[71] «Дело о грабежах и убийствах помещиков Елисаветполь и Казахских уездов», **ARDA**, fond 6, siyahı 1, iş 175, v.57[a].

[72] «Революционного движения в Тауском районе Аз СССР», **ARPİİİSSA**, fond 456, siyahı 18, iş 49, v.29.

[73] «Дело об открытом нападения Шыных-Айрум, Бозанчан усадьбы помещиков Елисаветполь Султановых и о поджоге их», **ARDA**, fond 6, siyahı 1, iş 179, v.21.

olunur[74] – *A.Ə.*) qurmuş və 5 ay ərzində Tovuzu əldə saxlamışdılar. Aqrar hərəkat Ərəş, Cavanşir, Şuşa, Lənkəran, Cavad, Quba və digər qəzalara da yayılmışdı.

Hesab etmək olar ki, Şamxor hadisələri ilə bir vaxtda baş verən aqrar çıxışlar Azərbaycan bəy və mülkədar sinfinin bolşeviklər və eləcə də digər sosialistlər tərəfindən yaradılan mənfi obrazına son ştrix olmuşdu. Kəndlilərin dağıdıcı hərəkətlərinin "effekti"ni görən Şaumyan fevralın 13-də (yanvarın 31-də) Azərbaycan kəndlilərinə müraciətlə çıxış etmiş və bəy və mülkədarların kəndlilərə düşmən olduğunu göstərərək müsəlman kəndlilərini milli komitələrə qarşı mübarizəyə çağırmışdı[75]. Lakin Şaumyanın bu müraciəti milli siyasi qüvvələrin kəskin etirazına səbəb olmuşdu. Onların fikirlərini ifadə edən "Açıq söz" və "İttihad" qəzetlərində Şaumyanın Azərbaycan kəndlilərinə müraciətinə münasibət bildirən məqalə müəllifləri onun əsl məqsədini diqqətə çatdırır və "erməni kəndlisinin hal-hazırda öz bəy və dövlətliləri ilə bir yerdə qiyam edərək erməni millətinin müqəddəratını həll etmək ilə məşğuldurlar"[76], – deyərək müsəlman kəndliləri də milli mənafe naminə həmrəyliyə çağırmışdılar. Şaumyanın müraciətinin doğuracağı nəticələr o qədər aydın idi ki, hətta kadetlərin nümayəndəsi Baykov da Şaumyanın müsəlman kəndliləri bəylərə qarşı mübarizəyə bu çağırışını pisləmişdi[77].

### Sosialistlər tərəfindən kənddə təbliğatçılıq işinin təşkili

Kəndlilərin fəallaşdırılmasına diqqət yetirən Bakı Soveti rəhbərliyi (Bu zaman Sovet bolşevik rəhbərliyi altında idi – A.Ə.) 1918-ci ilin əvvəlində Sovetin Qeyri-şəhər komissiyasının fəaliyyəti bərpa etməklə Bakı quberniyası kəndlərində təbliğatı artırmağa çalışmışdı. 1918-ci ilin birinci ay yarımı ərzində Quba qəzasına 7, Lənkəran və Cavada 16 Bakı qəzasına 10 bolşevik təşviqatçı göndərilmişdi[78]. 1918-ci ilin yanvarında Bakıda bir-birinin ardınca yaradılan beynəlmiləl "həmyerlilər birlikləri" (Yəni, burda erməni və müsəlman fəhlələri birlikdə olmalı idilər – A.Ə.) adlı bir neçə fəhlə təşkilatı da eyni məqsədlə yaradılmışdı. Həmin təşkilatlara üzv olan fəhlələr təbliğat məqsədilə öz kəndlərinə göndərilirdilər. Bunlardan biri yanvar 15-də Bala Əfəndiyevin sədrliyi ilə Bakıda yaradılan və Qazax və Gəncə qəzalarında, Qarabağda kəndlilərin silahlı hərəkatının güclənməsinə çalışmalı olan "Beynəlmiləl Həmyerlilər" təşkilatı idi. Eləcə də, Bakıda Dağıstan və Terek, Tiflis həmyerli təşkilatları da var idi[79]. Həmyerli təşkilatı Gəncə quberniyasının üsyançı kəndlilərinə kömək üçün pul vəsaiti toplayır və kəndə məzuniyyətə gedən fəhlələri təlimatlandırıb onları ədəbiyyatla təchiz edirdi[80]. Həmin dövr

---

[74] «Воспоминания Мамедова М.Д...». **ARPİİİSSA**, fond 268, siyahı 23, iş 440, v.27.
[75] **Большевики в борьбе** ..., с.276.
[76] "Şaumyan müraciəti haqqında bir mülahizə", **Açıq söz,** 12 fevral, №79, Bakı, 1918, s.1, "Zaqafqaziya müsəlman kəndli əhalisinə", **Açıq söz,** №677, Bakı 9 fevral 1918, s.1.
[77] Борис Байков, «Захват власти или демагогия», **Баку**, №44, Баку 24 февраля 1918, с. 3-4.
[78] Zülfəli İbrahimov, **a.g.ə.,** s.271.
[79] Teymur Miralayev, **Bala Əfəndiyev**, Ayastan, Yerevan 1972, s.62.
[80] Zülfəli İbrahimov, **a.g.ə.,** s.272.

üçün bu təbliğatlar Azərbaycan milli hərəkatına mane ola bilməsə də, aparılan iş bir qədər sonra AXC hakimiyyəti dövründə "öz bəhrəsini" vermiş və kəndlilərin yeni çıxışlarına baza yaratmışdı.

Aqrar məsələnin mühümlüyü Cənubi Qafqazda yeni yaradılan hakimiyyət orqanı olan Zaqafqaziya Seymini (fevral-may 1918) də onun həlli üçün addım atmağa məcbur etmiş, və Seym özünün aqrar qanun layihəsini qəbul etmişdi. Əslində qanun layihəsinin qəbulu ilk növbədə Seymin gürcü fraksiyasına lazım idi və onlar məhz öz istəklərini reallaşdırmış olurdular. Qanun layihəsi torpaq üzərində mülkiyyətin əvəzi ödənilmədən torpaq komitələrinə verilməsini nəzərdə tuturdu[81]. Lakin torpağın sosiallaşması – torpaq komitələrinin mülkiyyətinə verilməsi ideyası azərbaycanlı kəndlilərin geniş təbəqəsi tərəfindən dəstəklənməmişdi[82] və Azərbaycan kəndinin reallıqlarını nəzərə almırdı. Bununla belə, mövcud vəziyyətdə Seymdə təmsil olunan Azərbaycan siyasi qüvvələrindən Hümmət təşkilatı (menevik hümmətçilər – A.Ə), Sosialist bloku və İttihad bu layihəni dəstəkləmişdilər. Sonda Müsavat və bitərəflər də ziddiyyət yaratmayaraq bu layihəyə səs vermişdilər. Ümumiyyətlə isə, həmin dövrdə Azərbaycan ərazisində fəaliyyət göstərən torpaq komitələri bütünlükdə mülkədarların nəzarəti altında olduğuna görə torpaq üzərində mülkiyyət hüququnun torpaq komitələrinə verilməsi mülkiyyətin məzmununun deyil, yalnız formasının dəyişməsinə səbəb ola bilərdi[83].

Aydın idi ki, Cənubi Qafqaz üçün aqrar məsələnin vahid həlli yolu mümkün deyil. Qeyd olunduğu kimi, Müsavatın aqrar proqramı mövcud sosial təbəqələşmə vəziyyətində Azərbaycanda aqrar məsələnin həlli üçün ən optimal variant idi, lakin möhkəm siyasi hakimiyyət olmadan onun həyata keçirilməsi mümkün deyildi. Yaranmış şəraitdə Azərbaycan milli qüvvələri hələ ki, kəndli amilini deyil, siyasi amilləri nəzərə almağa məcbur olmuşdular.

Bəs, Azərbaycanın ayrıca bir hissəsində – Bakı quberniyasında hakimiyyəti əlinə keçirən bolşeviklər kəndli amilindən nə dərəcədə istifadə etdilər?

### Bakı Xalq Komissarları Soveti yarandıqdan sonra aqrar məsələ və kənddə idarəçilik

Mərkəzdə bolşeviklərdən fərqli olaraq burada onlar "Torpaq haqqında dekret"i hakimiyyəti ələ keçirəndən iki ay sonra elan etmişdilər. Halbuki yeni hakimiyyətin bütün tədbirləri sırasında onun doğrudan da sosialist mahiyyəti daşıdığını Azərbaycan xalqına, daha doğrusu onun çoxminlik yoxsul kəndli kütləsinə nümayiş etdirəcək mühüm tədbir aqrar məsələnin həlli ola bilərdi. Nə qədər birtərəfli səslənsə də, hesab etmək olar ki, Bakı Xalq Komissarları Soveti (Bakı XKS) soyqırımına məruz qalan və onsuz da bolşevik hakimiyyətini "qəbul" etməli olan Azərbaycan kəndlisinin rəğbətini qazanmağa tələs-

[81] Rəşad Rüstəmov vd., **a.g.ə.,** s.129.
[82] Rəşad Rüstəmov vd., **a.g.ə.,** s.130.
[83] Rəşad Rüstəmov vd., **a.g.ə.,** s.130.

mirdi. Əks halda, mərkəzi bolşevik hakimiyyətinin yerli orqanı olaraq Bakı XKS onun hazır torpaq haqqında dekretinə uyğun olaraq öz dekretini dərhal elan etməli idi. Çünki bolşeviklər də Rusiyada hakimiyyətə gələrkən bu dekreti yerlərdə heç bir təşkilatı və hazırlıq işləri görmədən elan etmişdilər və vədlərinə sadiqliyi göstərməklə kəndlilərin dəstəyini qazanmaq üçün bu addımı atmışdılar. Bakıda isə bu məsələ soyqırımı yolu ilə hakimiyyətdə möhkəmlənmiş Bakı bolşevikləri üçün mövcud vəziyyətdə sadəcə olaraq əhəmiyyətsiz idi. Halbuki Azərbaycanda ən pis vəziyyətdə olan dövlət kəndliləri də məhz Bakı quberniyasında yaşayırdılar[84] və onlara torpaqların verilməsi bəy-mülkədar müqaviməti ilə rastlaşmamalı idi. Digər tərəfdən, Bakı bolşeviklərinin soyqırımı "vasitəsi"ndən istifadə etmələri onların aqrar siyasətində də öz mənfi nəticəsini göstərməkdə idi. Sözsüz ki, torpaq məsələsinin həlli dəqiq statistik göstəricilərin toplanmasını tələb edirdi və Bakı quberniyasının qəzalarında bunu aparmaq çox çətin bir iş idi. Bolşevik hakimiyyəti özü Azərbaycan kəndlisini torpaqlarından dərbədər salmışdı. Məhz bu siyasətin nəticəsi idi ki, yaz əkin işləri başlasa da torpaq məsələsinə baxılmırdı. Mövcud müxalifliyi dəf etmək üçün Bakı XKS ilk növbədə yerlərdə inzibati hakimiyyəti möhkəmləndirməyə və kəndlilərin təşkilatlandırılmasına, kəndli sovetlərinin yaradılmasına başlamışdı. 1918-ci il mayın I yarısında Şamaxı qəzasında, mayın 24-26-da Bakı qəzasında, iyunun 15-də Muğanda kəndli deputatlarının qurultayları bu məqsədlə keçirilmişdi. Bu zaman isə söhbət bolşevik-daşnak ordusunun qarşısında təslim olmaqdan başqa çarəsi qalmayan müsəlman kəndlisinin öz mövcudluğunu təmin etmək məqsədi ilə sovetlərin təşkilinə səs verməsindən gedir. Lakin bolşeviklərin gözləntilərinin əksinə olaraq kənd sovetlərinin tərkibinə yoxsullar deyil, daha çox qolçomaq kəndlilər seçilirdi[85]. Bu cür tərkib bolşevikləri qane etmədiyindən Bakı Qəza İK kənd sovetlərinin seçki ilə deyil, təyinatla təşkilinə başlamışdı[86].

Azərbaycan Cümhuriyyətinin yaranması və bundan dolayı yaranan yeni siyasi şərait bolşevik hakimiyyətini tələsdirirdi. Mövcud vəziyyət Azərbaycan kəndlisini mülkədarın təbii müttəfiqinə çevirirdi. Hesab etmək olar ki, Bakı XKS AXC ilə müharibə başlandıqdan sonra kəndliləri qəti şəkildə milli qüvvələrdən ayırmaq məqsədilə bir cəhd edərək iyunun 18-də "Cənubi Qafqaz və Dağıstanda torpaqların sosiallaşdırılması" barədə dekreti vermişdi. Diqqəti bir məqam da cəlb edir ki, Mərkəzdə Lenin Torpaq komissarı vəzifəsini sol eserlərin nümayəndəsinə vermişdi. Şaumyan isə Bakı XKS-də əvvəlcə Torpaq komissarı vəzifəsini sağ eser – S.Saakyana təklif etmişdi[87]. Yalnız onun bu təklifdən imtina etməsindən sonra, sol eser M.H.Vəzirov bu vəzifəyə təyin edilmişdi.

---

[84] Дилара Исмаилзаде, **Русское крестьянство в Закавказье. 30-е годы XIX – начало XX в.** Наука, Москва 1982, с.173.

[85] **Большевики в борьбе**.., с. 449.

[86] «Бакинский уездный исполнительный комитет», **Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA)**, fond 1058, siyahı 1, iş 15, v. 1.

[87] «Заседание Совета Рабочих Солдатских Матросских Депутатов от 25 апреля», **Бакинский рабочий**, №76, Баку 27 апреля 1918, с.2.

Müsəlman eserlərin torpağın sosiallaşdırılması ideyasının müsəlman kəndlilər arasında rəğbət yaradacağı və ya bu işin uğuru barədə düşüncələri isə reallıqdan uzaq olmaqla yalnız onların ədalət və bərabərliklə bağlı sosialist və islami görüşlərin vəhdətindən doğan siyasi ideyaları ilə bağlı idi. Ümumiyyətlə, müsəlman eserlər kəndli komitələri seçkiləri ilə, yəni kəndlinin idarəçilikdə iştirakına nail olmaqla dəyişikliklərə ümid edirdilər. Buna görə də, Mart hadisələrindən bir az əvvəl martın 18-də özünün muxtar bir təşkilat ("Əkinçi" təşkilatı) olduğu elan edən müsəlman eserləri öz qarşısına əsas vəzifə olaraq Bakı quberniyası kəndlərinin təşkilatlanması və Bakı Soveti sıralarında onlarının sayının artırılması, sonrakı vəzifə olaraq isə Cənubi Qafqaz kəndlilərinin təşkilatlanması və Diyar Kəndli Mərkəzinin yenidən seçilməsi vəzifələrini qoymuşdu[88].

Onu da qeyd etmək lazımdır ki, Mərkəzdə Lenin hökuməti inqilabdan sonra ilkin dövrdə kəndlilərin inqilabdan uzaqlaşmaması üçün torpağın sosiallaşdırılmasına getmişdi. Həmin vaxt Rusiya kəndlisi nə torpağın milliləşdirilməsi ideyasını anlaya bilirdi nə də, bolşeviklər onu həyata keçirmək imkanına malik deyildilər. Rusiya kəndi üçün xarakterik olan icma qaydalarını köklü dəyişməyən sosiallaşdırma məqsədəuyğun idi. Lakin qeyd edildiyi kimi, Azərbaycan kəndlisi torpağın sosiallaşdırılmasında deyil, xüsusi mülkiyyətə verilməsində maraqlı idi.

***Nəticə***

Göründüyü kimi, kəndli amili 1917-1918-ci illərdə Azərbaycanda siyasi qüvvələrin fəaliyyətinə ciddi təsir etmişdi. Əvvəla, kəndlilər Azərbaycanın əhalisinin əsas kütləsi idi. Yeni siyasi dövrün ab-havası burada da kəndlini fəallaşdıraraq potensial müxalif qüvvəyə çevirməkdə idi. Bu səbəbdən də siyasi qüvvələr kəndliləri ən çox narahat edən aqrar məsələnin həlli ilə bağlı öz mövqelərini ortaya qoymalı idilər. Lakin bu məsələnin yalnız möhkəm siyasi hakimiyyət olduğu halda həll edilməsi mümkün idi. Qalan bütün hallarda isə bu siyasi qüvvələr arasında mübarizədə qarşılıqlı ittihamlar üçün arqument kimi istifadə edilmişdi. Mahiyyət etibarı ilə ilk növbədə sosial xarakter daşıyan aqrar çıxışlar isə Şaumyanın siyasi fəaliyyəti ilə siyasi təzyiq vasitəsi kimi istifadə olunmuşdu.

Aqrar məsələdə Azərbaycan milli qüvvələrinin gözləmə mövqeyi bolşeviklərin ritorikasında Müsavatın "burjua və mülkədar-bəy partiyası" kimi ittiham olunmasına imkan vermişdi. Lakin Müsavat partiyası bu ittihamları təkzib etmək üçün real addım atmaq imkanından məhrum idi. Ümum-Azərbaycan milli partiyası mövcud şəraitdə ilk növbədə Bakıdakı müsəlman fəhləsinə və ümumən siyasi cəhətdən qeyri-yetkin və əsasən də ətalətdə olan müsəlman kəndlisinə deyil, milli burjuaziya və mülkədar təbəqəsinə arxalanmalı idi və milli maraq bunu tələb edirdi.

---

[88] «Резолюция принятая на общем собрании членов мусульманской секции партии социалист-революционеров. 18 марта», **Бакинский рабочий**, №74, Баку 25 апреля 1918, с.4.

Bolşeviklərin birinci hakimiyyəti dövründə (1918 mart-iyul) Azərbaycan kəndlisinə müncər etmək istədikləri, lakin onlar üçün cəlbedici olmayan torpağın sosiallaşdırılması barədə dekreti həyata keçirilməmiş qaldı. Bununla belə, bolşeviklər kəndli amilinin mühümlüyü və aqrar məsələ ilə bağlı səhvlərindən gələcək üçün "dərs" almışdılar. Azərbaycan kəndində sosial ziddiyyətlərdən yararlanmağa çalışan bolşeviklər sonrakı dövrdə kənddə təbliğat işinə daha çox diqqət ayırmış və Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar məsələnin həllinin gecikməsindən istifadə edərək kəndlilərin milli hökumətə qarşı çıxışlarının artmasına nail olmuşdular.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

### Azərbaycan dilində


1. Arifə Adıgözəlova, **Fevral inqilabından sonra Şimali Azərbaycanda idarəçilik sistemi**, Bakı, Elm və Təhsil, 2017.
2. **Azərbaycan tarixi: [7 cilddə] (1900 – 27 fevral – 1920)**, c.5, Bakı, Elm, 2001.
3. Xasay Əliyev, **Azərbaycanda sosialist inqilabının bir sıra xüsusiyyətləri**, Bakı, Azərnəşr,1970.
4. Hacıbaba Əzimov, **İnqilab dövründə Azərbaycanda kəndli təşkilatları və sinfi mübarizə**, Bakı, Elm, 1976.
5. C. Hüseynov. **Birinci Dünya müharibəsi illərində Azərbaycanda aqrar münasibətlər**, Azərbaycanda inqilabi hərəkatın sosial-iqtisadi zəmini (XIX-XX – əsrin əvvəli), Bakı, Bakı Dövlət Universitetinin nəşriyyatı, 1983.
6. Almaz İbrahimova, **Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər)**, Bakı, Elm, 2010.
7. Zülfəli İbrahimov, **Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi**, Bakı, Azərnəşr, 1957.
8. Məcid Katibli, **Gədəbəy bolşevik təşkilatının tarixindən**, Bakı, Azərnəşr, 1962.
9. Teymur Miralayev, **Bala Əfəndiyev**, Yerevan, Ayastan, 1972.
10. Əli Rəhimov, **1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi**, Bakı, Azərnəşr, 1962.
11. Rəsulzadə Məmməd Əmin, "Kəndçilər ittifaqı", **Açıq söz,** №497, Bakı 14 iyun 1917.
12. Rəşad Rüstəmov vd., **Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü,** Bakı, Turxan NPB, 2018.
13. Seyfəddin Səməndərov, **1917-1920-ci illərdə Azərbaycanda aqrar məsələ**, Bakı, Meqa – H., 2009.
14. Svyatoçovki Tadeuş, "Rusiya Azərbaycanı 1905-1920", Bakı, **Azərbaycan**, №11, 1989, s.117-152.

15. "Şaumyan müraciəti haqqında bir mülahizə", Bakı, **Açıq söz,** №79, 12 fevral 1918, s.1.
16. Nəsiman Yaqublu, **Müsavat partiyasının tarixi**, Bakı, Adiloğlu, 2012. (pdf)
17. "Zaqafqaziya müsəlman kəndli əhalisinə", Bakı, **Açıq söz**, №677, 9 fevral 1918, s.1.

**Rus dilində**

18. Адрес-календарь Азербайджанской Республики на 1920 год. Под. ред. Ставровского. Баку, Типография газеты Азербайджан, 1920.
19. Гаджибаба Азимов, **Великий Октябрь в Азербайджане**, Баку, Аз. Гост. Изд., 1987.
20. «Армянская жизнь. Крестьянский вопрос», **Баку**, №91, Баку 25 апреля 1917, с.5.
21. Ахмед Ахмедов. **Азербайджанские тюрки в революции 1905 года**, ИПО Азербайджан Милли Энциклопедия, Баку, 2002.
22. Алексей Демосфенович Багатуров, «М. Об организации армян Елисаветпольской губернии», **Кавказский телеграф,** №49, Тифлис 11 сентября 1917, с.3
23. «Бакинский уездный исполнительный комитет», **Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA),** fond 1058, siyahı 1, iş 15, v. 1.
24. «Бакинская жизнь. Циркуляр Особого Закавказского Комитета», **Каспий**, №194, Баку 31 августа 1917, с.3.
25. Борис Байков, «Захват власти или демагогия», **Баку**, №44, Баку 24 февраля 1918, с. 3- 4.
26. **Большевики в борьбе за победу социалистической революции в Азербайджане,** Документы и материалы. 1917-1918 гг., Баку, Azərnəşr, 1957.
27. «В Закавказском Комиссариате», **Каспий**, № 272, Баку 13 декабря 1917, с.5.
28. «В Мусульманском комитете», **Каспий**, №157, Баку, 16 июля 1917, с.6.
29. «Воззвание Бакинского Совета», **Известия Совета рабочих и военных депутатов Бакинского района**, № 32, Баку, 11 мая 1917, с.1-2.
30. «Воспоминания Мамедова М.Д. о крестьянском движении в 1917-1920 гг. и установлении Сов. власти в Елисаветпольской губернии», **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA)**, fond 268, siyahı 23, iş 440.
31. Эльчин Гаджибабаев, «Первые попытки разрешения аграрного вопроса в Азербайджане накануне независимости (март 1917 – май 1918)», **Müstəqillik yollarında.** Azərbaycan Xalq Cümhuriyyətinin 86 illiyinə həsr olunmuş məqalələr toplusu, Bakı 2004, s. 54-76.
32. Гасан Гасанов, **Из истории северeазербайджанской деревни в конце XIX – начале XX вв.**, Баку, Тахсил, 2007.

33. Исмаил Гусейнов, «Крестьянское движение в Азербайджане в 1917-1920 гг.». **В сборнике Великий Октябрь и борьба за советскую власть в Азербайджане**, Баку, Изд-во Академии Наук Азербайджана, 1958, с.217-265.
34. «Дело о грабежах и убийствах помещиков Елисаветполь и Казахских уездов», **ARDA,** fond 6, siyahı 1, iş 175.
35. «Дело об открытом нападения Шыных-Айрум, Бозанчан усадьбы помещиков Елисаветполь Султановых и о поджоге их», **ARDA**, fond 6, siyahı 1, iş 179.
36. Закавказский Сейм. Стенографический отчет. Сессия первая, 16-ое заседание, Тифлис 1918, с.14.
37. «Заседания Совета Бакинских Мусульман Общественных Организаций 23 августа», **Каспий**, №190, Баку 25 августа 1917, с.6.
38. «Заседание Совета рабочих и военных депутатов от 25 апреля», **Бакинский рабочий,** №76, Баку 27 апреля 1918, с.2.
39. Исмаилзаде Дилара, **Русское крестьянство в Закавказье. 30-е годы XIX – начало XX в.**, Москва, Наука, 1982.
40. «Кавказ и Закаспий», **Баку**, №55, Баку 14 июля 1917, с.3.
41. «Копия документов из Гянджинского Горархива о революционных событиях в Елисаветполе 1917-1918 гг.», **ARPİİİSSA**, fond 276, siyahı 3, iş 217
42. «Революционного движения в Тауском районе Аз СССР», **ARPİİİSSA**, fond 456, siyahı 18, iş 49.
43. Микоян Анастас, «Аграрный вопрос и помещичья контрреволюция в Закавказье», **Известия Совета рабочих и военных депутатов Бакинского района**, №231, Баку 13 января 1918, с.2.
44. «Мусульманская жизнь», **Каспий**, №135, Баку 20 июня 1917, с.6.
45. «Мусульманская жизнь», **Каспий**, №149, Баку 7 июля 1917, с.6.
46. «Мусульманский съезд», **Каспий**, №86, Баку 20 апреля 1917, с.3.
47. «Мусульманский съезд», **Каспий**, №89, Баку 23 апреля 1917, с.4.
48. «Об организации армян Елисаветпольской губернии. Ответ Т.Тер-Григорянца Багатурову», **Кавказский телеграф**, №51, Тифлис 18 сентября 1917, с.3.
49. «Об организации армян Елисаветпольской губернии. Ответ Багатурова» **Кавказский телеграф,** №52, Тифлис 25 сентября 1917, с.3.
50. **Очерки Коммунистической Партии Азербайджана**, Аз. Гос.изд., Баку 1963.
51. Игорь Рубенович Пичикян, «Резолюция крестьянского съезда», **Баку**, №150, Баку 8 июля 1917, с.3.
52. «Постановления Гянджинского Окружного Суда», **ARDA**, fond 6, siyahı 2, iş 11.
53. «Постановление Особого Закавказского Комитета об организации местной власти в пределах Закавказья 27 апрель 1917 г.», **ARPİİİSSA**, fond 276, siyahı 7, iş, 208.

54. «Протокол заседания Совета рабочих и военных депутатов сост. 12 апреля», **Известия Совета рабочих и военных депутатов Бакинского района**, 14 апреля, №11, Баку 1917, с.2.
55. «Резолюция, принятая на общем собрании членов мусульманской секции партии социалист-революционеров. 18 марта», **Бакинский рабочий,** №74, Баку 25 апреля 1918, с.4
56. **«**Что даст рабочим социализация земли?», **Знамя труда**, №7, Баку 22 мая 1917, с.1.
57. Алевсат Умаев. **Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX века**, Элм, Баку 2002.
58. Hadji-bey, «Елисаветпольские впечатления», **Каспий**, №232, Баку 17 oктября 1917, с.6.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Əzimova Aygün Səfər qızı – Böyük elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan, Bakı.

Azimova Aygun Safar– Senior researcher, A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

# 17 OKTYABR MANİFESTİ VƏ ANADİLLİ MƏTBUATIN İNKİŞAFI

©2021
ŞÖVKƏT PƏNAHOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0002-8227-4122; shovket.penahova.70@mail.ru

***Xülasə:*** *Məqalədə 17 oktyabr 1905-ci il Manifestinə verilən qiymət nəzərdən keçirilir. Bildiyiniz kimi, Rusiya imperiyasının arxaik dövlət quruluşu uzun müddət yeni qlobal – siyasi tendensiyalarla uzlaşa bilmədi. Hökumətin vəziyyətə nəzarət etmək cəhdləri uğursuz oldu. "Sakitləşdirici" tədbirlərdən birinə misal olaraq 17 oktyabr tarixli məşhur Manifesti göstərmək olar. Bu tədbirlərdən biri olaraq, Manifestin bəndlərindən birini, yəni söz azadlığının elan olunmasını nəzərdən keçirməyə dəyər. Bu bənddə əsasən Rusiya imperiyası ərazisində yaşayan xalqlara "şəxsiyyətin toxunulmazlığı, vicdan, söz azadlığı və s. imtiyazlar verilirdi". Manifestin bu müddəasının çox mühüm nəticəsi ondan ibarət idi ki, bütün ölkədə çap olunmuş nəşrlər əvvəlcədən senzuradan azad edildi. Lakin hakimiyyət üçün bu cür təlatümlü və qorxulu hadisələrin gedişində senzura tam aradan qalxa bilmədi və bu səbəbdən də mətbuata dövlət nəzarətinin yeni formaları yarandı. Məqalədə Azərbaycandilli mətbuatın inkişafı üçün bu manifestin nəticələrini əks olunur.*

***Açar sözlər:*** *Azərbaycan, 17 oktyabr manifesti, anadilli mətbuat, Rusiya imperiyası*

# THE MANIFESTO OF OCTOBER 17 AND DEVELOPMENT OF THE AZERBAIJANI-LANGUAGE PRESS

©2021
SHEVKAT PANAHOVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0002-8227-4122; shovket.penahova.70@mail.ru

***Abstract:*** *The article considers the assessment of the Manifesto of October 17, 1905. As you know, the archaic state structure of the Russian Empire could not get along with the new – global – political trends for a long time. Attempts by the government to control the situation soon failed, so by the end of 1905, all forces were mobilized to stabilize it. An example of one of the "soothing" measures was the well-known Manifesto on October 17th. As part of this course, it is worth considering one of the points of the Mani-*

*festo, namely, the proclamation of freedom of speech. The population of the Russian Empire "was granted unshakable freedoms on the basis of real inviolability of the person, freedom of conscience, speech, meetings and unions". A very important consequence of this provision of the Manifesto was that printed publications throughout the country were exempted from prior censorship. However, in the course of such turbulent and frightening events for the government, censorship could not be completely eliminated, and therefore new forms of state control over the press emerged. In the article, we studied the results of this manifesto for the development of the Azerbaijani- language press.*

***Keywords:*** *Azerbaijan, Manifesto of October 17, Azerbaijani-language press, Russian Empire.*

# МАНИФЕСТ 17 ОКТЯБРЯ И РАЗВИТИЕ АЗЕРБАЙДЖАНО-ЯЗЫЧНОЙ ПЕЧАТИ

ШОВКАТ ПАНАХОВА[*]

[*] Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0002-8227-4122; shovket.penahova.70@mail.ru

***Резюме:*** *В статье рассматривается оценка Манифеста от 17 октября 1905 года. Как известно, архаичная государственная структура Российской империи не смогла долго уживаться с новыми – общемировыми – политическими тенденциями. Попытки правительства контролировать ситуацию быстро провалились, поэтому к концу 1905 года все силы были брошены на её стабилизацию. Примером одной из «успокоительных» мер стал известный Манифест 17 октября. В рамках этого курса стоит рассмотреть один из пунктов Манифеста, а именно – провозглашение свободы слова. Населению Российской империи «даровались незыблемые свободы на началах действительной неприкосновенности личности, свободы совести, слова, собраний, союзов». Весьма важным следствием этого положения Манифеста было то, что печатные издания по всей стране освобождались от предварительной цензуры. Однако, в ходе столь бурных и устрашающих правительство событий, полностью цензура исчезнуть не могла, из-за чего и возникли новые формы государственного контроля печати. В статье мы изучали итоги этого манифеста для развития азербайджано-язычной печати.*

***Ключевые слова:*** *Азербайджан, Манифест 17 октября, азербайджано-язычная печать, Российская империя.*

***Giriş***

Məqalə 1905-ci ildə çar tərəfindən verilən 17 oktyabr manifestinin tədqiqinə həsr olunub. Xüsusilə də bu manifestin ana dilli mətbuatın sürətli inkişafına təsiri məqalənin əsas tədqiqat istiqamətini təşkil edir. Aparılan araşdırma zamanı müqayisəli təhlil metodundan istifadə edilmişdir. Xüsusilə də 17 oktyabr manifestinin müsbət və mənfi cəhətləri aparılan tədqiqatın gedişində aydınlaşdırılmışdır. İlk öncə bu manifestin qəbulu zamanı mövcud vəziyyət nəzərdən keçirilmişdir. Məlumdur ki, XX əsrin əvvəlində dünyanı dərin iqtisadi böhran bürümüşdü. Bu böhran çar Rusiyasında da çıxışlara, tətillərə səbəb oldu. Bütün imperiyanı sarsıdan tətillər dalğası imperiyanın müstəmləkə ucqarlarını, o cümlədən də sənaye potensialı gündən-günə artan Şimali Azərbaycanı da bürüdü. Cəmiyyətin bütün təbəqələrində artan narazılıqlar cəmiyyətin siyasiləşməsi ilə nəticələndi. 1905-ci ilin payızında azadlıq hərəkatının yüksəlişi, ümumi oktyabr tətili imperiyada inqilabi şəraitin kəskinləşməsinə dəlalət edirdi. Oktyabrın 17-də çar II Nikolay (1894-1917) rejimi iflasdan xilas etmək, eləcə də Rusiya xalqlarına, guya ki mülki və siyasi azadlıqlar "bəxş etmək" üçün manifest verdi[1]. Bu manifestə qədər anadilli mətbuata qarşı həm milli, həm də dini ayrı-seçkilik mətbuatımızın inkişafında güclü maneələr yaradırdı. Qafqaz Senzura Komitəsinin Şərq dilləri senzoru (1906-1918-ci illər) Mirzə Şərif Mirzəyevin Qafqazda dövri mətbuatın vəziyyəti ilə bağlı hazırladığı cədvəldən də görünür ki, gürcü və ermənilərin milli mətbuatı ilə müqayisədə azərbaycanlıların milli mətbuatı xeyli geridə qalırdı[2]. Təsadüfi deyil ki, erməni dilində təkcə Bakıda çap olunan qəzetlərin sayı yalnız Bakıda çıxan rusdilli qəzetlərin sayından geri qalırdı. Erməni və gürcülər üçün problemsiz olan milli qəzet və jurnalların çapı Rusiyanın müsəlman əhalisi, o cümlədən də azərbaycanlılar üçün çoxsaylı əngəl, maneələrə başa gəlirdi. Eyni vəziyyət ictimai həyatın bütün sahələrində də müşahidə olunurdu. Bu səbəbdən oktyabr manifesti bu maneə və əngəlləri bir qədər yumşaltdı. Bu sənəd "Dövlət qaydalarının təkmilləşdirilməsi haqqında Manifest" adlanırdı. Həmin sənəddə belə bəyan edilirdi: "İmperiyanın paytaxtlarında və yerlərdəki çaxnaşma və həyəcanlar bizim ürəyimizdə böyük kədər və qüssə yaradır... İndi baş verən həyəcanlar Rusiyanın bütövlüyünə və birliyinə xələl gətirə bilər. And içdiyimiz anda görə ağlımızın gücü və hakimiyyətin iradəsi ilə dövlətimizi belə bir böyük təhlükədən qorumağı əmr edirik. Hökumətə bizim iradəmizi sözsüz yerinə yetirmək vəzifəsini qoyuruq.

1) Xalq vətəndaş azadlıqlarının sarsılmaz əsaslarını – həqiqi toxunulmazlıq, vicdan, söz toplantı və ittifaq azadlıqlarını bağışlayırıq;

2) Dövlət Dumasına təyin edilmiş seçkiləri dayandırmadan indi də mümkün olduğu qədər əhalinin seçki hüququndan məhrum edilmiş siniflərini Dumada iştiraka cəlb etmək;

---

[1] **Azərbaycan tarixi**, Yeddi cilddə, V cild (1900-1920-ci illər), Elm, Bakı 2008, s. 133.

[2] Мирза Мирзаев, **Материалы по истории тюркской печати на Кавказе**, Баку, Ченлибел, 2009, с. 31.

3) Belə bir sarsılmaz qayda qoyulmalıdır ki, heç bir qanun Dövlət Dumasında bəyənilmədən qəbul edilə bilməz”[3].

Atılan addım və bəyan edilən bu manifest müəyyən dərəcədə mütərəqqi xarakter daşıyırdı. Bu sənədin XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin fəallaşmasında rolu danılmazdır. O, xüsusilə də milli siyasi mətbuatın təşəkkülü üçün mühüm əhəmiyyət kəsb edirdi. Əhməd bəy Ağayev hələ oktyabr manifesti ərəfəsində əbəs yerə belə yazmırdı: “Bizim iyirmi milyonluq əhalimizi gözünüzün önünə gətirin. O, hansı vəziyyətdədir? Heç hansı. Aydındır ki, söhbət kəmiyyətdən yox, keyfiyyətdən gedir. Keyfiyyət baxımından nəyimiz var? Dilimiz yox, ədəbiyyatımız yox, bir neçə aciz qəzetimiz var, mətbuatımız isə ümumiyyətlə yoxdur, haradasa Peterburqda iclasları keçən zəif xeyriyyə cəmiyyəti, daha heç nəyimiz yoxdur”[4].

## 17 oktyabr manifestinin anadilli mətbuatın inkişafına təsiri

Çarın manifestindən sonra “Hümmət” təşkilatının çağırışı ilə oktyabrın 19-da minlərlə adamın iştirak etdiyi siyasi nümayiş keçirildi. Şimali Azərbaycanda nümayişlər “Rədd olsun mütləqiyyət!”, “Yaşasın azadlıq!” və başqa şüarlarla ayın axırına qədər davam etdirildi. Çar manifestindən sonra imperiyanın mərkəzində və milli ucqarlarında bir sıra siyasi partiyalar yarandı[5]. Bu partiyalar öz fəaliyyəti və ideyaları barədə xalqı məlumatlandırmaq üçün öz mətbu orqanlarını nəşr etdirməyə başladılar. Bu manifest barədə dövrün azərbaycanlı ictimai-siyasi xadimlərinin münasibəti və onun xalqımızın ictimai-siyasi həyatında yeri barədə milli mətbu orqanlarımızda müxtəlif məqalələr işıq üzü görmüşdür. Müasir Azərbaycan tarixşünaslığında Ə.Topçubaşov və Ə.Ağayevin 17 oktyabr 1905-ci il Manifesti ilə bağlı fikirləri geniş şərh edilib[6]. “Kaspi” qəzetində dərc olunan “Böyük akt” adlı baş məqaləsində belə qeyd olunmuşdu ki, manifest saflaşdırılmış “mühafizəçiliyi” özünün əsas vəzifəsi hesab edən və bununla da “bütün böyük ölkəni başdan-başa qarışıqlıq və açıq terror ocağına çevirmiş” polis nəzarətinin və ağır bürokratik qəyyumluğun dar, məhvedici məhdudiyyət çərçivəsinə salınmış ictimai və dövlət məişətinin görkəmini əsaslı surətdə dəyişəcəkdir[7]. Ə.M.Topçubaşovun “bu və ya digər dinə, milliyyətə mənsubluğundan asılı olmayaraq Rusiyanın hər bir vətəndaşı özünün insan hüquqlarını dərk etmişdir” fikri də məhz bu ümidlərə əsaslanırdı[8]. O, bu manifestin faydalı olacağına o qədər ümid bağlayırdı ki, bu fikrinin davamı kimi belə yazırdı:

---

[3] **Полное собрание законов Российской империи (ПСЗРИ),** т. 25, отделение 1, 1905, от №25605 - 27172 и дополнения, Государственная типография, Санкт-Петербург 1908, с.754; Сергей Витте, **Воспоминания**, Полное издание в одном томе, Альфа-книга, Москва 2010, с.773.

[4] Əhməd bəy Ağayev, “Sözlər, sözlər”, **Kaspi**, Bakı 18 yanvar 1905, s.3.

[5] **XX əsr Azərbaycan tarixi,** II cild, Ali məktəblər üçün dərslik, prof. T.T.Vəliyevin ümumi redaktəsi ilə, Təhsil, Bakı 2009, s.43.

[6] Dilarə Seyidzadə, **Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar**, Oka ofset, Bakı 2004, s.110, 112-113.

[7] Dilarə Seyidzadə, **a.g.ə.**, s.110.

[8] Dilarə Seyidzadə, **a.g.ə.**, s.110.

"*İndidən belə vətəndaş azadlığı və siyasi azadlıq prinsipləri əsasında şüurlu sosial-siyasi həyat üçün onların qarşısında ümumi meydan açılır*"[9]. Həqiqətən də manifestin icrasında sənəddə qeyd olunanlar tam şəkildə icra olunsaydı, böyük ümidlər vəd, geniş demokratik imkanlar aça bilərdi. Lakin 1905-ci il "İrşad" qəzetinin 1906-cı il may saylarında silsilə məqalələr nəşr etdirmiş Üzeyir Hacıbəyli əbəs yerə belə yazmırdı:

"*Əlqissə, Rusiya hökuməti hökuməti-məşrutə olmağa meyl eylədi, yəni Dövlət Duması, yaxud millət məclisi qurmağa razı oldu. Lakin hökumət bu xeyir işi məcburən əmələ gətirdi... padşahlığa xərc və naloq verməyənləri seçkidən kənar elədi. Və saniyən yerdə qalan adamlara da vasitəsiz zadsız vəkil seçmək ixtiyar vermədi... Əlbəttə, bu cürə rəftar, yəni bu cürə vəkil seçkisi camaata xoş gəlməzdi. Odur ki, camaat Dövlət dumasına bir o qədər sevinmirdi*"[10].

M.Rəsulzadə isə 1906-cı il, oktyabrın 17-də "İrşad" qəzetinin 245 nömrəli sayında dərc etdirdiyi "Oktyabrın 17-si" adlı məqaləsində manifestin elan edilməsi səbəbinə toxunaraq, bunu Rusiya imperiyasını bürüyən ümumi tətildə görürdü: "*1905-ci ilin oktyabrın 17-də ölkənin əcab və damarları dərəcəsində olan cümlə dəmir yolları və teleqraflar tətil edib məmləkəti iflic halına yetirən bir zamanda xətti – Humayunu sadir olub məmləkətə səadət və rəfahət vədə etdi*"[11]. M.Şahtaxtlı 1905-ci ilin sonlarında «Новое обозрение» jurnalında rus dilində çap etdirdiyi "Müsəlmanlar və konstitusiya" adlı məqaləsində 17 oktyabr manifestini "Rusiyaya qurbanlar bahasına başa gəlmiş və gəlməkdə davam edən və indi 17 oktyabr manifesti ilə başa çatdırılan azadlıq hərəkatının" nəticəsi kimi qiymətləndirir[12].

17 oktyabr manifestinin Azərbaycan ictimai-siyasi həyatında müsbət rolu özünü hər şeydən əvvəl Anadilli mətbuatın sürətli inkişafında göstərdi. Belə ki, 1905-ci ilin dekabrın ortalarından 1907-ci ilin sonuna kimi 25-ə qədər dövri və qeyri-dövri qəzet işıq üzü görmüşdür[13]. Təsadüfi deyil ki, bu məqama toxunan Əli bəy Hüseynzadə belə yazırdı: "*Vaqeənbizdə 17 oktyabr manifesti ilə senzur ləğv olundu və bir müddət zəncirdən xilas olan mətbuat öylə bir vəlvəleyi-qiyamətnümun qopardı ki, təsirindən bütün köhnə binalarımız təməlindən sarsılıb az qalıyordu ki, bir gurultu ilə yıxıla*"[14]. Lakin fikrinin davamında, Əli bəyin də etiraf etdiyi kimi, heç də hər şey yaxşı sonluqla nəticələnmədi. Sürətlə açılmasına icazə verilən anadilli mətbuat orqanları bir müddət keçdikdən sonra sürətlə də bağlanmağa, həmin qəzetlərlə əlaqəsi olan şəxslər də həbs olunmağa başladı: "*Lakin çox keçmədən bunlara qarşı senzuradan daha şiddətli tədbirlər kəşf olundu. Şimdi bir az fəzlə laqqırtı edən hər bir baş, ya sadə mühərrir dərhal təhti-*

---

[9] Dilarə Seyidzadə, **a.g.ə.**, s. 110.

[10] Üzeyir Hacıbəyli, **Seçilmiş əsərləri**, 2 cilddə, II cild, Şərq-Qərb, Bakı 2005, s.212.

[11] Məhəmməd Əmin Rəsulzadə, **Əsərləri,** I cild, 1903-1909, Azərnəşr, Bakı 1992, s.64.

[12] Məhəmmədağa Şahtaxtlı, **Seçilmiş əsərləri**, Çaşıoğlu, Bakı 2006, s.132.

[13] Mirzə Mirzayev, **a.g.ə.**, s. 31; Fəridə Əliyeva, "17 oktyabr 1905-ci il manifestinin qiymətləndirilməsi məsələlərinə dair", **Tarix və onun problemləri**, №3, Bakı 2011, s.53.

[14] Əli bəy Hüseynzadə**, Siyasəti-fürusət**, Elm, Bakı 1994, s.48.

*mühakiməyə alınıyor, aylarca həbs ediliyor... Bizdə həftə keçmiyor ki, beş, on qəzetə bağlanmasın*"[15]. Bütün bunlara baxmayaraq, anadilli mətbuat oktyabr manifesti ilə yaranmış şəraitdən yerində istifadə etməyə nail olduğuna görə millətin maariflənməsi istiqamətində böyük işlər görə bildi. Mətbuat səhifələrində manifestin müddəaları bir-bir şərh edilərək nəinki millətə çatdırıldı, həm də böyük bir oyanışa vəsilə oldu. Məsələn, 17 oktyabr manifestində elan edilmiş azadlıqlardan biri də vicdan azadlığı idi. Haşım bəy Vəzirov 1907-ci ildə "Təzə həyat" qəzetində çap etdirdiyi "Rusiyada vicdan azadlığı mümkündürmü?" adlı məqaləsində əvvəlcə bu azadlığın mahiyyətini izah edirdi: "*Vicdanın insanın içərisində, məhz özünün yaxşı tapdığı, düz və savab gördüyü bir təriqətin azadlığına hürriyyəti-vicdan deyilir... yani hər bir kəsə öz insafı, öz vicdanı hansı dini, hansı bir təriqi və ayini qəbul edirsə, ona getsin və heç bir kəsin ona zorən və cəbrən qeyri-bir dini qəbul etdirməyə... həqqi olmasın*"[16]. H.Vəzirov 17 oktyabr manifestində vəd edilmiş vicdan azadlığını müsbət hal olaraq qiymətləndirir və onu şəriətimizin əsl əsası olan hürriyyətə uyğun hesab edirdi[17].

Amma qeyd etdiyimiz kimi, 17 oktyabr manifestində olan ümidlər özünü doğrultmadı, vəd edilmiş azadlıqların əksəriyyətinə elə 1906-cı ilin ilk aylarından qadağalar qoyuldu, ölkədə irtica sistemi işə düşdü. Ü.Hacıbəyli 1906-cı ilin mayında "İrşad" qəzetinə ölkədə siyasi vəziyyəti belə şərh edirdi: "*Qərəz, cəbr, zor, zülm, sitəm getdikcə artırdı, sensurasız çıxmasına izn verilmiş qəzetlər bir-birinin dalınca bağlanırdı, azadə qurulmasına rüsxət verilmiş mitinqlər və məclislər dağıdılırdı; əmniyyəti-şəxsiyyənin izi, tozu yox idi; kimini basırdılar, kimini sürürdülər*"[18].

17 oktyabr manifestində nəzərdə tutulan dini azadlıq ən azömürlü vədlərdən biri oldu, çünki Rusiyanı həm hakim siyasi, həm də pravoslav dairələri ruslaşdırma, xristianlaşdırma siyasəti aparırdı. Bu niyyətlə də İslam dininin mövqeyini zəiflətmək üçün milli mətbuata edilən təzyiqlərin ardı-arası kəsilmirdi. Odur ki, manifestin verilməsindən 3 ay sonra 1906-cı il yanvarın 31-də verilən fərmana görə yalnız pravoslav dininə təbliğat hüququ verildi. Beləliklə, Rusiya imperiyasında islam dininin siyasi statusu manifestə qədər olan səviyyədə qaldı[19].

M.Rəsulzadə 17 oktyabr manifestində elan edilmiş azadlıqların həyata keçirilmədiyini manifestin birilliyi münasibətilə nəşr etdirdiyi məqalədə yazıya almışdır. Həmin məqalədə o, yazırdı: "*Bu oktyabrda vədə verənlər çox-çox idi. Həm mətbuat hürriyyəti, həm danışıq, ittifaq və ictimalar azadlığı, hürriyyəti-din və vicdan, insanın ondan mən eləmək olmayacaq bir taqım hürriyyətlər, cümləsi vəd edilmişdi. Bəli, vəd edilmişdi! ... Tamam hürriyyət və imtiyazlar mövcud oldu. Fəqət məzlumlara deyil, camaat qanı*

---

[15] Dilarə Hüseynzadə, **a.g.ə.**, s.48.

[16] Haşım bəy Vəzirov/ **Haşım bəy Vəzirovun jurnalistik fəaliyyəti. Kefim gələndə**, Şuşa, Bakı 2001, s. 153.

[17] Haşım bəy Vəzirov, **a.g.ə.**, s.154.

[18] Üzeyir Hacıbəyli, **a.g.ə.**, s.215; Fəridə Əliyeva, **a.g.m.**, s.54.

[19] Fəridə Əliyeva, **a.g.m.**, s.54.

*soranlara əlverişli oldu*”[20]. Eyni məqamı Ü.Hacıbəyli də təsdiq edir: “*Millət aldandığını gördü... Rusiyanın üzünü gizlənmiş və fürsət axtaran istibdadın qara buludları bürüdü. İstibdadın, amansız istibdadın göyü guruldayıb, zülm və sitəm sədayi-dəhşətəngizlə məmləkətin hər tərəfinə səs saldı*”[21]. Bununla belə o, tamamilə bədbinliyə qapılmır və 1906-cı il dekabrın 12-də “İrşad” qəzetində dərc etdirdiyi “Kim nə haydadır?” adlı məqaləsində 1905-1906-cı illərdə Rusiya imperiyasında baş verən siyasi təlatümlərin Azərbaycan cəmiyyəti üçün əhəmiyyətini, azərbaycanlıların siyasi həyata cəlb edilməsində rolunu yüksək qiymətləndirirdi: “*İndiyə qədər davam edən rus inqilabi-kəbiri Qafqaz millətlərinin dərrakəli və gözü açıq adamları üçün böyük bir dəstavüz və rəhbər olub*”[22].

Qeyd edək ki, manifestin imzalanmasından sonra çar Rusiyasının ucqar əraziləri tarixində ilk dəfə olaraq dövri nəşrlərin ilkin senzurası ləğv olundu. Bu tədbir Bakıda Qafqaz canişinin 26 oktyabr 1905-ci il qərarı ilə həyata keçirildi[23]. 1905-ci il noyabrın 24-də isə “Dövr aşırı nəşrlər haqqında müvəqqəti qaydalar” qəbul edildi. Bu qaydalara görə qanunu pozan naşirlərə qarşı müxtəlif növ tənbeh tədbirləri tətbiq edilirdi. 1890-cı il senzura və mətbuata dair nizamnamənin daxili işlər nazirinə dövlət əhəmiyyətli məsələlərin mətbuatda müzakirəsini qadağan etmək hüququ verən 140-cı maddəsi ləğv edilirdi[24]. Bu real güzəşt mətbuat orqanlarının açılmasını xeyli sadələşdirirdi. Mətbuat orqanı açmaq üçün qubernatorun adına ərizə yazmaq kafi idi və 2 həftə ərzində məsələ öz həllini tapırdı. Bununla da redaktorlar hətta nəşri dayandırılan mətbu orqanını belə qısa zamanda əvəz edə bilərdilər. Bu istiqamətdə Əhməd bəy Ağayevin təcrübəsi kifayət qədər maraqlı, səmərəli və ibrətamizdir. Məsələn, müxtəlif səbəblərdən qapanan, yaxud qapadılan “Həyat”, “İrşad”, “Proqres”, “Tərəqqi” və başqa qəzetlərin yerinə Ə.Ağayev qısa zaman kəsiyində 10-a yaxın Azərbaycan və rus dillərində qəzetin çapına icazə almağa nail olmuş və nəşr etdirmişdir. Hətta müxtəlif cərimələr tətbiq edildikdə, redaktorlar həbs edildikdə belə həmin dövr ziyalıları, imkanlı şəxsləri bu istiqamətdə əllərindən gələn dəstəyi əsirgəmirdilər. Bakının mətbuat işləri üzrə müfəttişi, dövlət müşaviri Y.Boqoslovskinin Bakı general-qubernatoruna ünvanladığı çoxsaylı raportların birində belə qeyd olunurdu: “*Yerli qəzetlərdə kifayət qədər əsaslandırılmayan və eyni zamanda həyəcanlı şayiə yer aldıqda mənim məruzələrimdən sonra bu işdə təqsirli bilinən qəzet əməkdaşları və ya redaktorları tənbeh edilirdilər*”[25]. Lakin bu tədbirlər

[20] Məhəmməd Əmin Rəsulzadə, “Oktyabrın 17-si”, **İrşad**, №245, 17 oktyabr 1906; Rəsulzadə, **a.g.ə.**, s. 73.
[21] Üzeyir Hacıbəyli, **a.g.ə.**, s. 213; Əliyeva, **a.g.m.**, s. 54
[22] Fəridə Əliyeva, **a.g.m.**, s. 54; Üzeyir Hacıbəyli, **Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-1912)**, 2 hissədə: I hissə, Elm, Bakı 2009, s. 175; Üzeyir Hacıbəyli, “Kim nə haydadır?”, **İrşad**, №283, Bakı 12 dekabr 1906.
[23] Lalə Hacıyeva, **Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən (1871-1918)**, Elm və Təhsil, Bakı 2017, s. 201-202.
[24] Lalə Hacıyeva, **a.g.ə.**, s. 203-204.
[25] Lalə Hacıyeva, **a.g.ə.**, s. 205.

sadəcə tənbehlə bitmirdi. Ayrı-ayrı mətbu orqanlarının redaktorları, əməkdaşları, hətta hərbi hauptvaxtda saxlanılmaqla həbsə məhkum edilirdilər. Bu cür əngəllərin aşılmasında istər qəzet redaktorları, istərsə də qəzetləri maliyyələşdirən imkanlı həmvətənlərimiz əllərindən gələni edirdilər. Milli qəzetlərə qarşı məhkəmələrdə qaldırılan iddialar, tətbiq olunan cərimələr belə bu dəstəyi önləyə bilmirdi. Rusiya müsəlmanlarının mətbuat tarixini araşdıran fransız tədqiqatçılar – A.Benniqsen və Ş.Lemersye-Kelkeje bununla bağlı yazırdılar:

"*Mətbuatın ictimai fikrə təsir gücünə bələd olan varlı müsəlman tatarları tərəddüdsüz dövri mətbuata səxavətlə yardım edirdilər və tutalım, hökumət əleyhinə hansısa məqaləyə görə hakimiyyət baş redaktoru cərimələyirdisə bu halda mütləq həmin cəriməni ödəməyə hazır bir imkanlı tatar tapılırdı. Və ya varlı abunəçilər tələb olunan məbləği toplayırdılar ki, qəzet fəaliyyətini davam etsin. Bir qayda olaraq, mesenatlardan daxil olan vəsaitlər anonim qalır, amma bəzi hallarda qəzetlər bu haqda öz səhifələrində rəsmi elan edirdilər*"[26].

Qeyd etmək istərdik ki, Azərbaycan ziyalıları sadəcə və təkcə hökumətin deyil, erməni senzorların da təzyiqi ilə üzləşirdilər. Məsələn, hələ manifestin verilməsi ərəfəsində çap edilən "Həyat" qəzeti ilə bağlı Tiflisdə "Xanzadə" ləqəbli erməni senzor Qaraxanov belə yazırdı: "*Yeni yaradılan "Həyat" qəzeti... Rusiyanın başı içki məclislərinə və əyləncələrə qarışdığını, əhalisinin mənəviyyatının pozulduğunu bildirir. Məgər bu fikirlər qəzetin oxucularında rus həyatı haqqında yanlış təsəvvür yaratdığından xəbər vermir? Halbuki həmin rus həyatı Rusiya müsəlman kütləsinə çox işıqlı və ülvi şey verə bilərdi*"[27]. Qaraxanova görə, qəzet guya Rusiyaya qarşı şübhə toxumu səpməklə panislamizm dalğasına xidmət edirdi. Bu cür iddialar anadilli mətbuatın sürətli inkişafı önündə əngəllər yaratsa da milli mətbuatımızın inkişafına mane ola bilməmişdi[28].

Bununla belə milli qəzetlərin çapı vaxtı başqa problemlər də üzə çıxırdı ki, bunlardan da ən mühümü milli oxucu auditoriyasının darlığı idi. Pərakəndə satışın olmaması daim kənardan maliyyə dəstəyinə ehtiyac yaradırdı. Rusiyanın ən məşhur və çox yayımlanan qəzetinin pərakəndə satışı ən yaxşı halda 500 nüsxəni keçmirdi. Tirajın azlığı reklam və elanlarda da özünü göstərirdi – onlar cüzi olurdu. Əhməd bəy Ağayevin yazdığına görə, Azərbaycan dilində nəşr olunan qəzet rus dilində çıxan qəzetdən baha başa gəlirdi: "*Bütün bərabər şərtlərlə yanaşı müsəlman qəzetinin düzümü rusdilli nəşrdən iki dəfə çox xərc tələb edir*"[29]. Yaranan problemlərə baxmayaraq istər anadilli, istərsə də rusdilli milli mətbuatımız inkişafında bəzi şəxsiyyətlərin rolunu fərqləndirmək lazımdır. Bu baxımdan Yusif bəy Akçura Bakıda milyonçu Tağıyevin rusca nəşr etdirdiyi "Kaspi"

---

[26] Alexandre et Ch. Lemercier-Quelquejay Bennigsen, **La Presse et le mouvement national chez les Musulmans de Russie avant 1920**, Ecole Pratique des Hautes Etudes – Sorbonne, Mouton & Co., La Haye, Paris 1964, s. 49; Hacıyeva, **a.g.ə.**, s. 205.

[27] Dilarə Seyidzadə, **a.g.ə.**, s.73.

[28] Hacıyeva, **a.g.ə.**, s.210.

[29] Ахмед-бек Агаев, "Ответ без желания", **Бакинский день**, №20, Баку 1907, с.4.

və türkcə “Həyat” qəzetlərini onun çap etdirməsi faktını yada salaraq bu dövrdə Azərbaycanın mətbuat tarixi ilə bağlı yazmışdır ki, “Kaspi”nin baş redaktoru Əlimərdan bəy Topçubaşov, ən çox, ən yaxşı və ən parlaq yazan mühərriri də Əhməd bəy Ağayev idi. “Kaspi” və “Həyat”dan sonra “İrşad”, “Yeni İrşad”, “Təzə Həyat”, “Füyuzat”, “Yeni Füyuzat”, rusca “Proqress”, “Təkamül”, “Nicat” kimi bir çox qəzetlərin hamısı Bakıda və əsasən hamısı Tağıyev, Muxtarov, Aşurbəyli kimi sərmayədarların naşirliyi ilə çıxmışdır[30]. Əli bəy Hüseynzadənin “Həyat” qəzetində nəşr olunan “Qəzetimizin məsləki” adlı proqram məqaləsi sadəcə yeni mətbuat orqanının deyil, bütövlükdə anadilli mətbuatın da istiqamətini də müəyyənləşdirməyə imkan verir. Həmin məqalədə belə mühüm bir fikir ifadə olunur:

“*Bizim xalq, xüsusilə bir az məktəb görüb yazmaq, oxumaq bilənlər öylə zənn edirlər ki, hər qəzetə faydalıdır. (...) Xeyr! Qəzetə dəxi tutduğu məsləkə görə bir qisim xalqın mübtəla olduğu əfyun və bəng (tiryək) kimi müzürr (zərərli) ola bilir! və belə qəzetlər fikrin sönməsinə, milli və humanist sifətlərin məhvinə, cavanların vaxtından əvvəl qocalmalarına xidmət edir. Məsələn, Avropada qərəzkaranə məqalələr nəşr edən qəzetlər mövcuddur*”.

Odur ki, hər hansı bir qəzeti ələ alıb oxuyan kəs o qəzetinə məsləkdə olduğunu bilməlidir. “*Məslək yol deməkdir, yol isə düz və asan ya arizəli və müşkül ola bilir*”[31]. Bu amala xidmət edən Əli bəy Hüseynzadə əbəs yerə yazmırdı ki, *“bütün millətlər kimi, biz də doğma dilimizi, tariximizi, adət və ənənələrimizi, dünənimizi, bu günümüzü, hətta sabahkı halımızı” dərindən öyrənməliyik ...lazımdır ki, millətin öz ana dili məlumat və maarif təhsilinə alət olsun. Vacib şərtlərdən biri elmlərin və ədəbiyyatın ana dilində tərəqqi etməsidir*”.

***Nəticə***

Beləliklə, yuxarıda gətirilən materiallar da bir daha göstərir ki, bütövlükdə, 17 oktyabr manifestindən sonra baş verən demokratik dəyişikliklərin təsiri ilə mütərəqqi anadilli milli mətbuat formalaşdı. Qabaqcıl Azərbaycan ziyalılarının rəhbərliyi altında Azərbaycan dilində çap olunan qəzet və jurnallar həm Azərbaycan publisistika məktəbinin inkişafına səbəb oldu, bu da Azərbaycan ictimai-siyasi fikri tarixində mühüm rol oynadı. Bu məktəb Azərbaycan ziyalılarının əksəriyyətini – alimləri, yazıçıları, şairləri, tənqidçiləri, müəllimləri və başqa peşə sahiblərini öz ətrafına toplamağa nail oldu. Anadilli mətbuat ictimai-siyasi, fəlsəfi və ədəbi fikrin təkamülündə, xalqımızın milli şüurunun tərbiyəsində mühüm işlər gördü. Nəticədə milli-mənəvi dəyərlərimizi təbliğ və

[30] Yusif bəy Akçura, “Türklük”, **Türk Yurdu Dergisi**, c. 31 (63), sayı 285 (646), Ankara 2011, s.59; Aytek Memmedova, “Azerbaycan’ın Türk Dünyasındakı Mevkiine Tarihsel Bakış”, **Milli Kültür Araştırma Dergisi**, c.4, sayı 1, Niğde 2020, s. 69-79.

[31] Əziz Mirəhmədov, **Əhməd bəy Ağaoğlu**, Ərgünəş, Bakı 2014, s.7

tərənnüm edən ictimai-siyasi xadimlərimizin yeni nəsli yetişməsində bu mətbuatın çox böyük rolu oldu.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Əhməd bəy Ağayev, "Sözlər, sözlər", **Kaspi**, Bakı 18 yanvar 1905, s. 3.
2. Akçura Yusif bəy, "Türklük", **Türk Yurdu Dergisi**, c.31(63), sayı 285 (646), Ankara 2011, s. 56-62.
3. **Azərbaycan tarixi,** Yeddi cilddə, V cild (1900-1920-ci illər), Bakı, Elm, 2008.
4. Bennigsen Alexandre et Ch. Lemercier-Quelquejay, **La Presse et le mouvement national chez les Musulmans de Russie avant 1920**, Ecole Pratique des Hautes Etudes - Sorbonne, Mouton & Co., La Haye, Paris 1964.
5. Fəridə Əliyeva, "17 oktyabr 1905-ci il manifestinin qiymətləndirilməsi məsələlərinə dair", Bakı, **Tarix və onun problemləri**, №3, 2011, s. 52-55.
6. Üzeyir Hacıbəyli, "Kim nə haydadır?" **İrşad**, №283, Bakı 12 dekabr 1906.
7. Üzeyir Hacıbəyli, **Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-1912)**, 2 hisədə: I hissə, Bakı, Elm, 2009.
8. Üzeyir Hacıbəyli, **Seçilmiş əsərləri**, 2 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2005.
9. Lalə Hacıyeva, **Azərbaycanın rusdilli dövri mətbuatının tarixindən (1871-1918)**, Bakı, Elm və Təhsil, 2017.
10. Əli bəy Hüseynzadə, **Siyasəti-fürsət**, Bakı, Elm, 1994.
11. **XX əsr Azərbaycan tarixi,** II cild, Ali məktəblər üçün dərslik, prof. T.T.Vəliyevin ümumi redaktəsi ilə, Bakı, Təhsil, 2009.
12. Memmedova Aytek, "Azerbaycan'ın Türk Dünyasındaki Mevkiine Tarihsel Bakış", **Milli Kültür Araştırma Dergisi**, c. 4, sayı 1, Niğde 2020, s.69-79.
13. Əziz Mirəhmədov, **Əhməd bəy Ağaoğlu**, Bakı, Ərgünəş, 2014.
14. Məhəmməd Əmin Rəsulzadə, "Oktyabrın 17-si", **İrşad**, №245, 17 oktyabr 1906.
15. Məhəmməd Əmin Rəsulzadə, **Əsərləri**, I cild, 1903-1909, Bakı, Azərnəşr, 1992.
16. Dilarə Seyidzadə, **Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar**, Oka ofset, Bakı 2004.
17. Məhəmmədağa Şahtaxtlı, **Seçilmiş əsərləri**, Bakı, Çaşıoğlu, 2006.
18. Haşım bəy Vəzirov, **Haşım bəy Vəzirovun jurnalistik fəaliyyəti. Kefim gələndə,** Şuşa, Bakı 2001.
19. Ахмед-бек Агаев, "Ответ без желания", **Бакинский день**, №20, Баку 1907.
20. Витте Сергей, **Воспоминания**, Полное издание в одном томе, Альфа-книга, Москва 2010.
21. Мирза Мирзаев, **Материалы по истории тюркской печат на Кавказе**, Баку, Ченлибел, 2009.

22. **По́лное собра́ние зако́нов Росси́йской импе́рии (ПСЗРИ),** т. 25, отделение 1, 1905, от №25605 - 27172 и дополнения, Санкт-Петербург, Государственная типография, 1908.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Pənahova Şövkət Eyvaz qızı – Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı, Azərbaycan, Bakı.

Panahova Shovkat – candidate for a degree of A.A.Bakikhanov Institute of History, ANAS Azerbaijan, Baku.

ŞİMALİ AZƏRBAYCANDA ERMƏNİ TERRORUNUN YAYILMASINDA ERMƏNİLƏRİN KÖÇÜRÜLMƏSİ SİYASƏTİNİN ROLU (1813-1907)

©2021 ELÇİN CABBAROV*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0001-8717-035X ; e-mail: elcin-vc@mail.ru

***Xülasə:*** *Problem XIX əsrin əvvəllərindən başlayaraq Şimali Azərbaycan coğrafiyasına tətbiq olunan miqrasiya siyasəti müstəvisində nəzərdən keçirilir. Tarixi prizmada bu siyasətin realizəsində sosial-siyasi psixologiya amillərinin rolu, məcburi köç nəticəsində yaradılan ictimai-siyasi mühitdən terrogen şəraitə keçid və bu kontekstdə "miqrasiya və terror" qarşılıqlı münasibətlərinə konseptual baxış araşdırılır.*

***Açar sözlər:*** *köç, мiqrasiya, etno-siyasi psixologiya, idarə olunan hərc-mərclik, erməni konspiralogiyası, terrogen şərait, terror.*

THE ROLE OF THE "ARMENIAN RESETTLEMENT" POLICY IN THE SPREAD OF THE ARMENIAN TERROR IN THE NORTH AZERBAIJAN GEOGRAPHY (1813-1907)

©2021 ELCIN JABBAROV*

A.A. Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0001-8717-035X; e-mail: elcin-vc@mail.ru

***Abstract:*** *The problem is considered in the context of the resettlement policy applied to the geography of North Azerbaijan since the beginning of the 19th century. The role of socio-political and psychological factors in the implementation of this policy through the prism of history, as well as the transition from the socio-political environment created by forced resettlement to the terror conditions, and in this context a conceptual view of the relationship between the phenomena of "migration and terror" is investigated.*

***Key words:*** *resettlement, migration ethno-political psychology, controlled chaos, Armenian conspiracy, terrogenic environment, terror.*

# РОЛЬ ПОЛИТИКИ «ПЕРЕСЕЛЕНИЯ АРМЯН» В РАСПРОСТРАНЕНИИ АРМЯНСКОГО ТЕРРОРА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (1813-1907 г.)

©2021

ЭЛЧИН ДЖАББАРОВ*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0001-8717-035X; e-mail: elcin-vc@mail.ru

***Резюме:*** *Проблема рассматривается в контексте переселенческой политики в Северном Азербайджане с начала XIX века. Исследуется роль социально-политических и психологических факторов в реализации данной политики сквозь призму истории, а также переход от общественно-политической среды, созданной принудительным переселением, к террористической среде, и в этом контексте концептуальный взгляд на взаимосвязь явлений «миграции и террора».*

***Ключевые слова****: переселения, миграция, историческая ситуация, этнополитическая психология, контролируемый хаос, армянская конспиралогия, террогенная среда, террор.*

## *Giriş*

İnsanların köçü (köç etdirilməsi, miqrasiyası) *sosial-iqtisadi* prosesdir və müxtəlif kateqoriyalı şəxslərin yaşayış yerini dəyişərək başqa məkanda:

**a)** daimi yerləşməsi;

**b)** vətəndaş-hüquqi və ictimai status – qazanması ilə şərtlənir.

Bu iki xüsusiyyət miqrasiya proseslərinin xarakterinə həm kəmiyyət, həm də keyfiyyət baxımından təsir göstərir.

Ümumiyyətlə, toplum halında bir yaşayış yerindən başqa yerə köç, yaxud köçürülmək miqrasiya aktının məntiqini müəyyənləşdirir[1] və ictimai fikrə: “İnsanların köçü, bir şəxs və ya qrupun yaşayış yerini daimi olaraq dəyişməsi (köçəri həyat tərzi, iş tapmaq üçün yaşayış yerini tərk etmək, səyahətə çıxmaq və s. müvəqqəti xarakterli yer dəyişmələr istisna olunur)” anlamında təqdim edilir[2]. Şərh edilən kontekstdəki sosial məzmun miqrasiyanın, əsasən, “könüllülük” prinsipi ilə realizə formatına aiddir.

Lakin tarixdə siyasi səbəblərlə icra edilən məcburi köç prosesləri də baş vermişdir və baş verməkdədir. Məsələn, tarixdə erməni köçləri daha çox bu səbəblə icra olunmuşdur. Bunu XIX əsrin II yarısı – XX əsrin əvvəllərində çar Rusiyasının miqrasiya

[1]**Советский энциклопедический словарь**, Москва, Изд.-во «Советская энциклопедия», 1980, с.810.
[2]**Encyclopaedia Britannica,** https://www.britannica.com/topic/human-migration, istifadə tarixi: 17.05.2022.

siyasətinin məzmunundan da görmək mümkündür. Bu prosesdə motiv və məqsəd dövlət aparatı üçün gərgin zonada müdafiə zolağı təşkil etmək, iştirakçı tərəfdə isə "milli dövlətçiliyin bərpası" iddiası ilə konkret bir ərazidə etnik statistik çoxluq yaratmaq idi. Şimali Azərbaycana erməni köçləri siyasətinin çar hökumətinin öz müstəmləkəçilik iddialarını daha da möhkəmləndirmək xarakteri daşıdığını bildirən nəzəri fikirlər də mövcuddur[3]. Problemin bu şərtlər üzərindən şərhi iqtidarın "*cəlb etmək*", gəlmələrin isə "*cəlb olunmağa həvəslənmək*", "*sıxışdırıb çıxarmaq inadkarlığı*"nı xüsusi nəzərə çarpdırır; bu amillər erməni sosial-siyasi psixologiyasındakı fərqliliklərdən[4], özəlliklə də etnik-dini mənsubiyyətlərindəki özəl erməniçi xasiyyətlərdən irəli gəlir. Erməni köçü siyasətinin icraçısı öz siyasətini həmin fərqliliklərdən istifadə edərək reallaşdırmışdır.

Problemə bu yöndən yanaşmaq ilkdir; eləcə də terrorşünaslıq üçün yeni olan *erməni konspiralogiyası* anlayışının qaynaqlarını da görməyə nəzəri şərait yaradır. Beləliklə, rus imperiyasının cənub strateji sərhəd zonasında:

**a)** hərbi xarakterli etnik-dini zolaq formalaşdırmaq rus dövlətinin perspektivi üçün,

**b)** "dövlət içində dövlət" iddiası ilə muxtariyyət qazanmaq – isə erməni miqrasiyası siyasəti fonunda baş vermişdir. Bu kontekstdə cərəyan edən hadisələr regionda terrogen şəraiti qızışdırmışdı.

Köç etdirmək siyasəti ilə statistik çoxluq qazanmaq, idarə olunan hərc-mərclik yaratmaq, bu müstəvidə etnik-dini qarşıdurma və nifaq, o cümlədən terrogen şərait və ona qarşı mübarizə məsələlərini araşdırmaq öz aktuallığını bu gün də saxlamaqdadır. Hazırda dünya miqyasında nəzərə çarpan miqrasiya prosesi ümumdünya təbliğat vasitələrində "*miqrant-barbarlar*", "*gəlmələr*" termini üzərindən aparılır. Beynəlxalq miqyasda ayrı-seçkiliyin, antisemitizmin, irqçiliyin, dinkeşliyin genişlənməsinin miqrasiya problemləri ilə bağlılığını iddia edən fikirlər də artmaqdadır. Bu prosesin dolayısı ilə faşist ideologiyasını yenidən canlandırdığını irəli sürənlər də vardır. Beləliklə, "YERLİ-GƏLMƏ" qarşıdurmasının terrogen şəraiti gücləndirməsi labüddür. Bu səbəbdən də "köç olunma və terror" prosesini tarixşünaslıq kontekstində öyrənərək müasir ictimai-siyasi münasibətlərdə nəzərə alınması zərurəti vardır. Digər tərəfdən, bu istiqamət terrologiyanın əsaslarına dair nəzəri bazanın konkret bölməsinə ("miqrasiya və terror") aid digər məsələlərə də aydınlıq gətirə bilər.

### "Köç edilmə" siyasətində etno-siyasi psixologiya amillərinin yeri və rolu

Erməni etno-psixologiyasındakı traybalizm və probabilizm, siyasi psixologiyasındakı satelitlik və irredentizm, "siyasi müştəriliyə" meyillilik, "hərbi qəyyum

[3] Нигяр Эйвазова, **Миграционные процессы в Северном Азербайджане в XIX – начале XX вв.** Автореферат диссертации на соискание ученой степени доктора философии по истории, Баку 2016.

[4] Seyit Sertçelik, **Rus və erməni mənbələri işığında erməni problemi. Meydana çıxma prosesi. 1678-1914.**, Azərbaycan türkcəsinə uyğunlaşdıran A. Həsənoğlu, SRT yayınları, Ankara 2017, s.47-58.

axtarışı”[5] və s. politoloji xüsusiyyətlər uzun proses keçmiş, müxtəlif tarixi situasiyalarda etno-siyasi özünəməxsusluq qazanmışdır; sadalanan sosial psixologiya və etno-siyasi psixologiya xüsusiyyətləri “köç edilmə” siyasətinin cazibə dairəsinə düşərkən, ilk olaraq gəlmələrin məskunlaşdıqları yeni ərazilərdə avtoxton dairəyə qarşı müxtəlif yönlü təzyiqlər göstərməklə özünü ifadə edir. Məhz bu amil tarixən erməni köşü siyasətini hərbi-siyasi qəyyum tərəfindən strateji hədəfə doğru taktiki gediş kimi gündəmə gətirmişdir. Köç etməyə “cəlb edilmək”, yaxud da “məcbur edilmək” qənaəti buradan qaynaqlanır.

D.Lenq (“miqrasiya” və “deportasiya” terminlərini eyni mənalı anlayışlar kimi işlətməsinə baxmayaraq, onun təsvirində “ermənilərin köç etməyə” məcbur edilmələrinin siyasi-psixoloji əsaslarını görmək mümkündür) yazır:

“Bəzən elə olurdu ki, onları zorla öz yurdlarından qovub Bizans imperiyasının digər regionlarına yerləşdirirdilər. Bunu Yustinian (Bizans imperatoru, 527-565-ci illər. – E.C.) başlamışdı <...> Daha böyük deportasiyalar isə II Tiberi və Mauritsinin dövrünə aiddir. 578-ci ildə *10 min erməni* (kursiv mənimdir. – E.C.) Kiprə sürgün olunmuşdu <...>. Mauritsi (Bizans imperatoru, 582-602-ci illər. – E.C.), <...> hesab edirdi ki, ermənilər bir yerdə uzun müddət yaşayanda təhlükəyə çevrilirlər. O, adlı-sanlı ermənilərin hamısını yaxınları ilə birlikdə olduqları yerdən köçürmək üçün hətta İran şahənşahı ilə əməkdaşlıq planı da tərtib etmişdi. Tarixçi Sebesuya görə, Mauritsi İran şahına yazıbmış ki, “ermənilər – ipə-sapa yatmayan və fırıldaqçı xalqdır. Onlar sənin və mənim içimizdə yaşayır və ara verməyən iğtişaşların mənbəyidirlər. Mən öz torpaqlarımda yaşayanların hamısını toplayıb, Frakiyaya göndərmək istəyirəm, siz isə özünüzünküləri şərqə qovun. Əgər onlar orada ölsələr, deməli düşmənlərimizdir ölənlər; əgər əksinə, onlar orada kimisə qətlə yetirsələr, deməli, düşmənlərimizi öldürmüşlər. Biz isə əmin-amanlıq içində ömür sürərik. Yox, əgər onlar öz yurdlarında qalsalar, bizim heç birimizə dinclik olmayacaq <...>”[6].

S.Ter-Nersesyan bu fikrə başqa yöndən və xronoloji davamda dəstək verir:

“X əsrin ikinci yarısında Kilikiyanın və Suriyanın şimal hissəsinin Vizantiya imperatoru Nikifor Foka tərəfindən işğalından sonra xristian immiqrantlar – böyük hissəsi ermənilər idi – müsəlman əhalinin qovulduğu şəhər və qalalarda məskunlaşmışdılar <…>.[*] XI əsrdə buraya yeni erməni immiqrantlar (gəlmələr. – E.C.) axışmağa başlamışdı

---

[5] Elçin Cabbarov, **Erməni terroru və onun bəzi etno-siyasi aspektləri**, Nurlar, Bakı 2019, s.15-60.

[6] Девид Ленг, **Армяне. Народ-созидатель**, пер. с англ. Е.Ф.Левиной, ЗАО Центрполиграф, Москва 2006, с. 207-208.

[*] **Qeyd:** Erməni traybalizmi erməni məcburi köç prosesini tarixən bir neçə dəfə yaşamağı “qovulmaq”, “qovulmuşlar”, “qayıdış” və s. kontekstdə təbliğ edərək, bu müstəvidə qisas almaq təbliğatını dəstəkləməkdədir. Bu mövqe real olaraq erməni etnik terrorunun səbəbi kimi özünü göstərir. Erməni probabalizmi isə Cənubi Qafqaza erməni köşünü tarixi vətənə qayıdış kimi əsaslandırmağa cəhd etmədədir. Bu iki istiqamət müasir erməni ictimai fikrində “ermənilərin miqrasiyası” mövzusunu “erməni əhalinin sıxışdırılması, yadelli işğalçıların tarixi Ermənistandakı zülmünə qarşı uğursuz qiyamların ağır nəticələrindən qorxaraq kütləvi qaçqınlıq” kimi təqdim edir, “kortəbii miqrasiya”, “könüllü mühacirət”, “böyük sürgün”,

<...>. Ermənilərin Kilikiyaya köçü onların tarixində yeni səhifə açmışdı. Onların Kilikiyada kök salması xaçlı yürüşlərinin, latın krallıqlarının və Levant ölkələrinin yaranması ilə bir dövrə düşmüşdü”[7].

Beləliklə, XVIII əsrədək erməni köçü siyasətinin səbəb və icra mexanizmlərinin məntiqi müəyyənləşmiş olur[*]. Tarix elmləri doktoru, professor Kərim Şükürovun Azərbaycana məcburi köçlər və onların baza səbəbləri haqqındakı elmi qənaətləri də həmin məntiqi qətiləşdirir[8][**].

“Məcburi erməni köçü” anlayışına repatriasiya siyasəti də daxil edilə bilər. Bu məsələ də erməni taleyində dəfələrlə baş vermişdir; bəzən erməni partiya və təşkilatlarının, bəzən isə hətta başqa dövlətlərin təşəbbüsləri, razılığı və şirnikləndirici

---

“demoqrafik fəlakət”, “kütləvi yerdəyişmə” terminləri ilə nəzəri cəhətdən səriştəsizlik göstərirlər. Bütün bunlar termin qarışıqlığı yaradaraq elmi həqiqəti zorlamaq, problemə subyektiv yanaşmadır. Beləliklə, Şimali Azərbaycana erməni köçü siyasəti erməni tərəfinin ifrat dualizmi nəticəsində azərbaycanlılarla sosial-siyasi qonşuluqda erməni konspiralogiyasının güclənməsinə, qarşılıqlı münasibətlərdə total qarşıdurmaya səbəblər yaratmışdır.

[7] Сирарпи Тер-Нерсесян, **Армения. Быт, религия, культура**, пер. с англ. Л.А.Игоревского, ЗАО Центрполиграф, Москва 2007, с.47.

[*] **Qeyd:** 1978-ci ildə DQMV-də bu regiona erməni köçünün 150 illiyi təntənə ilə qeyd edilmiş və Azərbaycan SSR-nin Mardakert (Ağdərə. – E.C.) rayonu ərazisində xüsusi abidə qoyulmuşdu. Həmin köç hadisəsi də, abidənin qoyuluşu da 1701-ci ildə Rusiyaya siyasi oriyentasiyasını qətiləşdirmiş erməniliyin siyasi mənafeyinə xidmət edirdi. DQMV ətrafında ictimai-siyasi münasibətlər gərginləşəndə, “qədim türk – sak/saq/ərsaq/arsaq diyarında” (prof. Mirəli Seyidov) ucaldılmış həmin abidə erməni köçünün xronoloji əsasını və siyasi mahiyyətini təsdiqləyən maddi sübut kimi ermənilər tərəfindən dağıdılıb “yox” edilmişdi (“erməni traybalizmi”ni təsdiq edən əlavə bir fakt).

[8] Kərim Şükürov, “Azərbaycan tarixini dəyişən 13 hadisə”, **https://m.lent.az/news/301493,** istifadə tarixi: 17.06.2021.

[**] **Qeyd:** “Müəyyən dövrlərdə Azərbaycanda hökmranlıq etmiş imperiyalar (Sasanilər, Ərəb Xilafəti, Monqol-tatar imperiyası və s.) Azərbaycana əhali köçürmüşdür. <...> Ermənilər bu sırada tam fərqli yer tutur. Bu, köçürmənin strategiyası və erməni dini-milli xarakteri ilə bağlı olmuşdur. Rusiya əvvəlki imperiya miqrasiya siyasətinin əksinə olaraq hakim xalq və ya öz təbəəsini deyil, erməniləri kütləvi şəkildə işğal edilmiş Azərbaycan torpaqlarına köçürmüşdür. I Pyotrun <...> 1724-cü il fərmanı ilə onlar (erməni əhali – E.C.) Xəzərsahili torpaqlara köçürülmüşdür. 1828-ci il Türkmənçay müqaviləsi ilə İrandan, 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlıdan ermənilər gətirilmişdir. <...>

- Azərbaycanda gəlmə ermənilərdən ibarət xüsusi etno-konfessional təbəqə formalaşdırılmış, onlara hər cür imtiyazlı şərait yaradılmışdır.
- Gəlmə ermənilər Rusiya imperiyasının strateji məqsədlərinə xidmət etməklə yanaşı, ərazi iddiaları ilə də çıxış etməyə başlamışdır.
- Bu iddialar azərbaycanlılara qarşı soyqırımları və etnik deportasiyalara yol açmışdır. İlk belə hadisələr Rusiya imperiyası daxilində daha geniş şəkildə 1905-1906-cı illərdə baş vermişdir. 1918-ci ilin martında yeni şəraitdə davam etdirilmişdir.
- 1918-ci ilin mayında tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistan Azərbaycana qarşı dövləti düşmənçilik ideologiyası həyata keçirməyə başlamışdır. Sovet Ermənistanı və hazırkı Ermənistan Respublikası bu irsi qəbul etmişdir.
- Dağlıq Qarabağın muxtariyyətləşdirilməsi ilə (1923) Ermənistanın ərazi iddiası Azərbaycanın daxilinə də keçirilmişdir.
- Ermənistan düşmənçilik siyasəti ilə Azərbaycan tarixinə qanlı səhifələr yazmış (1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası, 1980-ci illərin sonlarının deportasiyası, Qarabağ müharibəsi, Xocalı soyqırımı və s.), onun iqtisadi, siyasi və sosial resurslarını bu konfliktə cəlb etməklə qarşıda böyük maneəyə çevrilmişdir”.

vədləri ilə həyata keçirilmişdi. Rotmister Lebedevin Tiflis Jandarm İdarəsinin rəisinə göndərdiyi "məxfi" qrifli 15.09.1908-ci il tarixli, 1088 saylı məktubda deyilir ki, avqustun 25-də Müqəddəs Məryəm kilsəsində Daşnaksutyun partiyasının toplantısında Türkiyə ermənilәri ilə yanaşı, bir neçə yüz Rusiya təbəəsi olan ermәninin də geriyə – Türkiyəyə göndərilməsi məsələsi müzakirə edilmişdi "Bidza" ləqəbli Stepan Ohanezov Türkiyədən qaçqın ermənilərin planlı şəkildə geriyə qaytarılmasına başçılıq etmiş, onların uçotunu aparmışdır. Erməni repatriasiya siyasəti sosial niyyətlə, bəzən dövlətlərarası razılaşma əsasında reallaşdırılırdı (xüsusilə sovet hakimiyyəti dövründə); lakin bunun nəticəsi olaraq erməni ictimai fikrində revanşizm və irredentizm ideyaları canlandırılır, bu fonda terror taktikasına dəstək verilirdi.

**Köç və terror: konseptual baxış**

Köç edilmənin səbəb və nəticələri ictimai təhlükəsizlik məsələləri fonunda terrogen şəraitin yaranmasına təsir göstərə bilir*. Bunu Şimali Azərbaycana ermənilərin köçürülməsi siyasətinin cəmiyyətdə doğurduğu sosial-siyasi düşkünlük və hərc-mərclik müstəvisində görmək mümkündür. Problemin xronologiyasında XVIII əsrin II yarısı xüsusi mərhələ olduğundan ona bu müstəvidən də diqqət yetirmək zəruriləşmişdir.

Ümumiyyətlə, ermənilərin Qafqaza köçürülməsi ancaq Xristian dininin, Xristian dünyasının xristian ermənilərin müdafiəsi kimi qəbul etmək birtərəfli mövqedir. Çünki XVIII əsrdən başlayaraq dünyada din uğrunda müharibələr səngimişdi; din hərb ideologiya deyil, teoloji müzakirə və missioner-təbliğat mövzusuna çevrilmişdi. Təsadüfi deyil ki, rus çarı Qafqazın işğalı prosesində ilk addım olaraq regionda xristian missioner cəmiyyətlərin təsis olunması və müsəlmanlar arasında xristianlığın yayılması, müsəlman əhalinin mənəvi dəyərlərini dəyişdirərək imperiyaya loyallıq göstərmək üsuluna üstünlük vermişdi.

Rusiya tərəfindən işğaladək Azərbaycan xanlıqlarının tərkibində xristian əhali azlıq təşkil edirdi (Qarabağ xanlığında 12 min əhalidən 2,5 mini, Şirvan xanlığında 24 min əhalidən 1,5 mini, Şəki xanlığında 15 min əhalidən 5 mini xristian olmuşdur[9]. Lakin həmin taktika özünü doğrultmadığı üçün çar növbəti addım kimi xristian təbəələrinin

* **Qeyd**: Müasir terrorşünaslıqda problemə münasibətdə, əsasən, iki konseptual baxış mövcuddur: ***1.*** Köç proseslərinin sürəti ilə cinayətkarlığın artımı (bu tendensiya cəmiyyətdə sosial-siyasi qarışıqlığı gücləndirərək terrora yol açır) düz mütənasibdir; ***2.*** Təhlükəsizlik və cinayətkarlıq problemləri arasında qarşılıqlı təsirlər dövlətlərin köç axınını idarə edə bilməməsindən irəli gəlir. Lakin köç siyasəti hərbi taktika və siyasi strategiya baxımından üçüncü istiqamətə də malikdir: ***3.*** İdarə olunan xaos yaratmaq, köç formatını təzyiq üsulu kimi cəmiyyətə tətbiq etmək. Buna görə də köç etmənin baş verdiyi dövrün ictimai-siyasi reallıqlarını nəzərə alıb, prosesə mövqe bildirməklə onun konseptual əsasını müəyyənləşdirmək mümkündür.

[9] Ataxan Paşayev, **XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında),** Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2007.

toplum miqrasiya siyasətini sürətləndirmişdi[10]. Bu ondan irəli gəlirdi ki, dövrün realist diplomatiyasında “strateji müttəfiq” və “forpost yaratmaq” amili önə keçmişdi[*].

Şərq siyasətində Cənubi Qafqaz xristian Avropasını, o cümlədən Rusiya İmperiyasını məhz “strateji müttəfiq”i müəyyənləşdirib, etnik-dini “qala-zolaq” formalaşdırmaqdan başlayırdı: pravoslav gürcülərə və erməni-qriqoryan kilsəsinə münasibətdə regional siyasi müştərilərin müəyyənləşdirilməsi və əlaqələrin rəsmiləşdirilməsi həmin qənaətdən irəli gəlirdi. XVIII əsrin əvvəllərindən başlayaraq Rusiya-Gürcüstan arasında protektoratlıq barədə separat danışıqların müsbət nəticələnməsi, bu prosesin davamı olaraq erməniçi siyasi arzu və niyyətlərinin himayəyə götürülməsi qənaəti də fikrə dəstəkdir[11**]. Q.Ezov yazır ki, məhz arxiyepiskop İosif erməni kilsə mənsublarının

---

[10] Хаджар Вердиева, **Переселенческая политика Российской империи в Северном Азербайджане в XIX–XX веков (историко-демографическое исследование),** Автореферат на соискание ученой степени доктора исторических наук, Баку 2005.

[*] **Qeyd:** Rusiya çarının siyasətində həm Qərbdən, həm də Şərqdən imperiyanın sərhədyanı daxilinə köçedilmənin təşkili yeni işğal olunmuş ərazilərdə etnik-dini statistik nisbəti çarın strateji hədəflərinə uyğun sistemləşdirmək şərti və niyyəti ilə aparılırdı [1818-ci ildə alman kolonistlərinin, XIX əsrin 30-cu illərində müxtəlif sosial mənşəli rusların (əvvəl sektantların, sonra isə pravoslavların) Şimali Azərbaycan coğrafiyasının ayrı-ayrı bölgələrinə köç edilməsi də həmin siyasətin tərkibinə daxildir].

[11] Галуст Галоян, «Исторические корни русской ориентации армянского народа и прогрессивное значение присоединения восточной Армении к России», **Вопросы истории,** №9, Москва 1978, с.3-20.

[**] Qeyd: Çar Rusiyası və Kartli-Kaxet çarlığı arasında Rusiyanın Gürcüstan üzərində protektoratlığı haqqındakı traktat (24 iyul 1783) “müsəlman dövlətlərinin zülmündən azad olmaq” məntiqi ilə icra edilsə də, onun strateji hədəfi regional müdafiə zolağının və hərbi hücum üçün toplaşmaq məntəqəsinin formalaşdırılması idi. Erməni tərəfi bu prosesdən kənarda qalmaq istəmirdi. Lakin dövlət səviyyəsində təmsil olunmadıqları üçün, ikitərəfli müqavilələrdə müstəqil tərəf olaraq çıxış edə bilmirdilər. Q.Qaloyan yazır ki, bu kəsiri aradan qaldırmaq üçün hətta II İraklinin başçılığı və Rusiyanın protektoratlığı altında birgə gürcü-erməni dövlətinin yaranmasına da təşəbbüs göstərilmişdi. Erməniçi dairə bu prosesləri üzdə müsəlmanlardan azad olmaq, əslində isə erməni dövlətçiliyini reallaşdırmaq kimi nəzərdə tutmuşdu. O dövrdəki İran – Rusiya, Rusiya – Osmanlı müharibələri fonunda erməni amilinin Rusiyaya meylli hərbi-siyasi təhdid formatına çevrilməsi, İran və Türkiyə ilə müharibə sonu müqavilələrin məzmununa ermənipərəst şərtlər də əlavə etdirirdi. Məşhur türk zabiti öz xatirələrində yazırdı: “Biz, qəti əminik ki, türk – erməni düşmənçiliyinin məsuliyyəti Rusiyanın siyasətinin üzərinə düşür. Altmış il bundan əvvəl, daha dəqiq desək, 1877-78-ci il rus-türk müharibəsinin başlanmasından on il əvvəl bu iki xalq arasında dini məzmunda hər hansı qarşıdurma haqqında söhbət belə yox idi”(“Записки Джемаль-паши”, издание Заккрайкома РКП(б), Тифлис 1923, с.197). Beləliklə, müsəlman dövlətlərinin tərkibində tez-tez iğtişaşlar törədən, müharibə dövründə düşmənə dəstək olan təbəəni öz sərhədlərindən çıxararaq nisbi dinclik qazanmaq avantürası, digər tərəfin isə düşmən dövlətlərlə sərhəddə etnik-dini müdafiə zolağı yaratmaq məqsədləri məlum müqavilələrdə “təbəə alış-verişi” pərdəsi altında köç etdirmək taktikasını gündəmə gətirmişdi. Beləliklə:

– Çar Rusiyası erməni köçümün nəticəsi olaraq regionda erməni zolağı formalaşdırırdı;
– Erməni konspiralogiyası budəfəki köçü konkret coğrafi məkanda toplum halında məskunlaşaraq, statistik çoxluq yaratmaq, gələcək erməni dövlətinin təsis edilməsi üçün uyğun siyasi-hüquqi müstəvi formalaşdır¬maq üsulu kimi dəyərləndirirdi;
– İran və Osmanlı dövlətləri erməni köçünə qiyamçı təbəədən, düşmənə dəstək verən etibarsız qövmdən təmizlənmək variantı kimi yanaşırdı (İran şahzadəsi Abbas Mirzənin bir müddət sonra rus çarının erməni köçü siyasətinin mahiyyətini dərk edərək bunun qarşısını almaq cəhdləri gecikmiş addım idi. – E.C.).

1827-ci ilin oktyabrında İrəvan xanlığı rus qoşunları tərəfindən işğal edildikdən sonra ermənilik artıq Rusiya protektoratı altında muxtar erməni bölgəsi yaratmaq barədə açıq çıxış etməyə başlamışdı. Çar I Nikolay (1825-1855) isə İrəvan xanlığının tarixi coğrafiyasında imperiyanın “Erməni vilayəti” planını təsdiq

beyninə yeritmişdi ki, erməni xalqının həqiqi maraqları Rusiyanın maraqları, onun Şərqə olan ali istəkləri ilə üst-üstə düşür[12].

İranda yaşayan kürdlərin Şimali Azərbaycana köç etmək istəklərinə isə həvəssiz yanaşmanın (əksəriyyəti müsəlman idi və onlar da Rusiya təbəəliyinə keçməyə təşəbbüs göstərmişdilər) məntiqi çarın köç etdirmək siyasətinin mahiyyətini açmaqda əlavə amil ola bilər.

Beləliklə, məcburi köç etdirmək siyasəti cəmiyyətdə hərc-mərcliyin yaranmasına ciddi təsir göstərdiyi aydınlaşır. Bu konteksdə qeyd edək ki, erməni köçü nəticəsində erməni konspirologiyasının sistemləşməsi terrogen şəraitin reallaşmasına bilavasitə təkan vermiş, nəticədə erməni terrorunun qarşıdurma taktikası kimi özünü büruzə verməsinə gətirib çıxarmışdır.

### “Köç etdirmək” siyasəti və idarə olunan hərc-mərclik

Çar Rusiyasının Şimali Azərbaycana erməni köçü siyasəti ilə paralel regiona yeni idarəçilik üsullarının tətbiqi bu coğrafiyanın ictimai-siyasi həyatında ciddi dəyişikliklərə səbəb olmuşdu. Sosial ədalətsizliklərə və məmur özbaşınalığına, ikili standartlara avtoxton əhali tərəfindən etiraz və mühacirət etməklə qarşılıq verilirdi[13*]. Qazax,

---

etmişdi. Bundan sonra Azərbaycana erməni köçü daha sistemli formada həvəsləndirilmişdi. Ermənilik bu köçü “Böyük Ermənistana” qayıdışın başlanğıcı kimi təbliğ edirdi. Belə bir fərqli münasibətlər daxilində ən mürəkkəb hərbi-siyasi tale Azərbaycanın üzərinə düşmüşdü. Qarabağ və Gəncə xanlıqlarının işğalından sonra çar üsul-idarəsinin Azərbaycan coğrafiyasındakı alban kilsəsinin hüquqlarının və maddi-mənəvi sərvətinin erməni qriqoryan kilsəsinin idarəçiliyinə verməsi (1836) bu dəfə vahid erməni teokratik hakimiyyətinin formalaşdırılmasına yol açmışdı (erməni köçünə İran və Türkiyədəki məhz erməni din xadimlərinin Üçkilsəyə gətirilməsi prosesindən başlanması təsadüfi deyildi; dini baxımdan başsız qalan əhali məcbur olub öz rahiblərinin ardınca yeni torpaqlara axışırdılar). Beləliklə, ermənilərin köç etdirilməsi siyasəti nəticəsində erməni dövlətinin qurulması üçün toplum halında yaşanan konkret coğrafi məkan və katolikosluq yaradılmışdı –növbəti addım dövləti rəsmiləşdirmək idi. Lakin bu tip ideyaların Rusiya imperiyasının perspektivi üçün təhlükəli olacağını anlayan çar üsul-idarəsi erməniçi təşəbbüsü öz iradəsinə tabe edərək, bölgənin təsvirini (yeni işğal olunmuş torpaqlarda erməniliyin siyasi iddiaları ilə manevrlər edərək 22 il ərzində 4 dəfə inzibati-ərazi statusunu dəyişmişdi) rus dövlətçiliyi baxımından müəyyənləşdirmişdi: Müvəqqəti idarə ərazisi – 1827-1828; Erməni vilayəti – 1828-1840; İrəvan qəzası (Gürcü-İmeret quberniyasının tərkibində) – 1840-1849; İrəvan quberniyası – 1849-1917. Erməni iradəsinə zidd olan bu dəyişmələr hakim dairədən narazılıqlar yaratmışdı. Hadisələrin sonrakı inkişafı göstərdi ki, erməni etnik terrorunun təşkilatlanaraq inqilabi terror formatına transformasiyasında bu reallıq ciddi rol oynamışdır. Belə ki, ermənilik 1906-cı ilədək regionda baş vermiş etnik-dini nifaqın səbəbinin çar hakim dairəsinin olduğunu açıq ifadə edir, ona qarşı gizli siyasi partiyalar və həmin partiyaların nəzdində silahlı dəstələr yaratmaqla mübarizə aparmaqdan çəkinmirdi (Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса, типография Штаба Кавказского Военного Округа, Тифлис 1915). Beləliklə, köç etdirmək siyasətinin təşkilatçısı və iştirakçısı olan tərəflərin bu prosesdən gözləntilərinin fərqliliyi, xüsusilə də dövlətin köçürülmə prosesini idarə edə bilməməsi, səbatsızlığı terrogen şəraiti gərginləşdirərək, terrora meydan vermişdir.

[12] Герасим Эзов, **Начало сношений Эчмиадзинского патриаршего престола с русским правительством. Историческое исследование по неизданным документам,** Тифлис 1901, с.52.

[13] Василий Величко, **Кавказ. Русское дело и междуплеменные вопросы,** ретропринт, Элм, Баку 1990, с.88.

[*] **Qeyd:**“Müsəlmanlar – fəth edilən bölgələrin sakinləri, acı istehza ilə soruşurlar: “Ruslar haradadır?” Bizi kimlər üçün fəth etdilər? Hər halda, özləri üçün deyil. <...> Nə tacirləri, nə də əkinçiləri burada

Qarabağ, Naxçıvan, Quba, Nuxa (Şəki) və İrəvan torpaqlarından azərbaycanlıların İran və Türkiyəyə mühacirəti (bu proses XIX əsrin ortalarından XX əsrin əvvəllərinədək davam etmişdir) yeni hakim dairənin və erməni konspiralogiyasının planlarına uyğun idi; mühacirət etməyən əhali isə etiraz hissini gücləndirir, müqavimət göstərmək, itaət etməməyə məcbur olurdu. Kəndlərdə kəndli mübarizəsi, şəhərlərdə iri sahibkarlara qarşı etiraz çıxışları baş qaldırırdı. Qaçaq hərəkatı genişlənir, meşələr qırılır, iri sahibkarın evləri və mülkləri yandırılaraq hökumətə itaətsizlik göstərilirdi. Şəhər mühitində "qoçu"luq xüsusi fəaliyyət növünə çevrilmişdi. Beləliklə, Azərbaycan ictimai həyatında hərc-mərclik başlamışdı. Çar hakim dairəsi, polis və gizli xəfiyyə şəbəkəsi, eləcə də bəzi yerli bəy və iri torpaq sahibləri ictimai-siyasi xaosla mübarizənin fəal və qəddar iştirakçısına çevrilmişdi[14*].

Problemin digər xarakterik tərəfi isə belə idi: Şimali Azərbaycana gətirilən köçmən ermənilərin əksəriyyəti yoxsul, aztəminatlı, savadsız, eləcə də qanun-qaydalara riayət etməyən kəndli ailələri idi[15**]. Buna görə də yeni ərazilərdə məskunlaşarkən qarşılaşdıqları çətinliklər onların narazılıqlarını daha da gücləndirir, qanundan kənar addımlar atmağa sövq edirdi. Bu səbəbdən də, dövlət, köç etdirmə siyasətinin iflasa uğramaması üçün köçmənlərə imtiyazlar və xoş məmur münasibəti göstərərək, gündəlik həyatda yaranan maneələrin ağrısız və sürətlə keçilməsinə dəstək verməyə başlamışdı.

---

görünmürlər! Burada hər yerdə ermənilərdir. <...> Məgər bu cür yaramaz insanlara üstünlük verməki üçün mübarizə aparmağa dəyərdi?!"

[14] Mir Möhsün Nəvvab, **1905-1906-cı illərdə erməni-müsəlman davası,** "Azərbaycan" nəşriyyatı, Bakı 1993, s.112-115.

[*] **Qeyd:** Mir Möhsün Nəvvab həmin dövrdə hakim dairənin fəaliyyətini və mövqeyini (bugünkü baxışda "sülhməramlı" hərəkətini) belə təsvir etmişdir: "<...> Birinci (1905-ci il) erməni-müsəlman davasında sülh və əmin-amanlıq yaratmaq üçün Şuşaya göndərilmiş Qalaşakov (Kalaşakov) adlı bir rus generalı var imiş. <...> Duma qlavası erməni Kiki Kələntərov onu yaxşı öyrənmiş, onunla söhbət edib, ermənilərə qarşı rəğbətini bildikdən sonra generalın Şuşa şəhərinə də üsul-idarə rəhbəri təyin olunması üçün onun razılığını almışdı. <...> Kələntərov gecə məclisləri əsnasında Qalaşakova və onun kazaklarına <...> rüşvət verərək <...> öz məqsədini izhar etdi. Qarşıdakı erməni-müsəlman davasında rusların onlara kömək etməsini və bu köməyin yerinə yetirilmə yolları ilə əlaqədar tədbir tökməsini generaldan xahiş etdi. <...> generala 10. 000 manat rüşvət verərək belə ittifaqa gəlirlər ki, generala verilən puldan əlavə padşahlıq rus topunun hər atəşinə 15 manat, çar ordusu əsgərlərinin tüfəngdən atdıqları hər bir gülləsinə isə bir manat pul verilsin. <...> əvvəlcədən tökdükləri tədbirə əsasən rus əsgərləri erməni keşikçilərdən birini öldürərək müsəlman səmtə atdılar və sonra da səs saldılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmiş və tüfəngini də aparmışlar <...> hiyləyə əsasən həmin vaxt rus əsgərlərindən iki nəfər də gedib, müsəlman məhəllələri tərəfindən ermənilər səmtə güllələr atırlar <...> Generalın hiyləsi də bu idi ki, xalqı müsəlmanlara qarşı qaldırsın <...>".[14]

[15] Şota Vadaçkoriya, **Gürcüstan siyasi fikrində gürcü – erməni münasibətləri məsələləri. 1918-1920,** "MBM", Bakı 2006.

[**] **Qeyd**: Rus çarının köç etdirmə siyasətini öz üzərində hiss edən Gürcüstanda da oxşar hadisələr baş vermişdi. Öncə Gürcüstana, sonra oradan Rusiyaya köç etmək yalanı ilə Türkiyədən Gürcüstana gələn ermənilər bu torpaqlarda möhkəmlənmək üçün yerli əhalini öz yurd-yuvalarından həm silah, həm də xəstəlik salıb epidemiya (aşağı silk mənsubu erməni köçmənlər özləri ilə birlikdə vəba, taun, qızdırma və s. yoluxucu xəstəliklər gətirmişdilər, erməni tərəfi həmin xəstələrin yerli əhalidən təcrid edilməsinə, başqa yerlərdə məskunlaşmalarına düşünülmüş şəkildə mane olurdular) yaymaq hədə-qorxusu ilə qovaraq say çoxluğuna nail olmaqla həyata keçirmək istəmişdilər.

Çarın yeni gəlmə təbəələrə güzəştli vergi, kredit, münbit torpaq verməsi, yerli dövlət orqanlarının köçmənlərə daha qayğılı münasibəti regionda məhz erməni təbəəsinin qısa vaxtda iqtisadi-siyasi cəhətdən möhkəmlənməsində, erməni plutokratiyasının yaranmasında həlledici rol oynamışdır[*]. İkili münasibətlər, digər tərəfdən, Bakıdakı yerli hakimiyyət strukturları ilə podryad müqavilələri bağlayaraq ilkin kapital formalaşdıran gəlmə ermənilər etnik-dini identiklik potensialına və hakim dairənin onlara münasibətdə loyal münasibətə arxalanaraq ictimai-siyasi iddialarla çıxış etməyə başlamışdılar. Bu amillər çarın köç etdirmək siyasətinin regionda etnik-dini tərkibin çox ciddi dəyişikliklərinə səbəb göstəricisidir. Bunu B.İşxanyanın istinad etdiyi statistik rəqəmlər əsasında[16] tərtib olunmuş cədvəldən (№1) və ona qarşılıq verən "qeyd"lərdən də görmək mümkündür (erməniçi müəlliflər bu mövzudakı statistik rəqəmləri müxtəlifləşdirir və bir-birini təkzib edən xeyli mənbə sayı ilə dolaşığa salaraq, onların müqayisəli analizini tədqiqat obyekti deyil, probabilizm elementinə çevirmişdi; B.İşxanyan isə əhali sayını mücərrəd faiz nisbətində göstərdiyindən və onun mövqeyinə az nəzər salındığından, həmin rəqəmlərin konkretləşdirilməsi müstəvisində erməni köçünün təzahürlərini göstərmək zəruridir; alternativ statistik baza kimi o dövrü incələyən tarixçilərin araşdırmalarına, rusiyalı məmurlar, qafqazşünaslar tərəfindən regionda aparılmış kameral təsvir materiallarına, müvafiq siyahıyaalmaların nəticələrinə, "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" kimi ilkin qaynaqlara əsaslanan elmi nəticələrlə qarşılıq verilmişdir; beləliklə, məlum olur ki, əgər XIX əsrin əvvəllərində ermənilər Şimali Azərbaycanda 9% təşkil edirdilərsə, həmin əsrin 70-ci illərində artıq 19,1%,-ə, XX əsrin əvvəllərində 32, 65%-ə çatmışdılar. Rus çarının köç etdirmə siyasətinin, təxminən, yüz ili çərçivəsində ermənilər bu coğrafiyada əhalinin ümumi tərkibində 23 %-ə çatmışdı)[17]:

***Cədvəl №1***

| **Milli mənsu-biyyət** | **İnzibati ərazi vahidi** ***(əhalisinin ümumi sayına nisbətdə həcmi) (%)*** | | | **Qeyd** |
|---|---|---|---|---|
| | **Quber./Qəza/ Vilayət** | **Qəza** | **Şəhər/dairə** | |
| | **Bakı quber.** | **Qəza** | **Bakı şəhəri** | 1863-cü ildə Bakı şəhərində 13,9 min, 1897-ci ildə 111,9 min, 1914-cü ildə isə 232,2 min əhali yaşayıb[18]. |
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** |

[*] **Qeyd**: Həmin dövrdə üç amil regionda köçmən erməniliyin iqtisadi cəhətdən güclənməsinə və tədricən siyasiləşməsinə ciddi təsir göstərmişdir: ***1.*** Çar II Aleksandrın XIX əsrin 60-cı illər islahatları; ***2.*** I Nikolay üsul-idarəsinin köçmən ermənilərə loyal münasibəti; ***3.*** Erməni biznesində Bakı neft sahəsinin xüsusi çəkisinin artması.

[16] Бахши Ишханян, **Народности Кавказа**, Петроград 1916, с.34-35.

[17] Vidadi Umudlu, **Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828),** Elm, Bakı 2004.

[18] Адольф Рашин, **Население России за 100 лет (1811-1913 гг),** Государственное статистическое издательство, Москва 1956, с.93.

| *1* | *2* | *3* | *4* | *5* |
|---|---|---|---|---|
| Rus | 8 | | 28 | |
| Ermәni | 5,3 | | 20 | |
| Müsәl-man | **84,3** | | **45,7** | O dövrün bәzi statistik göstәricilәrinin tәrtibindә etnik-dini mәnsubiyyәtә toxunularkәn, “tatar”, “türk” ifadәlәrilә incәlәmәlәr aparılırdı[19]. “Müsәlman” leksik vahidinin “ermәni terroru vә ona qarşı azәrbaycanlıların mübarizәsi” kontekstindә “ermәni-müsәlman” söz birlәşmәsi ilә dövriyyәyә qatılması, total qarşıdurmanın mәzmununu etnik-dini nifaqa dәyişdirir. Digәr tәrәfdәn, ermәniçi mövqedәn işlәdilәn “müsәlman” leksik vahidinin tarixәn mәhz “azәrbaycan türkü” anlamı daşıdığı tәsdiqlәnir. Mәhz ermәniliyin bu söz oyunu hәm ermәni terroru, hәm dә problemә ikili yanaşma tәrәfdarlarının işinә hәlә dә yaramaqdadır. Ermәnistan-Azәrbaycan qarşıdurmasına Xristian-İslam dini tәrәfdarlarının qarşıdurması mәzmunu qatmaq istәyәnlәrin bu gün dә hәmin mövqedә durması hәm dә tarixi sәhv әnәnәnin şәr potensialından irәli gәlir. Çar Rusiyasının özünün qәrb sәrhәdlәrindә dә, yәni Avstriya-Macarıstanla arasında olan gәrginliyin hәlli işindә dә qarşıdurmaların dini mәzmunlu leksika ilә ictimaiyyәtә tәqdim olunması taktikasından istifadә etmәsi göstәrir ki, müstәmlәkәçilik siyasәtindә dini heysiyyәtlә hәrbi-siyasi manevrlәr etmәk tarixәn әnәnәvi dövlәt terroru taktikası olmuşdur. Provaslıq ideyası ilә Balkanlara doğru irәlilәmәk istәyәn çar üsul-idarәsi oradakı rusin әhali vә provaslav xalqlar arasında etnik-dini özünüdәrki dirçәldir, rusofilçiliyә dәstәk verirdi. Qarşı tәrәf isә buna alternativ kimi, mәs., ukrofilçiliyi güclәndirir, unitarçılar üzәrindә nәzarәti daha da sәrt- |

[19] Raşin, **a.g.ә.**

| | | | | |
|---|---|---|---|---|
| | | | | ləşdirirdi. Bütün bunlar xalqlar və dinlər arasında ciddi qarşıdurmalara, xüsusilə də milli-dini terrora səbəblər yaradırdı. Hazırda da işlək olan "erməni-müsəlman davası" termini xristian siyasi müştərinin müdafiə olunmasında siyasi qəyyumların din borcu kimi cəmiyyətə sızdırılır. Problem dini qarşıdurma deyildir; məhz erməni irredentizminin realizəsi, həmçinin ona müqavimət kontekstində dərinləşmişdir. |
| | **Yelizavetpol quber.** | **Yelizavetpol qəzası** | | Elizavetpol – tarixi adı Gəncə. 1727-ci ildə Gəncə xanlığı ərazisində 7450 ailə yaşamışdır; 1804-cü ildə azalıb 3811 ailə olmuşdur. 1817-ci ildə Yelizavetpol dairəsindəki 17901 nəfər əhalinin əksəriyyəti Azərbaycan türkləri idi. 1833-cü ildə 5424 ailənin 3916-ı Azərbaycan türkü mənşəli, 1508-i isə erməni idi[20]. |
| Müsəlman | **61, 33** | **66,50** | | |
| Erməni | 33,73 | 23,36 | | |
| | **Zəngəzur qəzası** | **Şuşa qəzası** | | 1823-cü ildə Qarabağ əyalətindəki 18769 ailənin 14241-i Azərbaycan türkü, 4528-i erməni olmuşdur. 1828-1829-cu illərdə İrandan 6946 erməni ailəsi (35560 nəfər) Şimali Azərbaycana köçürülmüşdür[21]. 3000 ailə Qarabağda yerləşdirilmişdi[22]. 1823-cü ildə Şuşadakı 1532 ailənin 1111-i Azərbaycan türkü, 421-i isə erməni idi[23]. 1832-ci ildə Qarabağ əyalətində 13965 Azərbaycan türkü mənşəli, 6491 erməni ailəsi qeydə alınmışdır. |
| Müsəlman | **59,98** | 43,55 | | |
| Erməni | 40,00 | **53,27** | | |
| | **İrəvan quber.** | **İrəvan qəzası** | | 1828-1829-cu illərdə Şimali Azərbaycana köçürülən 6946 erməni |

[20] Qorxmaz Mustafayev, **Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi**. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2008.
[21] Verdiyeva, **a.g.avt.**
[22] Raşin, **a.g.ə.**
[23] Paşayev, **a.g.avt.**

| | | | | |
|---|---|---|---|---|
| | | | | ailəsindən 1395-i (20%) İrəvanda yerləşdirilmişdi[24]. 1828-ci ildə "Erməni vilayəti" yaradılarkən, 7331 azərbaycanlının və 2369 ermənin yaşadığı İrəvan şəhəri onun tərkibinə daxil edilmişdi. 1866-cı ildə İrəvan şəhərindəki 27246 nəfər əhalinin 23626 nəfəri (85,2%), 1883-cü ildə isə 18766 nəfər əhalinin 15992 nəfəri, Azərbaycan türkü olmuşdu[25]. |
| Müsəlman | 40,00 | **57,40** | | |
| Erməni | **56,11** | 40,00 | | |
| | **Üçkilsə qəzası** | **Aleksandropol qəzası** | | Hazırda erməni tərəfi adını dəyişib "Gümri" etmişdir. |
| Müsəlman | 36,00 | 3,90 | | |
| Erməni | **62,30** | **88,60** | | |
| | **Haxçıvan qəzası** | **Yeni Bəyazit qəzası** | | Naxçıvan xanlığında 1813-1827-ci ildə 33650, 1828-ci ildə 29 463 əhali yaşamışdır; erməni miqrasiyası nəticəsində – 1829-1832-ci illərdə Naxçıvan regionunun əhalisi 41482 nəfər olmuşdur. Türkmənçay müqaviləsindən sonra İrandan 3682 ailə (21666 nəfər) Naxçıvana miqrasiya, Naxçıvandan isə 1400 ailə İrana mühacirət etmişdir. 1828-1829-cu illərdə Şimali Azərbaycana 6946 erməni ailəsi köçürülmüşdür. 2557 (36,65 %) ailə Naxçıvan regionunda yerləşdirilmişdi[26]. 1873-cü ildə isə təkcə Naxçıvan şəhərinin özündə 1957 erməni yaşayırdı[27]. |
| Müsəlman | **58,70** | 28,54 | | |
| Erməni | 40,80 | **68,80** | | |
| | **Tiflis quber.** | **Tiflis qəzası** | | |
| Gürcü | **41,24** | 24,35 | | |

[24] Raşin, **a.g.ə.**
[25] Zülfiyyə Cəlilova, **İrəvan quberniyasının etnik durumu (XIX-XX əsrin əvvəllərində).** Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2017.
[26] Nuru Quliyev, **Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)**, tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Naxçıvan 2007.
[27] **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, f.978, siy.1, iş 1, v.377.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| Rus | 8,83 | 21,20 | | |
| Erməni | 26,17 | **36,00** | | |
| | **Qars vilayəti** | | **Qars dairəsi** | 1829-1830 illərdə Türkiyədən 14044 ailə (84000 nəfər) Şimali Azərbaycana köç edilmişdi[28]; bu rəqəmin daha böyük olduğu (100-150 min erməninin köç edildiyi) da qeyd olunur[29]. |
| Müsəl-man | **49, 30** | | 35,0 | |
| Erməni | 28,85 | | **41,2** | |

A.Raşin 1863-1913-cü illərdə Qafqaz əhalisinin 2,48 dəfə artdığını bildirir[30]. Ümumiyyətlə, XIX əsrin axırları ilə müqayisədə XX əsrin əvvəllərində Ümumqafqaz üzrə (Qafqazda şəhər əhalisinin də tərkibi gəlmə ermənilər hesabına dəyişirdi) şəhər əhalisinin dinamikası belə olmuşdur: 1867-ci ildə 424, 9 min, 1885-ci ildə 669,1 min, 1897-ci ildə 1200,2 min, 1909-cu ildə 1449, 7 min, 1914-cü ildə 1878 min. İrəvan quberniyasında, Üçkilsə, Aleksandrapol, Şuşa, Tiflis uyezdlərində ermənilərin əksəriyyət qazanması da Rusiyanın regional miqrasiya siyasətinin nəticəsi idi[31]. XX əsrin əvvəllərində Zaqafqaziya əhalisinin 22,34 %-nin ermənilərdən ibarət olması Türkiyə və İrandan köç olunma ilə əlaqədardır[32]. M.Neyman 1899-cu ildə yazırdı ki, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İrandan 40 min, 1829-cu il Ədirnə müqaviləsinə əsasən isə Türkiyədən 90 min erməni (bu rəqəmlər bir çox müəlliflər tərəfindən təsdiq olunur və istinad edilməkdədir – E.C.). Arazın şimal sahillərinə köçürülmüşdür (onun mövzu çərçivəsində "Qarabağ" toponiminə verdiyi şərh qəribəliyi ilə seçilir: guya həmin torpaqlara ilk dəfə ayaq basan və üzünü Murov dağına çevirib, ömründə ilk dəfə qar görən köçəri türklər heyrətlə "qara bax" demişlər)[33]; bu mövzuda ümumi həmrəylik ondadır ki, etnik ermənilərin Şimali Azərbaycanda toplum halında məskunlaşması və say çoxluğu qazanması məhz çar Rusiyasının erməni qövmünü öz himayəsinə götürməsi ilə birbaşa bağlıdır[34*].

---

28 Həcər Verdiyeva, **a.g.avt.**

29 İbrahim Kazımbəyli, **Azərbaycanın İrəvan bölgəsi XIX əsr – XX əsrin əvvəllərində.** Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2018.

30 Raşin, **a.g.ə.,** s. 93.

31 Raşin, **a.g.ə.,** s.88.

32 İşxanyan, **a.g.ə.,** s.32-33.

33 Магда Нейман, **Армяне,** тип. Ю.Н. Эрлих, С.-Петербург 1899.

34 Сергей Глинка, **Описание переселения армян Аддербиджанских в пределы России**, в типографии Лазаревых Института Восточных Языков, Москва 1831.

* **Qeyd:** S. Qlinka bu konteksdə "erməni" deyil, "Azərbaycan erməniləri" – Araz çayının cənubunda yaşayanları da nəzərdə tutaraq – ifadəsini də işlətmişdir. Elmi rəqabətə dözən və aktuallığını saxlayan, elmi dövriyyəyə qatılmağa hüququ olan termindir.

Göründüyü kimi, rus çarının köç etdirmək siyasətindəki səbatsızlıq cəmiyyətdə qanundan kənar əməllərə meyli gücləndirir və bu dalğada terrogen şərait yaradırdı. Beləliklə, çox keçməmişdir ki, dünənki köçmənlər avtoxton əhaliyə və yerli administrasiyaya qarşı çıxan təşkilatlanmış hərbi-siyasi qüvvəyə çevrilmişdi[35*].

Erməniçi ictimai fikrin digər qolu bu dövrdə erməni köçünü imperiyanın Cənubi Qafqaz regionundakı mədəni səviyyəsizliyi ermənilərin "mədəni" potensialı ilə aradan qaldırmaq[36**], həmçinin, qonşu müsəlman dövlətlərinin, eləcə də Azərbaycan xanlıqlarının tərkibində əzilməkdən xilas edilmək kimi yozsa da, Rusiya imperiyasının Terek, Kuban, Don çayı boyunca, Xəzər dənizi sahillərində erməni köçmənlər üçün yaşayış məntəqələrinin salınması köç etdirmək siyasətinin Rusiyanın hərbi-siyasi maraqları ilə birbaşa bağlı olduğunu təsdiqləyir. Digər tərəfdən, ilk mərhələdə ermənilərin Rusiya İmperiyasının içərilərinə doğru köçünün sonra cənub sərhədlərinə geri dəyişdiyi isə idarə olunan hərc-mərclik və təhdidləri taktiki addım kimi diqqətə çarpdırır.

İdarə olunan xaos erməniliyə onların rus çarı üçün hərbi-siyasi cəhətdən faydalı və zəruri olduqlarını dərk etdirmişdi. Buna görə də əvəzində, daha tələbkar siyasi mövqedən çıxış etməyə başlamış, hakim dairəyə erməni dövlətçiliyi adına siyasi tələblər irəli sür-

---

[35] **Azərbaycan Respublikası Dövlət Tarix Arxivi**, f.45, siy. 1, iş 60, v.1-195.

[*] **Qeyd:** Rusiya imperiyasında cinayətlərin qeydiyyatına XIX əsrin I yarısından başlanılsa da, çar II Aleksandrın 1864-cü ildə elan etdiyi məhkəmə sistemindəki islahatlardan sonra cinayət işlərinin sistemli qeydiyyatı aparılmışdır. İlk olaraq imperiyanın Avropa hissəsindən başlanılmışdır (buna görə də XIX əsrin II yarısında Şimali Azərbaycanda kriminogen vəziyyətə müxtəlif dövri mənbələrdəki təsvirlər əsasında fikir bildirmək mümkündür). XX əsrin əvvəllərindən isə Şimali Azərbaycanda həbsxanada saxlanılanlar barədə aylıq hesabatlar hazırlanıb qubernatora göndərilmişdir. *"Oğurluq", "ictimai təhlükəsizlik yaradan şəxs"*, "*tətilə* (siyasi motivli. – E.C.) *çağırış*" həmin dövrdə geniş tətbiq olunan polis ittihamları idi. Erməni mənşəli müttəhimlər isə "erməni gizli siyasi komitəsinin üzvü" formulu ilə həbs olunmuşdular (beləliklə, erməni konspirologiyası təsdiq edilir). İmperiya dəftərxanasının bu kontekstdə açıqladığı digər fakt odur ki, erməni cinayətkar şəbəkələri kommersiya şirkətlərindən "0,5 faiz muzd" yığımına 1886-cı ildən başlamış və bundan qazanılan maliyyə vəsaitləri ilə etnik terrorçuluğa dəstək vermişlər.

[36]Лала Гаджиева, **Бакинский Листок (1871 – 1872),** Элм и техсил, Баку 2013, с.55.

[37] **Армянский вестник**, № 2-13, 1916, с.46.

[**] **Qeyd**: Bu fikri təkzib edəcək xarakterik mövqelər "erməni köçü və terror" kontekstində erməni "yumşaq qüvvə" terrorunun xronologiyasına da diqqət çəkə bilər: «Бакинский Листок» (Azərbaycanda ilk qəzet, redaktoru və naşiri alman kökənli Xristian Tsink adlı rusiyalı idi.) qəzetinin 6 mart 1871-ci il tarixli 1-ci sayında çarın köç etdirmə siyasəti nəticəsində Bakıda formalaşmaqda olan rus – azərbaycanlı – erməni ictimai mühiti qarşılıqlı müqayisə ilə xarakterizə edilərək, "gəlmə" təyini ilə təqdim olunan erməni azlığının mədəni səviyyəsinə belə münasibət bildirilmişdi: "Biz (rus ictimai mühiti – E.C.) istərdik ki, ermənilər bizə inansınlar, yalnız erməni olmaqdan, hətta yalnız ermənin ən yaxşısı olmaqdan belə əl çəkməyin vaxtı çatmışdır. İnsan olmaq üçün həyat geniş imkanlar açır, başa düşün, ancaq rus insanı olmaqdan söhbət getmir, sözün mütləq mənasında insan olmaqdan gedir. Bilirik, ruslaşmaq fikri Sizi qorxudur, bu – təbiidir <... >. Biz Sizə öz şi şorbamızı, kvasımızı, trepak rəqs musiqimizi, al-qırmızı köynəyimizi zorla qəbul etdirmək fikrində deyilik; biz Sizə bütün bəşəriyyətin ümumi müqəddəs dəyərlərini təşkil edən şeylərdən bəhs edirik". Başqa bir mənbə isə "Qafqaza mədəniyyət gətirən" köçmən ermənilərin mədəni səviyyəsini fərqli tərəfdən görməyə fakt verir: "Armeniana truppası Qafqazda səs salmış "Arşın mal alan" <... > və "O olmasın, bu olsun" adlı yeni əsərlərlə (məqalədə həmin əsərlərin müəllifinin Ü.Hacıbəyli olduğu qeyd edilmir) qastrola başlamışdır. Məlum olduğu kimi, belə bir şit şərq əsərlərinin erməni səhnəsində yer alması erməni opera sənətinin böhran keçirdiyini göstərir <... >".[37]

müşlər. Lakin tələblərinin dinc yolla icra olunmadığını dərk etdikdən sonra terror formatına keçmişlər.

***Nəticə***

Çarın cənuba köç etdirmə siyasəti bu coğrafiyada etnik-dini tərkibi ciddi şəkildə erməniləşdirmiş, gəlmələrə münasibətdə güzəştli mövqe ictimai-siyasi iddiaya malik erməniçi etnik-dini təbəqə yaratmışdı. Çarın erməni köçü siyasəti erməni tərəfində erməni dövlətçilik məsələsinin gündəmdə qalmasında vacib mərhələ kimi tarixə pərçim olunmuşdur. İmperiyanın yeni cənub ərazilərinə erməni köçü erməni dövlətçiliyinin dirildilməsi barədəki iddiaları tarixi mənsubiyyət, ictimai-siyasi aidiyyət prinsipini deyil, erməni kökənli insanların sayını zorən axın şəklində artıraraq miqdar çoxluğunun və konkret məkanda toplum halında məskunlaşmağın məntiqini fəallaşdırmışdı. Hadisələrin bu istiqamətdə inkişafı avtoxton əhalinin sosial-siyasi hüquqlarını pozmuş, hakim dairənin özəl erməniçi mövqeyini əyaniləşdirmişdi; yaranmış vəziyyət azərbaycanlılar arasında öz hüquqlarını öz imkanları ilə qorumaq hissini aktivləşdirmişdi; beləliklə, gəlmə ermənilər üçün etnik-dini motivli qəsdlər, total talanlar etməklə siyasi iddiaların həyata keçirilməsi üçün münasib şərait yaranmışdı. Hakim dairənin bu məsələlərin perspektivindəki təhlükəni görə bilməməsi, əksinə maraqlı tərəf olması, hərc-mərcliyin idarə olunmasına meyllənməsi regionda terrogen şəraitin formalaşmasına, nəhayət, etnik terrorun yaranmasına təkan vermişdir. Statistik çoxluğun gətirdiyi təhlükə ilk mərhələdə həm Rusiya çarına, həm də Osmanlı sultanına müxalif olan bütün qüvvələrlə əməkdaşlıq fürsəti yaratmışdı. Vəziyyət o həddə çatmışdı ki, çar Rusiyasında həm iqtidar, həm də müxalif qüvvələr "erməni terroru" amilindən öz məqsədləri üçün faydalanmağa cəhd göstərirdilər. Q.Frenkel N.N.Maksimova 12.09.1906-cı il tarixli 685 №-li məktubunda bildirirdi ki, erməni təhdidlərinin mahiyyəti dəyişməkdədir: XIX əsrin 90-cı illərində üsul-idarəyə qarşı terror, güc tətbiq edirdilərsə, hazırda, rus inqilabçıları ilə birlikdə hökumətə qarşı çıxırlar.

İctimai-siyasi durumu nəzarətdə saxlamaq üçün hakim dairə idarə olunan hərc-mərclik taktikasına sığınmışdı. Ermənilik isə bu situasiyadan "erməni məsələsi"nin həlli istiqamətində faydalanmaq üçün terror taktikası ilə total təzyiq yolunu qəbul etmişdi.

Beləliklə, Şimali Azərbaycanda terrogen şərait getdikcə gərginləşmiş, erməni etnik terroru yayılmağa başlanmışdı.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

### Azərbaycan dilində

1. Elçin Cabbarov, **Erməni terroru və onun bəzi etno-siyasi aspektləri**, Bakı, Nurlar, 2019.

2. Mir Möhsün Nəvvab, **1905-1906-cı illərdə erməni-müsəlman davası**, Bakı, "Azərbaycan" nəşriyyatı, 1993.
3. Sertçelik Seyit, **Rus və erməni mənbələri işığında erməni problemi. Meydana çıxma prosesi. 1678-1914.** Azərbaycan türkcəsinə uyğunlaşdıran A.Həsənoğlu. Ankara, SRT yayınları, 2017.
4. Vadaçkoriya Şota, **Gürcüstan siyasi fikrində gürcü-erməni münasibətləri məsələləri**. **1918-1920**, Bakı, "MBM", 2006.

**Avtoreferatlar**

5. Zülfiyyə Cəlilova**, İrəvan quberniyasının etnik durumu (XIX-XX əsrin əvvəllərində),** tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2017.
6. İbrahim Kazımbəyli, **Azərbaycanın İrəvan bölgəsi XIX əsr – XX əsrin əvvəllərində,** tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2018.
7. Nuru Quliyev, **Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat),** tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Naxçıvan 2007.
8. Qorxmaz Mustafayev, **Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi**, tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2008.
9. Ataxan Paşayev, **XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında),** tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı 2007.
10. Vidadi Umudlu, **Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əlehinə mübarizə (1801-1828),** Bakı, Elm, 2004.

**Mənbələr**

11. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. F.45, siy. 1, iş 60, v.1-195.
12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. F.978, siy.1, iş 1, v.377.

**Azərbaycan tarixini dəyişən 13 hadisə**, https://m.lent.az/news/301493, istifadə tarixi: 17.06.2021.

**Rus dilində**

13. **Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса**, типография Штаба Кавказского Военного Округа, Тифлис 1915.
14. Величко Василий, **Кавказ. Русское дело и междуплеменные вопросы,** ретропринт, Элм, Баку 1990.
15. Лала Гаджиева, **Бакинский Листок (1871-1872)**, Элм и техсил, Баку 2013, с.55.

16. Глинка Сергей, **Описание переселения армян Аддербиджанских в пределы России**, в типографии Лазаревых Института Восточных Языков, Москва 1831.
17. **Записки Джемаль-паши,** перевод с англ. Б.Т.Руденко с предисловием Сим. Такоева, Тифлис, издание Заккрайкома РКП (б), 1923.
18. Бахши Ишханян, Петроград, **Народности Кавказа**, 1916.
19. Ленг Девид, **Армяне. Народ-созидатель**, пер. с англ. Е.Ф.Левиной, Москва, ЗАО Центрполиграф, 2006.
20. Нейман Магда, **Армяне,** тип. Ю.Н. Эрлих, С.-Петербург 1899.
21. Рашин Адольф, **Население России за 100 лет (1811-1913 гг.)**, Москва, Государственное статистическое издательство, 1956.
22. **Советский энциклопедический словарь**, Издательство "Советская энциклопедия", Москва 1980, 1600 с., с.810.
23. Сирарпи Тер-Нерсесян, **Армения. Быт, религия, культура**, пер. с англ. Л.А.Игоревского, Москва, ЗАО Центрполиграф, 2007.
24. Герасим Эзов, **Начало сношений Эчмиадзинского патриаршего престола с русским правительством, Историческое исследование по неизданным документам,** Тифлис 1901.

**Авторефераты**

25. Хаджар Вердиева, **Переселенческая политика Российской империи в Северном Азербайджане в XIX-XX веков (историко-демографическое исследование),** Автореферат на соискание ученой степени доктора исторических наук, Баку 2005.
26. Эйвазова Нигяр, **Миграционные процессы в Северном Азербайджане в XIX – начале XX вв.** Автореферат диссертации на соискание ученой степени доктора философии по истории, Баку 2016.

**Источники**

27. **Армянский вестник,** № 2-13, 1916, с.46.
28. Галуст Галоян, "Исторические корни русской ориентации армянского народа и прогрессивное значение присоединения восточной Армении к России", **Вопросы истории,** №9, Москва 1978, с.3-20.
29. **Encyclopaedia Britannica**, https://www.britannica.com/topic/human-migration, istifadə tarixi: 17.06.2022.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Cabbarov Elçin Valeh oğlu – filologiya üzrə fəlsəfə doktoru, "Elmi informasiya və nəşriyyat işləri şöbəsi"nin müdiri, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan, Bakı.

Jabbarov Elchin Valeh – doctor of philosophy in philology, head of the "Scientific information and publishing" department, A.A.Bakikhanov Institute of History, ANAS , Azerbaijan, Baku.

# QARABAĞIN XAÇIN MƏLİKLİYİ: TARİXİ REALLIQ VƏ MAHİYYƏTİ

©2021

AYSEL SADIQOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0002-7719-6289; aysel.sadgova@inbox.ru

***Xülasə:*** *Qarabağın Xaçın məlikliyinin tarixinin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi araşdırılması bu gün üçün mühüm aktuallıq kəsb edir. Erməni tarixçiləri və onların havadarları Azərbaycanın Qarabağ bölgəsinin tarixini saxtalaşdıraraq Qarabağa ərazi iddiaları irəli sürməkdə davam edirlər.*

*Məqalədə məqsəd ilk öncə, erməni tarixçilərinin saxtalaşdırmağa, mənimsəməyə çalışdığı qədim Alban dövlətinin varisi sayılan Qarabağın Xaçın məlikliyinin tarixi ilə bağlı müəyyən faktları ümumiləşdirməkdən ibarətdir. Həmçinin məqsəd, Xaçın əhalisinin tarixən Qarabağda yaşayan mənşəcə Azərbaycanın aborigen etnosu – xristian albanlar olması faktının bir daha qabardılması və ermənilərin Qarabağa ərazi iddialarının əsassız olduğunu sübuta yetirməkdən ibarətdir.*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Xaçın məlikliyi, alban.*

# THE KHACHIN MELIKDOM OF KARABAKH: HISTORICAL REALITY AND THE ESSENCE

©2021

AYSEL SADIQOVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0002-7719-6289; aysel.sadgova@inbox.ru

***Abstract:*** *The purpose of the article is, first of all, to summarize certain facts about the history of the Khachin Melikdom of Karabakh, which is considered to be the successor of the ancient Albanian state, falsified and appropriated by Armenian historians. The aim is also to emphasize the fact that the population of Khachin is historically an aboriginal ethnic group of Azerbaijanis - Christian Albanians living in Karabakh, and to prove that the territorial claims of Armenians to Karabakh are unfounded.*

***Key words:*** *Azerbaijan, Karabakh, Khachin melikdom, Alban.*

# ХАЧИНСКОЕ МЕЛИКСТВО КАРАБАХА: ИСТОРИЧЕСКАЯ РЕАЛЬНОСТЬ И СУТЬ

© 2021

АЙСЕЛ САДЫГОВА*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0002-7719-6289; aysel.sadgova@inbox.ru

***Резюме:*** *Цель статьи состоит, прежде всего, в обобщении некоторых фактов истории Хачинского меликства Карабаха, считающегося правопреемником древнего Албанского государства, сфальсифицированных и присвоенных армянскими историками. Целью статьи также является преувеличение того факта, что хачинское население исторически является аборигенной этнической группой азербайджанцев, проживающих в Карабахе – албанцев-христиан, и доказать необоснованность территориальных претензий армян к Карабаху.*

***Ключевые слова:*** *Азербайджан, Карабах, Хачинское меликство, Албан.*

## *Giriş*

Ermənilər alban irsini mənimsəyib mahiyyətini dəyişməklə, Albaniyanın və ondan sonra meydana gələn siyasi qurumların, xüsusilə erməni dövlətçiliyinin qalıqları adlandırdıqları Qarabağ məlikliklərinin tarixini mənimsəyirlər. Bununla da, Azərbaycanı tarixi inkişafının mühüm dövründən məhrum edib, onun bu torpaqlarda kökünün olmadığını iddia etmək istəyirlər[1].

IX-XII əsrlərdə Ərəb Xilafətinin zəifləməsi nəticəsində Azərbaycanın tarixi torpaqlarında yaranan dövlət qurumlarından biri olan Xaçın knyazlığının yaranması, idi. Xüsusilə də XII-XIII əsrlər Xaçın knyazlığının yüksəliş dövrü oldu. Qədim Alban dövlətinin davamı olan Xaçın knyazlığının meydana gəlməsi, XII əsrin sonları – XIII əsrin əvvəllərində həm də Alban kilsəsinin tarixində mühüm rol oynadı. Alban Mehranilər nəslindən olan Həsən Cəlalın zamanında (1215-1261) knyazlığın mövqeyi xeyli möhkəmləndi və onun dövründə tikilən Qanzasar monastırı (1216-1238-ci illər) Alban kilsəsinin mərkəzi oldu.

---

[1] Kərim Şükürov, **Azərbaycana qarşı erməniçilik saxtakarlığı: təsnifatı və tənqidinin konseptual platforması**//https://azertag.az/xeber/Azerbaycana_qarsi_ermenichilik_saxtakarligi_tesnifati_ve_tenqidinin_konseptual_platformasi-1767241

**Qarabağın Xaçın mahalı – qısa tarixi arayış**

Xaçın əlçatmaz, dağlı-meşəli bir vilayət olmaqla Arran ölkəsinin dairələrindən biri idi[2]. "Qarabağın el və obaları" adlı əsərdə XIII əsr anonim mənbəsi "Əcaib əd-Dünya"ya istinadən qeyd edilir ki, Xaçın Arranın tərkibində mahal kimi qeyd edilir. Buranın çətin keçilən dağlıq və meşəlik əraziləri əhatə etməsi barədə məlumat verilir[3].

IX-XII əsrlərdə Ərəb Xilafətinin zəifləməsi nəticəsində Azərbaycanın tarixi torpaqlarında yaranan dövlət qurumlarından biri də Xaçın knyazlığı idi. Xüsusilə də XII-XIII əsrlər Xaçın knyazlığının yüksəliş dövrü oldu. Qarabağın dağlıq hissəsində, Arsak və Uti ərazilərini əhatə edirdi. Qədim Albaniyanın bir hissəsi olan bu knyazlığın mərkəzi Xaçınçayın və qismən Tərtər çayının hövzələrində yerləşirdi. Alban Mehranilər nəslindən olan Həsən Cəlalın zamanında (1215-1261) knyazlığın mövqeyi xeyli möhkəmləndi. Həsən Cəlalın Mehranilər nəslinə mənsub olduğunu təsdiqləyən dəqiq şəcərələr mövcuddur. Beləliklə, Xaçın knyazlığının hökmdarı olmuş Həsən Cəlalın vaxtilə hökmranlıq etmiş alban Mehranilər sülaləsi ilə həm bilavasitə genetik (qohumluq) əlaqəsi, həm də böyük bir dövr ərzində – VII əsrdən XIII əsrədək alban hökmdarının siyasi hakimiyyətinin varisliyi izlənməkdədir[4].

Həsən Cəlal Xaçın və qismən Arranın süzeren knyazı olub, gürcü çarlığından asılı deyildi. Bu Xaçın hökmdarı erməni, gürcü və fars sinxron (eyni dövrə aid olan) mənbələrdə, habelə epiqrafik yazılarda ali titullarla qeyd olunmuş, "*knyazlar knyazı*", "*əzəmətli, parlaq hökmdar*", "*Xaçın ölkələrinin knyazı*", "*Xaçının və Ərsak ölkələrinin əzəmətli knyazı*", "*çar*", "*Albaniya çarı*", "*Albaniyanın əzəmətli sahibi*", "*tacdar*" adlandırılmışdır. Həsən-Cəlal özünü "mütləq hökmdar" titulu ilə nəzərə çatdırırdı. Gəncəsər məbədinin daşüstü yazısında oxuyuruq: "*Ərsak ölkəsinin və Xaçın hüdudlarının təbii mütləq hökmdarı*". Bu hökmdarın ən təmtəraqlı titulu Gəncəsər monastırında, 1240-cı ildə tərtib olunmuş daşüstü yazıda göstərilmişdir: "*Mən, Allahın müti qulu, Vaxtanqın oğlu, əzəmətli Həsənin nəvəsi, geniş əraziləri olan yüksək və böyük Ərsak ölkəsinin təbii mütləq hökmdarı Həsən Cəlal...*"[5].

Şübhəsizdir ki, Həsən Cəlalın həmin tarixi mərhələnin nüfuzlu hakim sülalələri ilə qohumluq əlaqələri Xaçın-Ərsak hökmdarının yüksək mövqeyini səciyyələndirir. Həsən-Cəlalın hökmranlıq illərini Albaniyanın iqtisadi, siyasi və mədəni intibahı dövrü kimi qiymətləndirmək mümkündür. Bu yüksəliş ədəbiyyatda, mülki tikintidə, memarlıqda, sitayiş qurğularının yaradılmasında öz əksini tapmışdı. Gəncəli Kirakos məhz bu zaman özünün "Tarix" əsərini yazmışdı. Öz hakimiyyətinin böyük alban Mehraniləri ilə varislik əlaqəsini sübut etməyə can atan, alban hökmdarının hakimiyyətinin fasiləsizliyini qeyd etməyə çalışan Həsən Cəlalın göstərişi ilə Moisey Kalankatlının "Albanların tarixi"

---

[2]**Azərbaycan tarixi üzrə qaynaqlar**, Çıraq, Bakı 2007, s.193.
[3] Ənvər Çingizoğlu, Fazil Baxşəliyev, **Qarabağın el və obaları**, Şuşa, Bakı 2007, s. 12.
[4]**Azərbaycan tarixi**, Yeddi clddə. III cild (XIII-XVIII əsrlər), Elm, Bakı 2007, s. 41.
[5]**Azərbaycan tarixi**, III cild, s. 41.

əsərinin (salnaməsinin) yazılışı davam etdirildi, salnaməyə dörd yeni fəsil əlavə olundu. Həmin fəsillərdə Həsən Cəlalın hökmranlıq illəri, onun hakimiyyəti dövründə Gəncəsər kompleksinin tikintisi öz əksini tapmışdır. Bu əməllə alban tarixi-ədəbi ənənəsi dirçəldildi. Qeyd edək ki, Alban-Xaçın knyazları soy-kök baxımından yaxın olan tanınmış Qıpçaq nəsillərindən qız alırdılar. Həsən Cəlalın atası Ərsak türklərinə, anası isə Qıpçaq türk nəsillərinə mənsub idilər. Hurişah Xatunun babası Qıpçaq əsilli Uzunqollular soyunun bəyi Vaqram (Zaxare), atası Akbuğa, qardaşları isə Vaqram, Zaxare və İvane idi. Mxarqrdzeli nəslinin nümayəndələri arasında 3 Ağbuğa adlı şəxs də olub[6].

Həsən Cəlal bir çox ölkələrin əsrlər ərzində yaradılmış maddi-mənəvi dəyərlərini tarix səhnəsindən çıxarmış monqollarla yaxşı münasibətlər qura bilmiş, monqol xanlarının alban xalqına müsbət münasibət bəsləməsini təmin etmişdi. Alban xalqı ağır tarixi sınaqlar dövründə etnik özünüdərkini qoruyub saxlaya bildi[7].

Gəncəsər monastır kompleksi Həsən Cəlalın təkidi ilə inşa edilmişdir. Gəncəsər monastırının qədim hissələri Həsən Cəlalın hakimiyyəti zamanından xeyli əvvəl mövcud idi və Xaçın hakimləri olmuş Cəlal övladlarının nəsli məzarlığı kimi fəaliyyət göstərmişdir. Həsən Cəlalın özü 1261-ci ildə burada dəfn edilmişdir. 1511-ci ildən Gəncəsər məbədi alban katolikoslarının iqamətgahı oldu və həmin vaxtdan onlar Gəncəsər katolikosları adlanmağa başladılar.

### Qarabağın Xaçın mahalı orta əsrlərdə

Həsən Cəlal övladlarından olan katolikos Yesai Həsən Cəlal alban patriarxı taxtına 1702-ci ildə seçilmiş və vəfatına qədər (1728) bu vəzifəni tutmuşdur[8]. Katolikos Yesainin alban kilsəsini idarə etdiyi dövr elə bir vaxta təsadüf edir ki, bu zaman ticarət kapitalının inkişafının təsiri ilə Qarabağ əhalisinin yuxarı təbəqələri arasında dağılma və tənəzzül dövrünü keçirən Səfəvilər dövlətinin tabeliyindən xilas olmaq məqsədi daşıyan hərəkat başlamışdı. Gəncəsər məbədi Qarabağ məliklərinin gizli müşavirələr keçirdiyi, I Pyotra və onun varislərinə məktubların tərtib edildiyi, üsyan və məliklərin hərbi qüvvələrini cəmləşdirmək, onların rus qoşunları ilə birgə hərbi əməliyyatlarda iştirakı planlarının və s. işlənib hazırlandığı mərkəzə çevrildi. Hətta hərəkata real xarakter vermək üçün Gəncəsər katolikosu və məlikləri Aşağı Xaçındakı müqəddəs İakov monastrının baş rahibi Vardapet Minasın şəxsində özlərinin səlahiyyətli nümayəndəsini həmin məsələ barədə rus hökuməti ilə danışıqlar aparmaq üçün Peterburqa göndərdilər[9].

Gəncəsər baş kilsəsi 1216-cı ildən 1238-ci ilədək alban patriarx katolikosu Nersesin məsləhəti və Həsən Cəlalın göstərişi ilə tikilmişdir. Hökmdar özü bu kilsəni

---

6 Ramin Əlizadə, Elnur Nəciyev, "Qarabağın Alban-Qıpçaq tarixinə dair" **Akademik Tarih ve Düşünce Dergisi**, Cilt 7, sayı 4, 2020, s. 2586-2587.

7 **Azərbaycan tarixi**. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər), Bakı, Elm, 2007, s.42.

8 Yesai Həsən Cəlalyan, **Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər)**, ruscadan çevirənlər H.Dayıyev və V.Musayev, ön söz müəllifi akademik Ziya Bünyadov, Bakı, İşıq, 1992, s.5.

9 Cəlalyan, **a.g.ə.,** s.5-6.

"Albaniyanın taxt-tac kilsəsi" adlandırırdı. Kilsədə olan daşüstü yazıda bildirilir ki, bu kilsə albanlar üçün inşa edilmişdir. Bu kilsədə cəmi 84 daşüstü yazı mövcuddur. Hazırda Dağlıq Qarabağda, Ağdərə rayonunun Vəngli kəndində yerləşən Gəncəsər monastır kompleksi orta çağların alban memarlığının incisidir və erməni memarlığında həmin abidənin bənzəri yoxdur. Qıpçaq qızı Hurişah Xatun və oğlu Həsən Cəlal tərəfindən Gəncəsər monastır kompleksinin inşa etdirilməsi və Azərbaycan ərazisində yerli xristian əhalinin vahid dini mərkəzinə çevrilməsi Alban etnosunu erməni və gürcü işğalçılarının hücumlarına qarşı qorudu, tamamilə məhv olmaqdan xilas etdi[10].

Həsən Cəlalın yaşadığı dövr Qafqaz tarixində zənginliyi ilə fərqlənir. Həmin tarixi dövrü bir sıra həməsr tarixçilər ətraflı təsvir etmişlər. Onlardan bəzisi (məsələn, Gəncəli Kirakos) həmin dövrdə baş vermiş hadisələrdə yaxından iştirak etmişdir.

Azərbaycan Eldənizlər dövlətinin hökmdarı Atabəy Özbək xəzinəyə bac verməkdən boyun qaçıran yerli vassal hakimləri ram etmək üçün Qarabağa hücum edir. XIII əsrin naməlum müəllifi yazır ki, "*Hökmdar, islamın padşahı Nüsrət əd-dünya vəd-Din Özbək 611 (13.05.1214-01.04.1215)-ci ildə Xaçenə yürüş edir. Onun qoşunu qələbə qazanır və ümumi qırğın törədir. Onlar qul və zəngin hərbi qənimət əldə edir, həmin çoxallahlıların evlərini və yaşayış yerlərini oda yaxırlar. [Beləliklə padşahın] tam böyüklüyü sübuta yetirilir*"[11].

1227-ci ildə Cəlaləddin Mənqburnunun vəziri Şərəf əl-Mülk tələb olunan vergiləri yığaraq Xaçın qalasına yaxınlaşdı. Həsən Cəlal bu qalada qərar tutmuşdu. O, 10 min dinar ödəmək və əsirləri azad etməklə yaxasını qurtara bildi[12].

1236-cı ildə bir çox knyazların sırasında Həsən-Cəlal da monqollara itaətini bildirdi. İtaət edəcəklərini bildirmiş hakimlərin mülklərinə toxunulmadı. Müəyyən müddət ərzində onlardan vergi alınmadı. Tezliklə monqolların Xaçın üzərinə amansız yürüşü başlandı. Hətta alınmaz qalalar belə monqolların güclü təzyiqi və atəşi qarşısında davam gətirə bilmədi. "Torpaq həlak olmuş adamların meyitləri ilə örtülmüşdü, qan su yerinə axırdı, heç kəsə aman verilmirdi, sümük qalaqları bu hadisədən sonra uzun müddət ərzində daşlardan əmələ gəlmiş dağları xatırladırdı"[13]. Monqolların yürüşündən xəbər tutan Həsən öz vilayətinin sakinləri ilə birlikdə Koxanaberd qalasına sığındı. Monqollar qalanı mühasirəyə aldılar və qalanın çətinliklə ələ keçiriləcəyini anlayaraq mühasirədə olanlarla danışıqlara başladılar. Həsən Cəlal böyük hədiyyələrlə monqol sərkərdəsi Cuci Buğanın hüzuruna gedir, ona itaət edəcəyini bildirir və bununla da, öz malikanələrinin

---

[10] Əlizadə, Nəciyev, **a.g.m.**, s. 2587.

[11]Николай Миклухо-Маклай, **Географическое сочинение XIII в.** На персидском языке, Ученые записки Института востоковедения, том IX, Москва-Ленинград, издательство АН СССР, 1954, с. 204-205, 213; Ziya Bünyadov, **Azərbaycan Atabəyləri dövləti**: **1136-1225-ci illər**, Bakı, Şərq-Qərb, 2007, s.124.

[12] Vaqif Piriyev, **Azərbaycan XIII-XIV əsrlərdə**, Bakı, Nurlan, 2003, s. 101.

[13]**Azərbaycan tarixi**. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər), Bakı, Elm, 2007, s. 43.

hakimi kimi tanınır[14]. Monqollar "əlavə ərazilərlə birgə Xaçın hökmdarına onun ölkəsini təqdim etdilər". Həsən-Cəlal nəhayətsiz vergilər verməyin labüdlüyünü irəlicədən başa düşərək tez-tez onun ölkəsinə gələcək monqol çaparlarının qəbul olunması üçün müəyyən hazırlıq tədbirləri gördü, monqolları hər bir şeylə bolluca təchiz etdi və öz təbəələrinin canını qurtardı. Güman etmək olar ki, Cormağunun oğlu Bora-Nainin Həsənin qızı Ruzukanla evlənməsi əhvalatı həmin zamanla bağlıdır. Ümumiyyətlə, Həsən Cəlal monqollardan istifadə etmək naminə onlarla sıx qohumluq əlaqəsi yaratmağa çalışır, 3 qızını monqol sərkərdələrinə ərə verir. O, 1255-ci ildə Batı xanın oğlu Sərtanla Monqolustan Munkə xanın yanına gedir və 5 ildən sonra qayıdır[15]. Bu dövr ərzində Həsən Cəlal monqol Ali baş komandanlığının etibarını qazana bilmişdi və ona müəyyən qədər təsir göstərmək iqtidarında idi. Lakin bütün bunlar Həsən Cəlala qarşıdakı ağır sınaqlardan yaxa qurtarmaqda yardım etmədi. Sonralar Cəlalın həyatında fəlakətli rol oynamış Arqunun və Buqayın başçılığı ilə monqol vergi yığanları gəldilər. Buqay bütün alban zadəganlarının iştirakı ilə Həsəni bir çox cəzalara məruz qoydu, onun alınmaz qalalarını dağıtdırdı. Həsən yalnız Buqaya xeyli qızıl və gümüş verdikdən sonra ondan yaxasını qurtara bildi.

Nəhayət, Həsən Cəlal özü üçün qüdrətli himayəçi tapmağa müvəffəq oldu. Qızıl Orda xanı Batının oğlu, xristian Sartak tezliklə öz həmdinlərinin müdafiəçisinə çevrildi. Həsən-Cəlalın irsi mülkləri olan "Cəraberd, Akana və Qarqar onun özünə qaytarıldı". Xaçın hökmdarı alban katolikosu Nerses üçün mühüm imtiyazlar almağa nail oldu. Cəlalın Sartakla əlaqəsi alban hökmdarının vəfatınadək davam etdi.

Arqunun məkrli əməlləri Həsən Cəlalı uzaq səyahətə çıxmağa – Ali monqol xaqanı Munkenin sarayına getməyə vadar etdi. 1255-ci ildə – Batı xanın vəfatı ilində Sartak Munkenin sarayına getdi. Bu zaman Həsən Cəlal öz arvadı və oğlu ilə birgə Qızıl Ordada idi. Həsən fürsətdən istifadə etməyi qərara aldı və Sartakla birlikdə Monqolustana yollandı. Munke Həsən Cəlalın knyazlıq etməsi, mülkə sahib olması haqqında fərman verdi.

Arqun Monqolustana çağırıldı, ağır ittihamnamə ilə məhkəməyə verildi. 1256-cı ildə Arqunla yaxşı münasibətlərdə olan Smbat Orbelian Munkenin sarayına səfəri zamanı Arqunu azad etdirə bildi[16]. Nəticədə Arquna qarşı düşmən münasibətdə olan iki hakim edam olundu, keçmiş müttəhim isə əvvəlki səlahiyyətləri ilə Qafqaza qayıtdı. Həsən Cəlal yalnız beş ildən sonra vətəninə dönə bildi. Lakin tezliklə o, Arqun tərəfindən ələ keçirildi və dözülməz işgəncələrə məruz qaldı.

---

[14] Piriyev, **a.g.ə.,** s.101; Киракос Гандзакеци, **История Армении**, пер. с древнеармянского, предисловие и комментарии Л.А. Ханларян, Главная редакция восточной литературы из-ва Наука, Москва 1976, с. 171; Арам Галстян, **Армянские источники о монголах: извлечения из рукописей XII-XIV вв.**, Москва, Издательство восточной литературы, 1962, с.15.

[15] Vaqif Piriyev, **a.g.ə.,** s. 101.

[16] **Azərbaycan tarixi**, III cild, s. 44.

Həsənin qızı Ruzukan atasını xilas etmək üçün "böyük və şərəfli hökmdar, xristianların ümidi və pənahgahı olan" Hülakunun arvadı Doquz xatunun yanına getməyə tələsdi (Hülakunun arvadı xristian idi). Bundan xəbər tutan Arqun Həsəni gecə ikən öldürmək üçün sərəncam verdi. Həsən Cəlalı oynaqlarından hissə-hissə doğradılar. Həsən Cəlalın oğlu Atabəy qətlə yetirilmiş atasının cəsədinin hissələrini almağa və Gəncəsərə aparmağa müvəffəq oldu. Həsən Cəlalın cəsədi 1261-ci ildə Gəncəsərdəki nəsli məzarlıqda torpağa tapşırıldı. Təqribən bütün sonrakı alban katolikosları və Həsən Cəlal nəslinin nümayəndələri Gəncəsərdə dəfn olunmuşlar. Bunu məzar lövhələri üzərindəki yazılar təsdiqləyir.

XV əsrdə alban Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahanşahdan məlik titulu aldı. Sonralar Cəlalilər nəsli beş muxtar alban feodal knyazlığına – məlikliyinə parçalandı (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq məliklikləri). Məlik titulu soyadlarına əlavə edilirdi (Məlik-Yeqanov, Məlik-Şahnazarov və s.). İslamı qəbul etmiş bu soyadlar Azərbaycan soyadları hesab edilirdi. Əlamətdardır ki, məlikliklər yalnız Qarabağ üçün səciyyəvidir, yəni bu siyasi qurumlar əzəldən Qarabağda meydana gəlmişdir. Sonralar XVII-XIX əsrlərdə məliklərə İrəvanda, Sünikdə, Şəkidə də təsadüf olunur ki, bu da şübhəsiz, həmin məliklərin miqrasiyası ilə bağlıdır[17].

Erməni tarixşünaslığında dəfələrlə, həqiqətin əksinə olaraq, məliklik institutunu "erməni gerçəkliyi" üçün səciyyəvi hadisə kimi qələmə vermək cəhdləri olmuşdur. Azərbaycan, habelə erməni feodal nəsillərinin tədqiqi sübut edir ki, Kiçik Asiya və İrandakı erməni mühitində məliklər mövcud olmamışdır. Bu siyasi qurumlar yalnız son orta çağlarda Xaçın vilayətində yaşamış alban feodal nəsilləri üçün xasdır. Özü də həmin nəsillər Həsən Cəlal nəsli ilə, daha qədimlərdə isə alban Mehranilər və alban Arşakilər sülalələri ilə bağlıdır[18].

Əlamətdardır ki, Həsən Cəlal nəsli XV əsrədək Xaçında dünyəvi hakimiyyətə malik olmuş, XV əsrdən (nəslin beş məlikliyə parçalanmasından) sonra isə bu nəslin nümayəndələri Gəncəsərdə yerləşən Alban avtokefal (müstəqil) apostol kilsəsinin patriarx-katolikosları vəzifələrini yerinə yetirmişlər. Yəni onlar bu zamandan etibarən – 1836-cı ildə Alban kilsəsinin ləğv olunmasınadək Ərsək Xaçın knyazlığının ruhani rəhbərlərinə çevrilmişdilər. Beləliklə, IX-XV əsrlərdə Xaçın knyazlığı alban xristian əhalisinin mühüm siyasi, mədəni-mənəvi mərkəzi olmuşdur. Bu əhali özünün ərazi, siyasi, dini vəhdətini, alban özünüdərkini qoruyub saxlaya bilmişdi. İ.P.Petruşevskinin haqlı qeyd etdiyi kimi, "Qarabağ (Ərsak) heç bir zaman erməni mədəniyyəti mərkəzlərinə mənsub olmamışdır"[19]. Xaçın elə bir nüfuz sahibi olmuşdur ki, onu idarə Həsən Cəlal övladları Gəncəsərdə yerləşən Alban katolikosu taxtını idarə etməklə yanaşı Xaçını Qarabağın xristian əhalisi üçün dini və siyasi mərkəzə çevirmişdilər.

---

[17] Yaqub Mahmudov, Kərim Şükürov, **Qarabağ: Real tarix**, **faktlar**, **sənədlər**, Təhsil, Bakı 2005, s.23-24.
[18]**Azərbaycan tarixi**, III cild, s. 45.
[19]**Azərbaycan tarixi**, III cild, s. 46.

**Qarabağın Xaçın mahalı müfəssəl dəftərlərdə**

Xaçının adı Qarabağın mahallarından biri kimi Səfəvilər dövründə də xatırlanır. 1593-cü il tarixli "icmal dəftəri"nə görə Qarabağ əyaləti 36 nahiyəyə bölünən 7 sancaqdan biri də Xaçın idi[20]. Gəncə-Qarabağ əyalətinin Xaçın sancağı tərkibinə 7 nahiyə daxil idi: Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çelaberd, Çelaberd, Qarqar və Məğaviz[21]. XVI əsrin sonu – XVII əsrin əvvəllərində Xaçının hakimi Mehrab bəyin böyük oğlu III Cəlal idi. Xaçın 1589-cu ildə Osmanlıların nəzarətinə keçmişdi. Yalnız Şah I Abbas dövründə Osmanlılardan geri alınmışdı[22]. Bu əraziləri işğal edən Osmanlılar Xaçında sancaq və ona tabe olan nahiyələr yaratmışdılar. 1727-ci il Osmanlı müfəssəl dəftərində isə Xaçın sancağının adı qeyd olunmasa da dəftərdə heç bir sancağın tərkibində göstərilməyən 5 nahiyədən – Xaçın-Sığnaq, Çelaberd, Keştək, Vərəndə-Sığnaq, Köçəz – ikisinin, yəni Xaçın və Çelaberdin 1593-cü ildə mövcud olmuş Xaçın sancağına daxil olması XVIII əsrdə də bu adda sancağın olmasını ehtimal etməyə imkan verir[23]. 1647-ci il fərmanı ilə II Şah Abbas Arandakı gəliri 45350 dinar olan Xaçın mahalını qorçubaşı Göycə bəyə soryurqal verərək göstərir ki, həmin əyalətin kətxuda və rəiyyəti vücuhat və malcəhəti ona versinlər və hakim, darğa onun işlərinə qarışmasınlar[24]. Qeyd edək ki, vilayət daxilində mahal tiyul və ya soyurqal şəklində kiçik hakimə verildikdə belə burada xüsusi qayda hökm sürürdü. Çünki, vilayət ərazisində Şah tərəfindən başqa əyanlara verilmiş tiyul, soyurqal, vəqf əmlakı bir növ vergi immuniteti hüququna malik olduqlarına görə bəylərbəyi onların maliyyə işlərinə qarışmırdı[25]. Xaçın mahalında 13 kənddə 230 [99-u vergi ödəyən, 131-i ödəməyən] ailə yaşayırdı. Mahal məlik Qəhrəman tərəfindən idarə olunurdu.

"Müfəssəl dəftər"ə görə o zaman Xaçın nahiyəsi Bərdə livasının tərkibinə daxil olmuşdur. Nahiyə sakinləri buğda, arpa, çəltik əkir, maldarlıqla məşğul olurdular. Ən böyük kəndləri 41 qeyri-müsəlman kişi nəfərinin yaşadığı Qazançı və 23 qeyri-müsəlman kişinin qeydə alındığı Xınzırıstan [başqa adı Helvi] kəndləri idi. Gəncəsər monastrı da bu nahiyədə yerləşirdi. Monastrın yerləşdiyi kənd Yuxarı Külədək və Ağvənd adları ilə tanınırdı. Sonra isə Pənahəli xan Xındırıstanlı Mirzəxan məlik təyin etmişdi. Xaçın məlikləri alban katolikosu Həsən Cəlalın törəmələri idilər. Raffi bu məliklər barədə belə

---

[20] Zabil Bayramlı, **Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk Qızılbaş əyanlarının rolu**, Avropa, Bakı 2015, s. 222; **Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri**, ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur, Şuşa, Bakı 2000, s. 5-6.

[21] Vaqif Piriyev, **Azərbaycanın tarixi-siyasi coğrafiyası**, Müəllim, Bakı 2006, s. 73; **Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri**, ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur, Şuşa, Bakı 2000, s.5; **Gəncə-Qarabağ əyalətinin icmal dəftəri**, Çaşıoğlu, Bakı 2010, s.7-8.

[22] **Генеалогия народов Кавказа. Традиции и современность**, выпуск VII, сборник статей, ИПЦ СОИГСИ ВНЦРАН и РСО-А, Владикавказ 2015, с. 62-63; Артак Магалян, **Арцахские меликства и меликские дома в XVII-XIX вв.**, Издательство ВМВ-ПРИНТ, Ереван 2012, с. 124.

[23] Vaqif Piriyev, **a.g.ə.,** s. 73; **Gəncə-Qarabağ əyalətinin...,** 2000, s. 6, 10-11.

[24] Zabil Bayramlı, **a.g.ə.,** s. 292.

[25] Zabil Bayramlı, **a.g.ə.,** s. 292, 310.

yazır: "*XVII əsrdə Həsən Cəlalın nəslindən 3 qardaş tanınırdı: katolikos Yeremiya, III Vəlican bəy və Mulki bəy. Katolikos Yeremiya 1700-cü ildə öldü. Vəlican bəy 1686-cı ildə öldü, onun oğlu Yesai Yeremiyadan sonra katolikos oldu... Mulki bəyin 1716-cı ildə ölümündən sonra iki oğul övladı qaldı: böyüyünü Məlik Qriqor, kiçiyini isə Məlik Allahverdi adlandırırdılar*"[26]. Qeyd edək ki, Məlik Allahverdi I Allahverdi adı ilə Xaçın mahalında dünyəvi hakimiyyətə nail olmuşdu[27]. Məlik Qriqor isə Raffinin yazdığına görə "ağıllı və fərasətli idi; onun sarı saçları olduğunu görə perslər (qızılbaşlar – A.S.) və Osmanlılar onu "sarı-məlik" adlandırırdılar, bu da sarışın məlik" anlamına gəlirdi. Döyüşlərdə dəfələrlə cəsarətini göstərdikdən sonra dünya həyatından çəkildi, Gəncəsər məbədinə vardapet təyin edildi. Məlik Qriqordan sonra Xaçın məlikliyini qardaşı Məlik Allahverdi idarə etdi, sonuncunun da ölümündən sonra onun oğlu – ölümündən sonra 8 oğul övlad qoyub gedən – Məlik bəy. Onun oğullarından biri də Şuşa xanı İbrahimin (İbrahixəlil xan – A.S.) əli ilə öldürülən Gəncəsər katolikosu Ovanes idi"[28]. Lakin digər erməni tarixçisi Gəncəsər katolikosu Ovannesin Şuşa həpsxanasında qorxusundan öldüyünü yazmışdı: *İbrahim xanın gözətçiləri Qanzasar patriarxı Ovanesi və bütün məlikləri Q.Qaraxanovla sövdələşməsinə görə həbs etmişdir. Məliklər xana xəyanət etdiklərini etiraf edərək, bütün məktubları xana təslim etmişlər. Patriarx isə qorxudan vəfat etmişdir*[29].

**Qarabağın Xaçın məlikliyi XVIII əsrdə**

Xaçın məlikləri barədə Qarabağnamə müəlliflərindən Mirzə Adıgözəl bəy isə belə yazır:

> "*Məlikləri Həsən Cəlalyan övladıdır. (Onlar) riyasət gəlininə gözəllik verib, (hökmdar olmuşlar). Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır. Buna görə, məliklik pərisi hər an bir şəxsin məclisinin saqisi olmuş və hər vaxt bir hərifi sərxoş etmişdir. Axırda, mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı siyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahəsini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı Məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, bu əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini gümüş kimi saf olan adına kəsdirdi. Ondan sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman "Hər*

---

26 Раффи, **Меликства Хамсы (1600-1827)**, перевод с армянского Л.М.Казаряна, Ереван, Наири, 1991, с.24.
27 Tofiq Mustafazadə, **Qarabağ xanlığı**, Bakı, Sabah, 2009, s. 107-108.
28 Раффи, **a.g.ə.,** s. 24.
29 Абгар Иоаннисян, **Россия и Армянское освободительное движение в 80-х г. XVIII веке**, Ереван, изд-во АН Арм. ССР, 1947, с.177-178; Güntəkin Nəcəfli, **XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri**, Bakı, Nurlan, 2007, s. 181.

*kəsin növbəti beş gündür" misrasının məzmununca, məliklik bayrağını göylərə qaldırdılar"*[30].

Xaçın, eləcə də Qarabağın digər məlikləri ilə bağlı maraqlı bir məqam da var. Belə ki, İosif Orbeli Xaçın hakimi Həsən Cəlal barədə məlumat verərkən yazır: "*artıq XVI əsrin I yarısında və son zamanlaradək bütün erməni* (əslində alban – A.S.) *hakimləri bəy, məlik, paron* (baron – A.S.) *kimi titulları daşıyırdılar. Bu titullardan yalnız din xadimlərinin adlarında istifadə edilmirdi. Qeyd edək ki, bu dövr ərzində 2-3 Cəlal məlumdur ki, onların da hamısı Cəlal bəydir*"[31]. Təbii ki orta əsrlər dövründə bu kimi titullar yayğın ola bilərdi. Bəy və məlik titulları dövrün hakim dövlətinin təsiri ilə istifadə də edilə bilərdi. Hakim qızılbaş tayfalarının təsiri ilə hətta Xaçın hakiminin ailə üzvlərinin adları belə əsasən türkcə idi. Səfəvilər dövründə Xaçın hakimi III Cəlalın atası Mehrab bəy, anası Şahum ağa, həyat yoldaşı Bəyum ağa, qızları Salbara, Kiçixan, Mehparə, Xanumağa idi[32].

Qarabağ xanlığı yarandıqda Xaçın mahalının ərazisi cənubda Qarqar çayından başlayıb, şimalda Qabartda, qərbdə Qırxqız və Mıxtökən dağından şərqdə Bayat meşəsinə qədər uzanırdı. Bu mahal Vərəndə kimi məhsuldar olmasa da buğda və s. bol yetişir. Bəzi yerlərdə çəltik do yetişdirilirdi. Mahalın ərazisinin çox hissəsi meşəlik idi. Mirzə Yusif Qarabaği yazır:

> "*Xaçın mahalı eni Qarqar çayından başlayıb Qabartıda qurtarır. Uzunu Qırxqız və Mıxtökən dağından Bayat meşəsinə qədərdir. Burada keyfiyyətcə Vərəndədən yaxşı olmasa da buğda və sair məhsulları boldur. Bəzi yerlərdə çəltik də yetişdirilir. Bu yerlərin çoxu meşəlik və cəngəllikdir. Deyilənə görə Xaçında vaxtilə kiçik bir qala olmuş, adına Hetrak qalası demişlər. Bu kəndin məlikləri qədimdə Həsən Cəlalovların övladlarından olmuşlar*"[33].

Xaçını uzun müddət idarə edən Həsən Cəlal nəslinin tarixçəsini bu nəsildən olan Yesai Həsən Cəlal, Baqdasar Həsən Cəlal və Sarkis Cəlal kimi nümayəndələri ilk dəfə tədqiq etməyə cəhd etmişdilər. Bu nəsillə bağlı hazırlanan şəcərələrdən biri Raffinin nəşr etdiyi, 1849-cu ildə Baqdasar Həsən Cəlal tərəfindən tərtib edilmiş "*Həsən Cəlal nəslinin soy ağacı və nəsil şəcərəsi*" adlı siyahını qeyd edə bilərik. Bu siyahıda da qeyd edildiyi kimi Həsən Cəlalın nəslindən olanlar Alban ölkəsinin hökmdar soyundan gəlirdilər[34].

---

[30] **Qarabağnamələr**, 2 kitabda. I kitab, Bakı, Yazıçı, 1989, s. 36-37.
[31] Иосиф Орбели, «Хасан-Джалал, князь Хаченский», **Известия Академии Наук**, сер. IV, №6, Санкт-Петербург, 1909, с.434.
[32] **Генеалогия народов Кавказа....**, с.63.
[33] **Qarabağnamələr**, 2 kitabda, II kitab, Bakı, Yazıçı, 1991, s.13.
[34] **Генеалогия народов Кавказа...**, с.61-62; Магалян, **a.g.ə.,** s. 124.

Ümumiyyətlə Qarabağ məliklərinin alban-arşaki mənşəli olması son dövr tədqiqatlarda da öz təsdiqini tapmışdır. Qarabağ məliklərinin 1723-cü ilin martında Rusiya imperatoru I Pyotra məktublarında özlərini fərqləndirmək üçün islamı qəbul edənləri "alban türkü", qəbul etməyənləri xristian albanlar adlandırmaqla[35] əslində türk kökünə bağlılığını bir daha təsdiq etmişdilər.

Bundan başqa, Qarabağın xristian məliklərinin 1781-ci il 2 sentyabr tarixində II Yekaterinaya ünvanladıqları məktubunun erməni dilində olan variantında məliklər özləri haqqında "*biz Arşaki və Alban taxt-tacının çarları nəslinə məxsusuq*" ifadələrini yazmışlar. Erməni tarixçiləri həmin sənədi rus dilində təqdim edərkən qeyd etdiyimiz cümləni saxtalaşdırıb "*biz erməni rəisləri nəslindənik*" ifadələri ilə əvəz etmişlər[36].

***Nəticə***

XII əsrin sonları – XIII əsrin əvvəllərində Xaçın knyazlığının meydana gəlməsi həm Alban dövlətinin davamı olaraq, həm də Alban kilsəsinin tarixində mühüm rol oynadı. Alban Mehranilər nəslindən olan Həsən Cəlalın zamanında (1215-1261) knyazlığın mövqeyi xeyli möhkəmləndi və onun dövründə tikilən Qanzasar monastırı (1216-1238-ci illər) Alban kilsəsinin mərkəzi oldu. Bütövlükdə Xaçın məlikliyi digər məlikliklərdən fərqli olaraq Qarabağın yerli məlikliyi olub, onlarla bir kökdən – alban-qıpçaqlardan idi.

Məlik istilahına gəldikdə isə qeyd olunmalıdır ki, bu istilah Qaraqoyunlu hərbi-köçəri əyanlarının ictimai-hüquqi normalarının doğurduğu nəticələrdən biridir. Erməni gerçəkliyi üçün işxan, tanuter, paron istilahları səciyyəvidir. Aydın şəkildə görünür ki, XV əsrdə alban feodal əyanları məlik istilahını, məlik institutunu xüsusi məqsədlə qəbul etmişdilər və bu hal onların özlərini ermənilərdən fərqləndirmək istəyinin nəticəsi olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

### Azərbaycan dilində

1. **Azərbaycan tarixi üzrə qaynaqlar**, Bakı, Çıraq, 2007.
2. **Azərbaycan tarixi,** Yeddi cilddə, III cild (XIII-XVIII əsrlər), Bakı, Elm, 2007.
3. Zabil Bayramlı, **Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk Qızılbaş əyanlarının rolu**, Bakı, Avropa, 2015.
4. Ziya Bünyadov, **Azərbaycan Atabəyləri dövləti: 1136-1225-ci illər**, Bakı, Şərq-Qərb, 2007.

[35] Ягуб Махмудов, Гюнтекин Наджафли, **Игры великих держав по созданию армянского государства на территории Азербайджана**, Бишкек 2021, с. 323-325.
[36] Güntəkin Nəcəfli, "Qarabağın xristian alban məliklərinə dair", **İpəkyolu**, Bakı 2021, s. 80.

5. Yesai Həsən Cəlalyan, **Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər)**, ruscadan çevirənlər H.Dayıyev və V.Musayev, ön söz müəllifi akademik Ziya Bünyadov, Bakı, İşıq, 1992.
6. Ənvər Çingizoğlu, Fazil Baxşəliyev, **Qarabağın el və obaları**, Bakı, Şuşa, 2007.
7. Ramin Əlizadə, Elnur Nəciyev, "Qarabağın Alban-Qıpçaq tarixinə dair" **Akademik Tarih ve Düşünce Dergisi**, Cilt 7, Sayı 4, 2020, s.2578-2593.
8. **Gəncə-Qarabağ əyalətinin icmal dəftəri**, Bakı, Çaşıoğlu, 2010.
9. **Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri**, ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur), Bakı, Şuşa, 2000.
10. **Qarabağnamələr**, 2 kitabda, I kitab, Bakı, Yazıçı, 1989.
11. **Qarabağnamələr**, 2 kitabda, II kitab, Bakı, Yazıçı, 1991.
12. Yaqub Mahmudov, Kərim Şükürov, **Qarabağ: Real tarix, faktlar, sənədlər**, Bakı, Təhsil, 2005.
13. Tofiq Mustafazadə, **Qarabağ xanlığı**, Bakı, Sabah, 2009.
14. Güntəkin Nəcəfli, "Qarabağın xristian alban məliklərinə dair", Bakı, **İpək yolu**, 2021, s.73-82.
15. Güntəkin Nəcəfli, **XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri**, Bakı, Nurlan, 2007.
16. Vaqif Piriyev, **Azərbaycan XIII-XIV əsrlərdə**, Bakı, Nurlan, 2003.
17. Vaqif Piriyev, **Azərbaycanın tarixi-siyasi coğrafiyası**, Bakı, Müəllim, 2006.
18. Kərim Şükürov, "Azərbaycana qarşı erməniçilik saxtakarlığı: təsnifatı və tənqidinin konseptual platforması", **https://azertag.az/xeber/Azerbaycana_qarsi _ermenichilik_ saxtakarligi_tesnifati_ve_tenqidinin_konseptual_platformasi-**1767241#.YIgo_I59qS4, istifadə tarixi: 27.04.2021

**Rus dilində**

19. Арам Галстян, **Армянские источники о монголах: извлечения из рукописей XII-XIV вв.**, Москва, Издательство восточной литературы, 1962.
20. Киракос Гандзакеци, **История Армении,** пер. с древнеармянского, предисловие и комментарии Л.А.Ханларян, Главная редакция восточной литературы из-ва Наука, Москва 1976.
21. **Генеалогия народов Кавказа**. **Традиции и современность**, выпуск VII, сборник статей, ИПЦ СОИГСИ ВНЦРАН и РСО-А, Владикавказ 2015.
22. Абгар Иоаннисян, **Россия и Армянское освободительное движение в 80- х г. XVIII веке**, Ереван, изд-во АН Арм. ССР, 1947.
23. Артак Магалян, **Арцахские меликства и меликские дома в XVII-XIX вв.**, Ереван, издательство, ВМВ-ПРИНТ, 2012.
24. Ягуб Махмудов, Гюнтекин Наджафли, **Игры великих держав по созданию армянского государства на территории Азербайджана**, Бишкек 2021.

25. Миклухо-Маклай Николай, **Географическое сочинение XIII в. на персидском языке**, Ученые записки Института востоковедения, том IX, Москва-Ленинград, издательство АН СССР, 1954.
26. Орбели Иосиф, «Хасан-Джалал, князь Хаченский», **Известия Академии Наук**, сер. IV, №6, Санкт-Петербург, 1909.
27. Раффи, **Меликства Хамсы (1600-1827)**, перевод с армянского Л.М.Казаряна, Ереван, Наири, 1991.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Sadıqova Aysel Əli qızı – Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı, Azərbaycan, Bakı.

Sadigova Aysel Ali – candidate for a degree of A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

ALBANİYA TARİXİNİN BƏZİ ELMİ PROBLEMLƏRİ

©2021

ELLADA BƏKİROVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID:0000-0003-1788-1310; bekirovaella@gmail.com

***Xülasə:*** *Albaniya dövləti Azərbaycan ərazisindəki ən qədim dövlətlərdən biri idi. Qafqaz regionunda həmişə mübahisə predmeti olan məsələlər bu dövlətin tarixində cəmləşib. Təqdim olunan məqalədə 6 başlıq üzrə Albaniya tarixinin aktual elmi-nəzəri problemlərindən bəhs edilir. Bu problemlər özündə Albaniya dövlətinin tarixinin dövrləşdirilməsini, dövlətin və xalqın adlandırılmasını, inzibati-ərazi quruluşunu və sərhədlərini, əhalinin etnik mənsubiyyətini və özünəməxsus yazı sistemini ehtiva edir. Məqalədə Albaniya tarixinin ən aktual məsələləri həm antik və erkən orta əsr mənbələrinın məlumatlarının elmi təhlili işığında, həm də xarici tarixşünaslıq materiallarını cəlb etməklə nəzərdən keçirilir. Məqalədə Strabon, Böyük Plini, Arrian, Klavdi Ptolemey, Qay Yuli Solin, İppolit, Qeysəriyəli Prokopi, Musa Kalankatlı kimi antik və erkən orta əsr müəlliflərinin əsərlərinə istinad edilir.*

***Açar sözlər:*** *Albaniya, sərhədlər, etnos, dövrləşdirmə, antik müəlliflər*

SOME SCIENTIFIC PROBLEMS OF
ALBANIAN HISTORY

ELLADA BEKIROVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID:0000-0003-1788-1310; bekirovaella@gmail.com

**Abstract:** *Albania is one of the oldest states that have developed on the historical territory of Azerbaijan. The history of this state focuses on issues that have always been the subject of controversy in the Caucasian region. In this paper, in 6 points, topical scientific and theoretical problems of Albania are considered, related to the periodization of its political history, the name of the country and the people, the administrative-territorial structure and borders of the state, the ethnicity of the population and its own written language. These pressing issues of Albanian history are considered in the light of the analysis of information from ancient and early medieval sources, with the involvement of both national and foreign historiographical materials. Reference is made to such ancient*

*authors as Strabo, Pliny the Elder, Arrian, Claudius Ptolemy, G.J.Solinus, medieval authors Hippolytus, Procopius, Movses Kaghankatvatsi.*

***Keywords:*** *Albania, borders, ethnos, periodization, ancient authors*

# НЕКОТОРЫЕ НАУЧНЫЕ ПРОБЛЕМЫ АЛБАНСКОЙ ИСТОРИИ

©2021

ЭЛЛАДА БЕКИРОВА*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0003-1788-1310; bekirovaella@gmail.com

***Резюме:*** *Албания является одной из древнейших государств, сложившейся на исторической территории Азербайджана. В истории этого государства сосредоточены вопросы, которые всегда были предметом споров в кавказском регионе. В представленной статье в 6 пунктах рассматриваются актуальные научно-теоретические проблемы Албании, связанные с периодизацией её политической истории, наименованием страны и названием народа, административно-территориальной структуре и границ государства, этнической принадлежности населения и собственной письменности. Эти насущные вопросы албанской истории рассматриваются в свете анализа сведений древних и раннесредневековых источников, с привлечением трудов как отечественных, так и зарубежных исследователей. В работе привлечены сведения таких античных и раннесредневековых авторов, как Страбон, Плиний Старший, Арриан, Клавдий Птолемей, Гай Юлий Солин, Ипполит, Прокопий Кесарийский и Мовсес Каганкатваци.*

***Ключевые слова:*** *Албания, границы, этнос, периодизация, античные авторы*

## *Giriş*

Azərbaycan ərazisində antik dövrdə formalaşmış Albaniya dövləti Cənubi Qafqazın ən qədim dövlətlərindən biridir. Antik müəlliflərin haqqında maraqlı, bəzən mübahisəli, bəzən gələcək siyasi və etnik mənsubiyyətlə bağlı iddialara başlanğıc verən məlumatları bu dövlətin tarixini daha da müəmmalı etmişdir. Qafqazda yerləşən antik dövrün heç bir dövləti bəlkə də bu qədər araşdırılmayıb. Misal olaraq, Albaniya ilə eyni dövrdə mövcud olmuş İberiyanı göstərə bilərik. İberiyanın tarixi barədə gürcü və sovet tarixşünaslığından əlavə məlumat əldə etmək mümkünsüzdür. Amma eyni dövrdə

yaranmış Albaniya tarixinə dair milli tarixşünaslıqdan əlavə gürcü, erməni, Dağıstan, Rusiya tarixşünaslığında, həmçinin Avropa tarixşünaslığında kifayət qədər material vardır və mövzu hələ də maraq kəsb etməkdədir. Səbəb Albaniya tarixinin mühüm elmi-nəzəri problemlərinin hələ də tam həll olunmaması, bu və ya digər səbəbdən aksioma çevrilmiş bəzi fikirlərin hələ də tarixşünaslıqda qalması və onların açılması üçün yeni imkanların, dəlillərin məhdud olmasıdır. Bu məsələlərin aydınlaşması və albanşünaslıq istiqamətində yeni uğurların olması üçün ilk növbədə Albaniya tarixinin hansı nəzəri problemlərinin mövcud olduğunu müəyyən etmək lazımdır. Məqalədə Albaniya tarixinin nəzəri problemləri 6 başlıq üzrə müəyyənləşdirilərək təhlil edilmişdir.

**Mənbə problemi**

Antik dövrə aid yerli yazılı mənbənin ümumiyyətlə olmaması, orta əsrlər dövrü ilə bağlı isə çox az yerli yazılı mənbəyə malik olması Albaniya tarixinin ən ciddi reallıqlarındandır. Əslində, Albaniya tarixi ilə bağlı bildiyimiz əksər məlumatları xarici müəlliflərin əsərlərinə istinadən bilirik. Xüsusilə də Albaniyanın antik dövrü ilə bağlı məsələlər antik dövr yazarları olmadan təsəvvür oluna bilməz. Onların nə dərəcədə etibarlı olması əlbəttə ki, mübahisə mövzusudur. Biz bəzən istinad edərək əminliklə, "bu şəkildədir!", deyə bilmirik, çünki antik müəlliflərin bölgə ilə birbaşa təmasları antik dövrün şərtləri baxımından real deyildi və onların informatorları nə dərəcədə doğru məlumatlar vermişdi, biz dəqiq bilmirik. Biz onlardan istifadə edərkən adətən müqayisə metodundan istifadə edərək bir neçə mənbədə öz əksini tapan məsələlərə daha real baxır, yalnız bir mənbədə keçən hadisəyə isə nisbətən şübhə ilə yanaşırıq. Albaniyanın sərhədləri, etnik tərkibi ilə bağlı indi gündəmdə olan bütün məsələlərin başlanğıcı məhz bu mənbələrdən qaynaqlanır. Albaniyanın tarixi ilə bağlı əsas istinad etdiyimiz mənbələr yerli mənbələrdən başqa, antik Yunan-Roma müəlliflərinin yazdığı əsərlər, gürcü və erməni mənbələridir. Yunan-Roma müəlliflərinin əsərləri informasiya baxımında çox zəngin olmayaraq bəzən mübahisəli olan fikirləri də ehtiva edir. Gürcü və erməni mənbələri isə çox vaxt qərəzlidir.

Yerli mənbələr qrupuna aid etdiyimiz qrabar dilində yazılmış alban mətnlərinin sayı da təəssüf ki, çox deyil. Bunların ən çox istinad edilən Musa Kalankatlının "Alban tarixi" əsəridir. Orijinalı Matenadaranda saxlanılan əsərin bir neçə müəllifin tərcüməsi ilə fərqli variantları mövcuddur[1]. Digər tərəfdən, əksər tərcümələr ermənilər tərəfindən

[1]**Musa Kalankatuklunun Ağvan ölkəsinin tarixi**, K.Şahnazaryanın nəşri, Paris 1860 (erməni dilində); **История албанской страны Мовсэса Каганкатваци,** пер. с древнеарм. яз., предисл. и коммент. В.Аракеляна, Ереван 1969; **The history of the Caucasian Albanians by Movses Dasxuranci**, translated by C.J.F.Dowsett, London Oxford University press, New-York, Toronto 1961, 252 p.; Musa Kalankatuklu**,** **Alban ölkəsinin tarixi**, N.Eminin nəşri, Tiflis 1912 (erməni dilində); Каланкатуаци Мовсэс, **История страны Алуанк**, пер. с древнеарм. яз., предисл. и коммент Ш.В.Смбатяна, Ереван 1984; Musa Kalankatuklu, **Aluank ölkəsinin tarixi,** V.D.Arakelyanın nəşri, Yerevan 1983 (erməni dilində); Musa Kalankatuklu, **Albaniya tarixi**, tərc. Z.Bünyadov, Bakı, Elm, 1993, s. 16-220; Qoş Mxitar, **Alban salnaməsi,**

edildiyindən onların səhihliyinə zəmanət verə bilmirik. İstinad edə biləcəyimiz digər alban mənbələri Mxitar Qoşun "Alban salnamələri", "Qanunnamə", "Gəncəli Xosrovun əzablı həyatı" əsərləri, Gəncəli Kirakosun "Tarix" əsəri, həmçinin Sinayda tapılmış palimpsestlərdir[2]. Qeyd etdiyim mənbələrin də birbaşa tərcüməçiləri və əsas tədqiqatçıları yerli alimlər deyil. Bu da Albaniya tarixinin obyektiv, hər cür qərəzdən uzaq araşdırılmasını çətinləşdirir və bu problemi Albaniya tarixinin ən aktual problemlərindən birinə çevirir.

**Dövlətçilik tarixinin dövrləşdirilməsi problemi**

Albaniya tarixi ilə maraqlanan ilk müəlliflərdən başlayaraq indiyə qədər bu barədə mövcud iki fikir vardır: 1) Albaniya dövləti Makedoniyalı İsgəndərin ölümündən sonra (e.ə. 323-cü il) yaranmış və eramızın VIII əsrinə qədər, arada müəyyən fasilələr olmaqla, mövcud olmuşdur; 2) Albaniya dövləti e.ə. I əsrdə yaranmış, eranın VIII əsrinə qədər mövcud olmuşdur. Hər iki mülahizənin yaranmasının öz səbəbləri var. Birinci fikri dəstəkləyənlər ilk növbədə alban etnoniminin mənbələrdə ilk dəfə siyasi hadisələrdə çəkilməsi və Albaniya ərazisindən təxminən e.ə. IV-III əsrlərə aid olan, Makedoniyalı İsgəndərin tetradraxma və draxmalarının oxşarı olaraq kəsilmiş yerli alban pullarının tapılmasına istinad edirlər. Belə ki, albanların adı ilk dəfə II əsr müəllifi Flavi Arrianın "İsgəndərin yürüşü" adlanan əsərində e.ə. IV əsr hadisələri ilə bağlı olaraq Əhəməni hökmdarı III Daranın müttəfiqi qismində çəkilmişdir (*Arr. Anabazis III.8.4, III.11.1*)[3].

Arrian Aristobula istinadən alban və sakasenlərin döyüşdəki mövqelərini belə göstərmişdir: "*Sağ cinahda Keleseriya və İkiçayarasından olan əsgərlər, həmçinin midiyalılar, onlardan sonra parfiyalı və saklar, sonra tapurlar və hirkanlar, sonra alban və sakasenlər-onlar falanqanın ortasında idilər (Arr. Anabazis. III.11.4*)[4].
Digər bir yerdə isə Arrian midiyalı, alban, sakasenlərə rəhbərlik edən Atropatdan danışır: "*Midiyalılara Atropat başçılıq edir: midiyalılarla bərabər kadusi, alban və sakasenlər var (Arr. Anabazis. III.8.44)*"[5].

Həmçinin, başqa bir fraqmentdə Arrian bu tayfaların fars, indus və digərləri ilə birlikdə III Daranın ətrafında birbaşa Makedoniyalı İsgəndərə qarşı vuruşduğunu yazır (*Arr. Anabazis. II.4*)[6]. Başqa bir yerdə isə Arrian yazır: "*Qoşunlar birləşəndə göründü ki,*

---

tərc. Z.Bünyadov, Bakı, Elm, 1993, s. 257-272; Каганкатваци Мовсэс, **История агван**, пер. с древнеарм. яз.К.Патканова, Санкт-Петербург, типогр. Импер. Академии наук, 1861, 376 с.

[2] Schulze Wolfgang, Gippert Jost, Aleksidze Zaza, Pyer Jan-Mahe **(eds)**, **The Caucasian Albanian Palimpsets of Mount Sinai**, I vol, published by Turnhout, Brepols 2008; Musa Kalankatuklu, **a.g.ə.,** s. 16-220; Mxitar, **a.g.ə.,** s. 257-272.

[3] Edgard İliff Robson. **Arrianus Flavius**, Volume I (I-IV books), London, W.Heinemann, 1929, s. 246-47; 254-57.

[4] Robson, **a.g.ə**, s. 254-257.

[5] Arrian, **Alexander the Great,** transl. Chinnock E.J., vol.I, London, Hodder and Stoughton, 1929, s. 156.

[6] Arrian, **a.g.ə**, s.85.

*Dara öz əhatəsi ilə-farslar, hindlilər, albanlar, kariylər, oxçu mardlarla Aleksandra və çar ailəsinə qarşı dayanıb*"*(Arr. Anabazis. III.13.1*)[7].

Bu fraqmetdə albanların III Daranın ətrafı arasında adları çəkilib. Bütün bu sadalananlara istinadən, bəzi tədqiqatçılar hesab edirlər ki, artıq Albaniya dövləti siyasi cəhətdən mövcud idi, lakin hələlik vahid siyasi struktur şəklində mövcud deyildi, ola bilsin ki, Strabonun da qeyd etdiyi kimi, onlara bir neçə çar başçılıq edirdi. Albaniyada siyasi hakimiyyətin və dövlətçiliyin e.ə. IV əsrdə başlamasının başqa bir ehtimalı antik müəlliflərdən Böyük Plini və Yuli Solinin alban çarının İsgəndərə böyük ölçüdə it bağışlaması ilə bağlı verdikləri məlumatlardır. Hər iki müəllif hadisələrin cərəyan etdiyi vaxtdan xeyli sonra yaşasalar da, hətta alban çarının böyük İsgəndərə qeyri-adi böyüklükdə it bağışladıqlarını da qeyd etmişlər (*Plini. VIII.149*; *Y.Solin. XV.7*)[8]. Bu barədə Böyük Plini yazırdı:

> "*Böyük Aleksandrın Hindistana yürüşü zamanı alban çarı ona qeyri-adi böyüklükdə bir it bağışladı. Onun görkəmindən xoşlanan çar onun üstünə ayıların, sonra qabanların, nəhayət, xallı maralların buraxılmasını əmr etdi, ancaq o (it) nifrətlə, tərpənməz halda yatıb qaldı. Bu nəhənglikdə heyvanın belə süstlüyündən kefi pozulan cəsur çar onun öldürülməsini əmr etdi. Bu haqda xəbər alban çarına çatdı. Beləliklə o, başqa bir it göndərərək üstəlik bildirmişdir ki, Aleksandr onu xırda heyvanlarla deyil, şir və ya fillə sınaqdan keçirsin*" *(Plini. VIII.149*).

Bu parçaya açıqlama verən K.V.Trever bunu İsgəndərin deyil, onun ölümündən sonra Selevkilərin göndərdiyi Patroklun ekspedisiyası ilə əlaqələndirir. Çünki, mənbələrdən məlumdur ki, İsgəndər mardların ərazilərindən şimala qalxmamışdır (*Arr. Anabazis. III.24.2*)[9]. İsgəndərin mardlarla toqquşması barədə bir sıra müəlliflər, o cümlədən, Strabon, Arrian, K.Ruf, Diodor yazmışlar. Arrianın yazdığına görə İsgəndər "onları dağlara qədər təqib etdi, o vaxta kimi onlar tabe oldular" (*Arr.Anabazis. III.24.2*). Lakin nədənsə sonrakı dövr mənbələrində də İsgəndərin Qafqazlarda olması ilə bağlı məlumatlar var. Məsələn, XI əsr gürcü müəllifi Leonti Mrovelinin "Kartli çarlarının həyatı" əsərində İsgəndərin Kür sahillərində buntürklərlə mübarizə aparması, onları məğlub edə bilməməsi ilə bağlı məlumat var. Bu məlumat antik mənbələrdə təsdiqini tapmasa da (İsgəndərin Arazdan şimaldakı ərazilərdə olmasa birmənalı olaraq qəbul edilmir), Qafqazla bağlı ən maraqlı məlumatlardandır. Bəlkə də gürcü xronikasında yer alan bu məlumat İsgəndərə deyil, onun göndərdiyi satrapa aiddir. Böyük Plini və Yuli Solinin verdiyi məlumatlar burada Makedoniya hakimiyyətinin mövcudluğunun tutarlı

[7]Arrian, **a.g.ə**, s. 164.
[8]**Azərbaycan tarixi üzrə qaynaqlar**, Bakı, Çıraq, 2007, s.26-27.
[9]Arrian, **a.g.ə**, s. 189-190.

sübutu olmasa da, Albaniyada hökmdar hakimiyyətinin başlanması ilə bağlı əhəmiyyətli ipucları hesab oluna bilər.

Albaniyanın dövlət olaraq yaranmasının tarixini e.ə. I əsr hesab edənlər isə daha çox mənbələrdə ilk dəfə alban çarı ifadəsi və ilk alban çarının adının çəkilməsinə istinad edirlər. Milli tarixşünaslığa bu fikir tarix elmləri doktoru mərhum Kamal Əliyevin tədqiqatları ilə gəlmişdir. Ondan əvvəl isə sovet tarixşünaslığında bu fikrə rast gəlinmişdir. Bu nəzəriyyənin tərəfdarları Albaniyanın siyasi vahid olaraq hadisələrdə iştirakı, Albaniya dövləti, alban çarı ifadələrinin yalnız e.ə. I əsrdən etibarən işlənməsinə diqqət çəkmiş, Strabonun qeyd etdiyi "əvvəllər onlara bir neçə hökmdar başçılıq edirdi, indi isə 1 hökmdarları var" qeydini əsas tutaraq Albaniyanın vahid dövlətə çevrilməsini məhz bu dövrdən hesablayırlar. Həmçinin, dövrün siyasi hadisələrində müstəqil siyasi vahid olaraq məhz bu dövrdən etibarən xatırlanır. Məhz e.ə. 66-65-ci illərdə Roma sərkərdəsi Pompeyin Şərq yürüşü ilə əlaqədar albanlar siyasi hadisələrdə fəal iştirak etmiş, baş verən savaşlardan sonra bərabərhüquqlu tərəf kimi müqavilə imzalamışdırlar. Bundan sonrakı hadisələrdə də antik müəlliflər dəfələrlə alban çarı ifadəsini işlətmişdilər. Lakin fikrimcə sırf bu fakta istinadən Albaniya dövlətinin yaranma tarixi olaraq e.ə. I əsrin götürülməsi doğru olmazdı. İlk növbədə ona görə ki, dövlət bir anda ortaya çıxan siyasi vahid deyildir və e.ə. I əsrə qədər alban çarı və Albaniya dövləti ifadələrinə rast gəlinməməsi bölgə ilə siyasi əlaqələrin sıx olmadığından irəli gələ bilərdi. Məlum olduğu kimi Romanın Qafqaz siyasətinin ən parlaq dövrü antik mənbələrdən göründüyü kimi e.ə. II-I əsrlərdir. Məhz bu dövrdə Roma bu bölgəyə bir neçə dəfə müdaxilə etmiş və müdaxilələrin nəticəsində bölgə xalqları və dövlətləri ilə ilk yaxın təması formalaşmışdır. İkinci mühüm məqam dövlətçilik atributu olan yerli alban pullarının daha erkən dövrdə kəsilməsi faktıdır. Azərbaycan ərazisində bir neçə yerdə, xüsusən də tarixi Albaniya ərazilərində Makedoniyalı İsgəndərin pullarının oxşarı olaraq zərb edilmiş e.ə. IV-III əsrlərə aid edilən yerli alban pulları tapılmışdır. Zənnimcə dövrləşmə problemində bütün bu sadalanan faktlar nəzərə alınmalıdır.

Albaniya dövlətinin dövrləşməsi problemində onun süqutu məsələsi yaranması ilə müqayisədə daha az mübahisəli mövzudur. Öz mövcudluğu dövründə müstəqilliyini müvəqqəti olaraq itirmə faktları olsa da, Albaniya dövləti fasilələrlə VIII əsrin əvvəllərinə qədər yaşamışdır. Doğrudur ki, Albaniyanın Sasani asılılığına düşməsi və ondan sonrakı dövrü məzmun olaraq daha mürəkkəb və müxtəlif elmi problemlərlə zəngindir. Lakin dövrləşmə məsələsində əsas qəbul olunan fikir ərəb fəthlərinin başlanması və bölgənin digər dövlətləri kimi Albaniyanın da buna çox tab gətirə bilməməsi, 705-ci ildə sonuncu alban hökmdarının Xilafət paytaxtına aparılması ilə həm Mehranilər sülaləsi, həm də Albaniya dövlətinə son qoyulmasıdır. Başqa bir sual bu hadisə albanların sonu oldumu? Alban taxtının varisləri uzun müddət ərzində xırda çarlıqlar şəklində Azərbaycanın müxtəlif ərazilərində mövcud olmuşlar.

### Dövlətin və etnosun adlandırılması problemi

Dövlətinin necə olub Albaniya adlandırılması (politonim), yaxud ərazinin başlıca toplumunun albanlar adlandırılmasının (etnonim), ərazinin erkən dövrdə Albaniya, daha sonra Arran adlandırılmasının (etno-politonimin transformasiyası) səbəbləri Albaniya tarixinin ən maraqlı məsələlərindən biridir. Albaniya barədə dövrümüzə gəlib çatan ilk mənbələr yunan-Roma mənşəli mənbələrdir. Bu mənbələr dövləti "Albaniya", onun əhalisini "albanlar" adlandırırlar. Mahiyyət etibarı ilə, antik mənbələrin hər iki termini endonim (yerli) yox, ekzonimdir (kənardan verilən ad). Hətta ölkənin şərqində yerləşən Xəzərə Alban dənizi, ölkənin şimal və cənubdan olan girişlərinə, dağ keçidlərinə alban keçidləri adını da məhz onlar vermişlər. Alban sözünün etimologiyası barədə ilk fikir də məhz antik müəlliflərə aiddir. Antik müəlliflərdən Böyük Plini "alban" sözünü latınca "albus" – "ağ" mənasında izah etmişdir (*Plin. VII.9*)[10]. Sonralar Yuli Solin və başqa antik müəlliflər də bu fikri təkrarlamışlar. Bəziləri isə bu etnonimin Albaniya toponimindən törədiyini, Albaniya sözünün kökündə dayanan "alp-alb" sözünün isə kelt dilində "dağ", "yüksəklik" mənasını verdiyini söyləyirlər[11]. A.Yanovski, Z.İ.Yampolski, N.Y.Marrın fikrinə görə "alban" etnonimi latın mənşəli olub, "dağlar ölkəsi" deməkdir. K.V.Trever isə bu sözün kelt dilində "dağ" mənasını verən "alp" sözü ilə bağlı olmasını qeyd etməklə bərabər, Şotlandiyanın qədim kelt dilində "Albaniya" adlandığını və oranın dağlıq adalarından birinin Arran adlandığını göstərmişdir[12]. A.S.Sumbatzadə də eyni fikirləri səsləndirərək sözün həm "ağ", həm də "dağlıq" mənalarının verə biləcəyini söyləyir[13]. T.Məmmədovun fikrinə görə isə "alban" sözü "al-ban" olaraq iki komponentdən təşkil olunmuşdur və "al-mən", yəni "qəşəngəm", "gözələm" mənalarını verməklə, "gözəl, qəşəng ölkə" deməkdir[14].

Həmçinin, "alban" etnoniminin "igid", "cəsur" mənasını verən, əski türkcədəki "alb-alp" sözündən əmələ gəldiyi barədə də fikirlər vardır[15]. Tədqiqatçılar hesab edirlər ki, sözün sonundakı "-an" komponenti mənsubiyyət, yaxud cəm şəkilçisidir. Bu fikir antik müəlliflərin albanlara şamil etdiyi "igid", "cəsur", "döyüşkən" xüsusiyyətləri ilə üst-üstə düşür. Eyni zamanda, orta əsrlərdə Albaniya adının sinonimi kimi işlənən "Arran" ifadəsi də "igid", "cəsur" mənalarını ifadə edən "ar-ər" və yenə də "-an" hissəciyindən yaranmışdır ki, bu da Albaniya ilə eyni mənanı verir.

---

[10] Василий Латышев, **Известия древних писателей греческих и латинских о Скифии и Кавказе**, Т. II, латинские писатели, вып. I. Санкт-Петербург тип. Императорской Академии Наук, 1904, s.187.

[11] Qəzənfər Kazımov. **Azərbaycan dilinin tarixi. Ən qədim dövrlərdən XIII əsrə qədər**, Bakı, Təhsil, 2003, s. 353.

[12] Камилла Тревер, **Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. - VII в. н.э.),** Москва-Ленинград, изд-во АН СССР, 1959, с. 64

[13] Алисохбат Сумбатзаде, **Азербайджанцы – этногенез и формирование народа**, Баку, Элм,1990, s. 64.

[14] Tofiq Məmmədov, **Qafqaz Albaniyası ilk orta əsrlərdə**, Bakı, Təhsil, 2006, s. 54.

[15] Kazımov, **a.g.ə.**, s. 354

Dağıstan tədqiqatçılarının Albaniya ilə bağlı araşdırmalarında Alban etnoniminin "Alpan" teonimindən yarandığı, ləzgidilli xalqların dillərində şimşək mənasını verən eyni termini istifadə etməsi ilə bağlı məlumatlar var[16].

Bu məsələdə maraqlı məqamlardan birini də Albaniya toponiminin sonrakı dövrlərdə tamamən yoxa çıxaraq istifadə olunmaması, daha çox Arran terminindən istifadə olunmasıdır. Pəhləvi mənbələrində ərazi Aran, ərəb mənbələrində isə Ər-Ran[17] kimi xatırlanmışdır. Gürcü mənbələrində isə əraziyə Ran, Rani[18] deyilmişdir.

Bütün bunlar Albaniya ərazisinin həqiqətən Albaniya adlandığı, yoxsa antik müəlliflər tərəfindən ərazinin bu şəkildə adlandırılması barədə sual yaradır.

## Ərazi və sərhəd problemi

Albaniya tarixinin ən aktual və mübahisə doğuran mövzularından biri ərazi və sərhəd məsələsidir. Albaniya dövlətinin yaranmasından süqutuna qədər ərazisi bir neçə dəfə dəyişikliyə uğramış, artmış, azalmışdır. Əsas qəbul olunan fikir Albaniyanın Kiçik Qafqaz dağları ilə Araz çayı arasında yerləşməsi olsa da, istər antik müəlliflər tərəfindən verilən məlumatlarda, istərsə də dövrlə bağlı tədqiqat əsərlərində fərqli fikirlərə də rast gəlinir. Albaniyanın şərq və şimal sərhədləri barədə demək olar ki, heç bir mübahisə yoxdur. Lakin Albaniyanın cənub və qərb sərhədləri məsələsi ən çox mübahisə doğuran predmetlərdən biri olmuşdur. Hətta demək olar ki, alban etnosunun etnik kimliyi və Albaniya dövlətinin sərhədləri mövzuları Albaniya tarixşünaslığının ən aktual məsələləridir. Sərhədlərin dəqiq konturlarını müəyyən etmək əlbəttə ki, çox çətindir. Çətinliyin ilk səbəbi mənbənin azlığı, həmçinin müxtəlif mənbələrdə ziddiyyətli fikirlərin olmasıdır. Albaniyanın sərhədlərinin müəyyən edilməsi tarixi hadisə olmaqdan çıxaraq siyasi motivlər daşımağa başladığı andan etibarən bu çətinliklər daha da artmışdır. Bu məsələni daha yaxşı anlamaq üçün məsələyə dövrlər üzrə baxmaq daha məntiqli olacaqdır: 1. Albaniyanın antik dövrdəki sərhədləri, 2. Erkən orta əsrlərdə mövcud sərhədlər.

Antik dövrdə Albaniyanın sərhədləri şimalda Sarmatiyaya qədər uzanmış, şimal-şərq qurtaracağı Qafqazın ən uca zirvələrini (Keraun dağları) əhatə etmişdir. Bu haqda Strabon yazır: "*Əsl Qafqazın ən uca sıra dağları Albaniya və İberiya ilə, həmçinin kolxların və henioxların (əraziləri) ilə (həmsərhəd) olan ən cənub dağlardır"* (*Strabo.XI.15.6*) [19].

Onun məlumatlarına görə Albaniyanın şimalı ilə uzanan Qafqaz "vadilər üzərində ucalır və dənizə ən yaxın olanları Kerauniya (Κεραύνια) dağları adlanır" (*Strabo.*

---

[16] Джаббар Халилов, «О некоторых божествах древнелезгинского пантеона», **Тезисы первой научной конференции «История лезгин»**, Баку 1993, с. 25-26.

[17] Vladimir Minorsky, "Caucasica IV", **Bulletin of the School of Oriental and African Studies,** University of London, Vol. 15, No. 3, Oktober 1953, p. 504.

[18] **Картлис Цховреба (История Грузии),** главный редактор академик Роин Метревели, Тбилиси, Артануджи, 2008, s. 18.

[19] Strabon, **География в 17 книгах,** пер. А.Стратановского, Москва, Наука, 1964, s. 500.

*XI.4.1*)[20]. Kerauniya silsiləsi Albaniyanı Sarmatiyadan ayırmışdır. K.Əliyevin fikrinə görə Kerauniya dağları Samur çayından şimalda lokalizə edilməlidir ki, bu da Dərbənddən şimal ərazilərin də Albaniyanın sərhədlərinə daxil olmasını göstərir[21]. Oxşar məlumatları Klavdi Ptolemey də verir: "*...cənubda (Sarmatiya) Korak çayına qədər, oradan da (həm) Kolxida, həm İberiya, həm də Albaniya xəttinə qədər, Kaspi dənizinə qədər Evksin Pontunun bir hissəsi ilə həmsərhəddir...*" (*Ptol.V.8.7*)[22].

Erkən orta əsrlər dövründə isə şimal-şərq ucqarı olaraq Çola göstərilmişdir[23]. Çola Albaniyaya aid olan vilayət yox, ölkə kimi göstərilmişdir. Ola bilsin ki, bir neçə başqa vilayət kimi, Çolada da dini mərkəz olduğu üçün nisbətən müstəqil idarə olunmuşdur. Orta əsrlərin müəyyən mərhələlərində Albaniyanın şimal sərhədi bir qədər dəyişmiş, xəzər yürüşləri və bölgəyə yerləşməsi ilə əlaqədar olaraq albanların bu bölgədə nəzarəti qismən zəifləmişdir.

Albaniyanın şərqdə sərhədi təbii sərhəddir: Xəzər dənizi. Antik dövrdə bu sərhəd şimalda Sarmatiya sərhədlərindən başlayıb cənubda Kür çayının mənsəbinə qədər uzanaraq Kaspi dənizi sahilində qurtarırdı. Klavdi Ptolemey bu barədə yazır:

> "*Albaniya şimalda Sarmatiyanın təsvir edilən hissəsi ilə, qərbdə göstərilən xətt boyu İberiya ilə, cənubda İberiya hüdudlarından Hirkan dənizinə, Kürün 79°40′- 44°30′ koordinatlarındakı mənsəbinə doğru... şərqdə isə Hirkan dənizinin buradan (Kür çayının mənsəbindən) Soana çayına kimi uzanan hissəsi ilə aşağıdakı təsvirə uyğun olaraq (həmsərhəddir)*" (*Ptol.V.11.1*)[24].

Bu mətndən göründüyü kimi, Albaniyanın cənub-şərq sərhədləri Kür çayının mənsəbinə qədər müəyyənləşdirilmişdir. Burada mübahisəli olan yeganə məqam antik periodda cənub-şərq qurtaracağıdır. Çünki antik dövr mənbələrində bəzən Kürün mənsəbi cənub-şərq qurtaracağı olaraq göstərilir, bəzənsə Kaspiana vilayəti bu sərhədi təşkil edir. Həmçinin, bəzən bu vilayət Albaniyanın, bəzən Atropatenanın tərkibində göstərilmişdir. Məsələn, Strabon yazır: "*Kaspiana vilayəti də albanlara məxsus idi...*" (*Strabo. XI.4.5*)[25].

Lakin K.Ptolemey bu vilayəti Midiyanın (yəqin ki, Kiçik Midiya-Atropatena nəzərdə tutulur) bir hissəsi kimi göstərmişdir. (Ptol. VI, 2,5) F.Məmmədova hesab edir ki, Kaspianavilayəti e.ə. II əsrə qədər Albaniyanın tərkibində olmuş, daha sonra erməni çarı I Artaşes tərəfindən işğal olunaraq e.ə. 69-cu il II Tiqranın Romaya məğlub olmasına qədər Armeniyanın tərkibində olmuşdur[26]. Lakin, yenə də onun fikrinə görə, bu uzun müddət davam etməmişdir. F.Məmmədova hesab edir ki, Klavdi Ptolemeyin bu ərazini Midiyanın

---

[20] Strabon, **a.g.ə.,** s. 475.
[21] Kamal Əliyev, Fəridə Əliyeva, **Azərbaycan antik dövrdə**, Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1997, s.13.
[22] Claudius Ptolemy, **The Geography**, тranslated by.Stevenson E.L. New York, Public Library, 1991, s.121.
[23] Фарида Мамедова, **Кавказкая Албания и албаны**, Баку, ЦИКА, 2005, s. 248.
[24] **Azərbaycan tarixi üzrə qaynaqlar**, Bakı, Çıraq, 2007, s. 23.
[25] Strabon, **a.g.ə.,** s. 475-476.
[26] **Историческая география Азербайджана**, Баку, Элм, 1987, с. 8.

tərkibində göstərməsi vilayətin Armeniyanın tərkibindən çıxmasını ifadə edir[27]. Müəllif hesab edir ki, eranın IV əsrindən etibarən Paytakaran adı altında bu vilayət Albaniyanın əsas inzibati vahidlərindən biri olaraq qalmış və bir daha Albaniyanın tərkibindən çıxmamışdır.

Albaniyanın cənub sərhədləri məsələsi Albaniya tarixinin ən mübahisəli mövzularından biridir. Antik müəlliflər bu barədə bir-birinə zidd müxtəlif məlumatlar qoyub getmişlər. Onlardan bir qismi Albaniyanın cənub sərhədi olaraq Kür çayını göstərmişlər, eyni zamanda Kürün Albaniyanın içərisindən keçdiyini, bütün Kürətrafı düzənliklərdə albanların yaşadığını göstərən antik mənbələr var. Məhz bu səbəblərdən Albaniyanın cənub sərhədləri barədə ziddiyyətli məqamlar ortaya çıxmışdır. Strabon yazırdı:

> "*...İberiyanın mərkəzindəki düzənliklərdən çaylar axır. Onlardan ən böyüyü Kürdür. O, başlanğıcını Armeniyadan götürür və iti axarla yuxarıda xatırladılan düzənliyə çıxaraq, Qafqazdan axıb gələn Araq (çayını) və başqa qolları qəbul edir, sonra isə dar vadidən keçərək Albaniyaya axır; çay bu vadi ilə Armeniya arasında otlaqlarla çox zəngin olan düzənliklərdən əzəmətlə axaraq, daha çox çayları, o cümlədən Alazan, Sandoban, Roytak və Xanı (hamısı gəmiçiliyə yararlıdır) qəbul edir və nəhayət, Kaspi dənizinə tökülür*" *(Strabo. XI. 3.2)*[28].

Mətndən aydın olduğu kimi, Kürün keçdiyi dar vadi ilə Armeniya arasında hansısa düzənliklər də mövcud olub. Yəni, Kür sərhədi təşkil etmirdi. Armeniya ilə sərhədə qədər Kürdən sonra düzənlik sahə mövcud idi. Lakin, antik müəlliflərdən Böyük Plini və Ptolemeyin əsərlərində Kür bəzən Albaniyanın cənub-şərq, cənub sərhədi olaraq göstərilmişdir. Bu hansısa müvəqqəti işğalla bağlı da ola bilərdi, yaxud bölgəni yaxından tanımamaqla. Danışılan dövrdə mənbələrdə öz əksini tapmış hər hansı bir işğal faktı olmamışdır. Strabon, Böyük Plini, Ptolemey da daxil olmaqla antik müəlliflərin bir çoxu bu əraziləri yaxşı tanımırdılar. Orta əsr mənbələrində isə Kürün hər iki sahili Albaniya ərazisi olaraq göstərilmişdir. Alban tarixçisi M.Kalankatlı qeyd edir ki, "Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıq gətirib, sularını Xəzər dənizinə tökür" (*M.Kal., I.,4*)[29]. Göründüyü kimi, müəllif Kür Albaniyanın cənubundan keçir demir, "düz ortasından axır" söyləyir. Başqa bir yerdə oxuyuruq: "*...Aran Araz çayından başlayaraq Hunan qalasınadək uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır*"(*M.Kal., I, 5*)[30].

---

[27] **Историческая география Азербайджана...**, с.8.
[28] Strabon, **a.g.ə.,** s. 474.
[29] Musa Kalankatuklu, **a.g.ə.,** s. 16.
[30] Musa Kalankatuklu, **a.g.ə.,** s. 17

Qeyd etmək lazımdır ki, M.Xorenli də eyni faktı səsləndirmişdir: Alban hökmdarına "Erasx çayından başlamış, Xnarakert adlanan qalayadək olan alban düzü və onun dağlıq hissəsi miras qaldı..."[31]. Bu faktlar göstərir ki, Kür çayının hər iki sahili albanların tarixi ərazilərinə daxil olmuşlar. Lakin, ola bilsin ki, siyasi hadisələrin gedişi ilə bağlı bəzən bu ərazilər Albaniyanın siyasi sərhədləri çərçivəsindən müvəqqəti olaraq çıxmışdır, amma işğalla bağlı heç bir tarixi qeyd yoxdur. A.S.Balaxvantsevin fikrinə görə hər hansı işğal prosesi olmuşdusa da, vahid Alban dövləti formalaşana qədər o itirdiyi əraziləri geri almışdır, əks halda heç bir aktiv xarici siyasətdən söz açmaq olmazdı[32]. Ərazi olaraq isə, burada daim alban tayfaları yaşamışlar. Kür çayının hər iki sahilində eyni etnosun yaşadığı arxeoloji cəhətdən də təsdiqlənir[33].

Albaniyanın qərb sərhədləri məsələsi də cənub sərhədləri kimi mürəkkəbdir. Antik dövrdə Albaniyanın qərbdəki sərhədləri və eyni zamanda sərhədi təşkil edən vilayətləri, həmçinin qərb qonşuları orta əsrlərdən fərqlənirdi. Antik dövrdə Albaniyanın qərb qonşusu iberlər, qərb sərhədlərinin ən ucqar nöqtəsi şimal-qərbdə Dəryal keçidi ətrafı ərazilər, qərb vilayətləri isə Kambisena, Otena, Sakasena olmuşdur. Tədqiqatçıların bir qrupu Alazan (Qanıx) çayını, bir qrupu isə, İori (Qabırrı) çayını iber-alban sərhədi olaraq göstərir[34]. Lakin, bölgənin arxeologiyasında, həmçinin əraziyə aid antropoloji nümunələrdə İori çayından qərbdəki müəyyən ərazilər, hətta Araqvi çayının yuxarı axarlarına qədər olan ərazilərin, Şərqi Ermənistanın bəzi ərazilərinin etnik albanların yaşadığı areala daxil olmasını göstərən dəlillər vardır. Strabon Kambisena vilayətini sərhəd zona olaraq göstərmişdir. Bu vilayətin adına antik mənbələrdə Kambisena, orta əsr mənbələrində Kambeçan (erməni mənbələrində), Kambeçenovani, Kambeçovani (gürcü mənbələrində) şəklində rast gəlinir[35]. Strabon yazırdı: "*İberiyadan Albaniyaya giriş susuz və daşlı Kambisena vilayətindən keçir*" *(Strabo. XI.4.5)*[36].

Vilayətin ərazisinə şimal-qərbdən Alazan və İori çaylarının orta axarları, cənubda Kür çayına qədər olan torpaqlar, şərqdə isə Alazan, İori və Kür çaylarının qovuşduğu yerə qədər olan torpaqlar daxil idi. Dağlıq Şirak yaylasının bir hissəsi də bura aid idi. Kambisena vilayətinin qərb hüdudları isə Kür çayına qədər gedib çıxırdı. Lakin sərhəd həqiqətənmi Kambisenadan keçirdi? Yaxud, Albaniya tarixinin hansı mərhələsində sərhəd Kambisenadan keçə bilərdi? Albaniya dövlətinin ilkin dövründə sərhədin

---

[31]**Армянская География VII века** (приписывавшаяся Моисею Хоренскому), пер. К.П.Патканова, Типография Императорской Академии Наук, В. О., 9 л., № 12, Санкт-Петербург 1877, с. 332.

[32] Арчил Балахванцев, «Границы Кавказской Албании (IV в. до н.э.-III в. н.э.)», **Восток (Oriens),** №5, 2021, с. 38.

[33] Алекпер Алекперов, **Терракоты древнего Азербайджана**, Баку, Элм, 1994,134 s.

[34] Trever, **a.g.ə.,** s. 113; Петр Услар, «Начало христианства в Закавказье и Кавказ», **Сборник сведений о Кавказских горцах,** вып. II, Тифлис 1869, s. 15; Серафим Юшков, «К вопросу о границах древней Албании», **Исторические записки**, №I, 1937, с.133; Александр Яновский, «О древней Кавказской Албании», **Журнал министерства народного просвещения (ЖМНП), ч.52**, **1846,** s. 52.

[35] Гияседдин Гейбуллаев, **К этногенезу азербайджанцев**, Баку, Элм, 1991, s. 159.

[36] Strabon, **a.g.ə.,** s. 476.

Kambisena ilə məhdudlaşdığı inandırıcı deyil. Çünki, mənbələrdə Dəryal keçidinə qədər yaşayan alban tayfalarından danışılır. Məsələn, Böyük Plini yazırdı: "*...Albaniya sərhədlərindən başlayaraq dağların bütün sinəsi boyu vəhşi silv tayfaları, onlardan aşağıda lupenlər, sonra isə, didurlar və sodlar yaşayırdı. Onların arxasında çoxlarının səhvən Kaspi qapıları adlandırdığı Qafqaz qapıları yerləşir*" (*Plini. VI.26.30*)[37].

Antik müəllifin burada sadaladığı silv, lupen, sod tayfaları alban tayfalarının tərkibinə daxil idilər. Bunlardan lupenlərin adı ilə sonrakı dövrlərdə təxminən eyni əraziləri əhatə edən Lpiniya vilayəti mövcud olmuşdur. Lpiniyanın Albaniyaya daxil olan əyalətlərdən biri olması fikri hələ çarlıq Rusiyası dövründən mövcud olmuş, həmçinin toponimin komponentini təşkil edən "lpin-lbin" hissəciyinin Albaniya termini ilə də uyğunlaşmasına diqqət çəkilmişdir[38]. Sonralar S.Yuşkov da bu etimologiya ilə razılaşır, lakin lokalizə məsələsində Lpiniyanı Albaniyanın şimal-şərqinə də şərqinə aparıb çıxarır[39]. Maraqlısı budur ki, solsahil Kaxetiya ərazisində Lopota çayı, onun sahilində isə Lapanebi kəndi indi də qalmaqdadır. Həmçinin, Böyük Qafqazın aşağı ətəklərində, Alazan çayının yuxarı axarlarında Alvani, Şilda, Aranta kəndləri var ki, bunlar da "alv-alb", "aran" konponentlərini özündə daşıyırlar. Ehtimal ki, ərəb mənbələrində ifadə olunan "Lbin səddi", "Bab Liban şah" keçidi məhz bu vilayətin ərazisində yerləşirdi[40]. Strabon İberiyadan Albaniyaya olan keçidlər barədə danışarkən qayalar arasındakı cığırdan keçmək, sonra isə Alazan çayının sahilindəki bataqlıqları keçmək lazım olduğunu qeyd etmişdir (*Strabo.XI.3.5*)[41]. Bu təsvir gürcü mənbələrində əks olunan Lpiniya ərazisindən keçən "Ləkit yoluna" da uyğun gəlir[42]. Antik müəlliflərin Sarmat qapıları, Alban qapıları, Qafqaz qapıları kimi qeyd etdiyi Dəryal keçidi isə Lpiniyanın arxasında yerləşirdi. Yenə də yuxarıda Böyük Plinidən gətirdiyimiz iqtibasa qayıdaq: "*...Albaniya sərhədlərindən başla-yaraq dağların bütün sinəsi boyu vəhşi silv tayfaları, onlardan aşağıda lupenlər, sonra isə, didurlar və sodlar yaşayırdı. Onların arxasında çoxlarının səhvən Kaspi qapıları adlandırdığı Qafqaz qapıları yerləşir*" *(Plini. VI.26.30)*[43].

Deməli, bu sərhəd təxminən Dəryal keçidi ətrafından keçmişdir.

Albaniyanın əsas inzibati vahidlərindən olan, Mehranilərin irsi mülkü Girdman əyalətinin (F.Məmmədovaya görə də Uti vilayətinə aid idi) sərhəd ərazidə, Kambisenanın cənubunda yerləşməsi ilə bağlı fikirlər vardır. Qrabar dilində olan mənbələrdə Qardman,

---

[37] Vasiliy Latışev, **a.g.ə.,** s. 182.

38 Иван Шопен, **Новые заметки на древние истории Кавказа и его обитателей**, Санкт-Петербург, тип. Н. Тиблена и К° (Н.Неклюдова), 1866, с. 373.

39 Yuşkov, **a.g.ə**, s. 138-139.

[40] Sevda Süleymanova, "Albaniyanın şimal-qərb sərhəd bölgəsi Lpiniya-Ereti", **AMEA Tarix İnstitutunun Əsərləri,** c. XX, 2007, s.56; Şimal-qərbi Azərbaycan tarixi, red. İ.S.Bağırova, Bakı, Şərq-Qərb, 2012, s.16

[41] Strabon, **a.g.ə.,** s. 474.

[42] **Şimal-qərbi Azərbaycan tarixi**..., s. 21.

[43] Vasiliy Latışev, **a.g.ə.,** s. 182.

gürcü mənbələrində Qardabani kimi qeyd olunmuş bu ərazini S.T.Yeremyan Qazax rayonu ərazisində[44], Z.M.Bünyadov Gədəbəy ərazisində[45], F.Məmmədova isə Albaniyanın şimal-qərbində, Kürün sol sahilində, erməni və gürcülərin qonşuluğunda lokalizə edir[46]. Lakin qeyd etmək lazımdır ki, tarixşünaslığımızda Girdmanı Ağsu çayı hövzəsində, Girdmançay ətrafında lokalizə edənlər də vardır (Q.Cəbiyev, İ.Əliyev, F.Osmanov)[47].

Albaniyanın qərbdəki digər sərhəd nöqtələri barədə də mübahisəli fikirlər var. Ümumiyyətlə tarixşünaslığımızda sovet dövründən bu tərəfə oturaqlaşmış mülahizələrdən biri Albaniyanı sağsahil və solsahil Albaniyası şəklində bölərək öyrənməkdir və bu mülahizəyə istinad etsək, haqqında danışacağımız ərazilər sağsahil Albaniyaya düşür. Antik dövrdə bunlardan mənbələrdə adı keçən və bizə məlum olanlar Sakasena (Şakaşena), Otena (Uti) vilayətləri olmuşdur. Bu vilayətlər Albaniyanın Kür çayından cənubda yerləşən sağsahil ərazilərinin bir hissəsini təşkil edirdi. Sakasena vilayəti Kambisenanın cənubunda, müasir Gəncə-Qarabağ ərazisində yerləşirdi. Vilayətin adı əraziyə hələ e.ə. VII əsrdə köç etmiş sak tayfalarının adı ilə birbaşa əlaqəlidir. Bu mənada Sakasena toponimini yerli hesab etmək olar. Bu toponimi ilk dəfə Strabon işlətmişdir- Sakasena şəklində. Ondan sonrakı müəlliflərdə isə, məsələn, Plinidə Sakasan, Arrianda isə Sakasin şəklində ifadə olunmuşdur (*Plin. VI.29*; *Arr. Anab. III.8.4, III.11.1*)[48]. Orta əsr mənbələrində isə toponimin qeyd olunma şəkli Şakaşendir (*M.Kal.II.2*)[49]. Q.Qeybullayev belə hesab edir ki, bu toponim saka (şaka) etnonimindən və qədim türk dillərində bir qayda olaraq tayfa adlarına əlavə edilən və mənsubiyyət bildirən çin (şin, sin) sözündən ibarətdir. Deməli, Strabon Sakasin, yaxud Sakasen əyalət adını “Sakasen” kimi yazmış (deməli, “sin” sözünü “sen” kimi yazmış) və sonuna yunan dilində, ümumiyyətlə, Asiya yer adlarına əlavə edilən “a” səsini qoşmuşdur.

Məlumat üçün qeyd edək ki, Albaniyanın bu vilayəti 371-ci ildə Sasanilərlə Roma arasında baş verən Dzirav döyüşünün nəticəsində digər alban vilayətləri olan Uti, Girdman, Koltla bərabər itirildi. Albaniya bu döyüşdə Sasani dövlətinin müttəfiqi olaraq çıxış etdiyindən və döyüşün nəticəsi uğursuz olduğundan bu ərazilər qısa müddətə Albaniyanın idarəçiliyindən çıxdı. Erməni tarixçilərinin iddialarının kökündə məhz bu hadisə durur. Albaniyanın qərb sərhədlərinə daxil olan Sakasena, Uti, Girdman, Kolt vilayətləri 387-ci ilə qədər erməni çarlığının ixtiyarında oldu.

---

[44] Сурен Еремян, «Политическая история Албании III-V вв.», **Очерки истории СССР (III–IX вв.),** Изд-во Академии наук СССР, Москва 1958, с. 319.

[45] Зия Буниятов, «Albanica, III. О локализации области Гардман», **Изв. АН Аз. ССР, сер. общ. наук,** №4, 1964, s.87-91.

[46] Fəridə Mamedova, **a.g.ə., s**. 260.

[47] Играр Алиев, Фазил Османов, «Бассейн рек Геокчай - Гирдыманчай - Ахсучай в античное время», **Сов. археология,** № 1, 1975; Qafar Cəbiyev, **Girdman tarixi**, Bakı, Turxan, 2020.

[48] Arrian, **a.g.ə.,** s. 155, 161; Latışev, **a.g.ə.,** s. 182.

[49] Musa Kalankatuklu, a**.g.ə.,** s. 76-77; **Армянская География VII века...** c. 51.

Antik dövrdə qərbdəki digər böyük vilayət Otena vilayəti idi. Şimaldan Sakasena, cənubdan Araksena ilə sərhəd olan bu ərazinin utilərin adı ilə Otena (orta əsrlərdən başlayaraq Uti, Utik şəklində) adlanması barədə mülahizələr mövcuddur. Strabon Uti vilayətinin ərazisində iki antik alban şəhərinin adlarını çəkmişdir. Qədim müəllif yazırdı : "…deyirlər… aynianlar Utiyada hasarlı şəhər salmışlar, o şəhərin adı Aynianadır, deyirlər burada yunan silahı, mis qablar və qəbirlər göstərirlər; burada Anariaka şəhəri də vardır, o şəhərdə, deyirlər, yatanlara qeybdən xəbər verilən məbəd var" (*Strabo. XI.7.1*)[50]. Strabonun verdiyi məlumata görə Ayniana şəhəri hasarlarla möhkəmlən-dirilmişdi və hansısa qablar hazırlayan ustaları ilə məşhur idi. Bundan əlavə, şəhərdə guya hansısa sərdabələr vardır və bunlar əcnəbilərin diqqətini cəlb edirdi[51]. K.Treverin fikrinə görə aynianlar Fessaliya tayfalarına aid olmuşlar və Strabona əsaslanmalı olsaq, Uti vilayətində olan Ayniana şəhərində yunan kolonistləri məskunlaşmış olurlar[52]. Z.İ.Yampolski "Qədim Azərbaycan şəhəri Yunanın öyrənilməsinə dair" adlı məqaləsində bu şəhəri IX-XI əsr ərəb coğrafiyaşünaslarının (İbn Xordadbeh, İstəxri, Müqəd-dəsi və b) təsvir etdiyi Yunan şəhəri ilə eyniləşdirərək hesab edir ki, şəhərin qalıqlarını Qarabağ düzündə axtarmaq lazımdır[53]. Arxeoloqlar XX əsrin ortalarından başlayaraq müxtəlif ərazilərdə bu antik alban şəhərinin izlərini axtarmışlar. Ən son tədqiqatlar isə, Ağcabədi rayonu ərazisində Qalatəpə yaşayış məskənin bu qədim şəhərin qalıqları ola bilmə ehtimalını göstərir[54]. Anariaka şəhərinin adını isə daha çox eyni adlı tayfa ilə bağlayırlar. Lakin bu adın "Araniak" (Aranın nəslindən olanlar) etnonimindən yarana biləcəyini düşünənlər də var.

Erkən orta əsrlər dövründə isə bu vilayət Uti, Utik şəklində mənbələrdə qeyd olunmuşdur, lakin yəqin ki, vilayətin konturları bir qədər dəyişmişdir. Çünki, bu dövrdə Albaniyanın bu qərb əyalətinin əhəmiyyəti daha da artsa da, hətta paytaxt şəhəri də məhz Uti vilayətinin ərazisində yerləşsə də, Albaniyanın birbaşa sərhədini təşkil etmirdi. Orta əsrlər dövründə Albaniya ərazisində mövcud olan ən əhəmiyyətli və böyük yepis-kopluqlardan ikisi Uti ərazisində yerləşirdi.

Orta əsrlərdə qərb sərhədini təşkil edən ərazilərdən sonuncusu Sünik (Sisakan) olmuşdur. Antik müəlliflərin əsərlərində bu vilayət barədə heç bir məlumat yoxdur. Ən erkən məlumata Yevsevi və Prokopididə, Sisakan şəklində rast gəlirik[55]. Daha sonra Zaxari Ritorda yenə də Sisakan şəklində ayrıca ölkə kimi rast gəlinir. Erməni

---

[50] Strabon, **a.g.ə.,** s. 481.
[51] Əliyev, Əliyeva, **a.g.ə.,** s.143.
[52] Trever, **a.g.ə.,** s.143.
[53] Зелик Ямпольский, "К изучении древнеазербайджанского города Юнана", **Музей Истории Аз.ССР,** №67, 1959, с.366-367.
[54] Təvəkkül Əliyev, "Qalatəpə yaşayış məskənində Qafqaz Albaniyasının Enian şəhərinin izləri", **Azerbaijan Archeology**, №1, 2009, s. 143.
[55] Прокопий Кесарийский, **История войн римлян с персами, вандалами и готами,** перевод С. Дестуниса, Санкт-Петербург 1876-1880, с.180.

mənbələrində Sünik şəklində, M.Kalankatlıda isə hər iki formada istifadə olunmuşdur. Siyasi cəhətdən müəyyən müstəqilliyi olan inzibati vahid olmuşdur. F.Məmmədova hesab edir ki, alban tayfalarının ilk birləşdiyi vaxtlarda Sünik ora daxil olmamışdır[56]. Sonrakı dövrlərdə də Albaniyaya aid olsa da, nisbətən müstəqil olmuşdur. Məsələn, I Şapurun Kəbəyi-Zərdüştdəki kitabəsində Albaniya, İberiya, Atropatena, Armeniya ilə yanaşı Sünikin də adı çəkilmişdir. M.Kalankatlıya görə Cavanşirin dövründə Sünik vilayəti ona hədiyyə olaraq verilmiş, Albaniyanın süqutuna qədər onun tərkibində olmuşdur.

Bütün bu sadalananları ümumiləşdirmiş olsaq, Albaniyanın sərhədləri barədə Azərbaycan tarixşünaslığındakı əsas fikrə görə sərhədlər müasir Azərbaycan Respublikasının ərazilərini bütövlükdə, Gürcüstan və Ermənistan respublikalarının bəzi şərq ərazilərini, Dağıstanın cənubunu əhatə etmişdir.

### Etnik mənsubiyyət problemi

“Alban” etnonimi antik müəlliflər tərəfindən həm ümumi mənada – Albaniya ərazisindəki müxtəlif tayfaları ifadə etmək üçün, həm də alban adlı tayfanın özünü ifadə etmək üçün işlədilmişdir. Antik müəlliflərdən Strabonun yazdığına görə onlar “26 dildə (ləhcədə) danışır və bir-biri ilə çətin dil tapırlar” (*Strabo.XI.4.6*)[57]. Buradakı 26 rəqəmi 26 müxtəlif etnosu təmsil edə biləcəyi kimi, 26 müxtəlif ləhcəni də ifadə etmiş ola bilər. Buna görə də, 26 rəqəminə şərti yanaşmalıyıq. Lakin, bu da bir həqiqətdir ki, Albaniya ərazisində etnik cəhətdən rəngarənglik olmuşdur. Burada alban etnosundan əlavə kadusilər, kaspilər, gellər, lupenlər (orta əsr mənbələrində lpinlər), silvlər (çilblər), sovdlar (savdeylər), utilər, qarqarlar, sakasenlər yaşamışlar. Təbii ki, bu etnosların hamısının etnik mənsubiyyəti eyni ola bilməzdi. İndiki Azərbaycan ərazisində də etnik rəngarənglik özünü qoruyub saxlamaqdadır. “Alban” ümumiləşdirilmiş adı altında birləşən bu tayfaların içərisində albanlar daha böyük, yaxud hegemon olduğu üçün bütöv xalq və dövlət onların adı ilə adlanmış ola bilərdi.

Alban tayfalarının etnik mənşəyi məsələsinə gəldikdə isə, antik mənbələrdə bu barədə birbaşa məlumat yoxdur. Antik müəlliflərdə etnik mənsubiyyəti göstərmək ənənəsi demək olar ki, yox idi. Alban ümumiləşmiş adı altında birləşən tayfalardan bəziləri, məsələn utilər, gellər barədə skif xalqına məxsus xalq qeydi məlumdur: “...boğazın (*Xəzər dənizindəki hansısa boğazdan danışılır – E.B.*) sağından əvvəldən sonadək skif xalqına aid olan udinlər yaşayırlar” (*Plini. VI.38*)[58]. Ümumiyyətlə, etnik termin olaraq udin terminini məhz Böyük Plini işlətmişdir. Alban etnosunun özünü ifadə edən etnik göstərici isə antik müəlliflərin əsərlərində yoxdur. Heç orta əsr mənbələrində də etnik mənsubiyyət göstərilmir. Buna görə də, albanşünaslıqda bu məsələ ilə bağlı bir neçə konsepsiya yaranmış və hazırda da mövcuddur. Albanların (yaxud alban tayfalarına daxil olan

[56] Mamedova, **a.g.ə.,** s.263.
[57] Strabon, **a.g.ə.,** s. 476.
[58] Vasiliy Latışev, **a.g.ə.,** s.184.

konkret bir etnosu) dil mənsubiyyətini əsas götürərək onları Qafqaz dili, yaxud Qafqaz mənşəli və türkdilli, yaxud türk mənşəli hesab edən nəzəriyyələr formalaşmışdır. Q.A.Melikişvili, K.V.Trever, İ.Q.Əliyev, F.Məmmədova və digərləri albanları Qafqazdilli hesab edirlər[59]. Bu müəlliflərin ümumi fikrinə görə albanlar İber-Qafqaz dil ailəsinə daxil olan dillərdən birində danışmışlar.

Albanların türkmənşəli olması məsələsi son illər milli albanşünaslıqda daha geniş yayılan fikirlərdən biridir. Bütövlükdə Albaniya ərazisində yaşayan tayfalar içərisində türkdilli olmayanlar təbii ki, mövcud idi. Lakin söhbət konkret alban etnosundan gedirsə, onların türkdilli, türk mənşəli olması məsələsi də gözardı edilməməlidir. Çünki, türkdilli tayfa olaraq alban tayfası hal-hazırda da qazaxlar, qırğızlar, özbəklər, qaraqalpaqlar, türkmənlər arasında mövcuddur. S.İ.Bruk "Dünya əhalisi" adlı əsərində Çin Respublikasının ərazisində yaşayan türkdilli qazaxlar arasında albanlar adlanan əhali qrupunun da adını qeyd etmişdir ki hazırda onlar qazax dilində danışırlar[60]. Kür-Araz ovalığında yaşayan əhali orta əsr mənbələrində ümumi ad altında albanlar şəklində qeyd olunub və ərazidəki makrotoponimlər əsasən türk dillərində öz izahını tapır. Bu alban şəxs adlarına da aiddir ki, bunlar da türk dilində izah oluna bilir.

Albanların etnik və dil mənsubiyyəti barədə bu iki nəzəriyyə hələ də aktuallığını qoruyub saxlayan və daha ciddi araşdırmalar tələb edən məsələlərdəndir.

**Alban yazısı problemi**

Albanların yazıya malik olmaları barədə III əsr müəlliflərindən başlayaraq orta əsr mənbələri məlumat vermişdir. Bunlardan Portlu İppolit (III əsr) yazırdı ki, "...öz dili olan xalqlar aşağıdakılardır: ...maqlar, kaspilər, albanlar ...ermənilər, iberlər" (*İpp.Chron.25*)[61]. K.Əliyevin fikrinə görə Portlu İppolitin özündən əvvəlki müəlliflərə istinad etdiyini nəzərə alaraq söyləmək olar ki, artıq I-II əsrlərdə albanların öz yazıları formalaşmışdır[62]. Lakin, Mingəçevir ərazisində arxeoloji qazıntılar zamanı alban əlifbası ilə yazılmış mətn tapılana qədər uzun illər bu əlifba müəmma olaraq qaldı. Antik albanların bu əlifbadan, yoxsa, bu əlifbanın ilkin variantından istifadə etmələri məlum olmasa da, hələlik antik dövrə aid alban dilində mətn tapılmamışdır. Tapılan alban epiqrafik nümunələri Albaniyanın xristianlıq dövrünü əhatə edir. Albaniyanın antik dövrə aid epiqrafik nümunələr isə yunan və latın dillərində yazılmışdır. Bunu dövrün bir sıra dövlətlərində yayılan ellinizmin təsiri ilə də bağlamaq olar. Həmçinin, qeyd etmək lazımdır ki, albanlar uzun

---

59 Георгий Меликишвили, **К истории древней Грузии,** Тбилиси, изд-во АН Груз.ССР, 1959, s. 124; Trever, **a.g.ə.,** s. 306-315; Играр Алиев, **История Мидии**, Баку, изд. АН Азерб. ССР, 1960, с. 67.

60 Elxan Nuriyev, **Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponimiyası**, Bakı, Elm, 1985, s. 51.

61 Василий Латышев, **Известия древних писателей греческих и латинских о Скифии и Кавказе:** в 2-х, т.I, Греческие писатели, вып. I. Санкт-Петербург, тип. Императорской Академии Наук, 1893, с. 649.

62 Камал Алиев, «Эпиграфика Кавказской Албании: Парадоксы и действительность», **Азербайджан и азербайджанцы**, 2002, с. 21.

müddət Arşaki sülalələrindən olan hökmdarlar tərəfindən idarə olunduğu üçün bu periodda hansı yazıdan istifadə olunduğu da mübahisəlidir. İndi tədqiqatçıların əsas tədqiqat obyekti olan Sinay palimplestlərinin də tərtib olunduğu 52 işarədən ibarət olan əlifba albanların gündəlik istifadə etdiyi yazı forması olmuş, yoxsa kilsə dili olmuşdur? Bu sualı yaradan səbəblərdən ən əsası indiyə qədər aşkar olunan və oxunan yazıların ancaq dini məzmunlu olmasıdır. Bizə məlum olan xristian dövrünə aid alban əlifbası əlifbanın Mesrop Maştos tərəfindən yenilənmiş variantıdır. M.Kalankatlıya görə M.Maştots bu əlifbanı tərtib etməmiş, mövcud əlifbanı yeniləmişdir[63]. Nəzərə almaq lazımdır ki, Mesropun Albaniyaya gəlməsinin səbəbi alban katolikosu Qriqorisin ölümündən sonra bölgənin bütpərəstliyə qayıtması və buna görə də Mesropun öz şagirdləri ilə başladığı missionerlik fəaliyyəti idi[64]. Onun əlifba yaratmaq kimi bir niyyəti olmamış, ola bilsin ki, ibadət dilinin asanlaşdırılması ya mövcud əlifbanı uyğunlaşdırmış, yaxud da xristian icmasının dilinə uyğun bir əlifba formalaşdırmışdır.

İndiyə qədər üzərində alban əlifbası ilə yazılmış mətn olan bir neçə epiqrafik nümunə tapılmışdır. Bunlar üzərində müxtəlif həcmdə işarələr olan şamdanlar, saxsı parçaları və bunların içərisində ən əhəmiyyətlisi olan iri daş lövhədir. 1948-ci ildən indiyə qədər aşkar olunan epiqrafik nümunələrin sayı səkkizdir. Əsasən saxsı məmulatları üzərində olan yazılar aşkarlandığı vaxtdan albanlara aid abidələr olaraq qəbul olundu[65]. Bunların içərisində bişmiş gildən hazırlanmış, piramida formalı şamdan diqqət cəlb edir. Şamdanın üzərində əvvəllər 52-53 işarə olmuş, onlardan 49-u yaxşı qalmışdır. Yazı soldan sağa doğru yazılmışdır. Bundan əlavə 6 xırda ölçülü yazı nümunələri tapılmışdır ki, üzərində müxtəlif sayda alban yazı işarələri cızılmışdır. Lakin bu epiqrafik nümunələr içərisində ən əhəmiyyətli tapıntı 1948-ci ildə S.M.Qazıyev tərəfindən Mingəçevir ərazisində, V-VII əsrlərə aid olan xristian abidəsi içərisində aşkarlandı. Buna qədər alban əlifbası haqqında məlumatlar var idi, hətta 1937-ci ildə İ.V.Abuladze Üçkilsə əlyazmaları içərisində XV əsrə aid bir dərsliyin içərisində alban əlifbası da tapmışdı[66]. Lakin, alban əlifbası ilə yazılmış mətn tapılmadığı üçün bu əlifbanın mövcudluğunu şübhə altına alanlar da var idi. Nəhayət, Mingəçevir ərazisindəki qazıntılar zamanı üzərində 62 alban işarəsi olan yazılı lövhə V-VII əsrlərin Sudağılan adlanan şəhərgahdakı məbədin otaqlarından birində aşkar olundu. Bu, ən uzun və rabitəli yazılardan biridir, o, kapitelin karnizi üzrə uzanaraq, onu dörd tərəfdən əhatə edir. Bu tapıntı ilə alban əlifbasının mövcudluğuna heç bir şübhə yeri qalmadı. İlk dəfə abidəni oxumağa cəhd A.Q.Abramyan tərəfindən edildi[67]. O, abidəni udin dili əsasında oxumağa cəhd etsə də uğursuz alındı.

---

[63] Тофик Мамедов, «О писменности Кавказской Албании», **Доклады АН Азерб. ССР,** №7, том. XXIII, 1967, s. 102; Musa Kalankatuklu, **a.g.ə.,** s. 37.

[64] Musa Kalankatuklu, **a.g.ə.,** s. 35.

[65] Акакий Шанидзе, «Язык и письмо Кавказских албанцев», **XXV Международный конгресс востоковедов,** доклады делегации СССР, Москва, Восточная литература, 1960, s.17.

[66] Rəhim Vahidov, **Mingəçevir III-VIII əsrlərdə,** Bakı, Azərb. SSR EA-nın nəşri, 1961, s.137.

[67] Kamal Aliyev, **a.g.ə.,** s. 23.

Sonrakı tədqiqatçıların səyləri də ondan fərqlənmədi, çünki hamısı etimoloji metoddan istifadə edirdilər. Lakin buna baxmayaraq, son illərdə udin dili əsasında alban dilinin oxunması barədə cəhdlər daha da artmış, Avropada bir çox dilçi alim (V.Şults[68], J.Gippert[69]) bu barədə tədqiqatlar aparmışlar. Onların əsas tədqiqat obyekti Z.Aleksidzenin Sinayda aşkar etdiyi palimplestlərdir[70].

Həmçinin, son illərin tədqiqatlarında isə bu yazıların türk runi yazıları əsasında oxunmasına cəhdlər edilmişdir. Maraqlıdır ki, dünyaca məşhur norveçli səyyah və alim Tur Heyerdal Mingəçevirdən tapılan şamdanların digər türk bölgələrində, o cümlədən Orta Asiyada rastlanan şamdanların analoqu hesab etməklə yanaşı, həmin şamdanların üzərindəki yazıların türk-run yazıları olduğunu söyləmiş və Mingəçevir şamdanlarından başqa birinin üzərindəki yazının seçilməsi mümkün olan kəlmələrini belə oxumuşdur: sayqe (sayqı, hörmət), amınu (amin), bengü (əbədi), klazun (qılasan)[71].

Lakin qeyd etmək lazımdır ki, hazırda Azərbaycanda bu əlifba ilə ciddi məşğul olan tədqiqatçı yoxdur və alban dili üzərində araşdırmaları əsasən əcnəbilər aparır. Albaniya tarixi ilə daha çox biz məşğul olmalı olduğumuz halda, daha çox bizim tariximizin bir parçası olduğu halda, bu sahə ilə məşğul olan ciddi tədqiqatçılar nəsli yetişməmişdir. Bu məsələ həm də buna görə albanşünaslığın başlıca problemlərindən biri hesab oluna bilər.

***Nəticə***

Albaniya tarixinin göstərilən elmi-nəzəri problemləri bu ölkənin və bu ərazidə yaşamış etnosların tarixinin hələ də araşdırmaya açıq olan sahələrinin mövcud olduğunu göstərir. Albaniyanın istər siyasi tarixi, istər sərhəd problemi, istərsə də etnik və mədəni məsələləri ilə bağlı hələ də tədqiqat zərurəti olan elmi problemlər vardır. Azərbaycan ərazilərinin uzun müddət erməni işğalı altında qalması hadisəsi ən böyük zərbələrdən birini də albanşünaslığa vurmuşdur. Bu işğal səbəbi ilə Albaniyanın qərb ərazilərinin tarixi ilə bağlı bəzi arxeoloji nümunələri bəlkə də bir daha gün üzünə çıxara bilməyəcəyik, onlar dünyaya erməni xalqına aid olan artefaktlar olaraq sırandı. Amma

---

68 Wolfgang Schulze, Jost Gippert, Zaza Aleksidze, Jean-Pierre Mahe **(eds)**, **The Caucasian Albanian Palimpsets of Mount Sinai**, I vol, published by Turnhout, Brepols 2008; Wolfgang Schulze, "Caucasian Albanian and the Question of Language and Ethnicity", Sprachen, Völker und Phantome; **Sprach- und kulturwissenschaftliche Studien zur Etnizitat**, De Gruyter 2018, s.275-312; Wolfgang Schulze, "From Caucasian Albanian to Udi", **Iran and Caucasus,** 2015, s.149-177.

69 Jost Gippert, "The scripts of the Caucasian Albanians in the light of the Sinai palimpsest", Die Entstehung der kaukasischen Alphabete als kulturhistorisches Phänomen / The Creation of the Caucasian Alphabets as Phenomenon of Cultural History. Referate des Internationalen Symposiums (Wien, 1.-4. Dezember 2005), ed. by **Werner Seibt and Johannes Preiser-Kapeller**, Verlag der Österreichischen Akademie der Wissenschaften, Vienna 2011, s. 39-50; Jost Gippert, Wolfgang Schulze, "Some remarks on the Caucasian Albanian palimpsests", **Iran and the Caucasus,** 2007, s. 201-212.

70 Zaza Aleksidze, **Qafqaz albanları dilləndilər**, Tbilisi, Artanuci, 2003.

71 Bəxtiyar Tuncay, **Azərbaycan türklərinin islamaqədərki dili və ədəbiyyatı**, Bakı, Elm və Təhsil, 2015, 270.

ümid edək ki, böyük zəfər və Qarabağın azadlığa qovuşması albanşünaslıq sahəsində də yeniliklərə, Albaniya tarixinin sadalanan elmi problemlərinin həllinə kömək edə biləcək tapıntılara səbəb olacaq. Albaniyanın həqiqi tarixi bu problemlər göz önündə tutularaq yenidən yazılacaq.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Zaza Aleksidze, **Qafqaz albanları dilləndilər**, Tbilisi, Artanuci, 2003.
2. Arrian, **Alexander the Great**, transl. Chinnock E.J., vol.I. London, Hodder and Stoughton, 1929.
3. **Azərbaycan tarixi üzrə qaynaqlar**, Bakı, Çıraq, 2007.
4. Qafar Cəbiyev, **Girdman tarixi**, Bakı, Turxan, 2010.
5. Kamal Əliyev, Fəridə Əliyeva, **Azərbaycan antik dövrdə,** Bakı, Azərbaycan dövlət nəşri, 1997,120 s.
6. Təvəkkül Əliyev, "Qalatəpə yaşayış məskənində Qafqaz Albaniyasının Enian şəhərinin izləri", **Azerbaijan Archeology**, №1, 2009, s. 132-138.
7. Gippert Jost, Schulze Wolfgang, "Some remarks on the Caucasian Albanian palimpsests", **Iran and the Caucasus,** 2007, s. 201-212.
8. Gippert Jost, "The scripts of the Caucasian Albanians in the light of the Sinai palimpsest", **Die Entstehung der kaukasischen Alphabete als kulturhistorisches Phänomen / The Creation of the Caucasian Alphabets as Phenomenon of Cultural History. Referate des Internationalen Symposiums (Wien, 1.-4. Dezember 2005), ed. by Werner Seibt and Johannes Preiser-Kapeller**, Verlag der Österreichischen Akademie der Wissenschaften, Vienna 2011, s. 39-50.
9. Qəzənfər Kazımov, **Azərbaycan dilinin tarixi (Ən qədim dövrlərdən XIII əsrə qədər),** Bakı, Təhsil, 2003.
10. Musa Kalankatuklu, **Albaniya tarixi**, tərc. Z.Bünyadov, Bakı, Elm, 1993, s. 16-220.
11. Mxitar Qoş. **Alban səlnaməsi,** tərc. Z.Bünyadov, Bakı, Elm, 1993, s. 257-272.
12. Tofiq Məmmədov, Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı, Təhsil, 2006.
13. Elxan Nuriyev, **Azərbaycan SSR-in Şəki-Zaqatala zonasının toponomiyası**, Bakı, Elm, 1985.
14. Ptolemy Claudius, **The Geography,** тranslated by Stevenson E.L., New-York, Public Library, 1991.
15. Robson Edgard İliff, **Arrianus Flavius**, volume I (I-IV books), London, W.Heinemann, 1929.
16. Bəxtiyar Tuncay, **Azərbaycan türklərinin islamaqədərki dili və ədəbiyyatı**, Bakı, Elm və Təhsil, 2015.

17. Schulze Wolfgang, Gippert Jost, Aleksidze Zaza, Pyer Jan-Mahe **(eds)**, **The Caucasian Albanian Palimpsets of Mount Sinai**, I vol, Brepols, published by Turnhout, 2008.
18. Schulze Wolfgang, "Caucasian Albanian and the Question of Language and Ethnicity", Sprachen, Völker und Phantome; **Sprach- und kulturwissenschaftliche Studien zur Etnizitat**, De Gruyter 2018, s. 275-312.
19. Schulze Wolfgang, "From Caucasian Albanian to Udi", **Iran and Caucasus,** 2015, s.149-177.
20. Sevda Süleymanova, "Albaniyanın şimal-qərb sərhəd bölgəsi Lpiniya-Ereti, **AMEA-nın Tarix İnstitutunun əsərləri**, c.XX, 2007, s.56-73
21. **Şimal-qərbi Azərbaycan tarixi**, red. İ.S.Bağırova, Bakı, Şərq-Qərb, 2012.
22. Rəhim Vahidov, **Mingəçevir III-VIII əsrlərdə**, Bakı, Azərb. SSR EA-nın nəşri, 1961.
23. Алекпер Алекперов, **Терракоты древнего Азербайджана**, Баку, Элм, 1994.
24. Играр Алиев, **История Мидии**, Баку, изд. АН Азерб. ССР, 1960.
25. Играр Алиев, Фазил Османов, «Бассейн рек Геокчай-Гирдыманчай-Ахсучай в античное время», **Сов. археология**, № 11975, с. 265-267.
26. Камал Алиев, «Эпиграфика Кавказской Албании: Парадоксы и действительность» **Азербайджан и азербайджанцы**, № 9-10, 2002, с.21-29.
27. **Армянская География VII века** (приписывавшаяся Моисею Хоренскому), пер. К.П.Патканова, Санкт-Петербург, Типография Императорской Академии Наук, В. О., 9 л., № 12, 1877.
28. Арчил Балахванцев, «Границы Кавказской Албании (IV в. до н.э.-III в. н.э.)», **Восток (Oriens)**, №5, 2021, с. 31-42.
29. Зия Буниятов, «Albanica, III. О локализации области Гардман», **Изв. АН Аз. ССР, сер. общ. наук,** №4, 1964, s.87-91.
30. Гияседдин Гейбуллаев**, К этногенезу азербайджанцев**, Баку, Элм, 1991.
31. Сурен Еремян, «Политическая история Албании III-V вв.», **Очерки истории СССР (III–IX вв.)**, Москва, изд-во Академии наук СССР, 1958.
32. **Историческая география Азербайджана**, Баку, Элм, 1987.
33. **Картлис Цховреба (История Грузии),** главный редактор академик Роин Метревели, Тбилиси, Артануджи, 2008, 456 s.
34. Кесарийский Прокопий, **История войн римлян с персами, вандалами и готами**, Перевод С. Дестуниса, Санкт-Петербург 1876-1880.
35. Василий Латышев, **Известия древних писателей греческих и латинских о Скифии и Кавказе,** в 2-х т., Т.I, Греческие писатели, вып. I. Санкт-Петербург, тип. Императорской Академии Наук, 1893.

36. Василий Латышев, **Известия древних писателей греческих и латинских о Скифии и Кавказе**, Т. II, латинские писатели, вып. I. Санкт-Петербург, тип. Императорской Академии Наук, 1904.
37. Тофик Мамедов, «О писменности Кавказской Албании», **Доклады АН Азерб.ССР**, №7, том. XXIII, 1967, с. 105-108.
38. Фарида Мамедова, **Кавказкая Албания и албаны**, Баку, ЦИКА, 2005.
39. Георгий Меликишвили, **К истории древней Грузии**, Тбилиси, изд-во АН Груз. ССР, 1959.
40. Страбон, **География в 17 книгах**, пер. А.Стратановского, Москва, Наука 1964.
41. Али Сохбат Сумбатзаде**, Азербайджанцы – этногенез и формирование народа,** Баку, Элм, 1990.
42. Камилла Тревер, **Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. - VII в. н.э.)**, Москва-Ленинград, Изд-во АН СССР, 1959.
43. Услар Петр, «Начало христианства в Закавказье и Кавказ», **Сборник сведений о Кавказских горцах,** вып. II, Тифлис 1869, s. 1-24.
44. Джаббар Халилов, «О некоторых божествах древнелезгинского пантеона», **Тезисы первой научной конференции «История лезгин»**, Баку 1993, с. 25-26.
45. Акакий Шанидзе, «Язык и письмо Кавказских албанцев, XXV Международный конгресс востоковедов», **Доклады делегации СССР**. Москва, Восточная литература, 1960.
46. Иван Шопен, **Новые заметки на древние истории Кавказа и его обитателей**, Санкт-Петербург, тип. Н.Тиблена и К° (Н.Неклюдова), 1866.
47. Серафим Юшков, «К вопросу о границах древней Албании», **Исторические записки**, т. I, изд. Института истории АН СССР, 1937, с. 129-148.
48. Ямпольский Зелик, «К изучении древнеазербайджанского города Юнана», **Музей Истории Аз.ССР,** №67, 1959, с.366-369.
49. Яновский Александр, «О древней Кавказской Албании», **Журнал министерства народного просвещения (ЖМНП), ч.52**, **1846**, s. 97-136; 161-203.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Bəkirova Ellada Abubəkir qızı – tarix üzrə fəlsəfə doktoru, elmi katib, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan, Bakı.

Bekirova Ellada Abubakir – doctor of Philosophy in history, scientific secretary, A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

URMİYA HÖVZƏSİ URARTUNUN İŞĞAL SİYASƏTİNDƏ:
YENİ TORPAQLAR VƏ YENİ NƏZARƏT-DAYAQ MƏNTƏQƏLƏRİ

©2021

SELCAN MƏMMƏDZADƏ*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID:0000-0003-1788-1310; Selcanmemmedzade306@gmail.com

***Xülasə:*** *E.ə. 850-600-cü illər ərzində tarixi Azərbaycanın Urmiya gölü hövzəsi iki dövlət arasında bölünmüşdür – Urartu və Manna. Urmiya hövzəsinin şimal və qərb əraziləri Urartunun siyasi nəzarəti altında olarkən, cənub-şərq əraziləri Manna dövlətinin tərkibində idi. Qırmızı keramikaya xas xüsusiyyətlər, müdafiə tikililərinin qalıqları və mixi yazılı kitabələrə əsasən burada Urartu təsiri müəyyən olunur. Alman arxeoloqlarına əsasən bu tip xarakterik xüsusiyyətlərə müasir şəhərlər olan Uşnəviyə, Bastam, Urmiya, Əhər, Qotur, Maku, Salmas, Ərdəbil və digər şəhərlər yaxınlığındakı 97 yaşayış məskənində rast gəlinmişdir. Urmiya gölünün qərb bölgəsinin ən böyük vilayəti olan Sanqibitu 3 administrativ hissəyə bölünmüşdü. Burada 220-dən çox yaşayış məskəni və qalalar mövcud olmuşdur. Urmiya hövzəsinin cənub-qərb hissələri Urartu təsirinə məruz qalaraq Sapaquvilayətinin yerləşdiyi Uşnu coğrafi arealına kimi çatmışdır. Menuanın dövründə (e.ə.818-786) hövzənin şimal hissəsini (müasir Əhər şəhərinin qərbi) əhatə edən Puluadi (Libliuninin paytaxtı)bölgəsi Naxçıvanın Culfa rayonuna kimi çatmışdır. I Argiştinin hakimiyyət illərində (e.ə.786-764) bu ərazidə 60 yaşayış məskəni var idi və bu coğrafi areal Sərab-Ərdəbil ərazilərini əhatə edirdi. II Argiştinin zamanında (e.ə.719-685) bu bölgədə 6 qala tikilmişdir.*

***Açar sözlər:*** *Van gölü, Urartu, Urmiya hövzəsi, arxeologiya, Manna dövləti*

THE URMIA BASIN IN THE OCCUPATION POLICY OF URARTU:
NEW LANDS AND NEW CONTROL-BASE STATIONS

©2021

SELCAN MAMMADZADEH*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID:0000-0003-1788-1310; Selcanmemmedzade306@gmail.com

***Abstract:*** *In 850-600 BC, the basin of Lake Urmia of historical Azerbaijan was divided between two states – Urartu and Mannea. The northern and western territories of the basin were under the political control of Urartu, while the southern and eastern parts*

*were part of the Mannea. The Urartian influence here is confirmed by a kind of red-engobed ceramics, architecture of the remains* of *defensive structures and cuneiform inscriptions.*
*According to German archaeologists,* these *characteristic features were found in 97 settlements near the modern cities of Ushnevie, Bastam, Urmia, Ahar, Qotur, Maku, Salmas, Ardabil and others. Sangibitu (in the Assyrian texts Gilzan), the largest province in the western region of Lake Urmia, was divided into three administrative units. There were more than 220 settlements and fortresses there. The southwestern limits of the Urartian influence reached the Ushnu valley, where Sapagaue province was located. In the northern part of the basin (west of modern Akhar) was the region of Puluadi (the capital of Lib-liuni), which, under King Menua (810-786 BC), extended to the Julfa district of Nakhchivan. During the reign of Argishti I (786-764 BC), there were 60 settlements in this area, and this geographical area covered the Sarab-Ardabil areas. During the time of Argishti I (786-764 BC) there were 60 settlements there. Under King Argishti II (713-685 BC), 6 fortresses were built here.*

*The ethno-political history of the Urartians has nothing to do with the Armenians who came to their homeland. The presence of ethnic Armenians in the Urmia basin (mainly in the Tabriz region) is attested only from the 16th century. This region has been a historically integral part of Azerbaijan since ancient times.*

***Keywords:*** *Lake Van, Urartian, Lake Urmia, archaeology, State of Mannea.*

## ПРИУРМИЙСКИЙ БАССЕЙН В ОККУПАЦИОННОЙ ПОЛИТИКЕ УРАРТУ: НОВЫЕ ЗЕМЛИ И НОВЫЕ КОНТРОЛЬНО-ОПОРНЫЕ ПУНКТЫ

© 2021
СЕЛДЖАН МАМЕДЗАДЕ*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0003-1788-1310; Selcanmemmedzade306@gmail.com

***Резюме:*** *В 850-600 гг. до н.э. Приурмийская зона исторического Азербайджана была разделена между двумя государствами – Урарту и Манной. Северный и западный районы бассейна находились под политическим контролем Урарту, а южный и восточный части – в составе Манны. Урартское влияние подтверждается своеобразной красно-ангобированной керамикой, архитектурой останков крепостей и клинописными текстами. По мнению немецких археологов, эти характерные признаки были обнаружены в 97 поселениях вблизи современных городов Ушневие, Бастам, Урмия, Ахар, Котур, Маку, Салмас, Ардебиль и др. Самой крупной областью западнее озера являлась Сангибуту (в ассирийских текстах*

*Гильзан), которая была разделена на 3 административные единицы. Там имелось более 220 населённых пунктов и крепостей. Юго-западный предел урартского влияния доходил до долины Ушну, где находилась область Сапагауе. На северной части бассейна (западнее современного Ахара) находилась область Пулуади (столица Либлиуни), которая при царе Менуа (810-786 гг. до н.э.) простиралась до района Джульфы Нахчывана. В районе Сараб-Ардебиль находилась область Арха; во времена Аргишти I (786-764 гг. до н.э.) там насчитывалось 60 населённых пунктов. При царе Аргишти II (713-685гг. до н.э.) здесь было построено 6 крепостей.*

*Этнополитическая история урартийцев не имеет никакого отношения к пришлым на их родину армянам. Присутствие этнических армян в Приурмийской зоне (в основном, в районе Тебриза) засвидетельствовано лишь с XVI века. Этот регион издревле являлся исторически неотъемлемой частью Азербайджана.*

***Ключевые слова:*** *Озеро Ван, Урарту, Приурмийская зона, Археология, Государство Манна.*

### *Giriş*

Urartuluların etno-siyasi tarixində, onların vətəninə gələn ermənilərlə bağlı heç bir məlumat yoxdur. Ermənilərin Urmiya hövzəsi torpaqlarda (əsasən Təbrizdə) mövcudluğu barədə məlumata XVI əsrdən başlayaraq rast gəlinmişdir. Bu ərazi qədim zamanlardan Azərbaycanın ayrılmaz hissəsi olmuşdur. Uzun müddətdir ki, Urartunun siyasi və mədəni irsinin öyrənilməsi erməni və ermənipərəst tarixçilərin inhisarına keçdiyindən bu qədim dövlətin Azərbaycanla tarixi bağlılığının araşdırılması arxa plana keçmişdir. Bununla belə, ötən müddət ərzində Urmiya gölü hövzəsində aparılan arxeoloji tədqiqatlar və aşkar olunmuş yazılı qaynaqlar Azərbaycanın ən azından 160 illik tarixinin Urartu dövlətinin hərbi və mədəni-iqtisadi siyasəti ilə bağlı olduğuna dair yeni tutarlı məlumatlarla zənginləşdirmişdir. Problemin araşdırılmasına maraq da bu zərurətdən yaranıb.

E.ə. 960-cı illərdə Anadolu yarımadasının şimal-şərq hissəsində, Van gölü hövzəsində hurilərə qohum tayfaların hərbi-siyasi konsolidasiyası nəticəsində sülalə hakimiyyəti ilə idarə olunan ilk dövlət meydana gəlir. Təməli Aramu adlı lider tərəfindən qoyulan bu dövləti (paytaxtı Arzaşku; indiki Erciş) aşşurlular “Urartu”, yerli sakinlər isə “Biayni” adlandırırdılar. Az vaxtdan sonra bölgəyə siyasi nəzarət uğrunda Aşşur şahlığıyla mübarizədə bərkiməklə özünü təsdiq edən və yeni paytaxtı Tuşpa (və ya Turuşpa) şəhəri olan Urartu dövləti qonşu torpaqların işğalı hesabına hüdudlarını genişləndirmək siyasətinə başlayır. İşpuinidən (e.ə. 825-810-cu illər) II Rusayadək (və ya Ursa, Urzana; e.ə. 685-645-ci illər) uzanan dövrdə Urartu şahların ekspansiya planlarında o cümlədən Azərbaycanın tarixi torpaqlarının zəbt olunması, oralarda əyalət sisteminin yaradılması, yeni inzibati mərkəzlərin, şəhər və qalaların salınması prioritet istiqamətə çevrilmişdir. Urartu hökmdarlarının qələbələrini mədh edən mətnlərdə Azərbaycan

torpaqlarında mövcud olan və indiyədək bizə məlum olmayan tayfalar, vilayətlər, şəhərlər, qalalar haqqında yeni biliklər əldə etmiş oluruq. Aşşur hərb xronikasından fərqli, özünəməxsus şərh stilinə malik olan Urartu kitabələrində yer adlarının yazılışı zamanı aşağıdakı hallar nəzərə alınmalıdır.

1. Məkanla bağlı anlayışlar –**ni** göstəricisi ilə tamamlanırdı; **siu-ni** ("göl"), **baba-ni** ("dağ"), **teri-ni** ("tərəf"), **ardi-ni** ("şəhər"), **eba-ni** ("ölkə"), **iara-ni** ("məbəd") və s. Müəyyən dövrdən sonra bu göstərici sözün kökündə qərarlaşırdı. Bəzi hallarda deyilən göstərici toponimlərin sonuna da əlavə olunurdu: Biai-ni, Alzi-ni, Aşşur-ni və s. Toponimlərin müqayisəli təhlili göstərir ki, bu göstərici Aşşur mətnlərində işlənmirdi: biaynicə Aşşur-ni=aşşurca Aşşur, biaynicə Uliba-ni=aşşurca Ulliba, biaynicə İşala-ni=aşşurca İzala və s. Belə hallarda Urartu mətnlərindəki toponimik göstərici (-**ni**) oxunmurdu. Əgər toponimin özü –**ni** sonluğu ilə bitərsə ona da deyilən toponimik göstərici əlavə olunurdu: İrpuni-ni, Uluni-ni və s.

2. Eyni toponim gah "ölkə" (və ya "vilayət"; **KUR** determinativi ilə bildirilirdi), gah da "şəhər" (**URU** determinativi ilə bildirilirdi) kimi təqdim olunur. Toponim haqqında əlavə məlumat olmadıqda çox vaxt vilayəti şəhərdən ayırmaq olmur.

3. Mətnlərdə tez-tez trafaret forma kimi "X şəhərinin ölkəsi/vilayəti" ifadəsi işlənir. Belə hallarda ifadə "Mərkəzi X şəhəri olan ölkə/vilayət" kimi başa düşülməlidir.

1960-1970-ci illərdə hövzədə yerləşən təpələrdə sistemli qazıntılar aparan alman arxeoloqları bu qənaətə gəlmişlər ki, bölgənin ən azından 97 abidəsində urartuluların təsiri hiss olunur. Gəlinən qənaət 3 amilə – qırmızı anqoblu keramikaya, Urartu memarlığına xas tikililərə və biaynidilli (Urartu dövlətinin rəsmi dili) kitabələrə – əsaslanır. Qırmızı anqoblu keramikanın Urartudan cənub-şərq istiqamətində yayıldığı ərazi Mahabad-Miandoab xətti ilə məhdudlaşır. Mahabad-Miandoab xətti boyunca yerləşən qədim təpələrdə qırmızı anqoblu keramika tapılmasa da, Urartu hökmdarlarının kitabələri aşkara çıxarılıb. Bu amil onunla əsaslandırılır ki, urartulular viran qoyduqları bəzi şəhər və kəndləri yağmalamaqla kifayətlənir, dövlətlərinin tərkibinə qatmırdılar. Arxeoloji qazıntılarla sübut olunub ki, e.ə. VIII yüzillikdən fərqli olaraq növbəti əsrdə hövzənin yaşayış məskənlərində ənənəvi Urartu keramikası yox olmuşdur. Urartu keramikası hövzənin 27 abidəsində (əsasən Əqrəbtəpədə və Bastamda) aşkar olunub, əksər təpələrdə kəşfiyyat işləri zamanı təsadüfi tapıntılar qeydə alınıb[1].

Kalatgahda (Uşnudan 15 km şərqdə, Naqade şəhərindən 22 km şimal-qərbdə), Sarəncdə (Azərbaycan-Türkiyə-İran sərhədi yaxınlığında), Uzuntəpədə (Bastamdan 30 km şərqdə), İsmayılağada (Urmiya şəhərindən 23 km qərbdə), Gövhərqalada (Urmiya şəhərindən 17 km şimal-şərqdə), Kalei-Qafurda (Culfa şəhərindən 45 km şərqdə), Kalei-zendanda (Urmiya şəhərindən 30 km cənubda), Barunda (Maku şəhərindən cənubda),

[1] Николай Арутюнян, **Корпус урартских клинообразных надписей**, Ереван, Издательство «Гитутюн» НАН РА, 2001, с.224-243.

Kəlikzarda (Uşnəviyədən 8 km cənubda), Kalei-Havaşda (Koturdan 9 km şərqdə), Pir-Çavuşda (Salmasdan 14 km cənub-şərqdə), Təpə-Cacurdda (Bazarqandan 5 km şərqdə) və digər yerlərdə alman arxeoloqlarının tədqiq etdiyi qala və qalaçalar urartululara aid edilir[2]. Kordlartəpədə müdafiə divarının özülü sal daşlardan qurulub, divarın tikintisində 40 x 34 x 12 sm və 36 x 17 x 12 sm ölçülərində çiy kərpiclərdən istifadə olunub. Onun yaxınlığında 8m x 8m ölçüsündə zalı olan saman qarışıqlı gil möhrə tikilidə qurbangah, gildən hazırlanmış və divara pərçimlənmiş oturacaqlar, dulus çarxı tətbiq olunmadan düzəldilmiş ornamentsiz monoxrom saxsı qablar aşkara çıxarılmışdır[3].

Yeni fərziyyəyə görə e.ə. 714-cü il yürüşü zamanı Aşşur qoşunları şərq istiqamətinə hərəkət edib Marağaya yetişdikdən sonra bir qədər şimaldan keçən yolla əks istiqamətdə qayıdaraq gölün qərbi ilə Urartu torpaqlarına daxil olmuşlar[4].

Urartunun Urmiya gölü hövzəsindəki şəhər və qalalarının, eləcə də Mannanın vilayət və şəhərlərinin lokalozasiyası zamanı biz daha məntiqli hesab etdiyimiz köhnə nəzəriyyədən çıxış etmişik. Həqiqətən də, əgər Aşşur qoşunları təklif olunan ikinci marşrutla hərəkət etmiş olsaydılar öncə Musasiri (Urmiya gölündən cənub-qərbdə), sonra Ayadini (Van gölündən cənub-şərqdə) viran qoymalı idilər. Lakin "Tanrı Aşşura məktub"da bunun əksini görürük. Urartuluların hərbi ekspansiyası Urmiya gölündən qərbdə və cənub-qərbdə yerləşən ərazilərdən başlamışdır. Urartu kitabələri bu bölgədə yerləşən aşağıdakı məskənlərin işğalından xəbər verir.

4. **Uişe (və ya Uşini)** Urartu işğalına məruz qalmış ilk şəhərlərdən olmuşdur. Kalatgahdan İşpuini ilə Menuanın birgə hakimiyyət dövrü ilə tarixlənən kitabədə Uişe "şəhər" kimi göstərilib və bildirilir ki, o, Sapaqau vilayətinin mərkəzi olmuşdur[5].



**Şəkil 1.** İşpuini və Menuanın Qalatgah qayaüstü kitabəsi

---

2 Wolfram Kleiss, "Vermessene Urartaische platze in Iran (West-Azerbaijan) und Neufunde (Stand der forschung 1978)", **Archaologische Mitteilungen aus İran**, Band 12, Berlin 1979, s.183-223.

3 Инна Медведская, **Иран в начале железного века**, Санкт-Петербург, Наука, 2019, с.130-131.

4 Lee Levine, "Sargon's Eight Campaign / Mountains and Lowlands: essays in the archaeology of Greater Mesopotamia", **Bibliotheca Mesopotamia**, Vol. VII, Ottava, 1977, p.135-151.

5 Maurist Van Loon, "The Inscription of İshpuini and Menua at Qalatgah, İran", **Journal of Near Eastern Studies**, Vol.34, №3, Chicago 1975, pp.201-207.

Sonralar urartulular şəhərin adına dillərindəki –**ni** toponimik şəkilçini əlavə etmişlər. Belə ki, I Arqiştinin Xorxor kitabəsində bu şəhər **KUR. U$_2$-u$_2$-ši-ni** ("Uuşini [şəhərinin] vilayəti") kimi qeydə alınıb[6]. E.ə. VIII əsrin sonunda bu şəhər və onun yerləşdiyi düzən ərazi indiki Uşnu vadisi ilə assosiasiya olunurdu. II Sarqona ünvanlanmış xəfiyyə məktublarının birində Usun (**u-su-na**) vilayətində kimmerlərin məskunlaşdığına dair məlumat yer alır[7]. Ola bilsin ki, bu yer II Sarqonun digər mətnlərində kimmerlərlə əlaqədar xatırlanan Hubuşna toponimi ilə eyniləşdirilməlidir. Etimoloji baxımdan Hubuşna toponimi biaynicə **hubi**+**uşnu** ("Uşnu vadisi") söz birləşməsindən yaranıb.

5. **Qilzan**. III Salmanasarın (e.ə. 859-824-cü illər) mətnlərinə əsasən bu müstəqil şahlıq "Nairi ölkəsinin aşağı dənizi ilə" (=Urmiya gölü[8] Hubuşkiya çarlığı arasında yerləşməklə həm də urartuluların dini mərkəzi olan Musasir şəhərilə (indiki Rəvandüzdən şimal-şərqdə, Sidekandan 5 km qərbdə yerləşən Mücesir kəndi) sərhədlənirdi. E.ə. IX əsrin sonlarında Aşşur dövlətinin zəiflədiyini fürsət bilən Menua Qilzanın torpaqlarını işğal edir və "Qilzan" adı yazılı mənbələrdə bir daha xatırlanmır. Cənub hüdudları Uşnu vadisinə çatdığından ehtimal etmək olar ki, oradakı inzibati vahidliyin adı – "Sapaqau" – bir müddət Qilzana da şamil olunurdu.

6. **Arha (və ya Arxa)**. Qilzanın işğalı ilə Manna şahlığının torpaqlarının istilası üçün 2 istiqamətdə imkanlar yaranır. Hələ Menuanın zamanında Qilzandan cənuba hərəkət etməklə Manna Meişta vilayətinə basqınlar edilirdi (növbəti fəsilə bax). Qilzanın şimal hissəsi (Sanqibutu/Bara əyaləti) Salmas vadisini əhatə edirdi və hesab olunur ki, məhz buradan keçməklə Menuanın oğlu I Arqiştinin qoşunları e.ə. 777-ci ildə Urmiya gölündən şərqdəki ərazilərə basqın etmişlər. I Arqiştinin Xorxor kitabəsində deyilir ki, Urartu qoşunu bu marşrutla hərəkət edərək Arha vilayətinə, oradan da Buştu vilayətinə daxil olmuşlar. Mənbənin məlumatına görə bu vilayətdə 60 yaşayış məntəqəsi var idi[9].

7. **Puluadi ölkəsi və onun şəhərləri**. 1950-ci ildə Əhərdən 34 km şimal-qərbdə, Arazbaran (və ya Qaracadağ) mahalına daxil olan Sekindel kəndində (Varzaqan inzibati mərkəzinin 5 kilometrliyində) I Arqiştinin oğlu II Sardurinin (e.ə. 764-735-ci illər) Puluadi ölkəsinə hərbi yürüşünü tərənnüm edən qayaüstü kitabəsi aşkara çıxarılmışdır. Kitabədə Kadiau (ismin yazıldığı işarələr qrupu **ul-tu-di-a-u** kimi də oxunur) adlı hökmdarla müharibədə bu ölkənin 55 yaşayış məntəqəsinin paytaxt Libliu[ni] ilə birlikdə dağıdılmasından bəhs olunur idi[10].

---

[6] Георгий Меликишвили, **Урартские клинообразные надписи**, Москва, издательство АН СССР, 1960, с. 504
[7] Askold Ivanchik, **Les kimmerians au Proche-Orient**, Editions Universitaires, Göttingen 1993, s.50.
[8] Инна Медведская, **История Мидийского царства (VII-VI вв. до н.э.)**, Санкт-Петербург, Евразия, 2018, с.97.
[9] Melikişvili, **a.g.ə., s.** 419-420;
[10] Melikişvili, **a.g.ə., s.** 504.



**Şəkil 2**. II Sardurinin Sekendel qayaüstü kitabəsi.

Bu hərbi kampaniya haqqında II Sardurinin salnaməsində verilən məlumat tədqiqatçılara 1916-cı ildən, N.Marr və İ.Orbelinin Van ekspedisiyasından məlum idi. Salnaməyə əsasən Puluadidə hərbi əməliyyatların e.ə. 746-cı ildə baş verdiyi və Sekindel kitabəsinə əsasən Libliuni şəhərinin yeri dəqiqləşdirilmişdir. Alman arxeoloqları burada Urartu işğalına qədər və urartulular tərəfindən inşa olunan 2 qalanı tədqiq etmişlər. Qalalardan daha qədim olanı hündürlüyü 84 m olan təpəlik üzərində salınmışdır; onun uzunluğu 228 m, eni 138 metrdir, divarlarının qalınlığı 3 metrə çatır[11]. 1988-ci ildə Puluadi ölkəsinin adı gözlənilmədən Naxçıvanın Culfa rayonu ərazisində, İlanlıdağ qayalarının birinə həkk olunmuş 5 sətirlik biaynidilli kitabədə oxundu. İşpuini və Menuanın birgə hakimiyyəti dövründə tərtib olunmuş bu kitabədə (daha ətraflı irəlidə nəzərdən keçiriləcək) həmin bölgədə yerləşən 4 şəhərin zəbt olunması şərəfinə Puluadidə tanrı Haldiyə stela (yazılı sütun) ucaldılmasından və qurbanlar kəsilməsindən bəhs olunur. Əgər həqiqətən də, güman olunduğu kimi, kitabədə xatırlanan şəhərlər Puluadiyə birləşdirilibsə, o halda urartuluların e.ə. IX əsrin sonunda Puluadidə əyalət sistemi yaratdıqları və bu əyalətin hüdudlarının Culfadan Sekindelə qədər təqribən 100 km uzandığı fikri ilə razılaşmaq olar[12]. E.ə. VIII əsrin ikinci yarısında Puluadinin əsas hissəsi Sanqibutu əyalətinin tərkibinə qatılmışdır.

8**. Sanqibutu (və ya Bit-Sanqibutu)** əyaləti və onun şəhərləri. Qeyd etdiyimiz kimi, Urartunun bu əyaləti keçmiş Gilzan şahlığının torpaqlarında yaradılmışdır və inzibati baxımdan 3 vilayətə – Sanqibutu, Bara, Ulhu – bölünmüşdür. “Sanqibutu” toponimi indiki Səncəbad kəndinin (Xalxaldan qərbdə) adının praforması hesab olunur; kəndin kənarından eyni adlı (Səncəbadrud) çayı axır[13].

---

[11] Вилаят Керимов, **Оборонительные сооружения Азербайджана древнего периода**. Нафта-Пресс, Баку 2003, с.62-64.

[12] Allahverdi Əlimirzəyev, “Azərbaycanın Naxçıvan bölgəsinin Urartu ilə siyasi əlaqələri tarixindən”. **Naxçıvan**: **ilkin şəhər və Duzdağ**, Naxçıvan 2012, s.112-114.

[13] Ran Zadok, “On the geography, toponymy and anthroponymy of Media”, **Neuvelle Assyriologique Brèves et Utilitaires**, №2, Paris 2001, pp.33-37.

E.ə. 714-cü ildə II Sarqonun qoşunları Uşkayanı – “Urartunun sərhədində olan böyük qalanı” – tərk etdikdən sonra şərq tərəfdən Sanqibutuya daxil olurlar. Dalay tayfasının yaşadığı bu bölgənin digər adı “Bara” olmuşdur. Mənbə Baranı “mal-qaranın ümid yeri” adlandırır; bu baxımdan toponim dilimizdə işlənən *bərə, pəyə* (və ya *parağ*; yayda heyvan saxlanan yüngül konstruksiyalı tikili) kimi terminlərlə müqayisə oluna bilər.

9. **Sarab-Ərdəbil bölgəsinin qalaları**. Urartulular e.ə. 714-cü ildə ağır məğlubiyyət alsalar da I Rusanın oğlu II Arqiştinin zamanında (e.ə. 713-685-ci illər) qısa vaxt ərzində Şimali Urmiya hövzəsinə siyasi nəzarəti bərpa edə bilirlər; bunun bir səbəbi də həddindən uzaqda yerləşdiyindən Aşşur dövlətinin bu bölgəyə maraq göstərməməsi ilə bağlı idi. Məhz Sanqibutunun ərazisindən keçməklə II Arqiştinin qoşunları Sarab-Ərdəbil istiqamətində uğurlu hərbi əməliyyatlar aparmışdır. N.Arutyunyanın yanlış fikrinə rəğmən hesab edirik ki, Urartunun mərkəzindən Sarab istiqamətinə getmək üçün Təbrizdən keçib yolu uzatmaq məntiqsizdir[14].

Bu əməliyyatlar barədə 3 qayaüstü kitabədə xəbər verilir. İki eyni məzmunlu kitabələrdən biri Sarabdan 12 km şimalda yerləşən Zaqan dağında (Razlik və Naşteban kəndləri arasındakı sahədə), digəri Sarabdan 20 km şimal-şərqdə yerləşən Qırxqızlar kəndində qaya üzərinə həkk olunub. Hər 2 kitabədən aydın olur ki, II Arqiştinin qoşunları I Arqiştinin zamanından məlum olan marşrutla hərəkət edərək öncə Arxa vilayətinə (göldən şimal-şərqdə) daxil olmuş, daha sonra hansısa çayı (**ID$_2$ mu-na-i-di**) keçib Uşulu, Buku, Qirdu-ni, Qituha-ni, Tuişdu “vilayətlərini” zəbt etmişlər. Mətnlərin birində “Erukima” adlı qala-şəhərin işğalından və bərpa edildikdən sonra ona “Arqişti-irdu” (“Arqişti qoşununun yeri”, “Arqiştinin qarnizonu”; **irdu** termini **huradi** “qoşun”, “əsgər” sözünün dialekt fərqidir) adının verilməsindən, sakinlərin üzərinə vergi qoyulmasından və qaladan növbəti işğallar zamanı dayaq məntəqəsi kimi istifadə olunacağından bəhs edilir[15]. Bəzi tədqiqatçılar hesab edir ki, şəhərin ilkin adını ifadə edən mixi işarələr qrupu **e-ru-ki-ma** yox, **ru-tu-um-ni** kimi oxunmalıdır. Əgər sonuncu oxunuş doğrudursa Rutumni biaynimənşəli toponim sayıla bilməz, çünki bu dildə R-səsi ilə başlayan söz yoxdur (Rusanın isminin orijinal forması “Ursa” olub). Yəni urartulu mirzə toponimin orijinal formasına **–ni** göstəricisini əlavə etməklə onu “biayniləşdirmişdir”. Hər iki mətndə xatırlanan digər toponimləri də yerli mənşəli hesab etmək olar. Məsələn, Buku toponimi fonetik baxımdan Abuku (hurri dilində başlanğıc sait bəzən protestik xarakterli idi) toponimi ilə (Dəclənin yuxarı axarlarında, hurilərin yayıldığı Tumme vilayətində şəhər) müqayisə oluna bilər[16]. Bu vilayətlərin işğalı ilə bağlı tərtib olunmuş üçüncü kitabə

---

[14] Николай Арутюнян, **Биайнили-Урарту**. **Военна-политическая история и вопросы топонимики**, Санкт-Петербург, издательство Санкт-Петербургского университета, 2006, с. 246-247.

[15] Николай Арутюнян, **Корпуск урартских клинообразных надписей**, Ереван, издательство «Гитутюн» НАН РА, 2001, с.409-410.

[16] Николай Арутюнян, **Топонимика Урарту**, Ереван, Издательство АН Арм. ССР, 1985, 307 с., с. 9.

Əhərdən şimal-şərqdə yerləşən Şişe kəndində tapılıb. Zədəli kitabədə bildirilir ki, Arxa, Uşulu və Bukunun işğalından sonra II Arqişti "düşmən ölkələri itaətdə saxlamaq üçün" yeni qala-şəhər inşa etdirir və ona "Tanrı Haldinin sığınacağı" adını verir[17].

II Arqiştinin oğlu II Rusa tikdirdiyi qalaların ən möhtəşəminə öz (Rusahinili) adını vermişdir. Qalanın xarabalıqları Bastamda (Maku şəhərindən 85 km cənub-şərqdə, Ağçayın vadisində) qalmaqdadır. Alman arxeoloqlarının qazıntıları zamanı buradan xeyli sayda Urartu mətnləri (o cümlədən II Rusanın yazıları) aşkara çıxarılmışdır. Siklopik qalaya giriş şimal və cənub istiqamətlərindən idi. Cənub tərəfdə anbarlar tikilmişdir və oradan qırmızı anqoblu Uraru keramikası tapılıb. Məbəd olduğu güman edilən dördkünc formalı kərpic tikilinin 14m x 14m ölçülü özülü aşkara çıxarılıb[18].

***Nəticə***

Urartuluların Azərbaycanla çoxillik tarixi bağlılığı Urmiya hövzəsi məskənlərində aşkara çıxarılmış maddi mədəniyyət abidələri ilə məhdudlaşmır. Urartu dövlətinin siyasi-iqtisadi təsiri daha geniş materialla Qərbi Azərbaycanda (indiki Ermənistan respublikasının ərazisi) qeydə alınmış abidələrdə özünü təsdiq edir. Lakin diqqətəlayiq faktdır ki, Urmiya hövzəsində iqtisadi-təsərrüfat məzmunlu mətnlər tapılmayıb. Görünür, urartulular işğal etdikləri Qərbi Azərbaycan ərazilərindən fərqli olaraq, Urmiya hövzəsi məskənlərində, o cümlədən Manna dövlətindən qopardıqları torpaqlarda inzibati-əyalət sistemi qura bilməmişlər.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

### Azərbaycan dilində

1. Əlimirzəyev Allahverdi, "Azərbaycanın Naxçıvan bölgəsinin Urartu ilə siyasi əlaqələri tarixindən", **Naxçıvan: ilkin şəhər və Duzdağ**, Naxçıvan 2012.
2. **Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə**, tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay, Bakı, Təhsil, 2006.

### İngilis dilində

3. Kroll Stephan, "Excavations at Bastam", **Archaeology,** vol XXV, №4, New-York 1972, p.292-297.
4. Levine Lee, "Sargon's Eight Campaign / Mountains and Lowlands: essays in the archaeology of Greater Mesopotamia", **Bibliotheca Mesopotamia**, Vol. VII, Ottava, 1977, p.135-151.

---

[17] **Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə**, tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay, Təhsil, Bakı 2006, s.119.

[18] Stephan Kroll, "Excavations at Bastam", **Archaeology**, Vol.XXV, №4, 1972, p.292-297.

5. Van Loon Maurist, “The Inscription of Ishpuini and Menua at Qalatgah, Iran”, **Journal of Near Eastern Studies**, Vol.34, №3, Chicago 1975, p.201-207.
6. Zadok Ran, “On the geography, toponymy and anthroponymy of Media”, **Neuvelle Assyriologique Brèves et Utilitaires**, №2, Paris 2001, p.33-37.

**Alman dilində**

7. Ivanchik Askold, **Les kimmerians au Proche-Orient**, Editions Universitaires, Göttingen 1993.
8. Kleiss Wolfram, “Vermessene Urartaische platze in Iran (West-Azerbaijan) und Neufunde (Stand der forschung 1978)”, **Archaologische Mitteilungen aus Iran**, Berlin, Band 12, 1979.

**Rus dilində**

9. Арутюнян Николай, **Биайнили-Урарту. Военна-политическая история и вопросы топонимики**, Санкт-Петербург, Издательство Санкт-Петербургского университета, 2006.
10. Арутюнян Николай, **Корпуск урартских клинообразных надписей**, Ереван, Издательство «Гитутюн» НАН РА, 2001.
11. Арутюнян Николай, **Топонимика Урарту**, Ереван, Издательство АН Арм. ССР, 1985.
12. Керимов Вилаят, **Оборонительные сооружения Азербайджана древнего периода**, Баку, Нафта-Пресс, 2003
13. Медведская Инна, **Иран в начале железного века**, Санкт-Петербург, Наука, 2019.
14. Медведская Инна, **История Мидийского царства (VII-VI вв. до н.э.),** Санкт-Петербург, Евразия, 2018.
15. Меликишвили Георгий, **Урартские клинообразные надписи**, Москва, Издательство АН СССР, 1960.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Məmmədzadə Selcan Əsəd qızı – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, Azərbaycan, Bakı.

Mammadzadeh Seljan – doctoral candidate of A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

# URARTU DÖVLƏTİNİN SƏRHƏD PROBLEMLƏRİ QƏRB TARİXŞÜNASLIĞINDA

©2021 ƏSMƏR GÖYÜŞOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0001-6819-5850; e-mail: esmergoyusova@gmail.com

***Xülasə:*** *Urartu dövləti e.ə. I minillikdən etibarən böyük bir coğrafiyada hökm sürmüşdür. Bu coğrafiyanın bir qismi hökmdar şəhərləri, mərkəzdən kənarda yerləşən bölgələr isə əyalət mərkəzləri vasitəsilə idarə olunmuşdur. Urartu şahlığının mərkəzi Van gölü hövzəsi olmuş və genişləmə siyasəti də buradan başlamışdır. Krallığın siyasi mərkəzinin yerləşdiyi Şərqi Anadolu bölgəsində məhsuldar ərazilərin azlığı Urartu hökmdarlarını Urmiya gölü hövzəsinə yönəltmişdir.*

***Açar sözlər***: *Şərqi Anadolu, Urmiya gölü, Aşşur kitabələri, Mesopotamiya*

# BORDER PROBLEMS OF THE STATE OF URARTU IN WESTERN HISTORIOGRAPHY

©2021 ASMAR GOYUSHOVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0001-6819-5850; e-mail: esmergoyusova@gmail.com

***Abstract:*** *The state of Urartu ruled over a large area since the 1st millennium BC. Part of this geography was governed by the ruling cities, but the regions outside the center were ruled by the provincial centers. The center of the kingdom of Urartu was the basin of Lake Van, and the policy of expansion began here.. The lack of fertile land in the region of Eastern Anatolia, where the political center of the kingdom was located, led the kings of Urartu to the basins of Lake Urmia.*

***Keywords:*** *Eastern Anatolia, Urmia Lake, Assyrian inscriptions, Mesopotomia*

# ПОГРАНИЧНЫЕ ПРОБЛЕМЫ ГОСУДАРСТВА УРАРТУ В ЗАПАДНОЙ ИСТОРИОГРАФИИ

©2021

ЭСМЕР ГЕЮШЕВА*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0001-6819-5850; e-mail: esmergoyusova@gmail.com

***Резюме:*** *Государство Урарту управляло большой территорией с первого тысячелетия до нашей эры. Часть этой географии управлялась правящими городами, но регионы за пределами центра управлялись провинциальными центрами. Центром царства Урарту был бассейн озера Ван, и здесь началась политика экспансии. Отсутствие плодородных земель в регионе Восточной Анатолии, где расположен политический центр царства, привело царей Урарту к бассейнам озера Урмия.*

***Ключевые слова:*** *Восточная Анатолия, Озеро Урмия, Ассирийские надписи, Месопотамия.*

***Giriş***

Urartu dövləti e.ə. I minillikdən etibarən böyük bir coğrafiyada hökm sürmüşdür. Krallığın siyasi təsirinin güclü olduğu e.ə. IX-VIII əsrlərdə inşa etdirdiyi şəhərlər, qalalar, suvarma kanalları və yazılı mənbələrə istinadən deyə bilərik ki, Urartu coğrafiyası Şərqi Anadolu, Göyçə və Urmiya gölləri ətrafı da daxil olmaqla təqribən 220.000 $km^2$-lik geniş bir ərazini əhatə etmişdir. Bu coğrafiyanın bir qismi hökmdar şəhərləri, mərkəzdən kənarda yerləşən bölgələr isə əyalət mərkəzləri vasitəsilə idarə olunmuşdur[1]. Dəmir dövrü dövlətlərinin sərhədləri ilə bağlı məlumatları mixi yazılı kitabələrdən almaq mümkündür. Düzdür, Urartu hökmdarlarının adları ilə bağlı olan mətnlərdə sərhədlərdən bəhs edilməsə də, Aşşur kitabələrində bir sıra məlumatlara rast gəlmək mümkündür. III Tiqlatpalasar Urartu şahını Fərat çayının şərqindəki Urartu dövlətinə bağlı sərhəd məntəqələrinə qədər təqib etdiyini bildirmişdir[2]. Dövrün ənənəsinə uyğun olaraq Urartu hökmdarları da Aşşurda olduğu kimi, bir sıra hökmdar titullarından istifadə edirdilər. Onlar nəinki yürüş etdikləri məntəqələri, eyni zamanda işğalı mümkün olan ərazilərin də sahibi olduqlarını iddia edirdilər. Bu baxımda Urartu mətnlərində rast gəlinən "Surili ölkəsinin şahı" ifadəsi maraq doğurur. Hərfi mənada "šuri" sözü tanrı Haldinin silahının adından formalaşmış

---

[1] Harun Danışmaz, **Urartu Krallığı: Yönetim ve Organizasyon**, Ankara, Türk Tarih Kurumu, 2020, s. 8-9.
[2] Daniel David Luckenbill, **Ancient Records of Assyria and Babylonia I**, Chicago 1926, no. 158.

termindir[3]. Urartu şahlığının mərkəzi Van gölü hövzəsi olmuş və genişləmə siyasəti də buradan başlamışdır. Van gölü bəhs edilən coğrafiyada Urmiya gölündən sonra ikinci böyük göldür. Strateji cəhətdən əlverişli mövqedə yerləşən Van gölü hövzəsinin şimalında Zimzim dağı, şərqində Ərək və Şuşaniş dağları yerləşir. Hövzənin cənubunda isə Mesopotamiya və Anadolunu bir-birindən ayıran Tavr dağ silsiləsi yerləşir.

Krallığın siyasi mərkəzinin yerləşdiyi Şərqi Anadolu bölgəsində məhsuldar ərazilərin azlığı Urartu hökmdarlarını Urmiya gölü hövzəsinə yönəltmişdir. Regionda super güc olmağa çalışan Aşşur dövlətinin də diqqət mərkəzində olanda Urmiya gölü hövzəsinin atları, zəngin təbii sərvətləri mənbələrdə də öz əksini tapmışdır. Bu baxımdan Gilzan adlanan bölgəni qeyd etmək olar. II Aşşurnasirpal dönəminə aid olan və "Ağ Obelisk" kimi bilinən mətndə deyilir: "Hakimiyyətimin ilk ilində döyüş arabalarım və ordumla keçilməz dağları aşdım. Gilzan ölkəsindən atları xərac olaraq aldım"[4]. Ancaq qeyd etmək lazımdır ki, yuxarıda göstərilən coğrafi sərhədlər şərti xarakter daşıyır. Belə ki, Urartu hökmdarları demək olar ki, hər il hərbi səfərlərə çıxır və mümkün olduğu qədər ən uzaq bölgələrə çatmağa çalışırdılar. Urartu dövlətinin mövcud olduğu coğrafiyanın sərhədləri müəyyənləşdirilərkən tədqiqatçıların istifadə etdikləri əsas prinsip ən ucqar nöqtədə tapılan yazılı kitabələrdir. Lakin son tədqiqatlar bu prinsipin heç də hər zaman düzgün bir yanaşma olmadığını, elə bu səbəbdən də yazılı kitabələr, maddi-mədəniyyət nümunələri tədqiq edilərkən digər prinsiplərin də nəzərə alınmalı olduğunu göstərir.

Urartu tarixi ilə bağlı yazılmış monoqrafiyalarda, elmi məqalələrdə fərqli coğrafi bölgülərə rast gəlinir. MDB məkanında bu mövzunun ilk tədqiqatçılarından olan B.Piotrovskiyə görə I Argiştinin hakimiyyətdə olduğu dövrdə hətta Şimali Suriya da Urartu dövlətinin sərhədləri daxilində olmuşdur. Sonrakı dövrlərdə, daha dəqiq desək III Tiqlatpalasarın hakimiyyəti illərində (e.ə. 744-727-ci illər) bu ərazi Aşşur dövlətinin əlinə keçmişdir[5]. B.Piotrovskinin hazırladığı xəritədə dövlətin sərhədlərinin şimalda Çıldır gölünə və Qara dənizin şərq sahillərinə, qərbdə Fərat çayına, şərqdə Tavr dağlarının cənub-şərq yamaclarına, cənubda isə Urmiya gölünün şimal-şərqinə qədər uzandığı göstərilir.

Tubingen Universiteti tərəfindən hazırlanan başqa bir xəritədə isə bir qədər fərqliliklər nəzərə çarpır. Bu xəritədə dövlətin şərq sərhədlərinin Təbrizin şərqində Əhər və Səraba qədər, cənubda isə Rəvandüzə qədər çatdığı göstərilmişdir[6]. Ötən əsrin 60-cı illərindən etibarən Urmiya hövzəsi yaşayış məntəqələrində qazıntılar aparan V.Kleiss də Urartu dövlətinin şərq sərhədlərinin Sərab şəhərinə qədər olduğunu bildirmişdir. S.Kroll

---

[3] Paul Zimanski, "Urartu ve Çağdaşları", **Urartu Dogu'da Değişim,** İstanbul, Yapı Kredi Yayınları, 2020, s. 75.

[4] Julian E Reade, "Aššurnaṣirpal I and the White Obelisk", **Iraq,** Vol 37, No 2, Cambridge University Press, 1975, p. 134.

[5] Boris Piotrovskii, **Urartu**, The Cresset Press, London, Barrie & Rockliff, 1969, p. 83.

[6] Schlaich, F. **"Das Urartaerreich"**, W.Röllig (ed), Tübinger Atlas des Vorderen Orient (TAVO), Wiesbaden: Tübingen Üniversitat, 1998, s.6-7.

Urartunun ən şərqdə yerləşən qalasının Seqendel qalası olduğunu qeyd etmişdir[7]. Həsənli layihəsi çərçivəsində şimal-qərbi İranda arxeoloji qazıntılar aparan O.U.Maskarella Həsənlitəpədən 12 km uzaqlıqda yerləşən bölgədən tapılmış Daştəpə kitabəsinə əsasən buranın Urartu şahlığının cənub-şərq sərhədi olduğunu, lakin II Sarqonun e.ə. 714-cü il yürüşündən sonra Aşşur dövlətinin hakimiyyəti altına keçdiyini bildirmişdir[8]. P.Zimanski Urartu dövlətinin sərhədləri problemini daha geniş çərçivədə təhlil etmişdir. Müəllifin fikrincə, bu dövlətin hansı coğrafiya daxilində mövcud olduğunu təyin edərkən 2 əsas mənbədən istifadə edilməlidir: bunlardan ilki və ən əhəmiyyətlisi hərbi səfərlərlə bağlı olan kitabələrdir. Məhz bu mənbələr vasitəsi ilə kitabələrdə adı çəkilən bölgənin nə zaman Urartunun siyasi təsir dairəsinə keçdiyini müəyyənləşdirmək olur. Digər əhəmiyyətli mənbə isə urartuluların ələ keçirilmiş bölgələrdə inşa fəaliyyətləri ilə bağlı olan kitabələrdir[9]. P.Zimanski, eyni zamanda, sadəcə kitabələrdəki məlumatlara istinad edərək doğru bir nəticəyə gəlməyin mümkün olmayacağını da bildirir.

D.Barnett öz tədqiqatlarında Urartu dövlətinin cənub sərhədlərinin Aşşurun siyasi cəhətdən zəif olduğu bir dönəmdə Tur-Abdin dağlarına (qədim adı Kaşiyari) qədər çatdığını, ancaq eyni zamanda Tavr dağ silsiləsinin və Hakkari bölgəsinin hər zaman bu iki dövlət arasında sərhədd xəttini təşkil etdiyini bildirir[10]. Bundan başqa, müəllif dövlətin şimal sərhəddinin Çıldır gölünə qədər olan əraziləri əhatə etdiyini, Çıldır gölü də daxil olmaqla Van, Urmiya və Göyçə gölünün bölgə üçün əhəmiyyətli olduğunu qeyd etmişdir.

Van gölü hövzəsindəki Urartu yaşayış məskənlərinin tədqiqi ilə məşğul olmuş V.Sevin Urartu ilə bağlı hazırladığı xəritədə digər müəlliflərin istifadə etdikləri prinsipdən faydalanmışdır. Belə ki, müəllif sərhədləri müəyyənləşdirərkən ən ucqar nöqtələrdən tapılmış kitabələrə əsaslanmışdır. Onun tərtib etdiyi xəritədə Urmiya gölünün qərbi və cənub qərbi Urartu ərazisi kimi göstərildiyi halda, şərq qisminin bu coğrafiyaya daxil edilmədiyini görürük. Krallığın şərq sərhədləri kimi Təbrizdən Naşteban kitabəsinin tapıldığı ərazi də daxil olmaqla (Ərdəbilə gedən yolda) Urmiya gölünün şimalı göstərilmişdir[11]. Razlıq və Naşteban qaya kitabələri ilk dəfə 1965-ci ildə U.Benedikt tərəfindən nəşr olunmuşdur. V.Kleiss bu yeri 1967-ci ildə ziyarət etmiş və bölgənin Urartu dövrü ilə

[7] Wolfram Kleiss, Stephan Kroll, "Die Burgen von Libliuni (Seqindel)", **Archaologische Mitteilungen aus Iran,** 13**, Dietrich Reimer Verlag, Berlin,** 1980, p.21.

[8] Oscar White Muscarella, "Qalatgah: an Urartian Site in Northwestern İran", **Expedition,** vol 13, nos 3/4, Philadelphia Spring 1971, p. 47.

[9] Paul Zimansky, **Ecology and empire: The structure of the Urartian State**, the Oriental Institute, Chicago 1985, p.10-12.

[10] Richard David Barnett, "Urartu", **Cambridge Ancient History,** J. Boardman (ed), III/1, the Prehistory of the Balkans; the Middle East and the Aegean World, tenth to eighth centuries B.C., Cambridge University Press, Cambridge 1982, p. 366.

[11] Veli Sevin, "Malatya-Elazığ-Bingöl İlleri Yüzey Araştırması, 1985", **IV Araştırma Sonuçları Toplantısı**, Ankara 1987, s. 97.

əlaqəli hər hansı bağlantısı olmadığını qeyd etmişdir[12]. Lakin Urartu dövlətinin siyasi tarixinə nəzər yetirdikdə aydın olur ki, II Sarqonun e.ə. 714-cü ildəki böyük yürüşündən sonra Urmiya gölü hövzəsindəki bir çox ərazilərin itirilməsinə baxmayaraq, Urartu bu bölgəyə hakim olmaq niyyətindən heç vaxt əl çəkməmişdir. Əksinə, həmin ərazilər bundan sonra Aşşur dövlətinin heç vaxt hakimiyyəti altına keçməmiş, urartulular maneəsiz Urmiya gölünün şimalından keçərək Xəzər dənizinə doğru irəliləmişdir[13]. Razlıq qaya kitabəsi isə Sərab yaylasında, Təbrizdən 120 km şərqdə, Ərdəbilə və Xəzər dənizinə gedən yol üzərində yerləşir. Kitabədə deyilir:

"Tanrı Haldinin qüdrəti ilə Rusa oğlu Argişti dedi ki, Arhu ölkəsinə qarşı səfərə çıxdım. Uşulu ölkəsini və Buku ölkəsini ələ keçirdim. Muna çayına qədər irəlilədim və oradan geri döndüm. Girduni ölkəsini, Qituhani ölkəsini və Tuisdu ölkəsini ələ keçirdim və böyük İruqima şəhərini ələ keçirdim. Zəbt etdiyim ölkələri [xərac ödəmələri şərti ilə] azad etdim. Bundan başqa bu qalanı güc tətbiq edərək aldım [və yenidən] inşa etdirdim. [Oraya] Argişti-irdu adını verdim. Biainili ölkəsinin möhkəmləndirilməsi və düşmən ölkələrin məğlub edilməsi üçün [bunu etdim]. Tanrı Haldinin böyüklüyü ilə Argişti, güclü kral, Şurili ölkəsinin kralı, Biainili ölkəsinin kralı, krallar kralı və Tuşpa şəhərinin qəhrəmanıdır. Argişti dedi ki, hər kim bu yazıya qarşı günah işlədərsə tanrı Haldi, tanrı Teişeba, tanrı Şivini [və bütün] tanrılar onu günəş işığından məhrum etsinlər"[14].

Razlıq qaya kitabəsindən daha kiçik olan Naşteban kitabəsi də II Argişti dövrünə aiddir. Naşteban yazılı mətni həm özündə ehtiva etdiyi mühüm məlumatlar baxımından, həm də Urartu ordusunun şərqdə çatdığı ən ucqar nöqtələrdən birini göstərməsi baxımından əhəmiyyət kəsb edir[15]. Bu epiqrafik abidələr təcrid olunmuş halda olsalar da, Urartu fəthlərinin Xəzər dənizi istiqamətində genişləndiyini göstərir[16].

Şərq istiqamətində Urartu hökmdarlarının inşa etdirdikləri ən əhəmiyyətli qalalardan biri də Bəstamdır. Bəstam şimal-qərbi İranda, Xoyun 54 km şimal-qərbində, Makunun 85 km cənub-qərbində yerləşir. Qalanın uzunluğu 8500 m, eni isə 4000 m-dir. Bəstamın 50 km qərbində İranın Türkiyə ilə sərhədi keçir, şərqində isə Naxçıvan yerləşir. Buradan tapılmış mixi yazılı kitabədən aydın olur ki, Bəstam qalası II Rusanın hakimiyyətdə olduğu dövrdə (e.ə. 685-645-ci illər) inşa edilmişdir. II Rusa tərəfindən burada Tanrı Haldi adına bir məbəd (É.BARA: hərfən "İşıqlı ev") inşa edilir və buraya

---

[12] Beatrice Andre-Salvini, Mirjo Salvini, "The Urartian Rock Inscription of Razliq and Nasteban (East Azerbaijan, Iran)". **Studi Micenei ed Egeo-Anatolici,** 41 (1), Roma, 1999, p. 19-20.

[13] Инна Медведская, «Дошли ли урарты до Каспийского моря?», **Письменные памятники Востока**, том 16, N-2, Санкт-Петербург, Вестник **Древний История,** 2019, с. 32-33.

[14] Margaret Payne, **Urartu Çivi Yazılı Belgeler Kataloğu**, İstanbul, Arkeoloji ve Sanat Yayınları, 2006, s. 275.

[15] Mirjo Salvini, **a.g.m.**, p.26-27.

[16] Инна Медведская, **Древний Иран Накануне Империй (IX-VI вв. до н.э.). История Мидийского Царства**, Санкт-Петербург, Петербургское востоковедение, 2010, 261 с., с. 68. ISBN: 5858034179, 9785858034179

Rusai URU.TUR. (hərfən: "Rusanın kiçik şəhəri") adı verilir[17]. Bundan başqa, cənubdakı Kelişin, Topzava və Daştəpə kitabələri də Urartu dövlətinin ən ucqar nöqtələrini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Belə güman olunur ki, Urmiya gölü hövzəsindəki məhsuldar ərazilər müdafiə xarakterli tikililərdən başqa, Qala-Hodar, İsmail Ağa və Urmiya kimi mərkəzlər vasitəsilə nəzarət altında saxlanılmışdır. Qala-Hodar şimal-qərbi İranda Salmas şəhərinin 13 km şimalında yerləşən Hodar kəndinin təxminən 1,2 km qərbindəki bir qayalıq üzərində yerləşir. Qeyd edilən bölgədəki digər qalalar kimi, bu qala da 1970-ci illərdə V.Kleissin rəhbərlik etdiyi arxeoloji ekspedisiya tərəfindən tədqiq edilmişdir. Qala-Hodarın yerləşdiyi coğrafi əraziyə nəzər yetirsək görərik ki, bu qala Urmiya gölü hövzəsindən Van gölü hövzəsinə gedilən yol üzərində yerləşir. Bundan başqa, qalanın daxilində aşkarlanmış qaya məzarlıqları və digər tikililər qala sahiblərinin bölgədə siyasi gücə malik əyalət başçıları olduğunu deməyə əsas verir. Əyalət mərkəzlərindən biri kimi fəaliyyət göstərən Urmiya qalası isə Urmiya şəhərinin 37 km cənubunda yerləşir. İlk dəfə V.Kleiss tərəfindən tədqiq edilən bu qala Uşnəviyə ilə Urmiya sahilini bir birinə bağlayan ərazidə kiçik bir qayalıq üzərində ucaldılmışdır[18]. Göründüyü kimi, Urmiya gölü hövzəsi Urartu hökmdarlarının daim diqqət mərkəzində olmuş və buranı nəzarətdə saxlamaq məqsədi ilə müxtəlif müdafiə tikililəri, qalalar inşa edilmişdir. Ancaq sərhəd xəttinin hansı ərazi ilə məhdudlaşdığını demək qədər çətindir. Qərb sərhədlərinə gəldikdə isə M.Salvini Fərat çayının bu coğrafiyanın qərb sərhədini formalaşdırdığını bildirir. Mənbələrdən də məlum olduğu kimi kral İşpuininin hakimiyyətdə olduğu dövrdən (e.ə. 828-810-cu illər) etibarən şimala – Göyçə gölü ətrafına hərbi səfərlər edilmişdir. Elə bu mənbələrə istinad edən M.Salvini Urartu dövlətinin Göyçə gölünün şərqini də öz təsir dairəsinə aldığını bildirir. Vandan tapılmış kitabədə aşağıdakı məlumatlara rast gəlinir:

"Sarduri oğlu İşpuini və İşpuini oğlu Menua Luša və Katarza qəbilələrini məğlub etdilər…Anaşe və böyük Kuquru...Uiteruhi, Luša, Katarza şəhərinə doğru irəlilədilər... Etiuhi ölkəsinin hökmdarlarından onlara kömək etmək üçün əlavə qüvvələr göndərildi…"[19]. Mətndə adları çəkilən yerlərin Göyçə gölünün qərbində yerləşdiyi məlumdur. Bu ərazilərə edilmiş hərbi səfərlər nəticəsində yüzlərlə at, mal-qara qənimət kimi aparılmışdır[20].

M.Salvini cənub sərhədlərindən bəhs edərkən digər müəlliflər kimi Tavr dağ silsiləsini göstərsə də, müxtəlif dövrlərdə sərhəd xəttinin Kərkük və Habur istiqamətində genişləndiyini qeyd etmişdir.

---

[17] Harun Danışmaz, **a.g.ə.**, s.117.
[18] Harun Danışmaz, **a.g.ə.**, 259.
[19] Margaret Payne, **a.g.ə.**, s.36-37.
[20] Altan Çilingiroğlu, **Urartu Krallığı: Tarihi ve Sanatı.** Yaşar Eğitim ve Kültür Vakfı Yayını, Izmir 1997, s. 30.

Urartu dövlətinin qərb sərhədləri ilə bağlı elmi tədqiqatlar aparan K.Köroğlu Elazığ və ətrafından əldə edilmiş kitabələrə, arxeoloji nümunələrə istinadən bildirmişdir ki, müəyyən dövrlərdə Urartu ordusu Fərat çayını keçərək burada hərbi qarnizonlar üçün mərkəzlər inşa etmişdir. Lakin dövlətin sərhədi kimi çayın şərqini qeyd etməyi müəllif daha doğru hesab etmişdir[21].

***Nəticə***

Ümumiləşdirmə apararaq qeyd edə bilərik ki, ötən əsrin 60-70-ci illərindən etibarən şimal-qərbi İranda, daha sonrakı dövrlərdə şərqi Anadoluda aparılan arxeoloji tədqiqatlar Urartu dövlətinin sərhədləri probleminin bir çox aspektlərini işıqlandırmaq baxımından əhəmiyyətli olmuşdur. Bundan başqa mixi yazılı kitabələrdəki məlumatlar da dövlətin hansı əraziləri diqqət mərkəzində saxladığını müəyyənləşdirmək baxımından bir sıra ip uclarını özündə ehtiva edir. Lakin məhz sərhədlər ilə bağlı dəqiq məlumatları özündə ehtiva edən hər hansı bir yazılı mətnə rast gəlinməməsi və aparılan arxeoloji qazıntıların natamam xarakter daşıması Urartu dövlətinin hansı sərhədlər daxilində mövcudluğu ilə bağlı qəti fikir irəli sürməyi çətinləşdirir.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

***Türk dilində***

1. Çilingiroğlu Altan, **Urartu Krallığı**: **Tarihi ve Sanatı,** Yaşar Eğitim ve Kültür Vakfı Yayını, İzmir 1997.
2. Danışmaz Harun, **Urartu Krallığı**: **Yönetim ve Organizasiyon**, Türk Tarih Kurumu, Ankara 2020.
3. Köroğlu Kemalettin, **Urartu Krallığı Döneminde Elazığ (Alzi) ve Çevresi**, Arkeoloji ve Sanat Yayınları, İstanbul 1996.
4. Payne Margaret, **Urartu Çivi Yazılı Belgeler Kataloğu**, Arkeoloji ve Sanat Yayınları, İstanbul 2006.
5. Sevin Veli, "Malatya-Elazığ-Bingöl İlleri Yüzey Araştırması, 1985", **IV Araştırma Sonuçları Toplantısı**, Ankara 1987, s. 279-300.
6. Zimanski Paul, "Urartu ve Çağdaşları", **Urartu Dogu'da Değişim**, Yapı Kredi Yayınları, İstanbul 2020.

[21] Kemalettin Köroğlu, **Urartu Krallığı Döneminde Elazığ (Alzi) ve Çevresi**, Arkeoloji ve Sanat Yayınları, İstanbul 1996, s. 99.

***İngilis dilində***

7. Andre-Salvini Beatrice, Mirjo Salvini, "The Urartian Rock Inscription of Razliq and Nasteban (East Azerbaijan, Iran)", **Studi Micenei ed Egeo-Anatolici,** 41 (1), Roma, 1999, p. 17-32.
8. Barnett Richard David, "Urartu", **Cambridge Ancient History,** J. Boardman (ed), III/1, the Prehistory of the Balkans; the Middle East and the Aegean World, tenth to eighth centuries B.C., Cambridge University Press, Cambridge 1982, p. 314-371.
9. Luckenbill Daniel David, **Ancient Records of Assyria and Babylonia I**, Chicago 1926.
10. Muscarella Oscar White, "Qalatgah: an Urartian Site in Northwestern Iran"**, Expedition,** vol 13, nos 3/4, Philadelphia Spring 1971, p. 44-49.
11. Piotrovskii Boris, **Urartu,** The Cresset Press, Barrie & Rockliff, London 1969.
12. Reade Julian E, Aššurnaṣirpal I and the White Obelisk", **Iraq,** Vol 37, No 2, Cambridge University Press, 1975, p. 129-150.
13. Zimansky Paul, **Ecology and empire: The structure of the Urartian State,** The Oriental Institute, Chicago 1985.

***Alman dilində***

14. Schlaich, F. **"Das Urartaerreich"**, W.Röllig (ed), Tübinger Atlas des Vorderen Orient (TAVO), Wiesbaden: Tübingen Üniversitat, 1998.
15. Kleiss Wolfram, Kroll Stephan, "Die Burgen von Libliuni (Seqindel)", **Archaologische Mitteilungen aus lran,** 13**, Berlin, Dietrich Reimer Verlag,** 1980, p. 21-61.

***Rus dilində***

16. Медведская Инна, "Дошли ли урарты до Каспийского моря?", **Письменные памятники Востока, том 16, N-2,** Санкт-Петербург, Вестник **Древний История, 2019,** с.19-39.
17. Медведская Инна, **Древний Иран Накануне Империй (IX-VI вв. до н.э.) История Мидийского Царства,** Санкт-Петербург Петербургское востоковедение, 2010.


MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR


Göyüşova Əsmər İlham qızı – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, Azərbaycan, Bakı.

Goyushova Asmar Ilham – doctoral candidate of A.A.Bakikhanov Institute of History, ANAS, Azerbaijan, Baku.

## ÜMUMİ TARİX – GENERAL HISTORY

# ERMƏNİSTANDA SOVET HAKİMİYYƏTİNİN QURULMASINDA RK(b)P-NIN QAFQAZ BÜROSUNUN ROLU

©2021

SEVİNC RƏHİMOVA

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID: 0000-0001-5449-6978; е-м: rehimova.74@mail.ru

***Xülasə:*** *1917-ci ilin fevral-oktyabr aylarında baş verən proseslər, monarxiyanın dağılması və bolşeviklərin hakimiyyətə gəlməsi regionda vəziyyəti köklü şəkildə dəyişdi. Bolşeviklər Cənubi Qafqaz dövlətlərin sovetləşdirilməsi prosesini həyata keçirməyə başladı. Ermənistanda sovetləşmə prosesi Azərbaycanla bilavasitə bağlı idi. Belə ki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasından istifadə edən daşnaklar ərazi iddialarını bir daha gündəmə gətirdilər və bu yolda hər vasitədən istifadə etdilər. Ermənistanda Sovet hakimiyyətinin qurulmasında RK(b)P-nin Qafqaz bürosunun müstəsna rolu vardı. Unutmaq olmaz ki, Türkiyə ilə qısa müddətli müharibədəki məğlubiyyəti də həmçinin erməniləri bolşeviklər ilə 2 dekabrda müqavilə imzalamağa məcbur etdi.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, sovetləşmə, Bolşevik Rusiyası .*

# THE ROLE OF THE CAUCASIAN BUREAU OF THE RC(b)P IN THE ESTABLISHMENT OF SOVIET POWER IN ARMENIA

©2021

SEVİNDJ REHIMOVA*

* A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0001-5449-6978; e-mail: rehimova.74@mail.ru

***Abstract:*** *The processes that took place in February-October 1917, the collapse of the monarchy and the coming to power of the Bolsheviks radically changed the situation in the region. The Bolsheviks began the process of Sovietization of the states of the South*

*Caucasus. The process of Sovietization in Armenia was directly connected with Azerbaijan. Thus, the Dashnaks, who took advantage of the establishment of Soviet power in Azerbaijan, once again raised their territorial claims and used all means in this direction. An exceptional role in the establishment of Soviet power in Armenia played the Caucasian Bureau of the RC(b)P. It should not be forgotten that the defeat in the short-term war with Turkey also forced the Armenians to sign an agreement with the Bolsheviks on December 2.*

***Key words:*** *South Caucasus, Sovietization, Bolshevik Russia.*

## РОЛЬ КАВКАЗСКОГО БЮРО РК(б)П В УСТАНОВЛЕНИИ СОВЕТСКОЙ ВЛАСТИ В АРМЕНИИ

©2021

СЕВИНДЖ РАГИМОВА*

* Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0001-5449-6978; e-мail: rehimova.74@mail.ru

***Резюме:*** *Процессы, происходившие в феврале-октябре 1917 года, крах монархии и приход к власти большевиков коренным образом изменили ситуацию в регионе. Большевики начали процесс советизации государств Южного Кавказа. Процесс советизации в Армении был непосредственно связан с Азербайджаном. Так как, дашнаки, воспользовавшиеся установлением советской власти в Азербайджане, в очередной раз выдвинули свои территориальные претензии и использовали в этом направлении все средства. Исключительную роль в установлении Советской власти в Армении сыграло Кавказское бюро РК(б)П. Не следует забывать, что поражение в кратковременной войне с Турцией также вынудило армян 2 декабря подписать соглашение с большевиками.*

***Ключевые слова:*** *Южный Кавказ, советизация, большевистская Россия.*

### *Giriş*

Cənubi Qafqazın sovetləşməsi tarixi son dərəcə maraqlı və aktuallığını itirməyən məsələdir. Belə ki, Rusiyanın yüz il əvvəl yeritdiyi siyasət indi də demək olar ki, dəyişməz olaraq qalır. Təqdim olunan məqalə də bu aktual problemə növbəti baxışdır.

Hələ Birinci dünya müharibəsi illərində Böyük Britaniya və Rusiyadan kömək istəyən lakin bütün saxtakarlıqlarına baxmayaraq Anadoludakı torpaq iddialarını reallaşdıra bilməyən ermənilər 1918-ci ildə Azərbaycan torpaqları hesabına Cənubi Qafqazda öz dövlətlərini qurmağa nail oldular. Hakimiyyətə gələn daşnaklar yerli

müsəlman əhaliyə qarşı etnik təmizləmə siyasətini yeritməyə başladılar[1]. Bu zaman müttəfiq dövlətlərin Türkiyəyə qarşı birləşməsi də Ermənistanın hakim dairələrinin işinə yaradı.

Bəhs olunan dövrdə Rusiyada monarxiya böhranı, imperiyanın parçalanması, 1917-ci ilin fevral-oktyabr aylarında baş verən proseslər, bolşeviklərin hakimiyyətə gəlməsi regionda vəziyyəti köklü şəkildə dəyişdi. Romanovlar sülaləsinin ənənəvi imperial-millətçi siyasəti kiçik xalqların qarşılıqlı millətçiliyini yaratmaya bilməzdi. Hakimiyyətə gələn bolşeviklər qonşu dövlətlərin sovetləşməsini labüd hesab edirdi. Bir məqam qeyd edilməlidir ki, Ermənistanda sovetləşmə bir başa Azərbaycanda sovetləşmə prosesi ilə əlaqəli təhlil edilməlidir. Cənubi Qafqazda "sovetləşmə" prosesinin tarixinin izlənməsi və təhlili arxiv materiallarında geniş şəkildə öz əksini tapmışdır.

Bütün Cənubi Qafqazın sovetləşməsi ideyası tam olaraq 1920-ci ilin yazında meydana gəldi. Azərbaycanın sovetləşməsindən sonra bolşevik hökumətinin Cənubi Qafqazla bağlı planlarının əsas mahiyyətini Ermənistan və Gürcüstanla gələcək münasibətlər və Türkiyə ilə birbaşa quru əlaqənin yaradılması təşkil edirdi. Əslində bolşeviklər hər iki məsələni bir-biri ilə əlaqədə görürdülər. Moskvanın bu regionda siyasətinin formalaşmasında əsas rolu RSFSR xalq xarici işlər komissarı G.Çiçerin və onun müavini Karaxan, RK(b)P Qafqaz bürosunun və Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvü S.Orconikidze, RSFSR Hərbi İnqilab Şurasının üzvü, Millətlər üzrə xalq komissarı İ.Stalin oynayırdı[2]. Bu məsələdə ən mühüm məqam Azərbaycanda Sovet hakimiyyətini qurmaq idi. Belə ki, Azərbaycanın əlverişli geosiyasi mövqeyi, eyni zamanda Bakı nefti yeni qurulmuş Sovet hökümətinin prioritet məsələlərindən biri idi. Hətta bu məsələnin əhəmiyyəti barədə Leninin Orconikidzeyə məktubunda da qeyd edilir[3]. Sovetləşmədən sonra da verilən qərarlar bunu təsdiq edir[4]. Lakin bolşeviklər Azərbaycanda Musavat hökumətinin əks-müqavimətini ciddiliyini dərk edərək yalnız silah yolu ilə sovetləşmə prosesinin aparılmasının mümkün olacağını anladılar. 26 aprel tarixində Azərbaycan sərhədini keçən Qırmızı ordu, yerli kommunistlərin də köməyi ilə

---

[1] Ильгар Нифталиев, «Дашнакские отряды сделали свое подлое дело…», **Азербайджанские известия** (газета), 30 марта 2013, с.3.

[2] Kamran İsmayılov, "Azerbaycanın Sovyetleşmesinden Sonra Sovyet Rusya'nın Nahçıvan Bölgesi'ne Yönelik Politikası (Mayıs-Temmuz 1920)", **Akademik Tarih ve Düşünce Dergisi**, Cilt 6, Sayı 5, 2019/

[3] Владимир Ленин, **Полное собрание сочинений (дальше ПСС),** изд. 5-е, Москва, издательство политической литературы, 1965, с. 163-164.

[4] Ильгар Нифталиев. **Азербайджанская ССР в экспансионистских планах армян: 20-е годы XX века**, Təhsil, Баку 2010, с. 228-229.

28 apreldə hakimiyyəti ələ keçirdi[5]. Sovet hakimiyyətinin Azərbaycanda qələbəsi bütün Cənubi Qafqazdakı vəziyyəti dəyişdi[6].

Azərbaycandakı mövcud vəziyyətdən istifadə edən daşnaklar 1920-ci ilin iyulunda Zəngibasar ərazisinə hücum edib yerli müsəlman əhaliyə zülm etdilər. Bu zaman Şahtaxtı stansiyasını ərazisində 48 kəndi tamamilə dağıtmış, 160 min nəfər əhalini ev-eşiksiz qoymuşdular. Bundan əlavə Vedibasar rayonunda 118, Dərələyəzdə 74, bu rayonlardan 50 mindən çox iri buynuzlu mal-qara aparılmış, 500 min insan qarət edilərək öz yurdlarını itirmişlər[7]. Məqsəd yerli əhalini evsiz-eşiksiz qoyub, öz ata-baba yurdlarını tərk etdirib, bu əraziləri erməniləşdirmək idi. Yerli əhaliyə qarşı həyata keçirilən bu etnik təmizləmə siyasətinə biganə qala bilməyən Azərbaycan hökuməti Ermənistana nota göndərir. Bolşevik Rusiyası Ermənistanla Azərbaycan arasındakı gərginlikdən istifadə edərək Ermənistan ilə sülh müqaviləsi bağlamağa cəhd edirdi. G.Çiçerin Azərbaycan torpaqlarını əsassız şəkildə Ermənistana verməklə həm Azərbaycandan, həm də Ermənistandan təzyiq vasitəsi kimi istifadə etmək məqsədində idi. Ermənilər də bu yolda mümkün olan bütün vasitələrdən istifadə edirdilər[8].

İlk iş olaraq S.Orconikidze Ermənistan hökumətinə ultimatum göndərir və Azərbaycan ərazisində hər hansı bir hərbi əməliyyatların dayandırılmasını tələb edir. Əlbəttə ki, bolşeviklər Cənubi Qafqazın sovetləşməsi planının davam etdirilməsi ideyalarını daha da dərinləşdirməkdə idilər.

Azərbaycandan sonra həm Gürcüstan, həm də Ermənistan artıq bu sovet işğalının astanasında idilər. 30 aprel tarixində Azərbaycandakı S.Orconikidzenin təkidi ilə Ermənistana Zəngəzurun və Dağlıq Qarabağın Azərbaycana geri qaytarılması haqqında ultimatum göndərdi. S.Orcanikidzenin hesablamalarına görə bu Ermənistanın sovetləşməsində atılan ilk addım olmalı idi.

Ermənistan xarici işlər naziri, eyni zamanda Daşnaksutyun partiyasının liderlərindən biri olan A.Ohancanyan mayın 1 də Bakıya və Moskvaya teleqram vuraraq maksimum güzəştlər əldə edərək Zəngəzura, Qarabağa silahlı müdaxilənin qarşısını almaq istəyirdi. Əks təqdirdə, Azərbaycan SSR Hərbi İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində olduğunu hesab edəcəyini bildirirdi. Həmin gün Orconikidze, Kirov, Mexonoşin və Levandovskinin imzası ilə Ermənistan hökumətinə göndərilmiş teleqramda ondan 24 saat ərzində öz qoşunlarını Sovet

---

5 Musa Qasımlı, **Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları olduğu kimi: Tarix olduğu kimi (1920-1994-cü illər)**, Bakı, Elmi inkişaf fondu, 2016, PDF, s.15.

6 Юсиф Багиров, **Из истории советско-турецких отношений 1920-1922**, Баку, Изд-во АН Азерб. ССР, 1965, s. 73.

7 Qasımlı, **a.g.ə.**, s. 22.

8 **История Азербайджана по документам и публикациям**, под. ред. З.М. Буниятова, Баку, Элм, 1990, с.191.

Azərbaycanının ərazisindən çıxarması tələb edirdi[9]. Erməni hökumətinin belə təşvişə düşməsi S.Orconikidzenin hazırladığı işğal planının həyata keçəcəyinin təminatı idi. Hətta Erməni hökuməti mehriban dostluq münasibətləri yaratmaqdan ötrü Levon Şantın rəhbərliyi ilə hökumət nümayəndələrini Moskvaya göndərir[10].

Lakin nümayəndə heyətinə məlumat verilir ki, 24 saat ərzində Ermənistan ordusu Azərbaycan ərazisindən çıxarılmalıdır. Əlbəttə ki, nümayəndə heyəti bunu təkzib edərək Azərbaycan ərazisində Ermənistan hərbi hissələrinin olmadığını teleqram vasitəsilə mərkəzə xəbər verir.

Paralel olaraq Gürcüstanda sovetləşmə planlarının həyata keçirilməsi yolunda fəaliyyət göstərən S.Orconikidze orada MK birinci katibi vəzifəsinə yaxın dostu və silahdaşı S.Kirovu məsləhət bildi. Digər namizəd isə B.Mdivani idi. Özünə yaxın bildiyi insanları hakimiyyətə gətirərək o, Cənubi Qafqazda kommunist partiyasının tam nəzarətinin əldə etmək istəyirdi. Lakin hadisələr başqa cür cərəyan etdi. Belə ki, gürcü kommunistləri hakimiyyəti ələ keçirmək üçün növbəti dəfə uğursuz cəhd etdi. Gürcüstan hökuməti üsyan qaldıran kommunistlərə qarşı ciddi tədbirlər görürdü. Antantanın dəstəyi ilə menşeviklər belə çıxışların qarşısını dərhal aldılar. 10 may tarixində Abxaziyada gürcü kommunistlərinin yeni çıxışları haqqında V.Lenin və İ.Stalinə məlumat verən S.Orconikidze qarşı tərəfdən gözlənilməz cavabla qarşılaşdı. Belə ki, V.Lenin beynəlxalq vəziyyəti nəzərə alaraq Gürcüstanda aktiv fəaliyyət üçün tələsməməyə əksinə Azərbaycanda möhkəmlənməyə və bu istiqamətdə fəaliyyət göstərməyin vacibliyini bildirdi. Bu mövqe isə S.Orconikidzenin Cənubi Qafqaz siyasəti ilə üst-üstə düşmürdü[11].

7 may 1920-ci il tarixində Sovet hökuməti isə Gürcüstan Demokratik Respublikası arasında müqavilə imzalanır. Sənədə əsasən Sovet Rusiyası Gürcüstanın müstəqilliyini tanıyır, əvəzində isə menşevik hökuməti Kommunist partiyasını fəaliyyətini qanuniləşdirilməsinə icazə verir. Gürcüstanın sovetləşməsi planında geri çəkilməli olan S.Orconikidze Ermənistan cəbhəsinə qayıdaraq buradakı sovetləşmə prosesini aktivləşdirməyə başladı[12].

1920-ci ilin mayın ikinci yarısında Ermənistanın sovetləşməsi üçün irimiqyaslı planlara start verilir. Mərkəzi bu barədə məlumatlandıran S.Orconikidze ənənəvi planla hərəkət etməyi üstün tutdu. Belə ki, Ermənistana türklərə (kamalçılara) kömək bəhanəsi ilə rus ordusunu Ermənistan ərazisindən keçməsi planını məsləhət bildi[13].

---

[9] İsmayılov, **a.g.ə.**, s. 164-188.
[10] Российский Государственный Архив Социально-Политической Истории (**РГАСПИ)**, ф.85, оп.2/С, д,1, лл. 1-6.
[11] Хачатур Степанян, «Советизация Армении (попытка сравнительного анализа)", Мир русскоговорящих стран, **https://cyberleninka.ru/article/n/ sovetizatsiya-armenii-popytka-sravnitelnogo-analiza/ viewe**r, istifadə tarixi: 24.06.2019
[12] РГАСПИ, ф.85, оп.2/С, д. 1, л. 4.
[13] Qasımlı, **a.g.ə.,** s.21.

Bütün cəhdlərinə baxmayaraq mərkəz onun bu planının zamansız olduğunu bildirdi. Lakin S.Orcanikidze Cənubi Qafqazla bağlı planlarının onun istədiyi kimi həyata keçirmək üçün Gəncə hadisələrindən istifadə etdi. Gəncədə müsavatçıların qaldırdığı üsyan yatırıldı[14].

Daha sonra 7 iyun tarixində S.Orconikidzə yenidən Ermənistana qayıtdı və Mərkəzə Stalinə və Leninə teleqram vurdu. Teleqramın mətnində deyilirdi ki, Ermənistanda yüzlərlə kommunist qətlə yetirilir, yerli daşnak hökuməti kommunistlərə qarşı əks inqilabi fəaliyyəti gücləndirib, həbsxanalar yüzlərlə kommunistlərlə dolub daşır. O, vəziyyəti son dərəcə dramatikləşdirərək mərkəzin Ermənistanın sovetləşdirilməsi məsələsini tezləşdirməyə çalışırdı[15].

Eyni anda Azərbaycan və Ermənistandakı sovetləşmə prosesinə nəzarət etməyə çalışan S.Orconikidze Ermənistanda vəziyyətin daha gərgin olduğunu yazır. Erməni kommunistlərinin daşnak hökuməti tərəfindən ciddi təzyiqlərə məruz qaldıqlarını və bura müdaxilə etməyin vacibliyini hər dəfəsində vurğulayır[16].

Öz məqsədinə çatmaq üçün Qafqaz Bürosunun rəhbəri S.Orcanikidze qarşısına strateji məqsəd qoyaraq vəziyyətə tam nəzarət etmək niyyətində idi. Bu siyasətin təməlində Azərbaycandakı sovetləşməyə himayədarlıq etmək və Azərbaycan Ermənistan münaqişəsindən istifadə etmək dururdu. Milli qırğınları bitirmək kimi "humanist ideyaların" və sözlərin arxasında əslində qarşısına qoyduğu məqsədi tez bir zamanda həyata keçirmək niyyəti dururdu.

8-13 iyun tarixində Dağlıq Qarabağa səyahət edən S.Orconikidze mərkəzə yazır ki, davam edən münaqişə müddəti ərzində Şuşa şəhəri, Qarabağın aran kəndləri və Zəngəzur qəzasında müsəlman kəndləri ermənilər tərəfindən edilib. Həmçinin yerli müsəlman əhalisi və ermənilərin Qırmızı ordunu böyük rəğbətlə və sevinclə qarşıladığını qeyd edir[17].

Mübahisəli bölgələrdə milli münaqişələrdən məharətlə istifadə edən və aktiv fəaliyyət göstərən S.Orconikidze Moskvada olan daşnak nümayəndələrinin də işinə əngəl törədirdi.

Mübahisəli ərazilər məsələsini həll etmək və Ermənistanla danışıqlar aparmaq vəzifəsi G.Çiçerinə tapşırılmışdı. O, öz növbəsində Moskvaya göndərdiyi teleqramda Azərbaycanın Zəngəzur və Qarabağdan imtina etməyəcəyini və ümumiyyətlə danışıqlar aparmaq üçün Azərbaycan nümayəndələrinin də Moskvaya dəvət olunmalarını təklif edirdi.

---

[14] Qasımlı, **a.g.ə.,** s.22.

[15] РГАСПИ, ф.85, оп.2/С, д. 1, л 4.

[16] Российский Государственный Архив Социально-Политической истории РГАСПИ, ф.85, оп.2/С, д. 1, л 4.

[17] Хачатур Степанян, «**Советизация Армении (попытка сравнительного анализа)»,** Мир русскоговорящих стран, https://cyberleninka.ru/article/n/ sovetizatsiya-armenii-popytka-sravnitelnogo-analiza/viewer, istifadə tarixi: 24.06.2019.

Eyni zamanda Gürcüstandakı məsələləri də nəzarətdə saxlayan S.Orconikidzə öyrənir ki, Gürcüstan qarışıq gürcü-rus – Azərbaycan komissiyası yaradaraq mübahisəli sərhəd məsələlərinin həlli üçün toplaşmaq niyyətindədirlər. Onun bu başına buyruq hərəkətli G.Çiçerinin qəzəbinə səbəb olur, hətta teleqramda bildirir ki, daşnak Ermənistanı, burjua Gürcüstan və Azərbaycan milliyətçiləri ilə sülh və kompromis siyasəti mərkəz tərəfindən diktə olunur və dəstəklənir. S.Kirov və B.Leqran isə bu siyasətə sadiq qalmalıdır. Qarabağ, Zəngəzur, Naxçıvan, Culfa, Şuşa və Azərbaycana nə də Ermənistana birləşdirilməməlidir, bu ərazilər Rusiyanın hakimiyyətinə tabe olmalıdır. Əks təqdirdə bu bizim sülh siyasətimizi poza bilər[18].

Azərbaycan ərazisində vəziyyətin günü-gündən gərginləşdiyini və daha təhlükəli hal aldığını yazan S.Orconikidze demək olar ki, hər gün mərkəzə teleqramlar göndərir və ona bu vəziyyətə müdaxilə etmək üçün səlahiyyət verilməsini istəyir. Lakin onun bu cəhdləri uğurla nəticələnmir.

Sovetləşmə siyasətindəki inadkarlığı nəticəsində S.Orcanikidze 8 iyulda Stalindən teleqram alır. Teleqramda mübahisəli ərazilər məsələsində Azərbaycan və Türkiyənin tərəfində durmaq lazım gəldiyi deyilirdi. Teleqramda İ.Stalin həmçinin bu məsələni V.Lenin ilə müzakirə edəcəyini bildirir[19].

S.Orconekidze daşnak Ermənistanı ilə müqavilənin bağlanmasına qarşı idi və 1920-ci il 16 iyul tarixində İ.Stalin, V.Lenin, G.Çiçerinə müraciət edərək Ermənistan ilə müqavilə bağlamaq üçün tələsməmələrini istəyir. Bunu onunla əsaslandırır ki, Azərbaycanın iştirakı olmadan ermənilərlə razılığa gəlinsə, Naxçıvan bölgəsində yeni qırğınlar qaçılmaz olacaq[20].

Onun bu israrı nəticə verə bilərdi, ancaq Polşa cəbhəsindəki gərginlik Moskvanı məcbur etdi ki, Cənubi Qafqaz məsələsini ikinci plana atsın. S.Orconikidze isə öz növbəsində taktikasını dəyişərək məqsədinə çatmaq planlarından əl çəkmirdi. Bunun üçün Moskvaya gedib Xalq Komissarları Komitəsi ilə şəxsən görüşmək lazım idi. 20 iyul tarixində o Lenindən bir günlük iş ilə bağlı Moskvaya gəlmək üçün icazə alır[21].

26 iyulda o, Moskvaya gəlir. Həmin gün onun yaxın silahdaşı S.Kirov mərkəzə Gürcüstandakı vəziyyətlə bağlı diplomatik məktub göndərir. Məqsəd G.Çiçerin və digərlərini buranın sovetləşdirilməsi prosesinin vacibliyinə inandırmaq idi. Lakin nə S.Orconikidzenin Moskvaya səfəri nə də Kirovun məktub sovetləşmə prosesinin sürətlənməsinə təsir edə bilmədi. İyulun sonunda V.Lenin Cənubi Qafqazdakı ordunun bir hissəsinin qərb cəbhəsinə yönləndirilməsi əmri verdi.

---

[18] Хачатур Степанян.

[19] Хачатур Степанян, «**Советизация Армении (попытка сравнительного анализа)**”, Мир русскоговорящих стран, ¬https://cyberleninka.ru/article/n/ sovetizatsiya-armenii-popytka-sravnitelnogo-analiza/viewer, istifadə tarixi: 24.06.2019.

[20] РГАСПИ, ф.85, оп. 14, д. 5, л. 3-6.

[21] Вадим Муханов «К истории советизации Закавказье (1920-1921 гг.)”, **Москва, Кавказский сборник, 8 том, Русская панорама,** 2014, с. 221

Belə olan təqdirdə S.Kirov G.Çiçerinə bir sıra məktublar yazır və hər dəfəsində Gürcüstan hökumətini tənqid edir. Gürcüstan hökumətini müqavilənin şərtlərini pozmaqda günahlandırır. Hər məktubda bir az daha sərt tənqid edərək mərkəzə təsiri artırmaq istəyir.

Məlumdur ki, onun bu "informativ" məktublarının ideya rəhbəri S.Orconikidze idi. G.Çiçerinin sonuncuya olan inamsızlığını sezən S.Kirov hətta onu müdafiə də edir. S.Kirov müvəqqəti olaraq Cənubi Qafqazda Sovet siyasətinin əsas fiquruna çevrilir. Ermənistan və Azərbaycan, Ermənistan və Türkiyə, Azərbaycan və Gürcüstan mübahisəli ərazi danışıqlarını aparır.

Burada bir məqamı qeyd etmək vacibdir. Ermənistanda sovet hakimiyyətinin belə tez bir zamanda qurulmasının Türkiyə ilə birbaşa əlaqəlidir. Bildiyimiz kimi, Ermənistanın Azərbaycanla yanaşı Türkiyəyə də bitməyən torpaq iddiaları var idi. Bu torpaq iddialarını Serv müqaviləsində öz əksini tapdı. Belə ki, Serv müqaviləsi 1920-ci ilin avqustunda Antanta ilə Türkiyə sultanı arasında imzalanmışdır. Bu müqaviləyə əsasən Van, Bitlis, Ərzurum və Trabzon Ermənistana verilirdi. Əlbəttə ki, M.K.Atatürk başda olmaqla kamalçılar bu işğalçı şərtlərlə razılaşa bilməzdilər. Nəticədə bu müqavilə TBMM tərəfindən tanınmamışdır. Əslində daşnak hökumətinin bir mənalı mövqe yox idi. Azərbaycan və Gürcüstan hakimiyyətindən fərqli olaraq daşnakların bir hissəsi bolşeviklərlə, digər bir hissəsi isə Antanta ilə əlaqədə idilər. Bakı və Tiflisdən fərqli olaraq İrəvanda bolşeviklərin sayı cüzi idi[22].

Növbəti dəfə beynəlxalq arenada da öz iddialarını reallaşdıra bilməyən ermənilər sovet hökumətindən məsələnin həlli üçün yardım istəmək məcburiyyətində qalır. 14 sentyabr 1920-ci ildə B.Leqranın başçılığı ilə sovetlərin nümayəndə heyəti İrəvana gəlir. Nümayəndə heyətinin təklifinə əsasən ermənilər Serv müqaviləsindən imtina etməli və Türkiyə "imperialistləri" ilə mübarizə aparmaq üçün öz ərazilərini rus ordusunun üzünə açmalı idi. Əlbəttə ki. Ermənilər Serv müqaviləsi ilə bağlı təklifi rədd etsələr də Türkiyə arasında sərhəd məsələsinin həlli üçün rusların köməyini qəbul etdilər[23].

Lakin rusların yardımını gözləmədən ermənilər 24 sentyabrda Türkiyəyə müharibə elan etdilər. Ermənilər növbəti dəfə təkəbbürlü davranaraq türklərə qalib gələcəklərinə əmin idilər. Daşnaksutyun partiyasının liderlərindən biri olan O.Kaçaznuninin dediyinə görə ermənilər Türkiyəni Birinci Dünya müharibəsində məğlub olmuş, zəifləmiş hesab edirdilər. Hərbi əməliyyatların başlandığı vaxt Türkiyənin danışıqlar aparmaq təklifini rədd etmək ermənilərin böyük səhvi idi. Bir neçə gün ərzində qüvvələrinin yarısını itirdilər. 29 sentyabrda Kazım Qarabəkir paşanın başçılığı ilə türk ordusu Sarıqamışı tutur, oktyabrda isə Qars və Aleksandropola (Gümrü) daxil olur.

[22] Вадим Муханов «К истории советизации Закавказье (1920-1921 гг.)», **Москва, Кавказский сборник, 8 том, Русская панорама,** 2014, с. 179.
[23] Ирада Багирова, «История повторяется дважды, иногда и больше: Армения должна извлечь урок из своих ошибок», **https://1news.az/news/ 20201231034719777**, istifadə tarixi: 31.12.2020.

Noyabr ayının sonlarına doğru Sovet Rusiyasının Ermənistandakı nümayəndəsi B.Leqran S.Orconikidzeyə yazaraq bildirir ki, Dro başda olmaqla daşnaklar arasında "sovetləşmə" ideyasını qəbul edən və "Ermənistan-Türkiyə münaqişəsini Sovetlərin və Qırmızı ordunun köməyi ilə həll etməyə razı olan" bir qrup var. Daşnaklar arasında da o dövr üçün bolşevik bayrağı altında olmağın yeganə çıxış yolu olduğunu qəbul edənlər var idi[24]. Vaxt itirmədən 22 noyabrda İ.Stalinə məlumat verən S.Orconikıdze sovetləşmə prosesinə davam etməyə hazır olduğunu bildirir. Daha sonra S.Orconikidze türklərin (kamalçıların) Aleksandropola (Gümrü) hücum etdiyini, yerli daşnak nümayəndələrinin şəhərdən qaçdığını və orada kommunistlər tərəfindən İnqilab Komitəsinin yarandığı xəbərini verir. İ.Stalin bu informasiyanı Leninə çatdırır və Qafqaza hərbi yardım göndərilməsini sürətləndirməyi xahiş edir[25].

Ermənistanda Ohancanyanın rəhbərlik etdiyi hökumət noyabrın 23-də istefa verdi və onun yerinə S.Vratsyanın başçılıq etdiyi yeni koalisiya hökuməti yaradıldı və bu hökumətdə ilk dəfə olaraq daşnaklarla yanaşı, Sosial İnqilabçılar da təmsil olundu[26]. 23 noyabr tarixində V.Lenin L.Trotskiyə lazımi göstərişləri verir. S.Orconikidze isə öz növbəsində Qafqazdakı vəziyyət barədə gündəlik hesabatlar verməyə davam edir. Məlumatlara əsasən Gürcüstan hökuməti vəziyyətə nəzarəti itirmək üzrə idi, belə ki, işçilər arasında kütləvi şəkildə kommunistlərə yönəlmə qeydə alınırdı. Ermənistanla bağlı sonuncu yazırdı ki, B.Leqran tam dolğun informasiya verə bilmir və ona görə də oradakı vəziyyətin ciddiyyətindən tam xəbərimiz yoxdur. S.Orconikidzenin bu "emosional" məlumatları görünür ki, nəhayət öz bəhrəsini verir və 27 noyabrda Siyasi büro fərman verir. Qərara əsasən Ermənistan, Gürcüstan, Türkiyə və İrana münasibətdə mümkün qədər barışdırıcı siyasət kürsü əsas götürülməli, müharibədən qaçılmalı, Azərbaycanı və Xəzərdəki mövqeyi qorumaq əsas vəzifə olaraq müəyyənləşdirilməli idi. S.Orconikidze isə Bakıda qalıb buradakı İnqilab Komitəsinin idarə olunmasını həyata keçirilməli idi.

Verilən bu qərar S.Orconikidzenin ürəyincə olmadı. Nəhayət o mərkəzdən yan keçərək, müstəqil hərəkət etmək qərarına gəlir. 29 noyabr tarixində o Ermənistandakı rus kommunistlər və bəzi yerli daşnaklarla əlaqə yaradaraq gizlilik şəraitində sovetləşmə işinin başa çatdırılacağını bildirir.

V.Trifonovla əlaqə saxlayan S.Orconikidze B.Mdivaninin Ermənistandakı inqilab komitəsinin zəif olması məlumatını da əsas gətirərək V.Trifonovu bu işin riskli olmadığına inandırır. Ən əsası isə son dərəcə gizliliklə fəaliyyət göstərmək lazım gəldiyini bildirir. 29 noyabrda Mərkəzi Komitənin bu sahədə fəaliyyətin dayandırılması haqqındakı qərarı belə S.Orconikidzeyə təsir etmir və cavab olaraq elə həmin gün göndərdiyi teleqramda hadisələri öz istədiyi kimi şərh edir. Teleqramda o Ermənistan

---

[24] Ованес Качазнуни, **Дашнакцутюн больше нечего делать**, Баку, Элм, 1990, 92 с.
[25] Musa Qasımlı, **Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları olduğu kimi: Tarix olduğu kimi (1920-1994-cü illər)** Bakı, - Elmi inkişaf fondu. -2016, 520 s., PDF
[26] İradə Baqirova, a.g.m., **https://1news.az/news/ 20201231034719777,** istifadə tarixi: 31.12.2020.

ərazisində artıq inqilab komitəsinin aktiv fəaliyyətinin başladığını kommunistlərin Ermənistanda sovet hökumətinin qurulduğunun elan edəcəklərini yazır.

Daha sonra Leqrana və Mdivaniyə teleqram göndərərək məlumat verir ki, Dro (D.Kanayan) başda olmaqla sovetyönümlü daşnaklara yardım etmək lazımdır. Onları əmin etmək lazımdır ki, Sovetlər qurulduğu halda onların tam təhlükəsizliyi təmin ediləcəkdir.

B.Leqran öz növbəsində məlumat verir ki, Dro İrəvanda yeni hökumət formalaşdırıb və Sovet hökumətinin elan olunmasına etiraz etmir. Azərbaycanda isə Ermənistan Azərbaycan arasında sərhədlərin ləğv olunması Zəngəzur və Naxçıvanın Ermənistana güzəştə gedilməsi və Dağlıq Qarabağda yaşayan ermənilərə sərbəst öz müqəddəratlarını təyin etmək təklif olunduğu xəbəri gəlir. Hadisələr S.Orconikidzenin planına əsasən həyata keçirdi[27].

Lakin İrəvandan gələn məlumata əsasən Dronun sovetləşmənin 3 dekabr tarixinə ertələnməsini istədiyi ortaya çıxır. S.Orconikidze Ermənistandakı İnqilab Komitəsinin əmin addımlarla irəlilədiyinə və bir güllə belə atmadan Sovet hakimiyyətini elan edəcəyinə əmin idi. 1 dekabr tarixində V.Trifonovla danışıq zamanı o ilk dəfə açıq şəkildə Ermənistandakı köhnə hökumətin devriləcəyini və Dilicandakı İnqilab Komitəsinin İrəvana gələnədək hakimiyyətin hərbi komitəyə veriləcəyini açıq şəkildə dilə gətirir. Planlarını istədiyi kimi həyata keçirən Qafqaz Bürosunun sərdi Orconikidze 2 dekabr tarixində Mərkəz ilə əlaqə yaradaraq Ermənistanda sovet hakimiyyətinin qurulması xəbərini verir. RKP Ermənistan Komitəsinin rəhbəri S.Kasyan 29 noyabrda faktiki olaraq daşnak hökumətinin devrildiyini və Sovet hökumətinin qurulduğunu elan etmişdi. 3 dekabr tarixində V.Lenin S.Kasyana teleqramında imperializm boyunduruğundan qurtulmuş zəhmətkeş Sovet Ermənistanını salamladığını söylədi. Rusiya Türkiyə hücumu başlamazdan əvvəl Ermənistan hökumətinin yurisdiksiyasında olan bütün torpaqları, o cümlədən Zəngəzuru Sovet Ermənistanının danılmaz hissələri kimi tanıdı. Rusiya respublikanı müdafiə etmək üçün lazımi hərbi qüvvə ilə təmin etmək üçün təcili addımlar atmalı idi[28].

Burada Xatisyan hökuməti ilə Osmanlılar arasında 2 dekabrda imzalanan Aleksandropol sülhünün erməni hökumətinin mövqeyini dəyişməsinin ciddi təsiri oldu. Türklərə qarşı ağır məğlubiyyətdən sonra Türkiyə torpaqlarına olan iddialarından əl çəkən ermənilər Sovet hökumətinin himayəsini qəbul etmək məcburiyyətində qalır.

1920-ci ilin 2 dekabrında Sovet rejimi hakimiyyətə gəlsə də 1921-ci ilin fevralında daşnaklar sovet rejiminə qarşı üsyan başlatdı və nəticədə hakimiyyət yenə daşnakların əlinə keçdi. Həmin ilin 2 aprel tarixinədək daşnaklar hakimiyyətdə qaldı. Lakin 2 apreldə Ermənistanda bütövlükdə Sovet hakimiyyəti quruldu.

---

[27] Ованес Качазнуни, **Дашнакцутюн больше нечего делать**, Баку, Элм, 1990, s.10.
[28] İradə Baqirova, a.g.m., **https://1news.az/news/ 20201231034719777,** istifadə tarixi: 31.12.2020.

1920-ci ilin aprelindən Azərbaycandan başlayaraq Cənubi Qafqazın "sovetləşdirilməsi" prosesi Ermənistan və Gürcüstanla davam edir. Sxem demək olar ki, eyni idi. Əvvəlcə paytaxtda kommunist çevrilişi, İnqilab Komitəsinin yaradılması, Sovet Rusiyasına kömək üçün müraciət, sonuncunun qoşunlarının yeridilməsi və Moskvadan "azad edilmiş xalqa" salamlar. Bu işdə Mərkəzi komitəyə yerli partiyalar da kömək edirdilər.

***Nəticə***

Belə bir nəticəyə gəlmək olar ki, ermənilər yalnız təhlükəsizlik üçün ruslarla ittifaq axtarırdılar. Sovet Rusiyası heç vaxt xalqlara, o cümlədən ermənilərə öz müqəddəratını təyin etmək hüququ vermək niyyətində deyildi. Bu, sadəcə bir şüar idi. Bunu Sovet Rusiyasının Ermənistanın sovetləşdirilməsində irəli getməsi sübut edir. Daşnak Ermənistanın özü bolşevizmləşməni uzun müddətləngitdi. Moskva Transqafqazı ilhaq etdi, Moskva isə Türkiyəyə Kars və Ərdahanı verməklə mükafatlandırdı. Aydındır ki, onlar çar Rusiyası və Sovet Rusiyası kimi Ermənistanda da işğalçılıq planları həyata keçirmişlər[29].

Erməni tarixçiləri arasında da belə düşünənlər var. Belə ki, bir çoxları 2 dekabr 1920-ci ildə daşnaklar hakimiyyəti bolşeviklərə verərkən Rusiya dövlətinin erməniləri fiziki cəhətdən qoruyacağına əmin idilər[30]. Onlar adətən belə mövqedən çıxış edirlər ki, Sovet Rusiyası Ermənistanın siyasi, iqtisadi cəhətdən son dərəcə zəif olmasından istifadə edərək onu sovetləşməyə məcbur etdilər. Lakin bu mövqe ilə razılaşmayan Oqanesyan E. yazır ki, Ermənistanı zəiflədən onu Türkiyə ilə müharibəyə sövq edən daşnaklar idi. Daşnakların əksinə Sovet Rusiyasını onlara yardım edən tərəf kimi qiymətləndirir[31].

Qurulmuş Sovet hakimiyyətinin legitimləşdirilməsi prosesi də adətən eyni ssenari üzrə həyata keçirilirdi. Tez-tələsik qurultayların keçirilməsi, icra və cəza sistemlərinə öz tərəfdaşlarının təyin edilməsi və s.

Azərbaycan, Gürcüstan və Ermənistan sovetləşdirildikdən sonra bu dövlətlərin vahid bir qurumda birləşdirilməsi ideyası ortaya atıldı. Bu ideyanın rəhbəri V.Lenin əksinqilabi hərəkatın qalıqlarını məhv etmək üçün Cənubi Qafqaz respublikalarının iqtisadi və hərbi-siyasi birliyinin vacib olduğunu müdafiə edirdi. Nəticədə 12 mart 1922-ci il tarixində Tiflisdə Azərbaycan SSR MİK, Gürcüstan SSR MİK və Ermənistan SSR MİK nümayəndələrinin birgə iştirakı ilə keçirilən konfransda respublikalar arasında ittifaq müqaviləsini təsdiq etdi və Zaqafqaziya Respublikaları Federativ İttifaqının (ZRFİ) yaradıldı. Hərbi işə, maliyyəyə, xarici ticarətə, yollara, rabitə vasitələrinə, əksinqilabla

[29] Ричард Пайпс, **Россия при большевиках,** Москва 1997, с.91.
[30] Хачатур Ростомович Степанян, «Советизация Армении (попытка сравнительного анализа)», **Мир русскоговорящих стран**, https://cyberleninka.ru/article/n/ sovetizatsiya-armenii-popytka-sravnitelnogo-analiza/viewer, istifadə tarixi: 10.02.2016.
[31] Эдуард Оганесян, **Век борьбы**, Москва-Мюнхен, Феникс,1991, 385 s.

mübarizəyə rəhbərlik edən İttifaq Soveti və iqtisadi siyasəti müəyyənləşdirən Ali İqtisadi Şura təşkil olundu.

Növbəti addım Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının yaradılması oldu ki, bu qurumla yeni yaradılmış respublikaların bütün "müstəqilliyi" əllərindən alındı.

Sonda qeyd etmək yerinə düşərdi ki, Ermənistan yüz il əvvəldə mövcud olan siyasi kursundan əl çəkməmişdir. Qonşu dövlətlərə qarşı ərazi iddiaları olan Ermənistan heç bir zaman normal qonşuluq münasibətlərini qura bilməmişdir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Kamran İsmayılov "Azerbaycanın Sovyetleşmesinden Sonra Sovyet Rusya'nın Nahçıvan Bölgesi'ne Yönelik Politikası (Mayıs-Temmuz 1920)", **Akademik Tarih ve Düşünce Dergisi**, Cilt 6, Sayı 5, 2019,
2. Musa Qasımlı, **Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları olduğu kimi: Tarix olduğu kimi (1920-1994-cü illər)**, Bakı, Elmi inkişaf fondu, 2016, PDF.
3. Nazim Mustafa **İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920)** Bakı: Elm, 2017, 328 s.
4. Юсиф Багиров. **Из истории советско-турецких отношений 1920-1922**, Изд-во Баку, АН Азерб. ССР, 1965.с 143.
5. Ирада Багирова. «История повторяется дважды, иногда и больше: Армения должна извлечь урок из своих ошибок», **https://1news.az/news/ 20201231034719777**, istifadə tarixi: 31.12.2020.
6. Галоян Галуст Борьба за Советскую власть в Армении. Москва, Политиздат. 1957. 254 с.
7. Российский Государственный Архив Социально-Политической истории РГАСПИ, ф.85, оп.2/С, д.1, 1-6.
8. Российский Государственный Архив Социально-Политической истории, РГАСПИ, ф.85, оп.2/С, д. 1, л 4.
9. Российский Государственный Архив Социально-Политической истории РГАСПИ, ф.85, оп. 14, д. 5.
10. **История Азербайджана по документам и публикациям**, под. ред. З.М.Буниятова, Баку, Элм, 1990.
11. Ованес Качазнуни Дашнакцутюн больше нечего делать, Баку, Элм, 1990.
12. Ленин Владимир. **Полное собрание сочинений (дальше ПСС),** изд. 5-е, Москва, Государственное издание политической литуратуры, 1965,
13. Вадим Муханов. «К истории советизации Закавказье (1920-1921 гг.)", **Кавказский сборник**, 8 том, Москва, Русская панорама, 2014, с. 178-228.

14. Ильгар Нифталиев. **Азербайджанская ССР в экспансионистских планах армян: 20-е годы XX века,** Баку, Təhsil, 2010.
15. Ильгар Нифталиев. «Дашнакские отряды сделали свое подлое дело…», **Азербайджанские известия** (газета), 30 марта 2013.
16. Эдуард Оганесян. **Век борьбы**, Москва-Мюнхен, Институт Армянских Проблем, 1991.
17. Ричард Пайпс. **Россия при большевиках**, Москва, Российская политическая энциклопедия, 1997. 672 с.
18. Хачатур Степанян. «Советизация Армении (попытка сравнительного анализа)», **Мир русскоговорящих стран**, https://cyberleninka.ru /article/n/sovetizatsiya-armenii-popytka-sravnitelnogo-analiza/viewer, istifadə tarixi: 24.06.2019

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Rəhimova Sevinc Sabir qızı – tarix üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan, Bakı.

Rahimova Sevinj Sabir – doctor of Philosophy in history, leading researcher, Institute of History, ANAS, Azerbaijan, Baku.

# ERMƏNİ-QRİQORİAN KİLSƏSİ: TARİX HƏQİQƏT MATRİSASINDA

©2021 HƏCƏR VERDİYEVA*

*AMEA, Hüquq və İnsan Haqları İnstitutu,
baş elmi işçi, tarix elmləri doktoru:
ORCID: 0000-0002-8157-3331; e-mail: hacar2002@yahoo.com

***Xülasə:*** *Araşdırılan problem göstərir ki, Arazdan şimalda yerləşən Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülən ermənilər üçün yeni"vətənlər" axtaran erməni-qriqorian kilsəsi bu pərakəndə etnosu Qafqaz meqaregionunun avtoxton əhalisi elan edir və Alban Həvari kilsəsinin maddi-mədəni irsinə əsassız iddialarla çıxış edir. Tarixi saxtalaşdıran erməni-qriqorian kilsəsi bildirir ki, bu monofizit kilsə Qafqazın qədim kilsəsidir. Lakin real tarix şahidlik edir: erməni-qriqorian kilsəsi Fərat çayının qollarından olan Arasani çayının sahilində yerləşən Aştişat kəndində parfiyal Qriqor tərəfindən yaradılmışdır və Kiçik Asiyanın şərqində, Taron vilayətində, yaradılan bu kilsənin Qafqaz meqaregionu ilə heç bir əlaqəsi olmamışdır.*

***Açar sözlər****: Alban Həvari kilsəsi, Qafqaz, Arşakid Ərməniyyəsi, Milan Fərmanı, III Tiridat, Fərat, Taron.*

# ARMENIAN GREGORIAN CHURCH: HISTORY ON THE MATRIX OF TRUTH

©2021 HADJAR VERDIEVA*

*The Institute of Law and Human rights of ANAS,
doctor of Historical Sciences
ORCID: 0000-0002-8157-3331; e-mail: hacar2002@yahoo.com

***Abstract:*** *This paper shows that after the mass migration of Armenians to the lands of Azerbaijan, located in the north of the Araz River, the Armenian-Gregorian Church, in search of a new country for its flock, declared the autochthonousness of Armenians in the Caucasian mega-region and made claims to the material and cultural heritage of the Albanian Apostolic Church. Falsifying history, the Armenian Gregorian Church declared that it was an ancient church in the Caucasus. However, the realities of history testify: the Armenian Gregorian Church was founded by Gregory the Parthian in the village of Ashtishat, on the banks of the Aratsani (Muradchay) River, a tributary of the Euphrates River, in the eastern part of Asia Minor, in the Taron region and has nothing to do with the Caucasian mega-region.*

***Keywords:*** *Albanian Apostolic Church, Caucasus, Arshakhid Armenia, Edict of Milan, Tiridates III, Euphrates, Taron.*

# АРМЯНО-ГРИГОРИАНСКАЯ ЦЕРКОВЬ: ИСТОРИЯ НА МАТРИЦЕ ИСТИНЫ

©2021

ХАДЖАР ВЕРДИЕВА*

*Институт Права и Прав Человека НАНА,
доктор исторических наук
ORCID: 0000-0002-8157-3331; e-mail: hacar2002@yahoo.com

***Резюме:*** *В данной работе показано, что после массовых переселений армян на земли Азербайджана, расположенные севернее реки Араз, армяно-григорианская церковь в поисках новой страны для своей паствы заявила об автохтонности армян в Кавказском мегарегионе и выступила с притязаниями на материально-культурное наследие Албанской апостольской церкви. Фальсифицируя историю армяно-григорианская церковь заявила, что она древняя церковь на Кавказе. Однако реалии истории свидетельствуют: армяно-григорианская церковь образована Григорием парфянином в селе Аштишат, на берегу реки Арацани (Мурадчай), приток реки Евфрата, в восточной части Малой Азии, в области Тарон и ничего общего с Кавказским мегарегионом не имеет.*

***Ключевые слова:*** *Албанская апостольская церковь, Кавказ, Аршакидская Армения, Миланский эдикт, Тиридат III, Евфрат, Тарон.*

## ***Введение:***

В первой трети XIX века в ходе массовых переселений армян на земли Азербайджана, расположенные севернее реки Араз, в народонаселении страны произошли демографические изменения. В результате, тяжелый пласт армян-переселенцев вклинился в этно-конфессиональную структуру народонаселения страны. В сложившейся ситуации армяно-григорианская церковь в поисках новой страны для своей паствы заявила об автохтонности армян в Кавказском мегарегионе и выступила с притязаниями на материально-культурное наследие Албанской апостольской церкви – составной истории Азербайджана, пытаясь доказать, что армяне на Кавказе автохтоны. Для убедительности фальсификации истории церковь заявила, что армяно-григорианская церковь самая древняя церковь на Кавказе. В целях удревнения своей истории церковь также заявила, что именно армяне впервые приняли христианство на государственном уровне в 301 году и Тиридат III провозгласил христианство государственной религией в Аршакидской Армении. Один из

авторов этого мифа Константинопольский патриарх армяно-григорианской церкви М.Орманиан не принимая во внимание реалии истории писал: «в исходе 301 г. религиозная жизнь в Армении совершенно преобразилась: идолослужение почти исчезло и христианство исповедовалось всеми. Армения была первым государством в мире, где христианство было объявлено официальной религией, благодаря обращению царя, царской семьи, сатрапов, армии и народа. Обращение Константина могло произойти лишь 12 лет спустя, в 313 г.»[1]. Выступая с этим псевдотезисом М.Орманиан даже не задумывался о том, что, будучи сателлитом Римской империи Аршакидская Армения не могла изменить свою официальную идеологию – язычество и стать христианской страной до объявления христианства государственной религией в Риме.

Следует отметить тот факт, что Аршакидская Армения действительно приняла христианство в раннем средневековье. Ибо географически она была расположена к прилегающим землям Палестины. Для освещения исторических реалий следует ответить на нижеследующие вопросы.

### Армяне приняли христианство до Миланского эдикта или после?

Прежде, как ответить на этот вопрос, следует указать на то, что в борьбе с римлянами за расширение сферы влияния в Приевфратском бассейне Сасаниды не могли примириться с тем обстоятельством, что Римская империя продолжала оставаться сюзереном Аршакидской Армении и контролировала Приевфратский хороним. Поэтому Сасанидские правители устраивали заговоры и физически устраняли вассальных царей Аршакидской Армении. В конце III века, после очередного заговора Сасанидов Тиридат, сын Хосроя II, вынужден был бежать в Римскую империю. Будучи под защитой римлян Тиридат сражался в рядах римских войск римско-готской войне 295 года и отличившись в боях он был возведен Галерием (293-311один из членов тетрархии)[*] на Аршакидский престол. Тиридат III, оставался в зависимости от римлян не мог не считаться конфессиональной политикой римского правительства. Следовательно, Тиридат III не мог открыто выступить против воли Рима и не мог объявить христианство в Аршакидской Армении государственной религией до тех пор, пока Римская империя не провела коренные изменения в своей конфессиональной политике, не прекратила преследования христиан в пределах

---

[1] Малахия Орманиан, **Армянская церковь. Её история, учение, управление, внутренний строй, литургия, литература, её настоящее**, пер. с франц. Б. Рунт, изд. АМ Будагова, Москва, тип. Х. Бархударян, 1913, с.15, 17.

[*] **Тетра́рхия** (греч.τετραρχία – правление четырёх, четверовластие) – название политического режима, при котором верховная власть разделена между четырьмя людьми (тетрархами; четверовластниками). Как правило, тетрархией называется система управления Римской империей, введённая в период правления императора Диоклетиана в 293 г. и продолжавшаяся до 313 года. Её введением был разрешён Кризис Римской империи III века.

империи и не прекратила «враждебные отношения к христианам в пределах империи»[2]. Следовательно, Тиридат IIIне мог открыто выступать против воли императора.

Будучи сателлитом Римской империи, Аршакидская Армения не могла вести независимую конфессиональную политику и принять христианство до 313 года, как это безосновательно утверждают сочинители истории армянского народа пытаясь доказать, что армяне приняли крещение в 301 году. И тем самым фальсификаторы игнорировали реалии конфессиональной картины конца III – начала IV веков Аршакидской Армении, где сеть политеистических капищ продолжала функционировать, и армяне пребывали в язычестве. Историк-церковник дореволюционной России А.Аннинский, изучая древние источники античности, показывает: «…во времена Диоклетиана и Галерия Великая Армения пребывала в язычестве»[3], тем самым опровергает бредовые идеи фальсификаторов истории. С армянской фальсификацией не соглашались и отдельные независимые западные исследователи нашей современности, указывая в своих трудах, что крещение армян до принятия Миланского эдикта не соответствует действительности[4].

И так, на вопрос, когда армяне приняли христианство до Миланского эдикта или после? Есть один ответ: до Миланского эдикта Аршакидская Армения не могла принять христианство по той простой причине, что будучи сателлитом Римской империи она конфессионально не могла выступить против своего сюзерена. Следовательно, Аршакидская Армения приняла христианство после Миланского эдикта. Если армяне приняли христианство после Миланского эдикта, то следует ответить и на другой вопрос:

## Когда произошло крещение армян?

На этот вопрос в своих трудах отвечал известный востоковед дореволюционной России с мировым именем, историк-арменовед Г.Халатьянц[*]. Он предельно ясно и четко писал, что крещение армян проходило после 318 года: «На восемнадцатом году царствования Трдата на престол святого апостола Фаддея воссел просветитель Армении Григорий[**]; он же обратил всех армян к познанию истины

[2]Александр Аннинский, **Древние армянские историки как исторические источники**, тип. Акционерного Южно-Русского Общества Печатного Дела, Одесса 1899, с.66.

[3] Аннинский, **указ, соч**., с.69.

[4] Erich FEİGL, “Ermeni Milli Kilesisinin Zaferi ve Trajedisi”, **Ermeni Araştırmaları**, Sayı 2, Hazıran-temmuz-aqustos 2001, s.65.

[*] **Г.Халатьянц (1858-1912)** – востоковед, профессор армянской словесности, член-корреспондент, член Академии венецианских мхитаристов, действительный член Московского археологического общества.

[**] **Григорий Парфянин** (ок. 252-334-335 гг.) – первый католикос всех армян. Один из 7-и католикосов-неармян в христианской Армении. М.Хоренский в своей «Истории Армении» пишет о происхождении св. Григория следующее: «родом парфянин из области Пахлавской, царского рода

Христовой»[5]. И так известный ученый-арменовед выступая на матрице истины отвечал предельно четко: крещение армян проходило после 318 года.

Действительно, конфессиональная ситуация в Аршакидской Армении была такова, что Григорию парфянину нужно было время для борьбы с жрецами в Тароне (Муш – Х.В.). Потому что в начале IV века армяне были еще очень далеки от христианства и не отходили от политеизма. В тот период в Тароне действовали два храма, где жрецы не собирались сдавать свои позиции и сопротивлялись монотеизму. Григорий парфянин разрушил храмы политеистических божеств и только после этого армяне массово приняли крещение на реке Евфрат. И так армяне приняли крещение не на Кавказе, не в Иреванском хорониме, а в Приевфратском бассейне, и эта действительность помогает ответить на другой, очень важный вопрос:

## Где была построена первая церковь армян?

А.Аннинский давал четкий ответ на поставленный вопрос: по совету епископаЛеонтия «Григорий построил первую церковь во им. св. Иоанна Крестителя в селе Аштишат, на берегу реки Арацани (Мурадчай), притока реки Евфрата, в восточной части Малой Азии в одном из языческих центров Малой Азии, в области Тарон, где в дохристианскую эпоху правили представители рода верховного жреца Вахуни. Эту церковь Фавтос Бузанд[*] называл матерью армянских церквей»[6]. И так, истина гласит: армяно-григорианская церковь была образована в Малоазийском мегарегионе, в Ванском ареале, а точнее западнее от Вана в Тароне, но не на Кавказе, не в Иреванском хорониме, не в Учкилисе, топоним переименованный сочинителями фейков в Эчмиадзин, не по указанию Исуса Христа. Ине потому что Исус Христос был распят в 33 г. н.э. и не мог дать указание Григорию парфянину о строительстве храма в Учкилисе, а по той простой причине: Григорий никогда не был, не жил ине был похоронен в Учкилисе, как это утверждают творцы «Истории армянского народа», в частности идейый вдохновитель «Эчмиадзинского» мифа Симеон Ереванци[**], действуя алгоритмами мхитаризма целеустремленно фальсифицировал исторические реалии– церковную историю. Не отрываясь от созданного мира виртуальных воображений, С. Ереванци шел на намеренные анахронизмы и оперируя передвижнической системой писал: «В 305 г. Григор Просветитель зало-

---

отделившийся Аршакуни–Аршакид, жившего в Балхе и переселившийся в Армению» **(см. История Армении Моисея Хоренского,** новый перевод Н.О. Эмина, кн.II, Москва 1893, с. 91, 140**).**

[5] Халатьянц Григорий, **Армянские Аршакиды в «Истории Армении» Моисея Хоренского**, Типография Варвары Гатсук, Москва 1903, с.175.

[*] **Фавтос Бузанд** – армянский историк V века.

[6] Александр Аннинский, **История армянской церкви**. Определением Святейшего Синода, от 29/30 апреля 1898 года, сочинение это в рукописи удостоено почетного отзыва, после того автором исправлено и дополнено, Кишинёв 1900, с.12.

[**] **Симеон Ереванци** – стоял во главе армяно-григорианской церкви с 1763 по 1780 годы.

жил в городе Вагаршапате *(здесь С.Ереванци передвигает Вагаршапат из Приевфратского хоронима в Иреванский* – Х.В.) кафедральную церковь, которая впоследствии называлась Шогакат («Истечение света»), а позже – Эчмиадзин (Учкилисе-Х.В.), и по своему воображению давал объяснение – «Здесь сошел единородный сын»[7]. М.Орманиан, фальсифицируя историю, муссировал этот миф в своих публикациях и пытался придать реальную окраску необоснованным притязаниям армяно-григорианской церкви к материально-культурному наследию Албанской апостольской церкви[8].

В отличии от фальсификаторов истории Г.Халатьянц изучая историю армяно-григорианской церкви не отказался от реалий и опровергнул в своих исследованиях легенды мифотворцев, и на матрице исторической истины показал, что география деятельности Григория парфянина и закат его жизни охватывали Приевфратский хороним. Факты свидетельствуют, что в последние годы своей жизни Григорий парфянин обитал «в области Даранахи, в пустыне, на горе, называемой Манаарк»[9]. Об этих реалиях в своих трудах писал также А.Аннинский: «Около 334-го года (*следовательно, Григорий парфянин умер не в 325 году, как это пытаются утверждать фальсификаторы истории* – Х.В.) Григорий совершенно отказался от управления церковью», передав дела своему сыну еп. Аристакесу «удалился на гору Себух, в округе Таранаги, в пещеру Мане»[10]. Реалии истории армяно-григорианской церкви показывают и албанские источники. Албанский летописец XIII века К. Гандзакеци писал, что Григорий парфянин 30 лет управлял армяно-григорианскою церковью, и вся его жизнь была связана с этой церковью. В этом источнике также указано, что последние годы своей жизни он провел в пещере Мани, расположенной на левом берегу р. Евфрат – в Малой Армении, а после егосмерти, прах его был перенесен «в селение Тордан, в его родовое имение, расположенноев верховьях восточной части реки Евфрат»[11]. Другой, более ранний средне вековый албанский памятник так же подтверждает вышеуказанное и показывает, что большую часть своей жизни Григорий парфянин провел в Приевфратском хорониме и прах его хранился «в местечке Тордан»[12]. Эти реалии однозначно опровергают выдуманные армянские мифы по Учкилисе, истоки которых связаны с фантазиями Симеона Ереванцы, утверждавший, что в 305 г. Григорий

---

[7] «**Джамбр» как первоисточник по истории Армении**, http:// www. vostlit. info/ Texts/rus14 /Erevanci/ framepred1. htm), дата обращения: 20.02.2020.

[8] Орманиан, **указ. соч**., с.17, 21.

[9] Халатьянц, **указ. соч**., с.177.

[10] Аннинский, **указ. соч**., с. 5.

[11] Киракос Гандзакеци, **История**, перевод с древнеармянского Т. Тер-Григорьяна, Баку, АН Аз. ССР, 1946, с. 18.

[12] **История Агван Моисея Каганкатваци, писателя X века,** Санкт-Петербург, тип. Акад. наук, 1861, с.189.

парфянин заложил в Учкилисе кафедральную церковь. Однако армяно-григорианская церковь не могла образоваться в Учкилисе, ибо Григорий парфянин ни при жизни своей, и тем более после своей смерти не имел никакого отношения к Учкилисе и мощи его были найдены в V веке в Месопотамии. И миф об Эчмиадзине в переводе «сошёл Единородный» (то есть Иисус Христос) очередной фейк мифотворцев и не выдерживает критики.

Принимая во внимание вышеуказанное, мы констатируем: следы основателя армяно-григорианской церкви Григория парфянина не могут быть выявлены на Кавказе. Потому что, армяно-григорианская церковь не имела ничего общего с этим хоронимом. Эту историческую истину доказывают неопровержимые факты, свидетельствующие о том, что образованная в IV веке в Малоазийском мегарегионе армяно-григорианская церковь столетиями блуждала в этом хорониме. В IX веке резиденция этой церкви была перенесена в Армонк (Арамунк), затем в Ахтамар, затем в Себастию[13]. После, с 1116 года, передвигаясь в рамках этого ареала, католикосатство было перенесено из Себастии в Цопк, а в 1149 году католикос Григорий III (1113-1166 гг.) перенес свою резиденцию в Румкалу, расположенную на берегу реки Евфрат[14], где армянский католикосах оставался до 1293 года, оттуда уже перекочевал в Сис. Следовательно, до перенесения своей резиденции в Учкилисе (1441 года), армяно-григорианская церковь кочевала в широком ареале. И эта действительность свидетельствует: армяно-григорианской церкви на Кавказе не было.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Аннинский Александр, **Древние армянские историки как исторические источники**, тип. Акционерного Южно-Русского Общества Печатного Дела, Одесса 1899.
2. Аннинский Александр, **История армянской церкви.** Определением Святейшего Синода, от 29/30 апреля 1898 года, сочинение это в рукописи удостоено почетного отзыва, после того автором исправлено и дополнено, Кишинёв 1900.
3. Гандзакеци Киракос, **История**, перевод с древнеармянского Т. Тер-Григорьяна, Баку, АН Аз. ССР, 1946.
4. **Джамбр» как первоисточник по истории Армении**, http:// www. vostlit. info/ Texts/rus14 /Erevanci/ framepred1. htm), дата обращения: 20.02.2020.
5. **История Агван Моисея Каганкатваци, писателя X века,** Санкт-Петербург, тип. Акад. наук, 1861.


[13] **Кавказский календарь** (далее – КК) на 1853 год, гл. упр. Кавказ. наместника Тифлис 1852, с. 483.
[14] Гандзакеци, **указ. соч.**, с.59, 247.

6. **История Армении Моисея Хоренского,** новый перевод Н.О.Эмина, кн.II, Москва 1893.
7. **Кавказский календарь** (далее – КК) на 1853 год, гл. упр. Кавказ. наместника Тифлис 1852.
8. Орманиан Малахия. **Армянская церковь. Её история, учение, управление, внутренний строй, литургия, литература, её настоящее**, пер. с франц. Б. Рунт, изд. А.М.Будагова, Москва, тип. Х.Бархударян, 1913, 1913.
9. Халатьянц Григорий, **Армянские Аршакиды в «Истории Армении» Моисея Хоренского**, Москва, Типография Варвары Гатсук, 1903.
10. FEİGL Erich, "Ermeni Milli Kilesisinin Zaferi ve Trajedisi", **Ermeni Araştırmaları**, Sayı 2, Hazıran-temmuz-aqustos 2001.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Verdiyeva Həcər Yusif qızı – AMEA, Hüquq və İnsan Haqları İnstitutu, baş elmi işçi, tarix elmləri doktoru, Azərbaycan, Bakı.

Verdieva Hajar Yusif – The Institute of Law and Human rights of ANAS, doctor of Historical Sciences, doctor of historical sciences, Azerbaijan, Baku.

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR – INTERNATIONAL RELATIONS

# İKİNCİ İRAQ BÖHRANI KONTEKSTİNDƏ ABŞ-SURİYA MÜNASİBƏTLƏRİNİN BƏZİ ASPEKTLƏRİ

©2021 MƏLEYKƏ ADIGÖZƏLOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
ORCID:0000-0002-0639-9548; e-mail: a.meleyke09@gmail.com

***Xülasə:*** *Məqalədə ABŞ və Suriya arasında XXI əsrin əvvəllərində başlanan gərginliyin səbəbləri, proseslərin gedişatı və nəticələri araşdırılacaq. İkinci İraq böhranı Yaxın Şərq regionunda açar dövlətlərdən biri olan Suriya və ABŞ arasında münasibətlərin soyumasına və ziddiyyətlərin meydana çıxmasına səbəb oldu. Hər iki tərəf yaranmış gərginliyi aradan qaldırmağa çalışsalar da hadisələrin inkişafı bunun mümkün olmadığını göstərdi. Təbii ki, ABŞ kimi bir super gücün Suriyanın sərhədlərində həyata keçirdiyi əməliyyatların davamının olacağı rəsmi Dəməşq üçün gözlənilən idi. B.Əsəd hökumətinin qətiyyətli xarici siyasət kursu bu müdaxilənin qarşısını ala bilmədi.*

***Açar sözlər:*** *S.Hüseyn, Suriya-ABŞ rəqabəti, H.Əsəd, İraq böhranı, əməkdaşlıq.*

# SOME ASPECTS OF THE US - SYRİAN RELATİONS İN THE CONTEXT OF THE SECOND IRAQ CRİSİS

©2021 MALEYKA ADIGOZELOVA*

*A.A.Bakikhanov Institute of History, ANAS
ORCID: 0000-0002-0639-9548; e-mail: a.meleyke09@gmail.com

**Abstract:** *In this article the causes, processes and consequences of tensions between the US and Syria at the beginning of the 21st century is examined. The second Iraq crisis has led to a cooling of relations and emergence of tensions between the United States and Syria, one of the key states in the Middle East. Although both sides tried to*

*avoid the tension, the course of events showed that this was not possible. Of course, it was expected for Damascus that a superpower like the United States would continue its operations on Syria's borders. The Assad government's resolute foreign policy did not prevent this intervention. Both sides tried to avoid tension, but the development of events showed it to be impossible. The United States and Syria will be explored. The second Iraqi crisis has sparked tensions between Syria and the United States-one of the leading countries in the Middle East. Although both sides try to relieve the current tensions, the development of the development of the cases has shown that it is impossible. In fact, it was expectable for Damascus that a superpower like the USA would be a continuation of the operations on the Syrian border. The decisive foreign policy course of the Assad government failed to prevent this intervention.*

**Keywords:** *S. Hussein, Syria-US competition, H. Assad, Iraq crisis, cooperation.*

## НЕКОТОРЫЕ АСПЕКТЫ АМЕРИКАНО-СИРИЙСКИХ ОТНОШЕНИЙ В КОНТЕКСТЕ ВТОРОГО ИРАКСКОГО КРИЗИСА

©2021

МАЛЕЙКЕ АДИГЁЗАЛОВА*

*Институт Истории им. А.А.Бакиханова НАНА
ORCID: 0000-0002-0639-9548; e-mail: a.meleyke09@gmail.com

***Резюме:*** *В статье рассматриваются причины, процессы и последствия напряженности в отношения между США и Сирией в начале XXI века. Второй иракский кризис в отношениях между Соединенный Штатами и Сирией – одним из ключевых государств на Ближнем Востоке. Обе стороны пытались избежать напряженности по развитие событий показало невозможность этого.*

*Естественно для Дамаска ожидалось, что такая сверхдержава, как США, продолжили операции на сирийской границе. Решительный внешнеполитический курс правительства Асада не смог предотвратить это вмешательство.*

***Ключевые слова****: С.Хусейн, сирийско-американская конкуренция, Х.Асад, иракский кризис, сотрудничество.*

### *Giriş*

XXI əsrin başlanğıcı dünya siyasətində yeni gərginlik ocaqları, siyasi böhranların meydana gəlməsi ilə müşayiət olundu. Keçən əsrin son onilliyində artıq yarım əsrlik

soyuq müharibə qərb sivilizasiyasının qələbəsi ilə başa çatmışdı. Dünya ikiqütblü dönəmdən birqütblü dönəmə qədəm qoydu. ABŞ-da baş verən 11 sentyabr terror aktı dünyada yeni münaqişə ocaqlarının yaranmasına gətirib çıxartdı. Bu hadisədən sonra ABŞ-ın qlobal strategiyası bütövlükdə, o cümlədən Yaxın Şərqdə ciddi korrektəyə məruz qaldı. 20 yanvar 2002-ci ildə Konqresdəki çıxışında Corc Buş bu terror aktını "XXI əsrin ilk müharibəsi" adlandırdı və "terrora və terrororizmə qarşı qlobal mübarizənin" başlanmasının vacibliyini vurğulayaraq beynəlxalq terrorizmdə əli olan qüvvələrə və dövlətlərə qarşı sərt mövqe göstəriləcəyini elan etdi. 29 yanvar 2002-ci il tarixində Corc Buşun Konqresə illik müraciəti olan "Ölkədəki vəziyyətə dair" sənəddə ilk dəfə olaraq "şeytan üçbucağı" termininndən istifadə edildi. Sənəddə bu üçbucağa Şimali Koreya, İran və İraq daxil edilmişdi.

Beləliklə, Yaxın Şərqdə yeni münaqişələrin yaranmasının bir sıra məlum olan və olmayan səbəbləri olsa da, bu münaqişələr 2003-cü ilin mart ayında ABŞ-ın öz hərbi qüvvələrini İraqa yeritməsinə şərait yaratdı. Konfliktin yaranması tarixinə qısa nəzər salsaq görərik ki, 2003-cü ildə ABŞ prezidenti Corc Buş mart ayının 17-də uzun illər boyu kütləvi qırğın silahlarına sahib olmaqda günahlandırdığı İraq hökumətinə, 48 saatlıq ultimatium vermiş və bu müddət bitdikdə İraqa dərhal hücum etmişdir. Ağ Evin yayımladığı bir xəbərdə 35 ölkənin işğala kömək etdiyini elan etmişdir. Bu xəbərdə 15 ölkənin də İraq işğalına dəstək verdikləri ancaq, adlarının qeyd olunmasını istəmədikləri bildirilmişdir. Təbii ki, bu müdaxilə regionun əsas dövlətlərindən olan Suriya Ərəb Respublikası hökuməti tərəfindən böyük narazılıqla qarşılandı. İkinci İraq böhranının başlanması rəsmi Dəməşq üçün arzu olunmaz vəziyyət yaratdı. Belə ki, Suriya vasitəsilə İraq neftinin daşınması bu ölkəyə böyük gəlir gətirirdi. Digər tərəfdən ABŞ-ın İraqa müdaxiləsi gələcəkdə B.Əsəd hökumətini də eyni aqibəti gözləyəcəyindən xəbər verirdi. ABŞ-ın Yaxın Şərq regionunda öz hegemonluğunu möhkəmləndirmək məqsədilə atdığı addımlar təbii olaraq bölgə dövlətləri tərəfindən bir mənalı qarşılanmadı. Bu gərginlikdə əsas aktorlar ABŞ və İraq olsa da rəsmi Dəməşq özünü hadisələrin gərginliyindən kənarda saxlaya bilmədi.

## ABŞ-ın İraqa müdaxiləsi, Suriya-ABŞ münasibətlərinin yeni fazaya daxil olması

Corc Buş administrasiyasının Yaxın Şərq layihəsinin bir hissəsi olan İraqın işğalı Suriya-ABŞ münasibətlərinə yeni mənfi çalarlar gətirərək, onları həddindən artıq kəskinləşdirdi. Saddam Hüseyn rejiminin devrilməsindən sonrakı dövrdə, münasibətlərin daha da gərginləşməsinin digər əsas səbəbi, İraq problemini həll etmək istiqamətində Dəməşq və Vaşinqtonun diametrik əks qütblü yanaşmaları oldu[1]. Belə ki, Dəməşq İraqın

---

1. Монейм Саид Абдель «Многие иракские сценарии» **Аль-Ахрам. Центр политических и стратегических исследований**, http://www.ahram.org.eg/archive/MaklatIndex.asp, istifadə tarixi: 17.06.2022.

işğalına qarşı çıxaraq bu əməliyyatı həm İraq üçün, həm də bütün ərəb dünyası üçün fəlakət kimi qəbul etdi. İraqın işğalından sonrakı dövrdə Suriya ilə bağlı ABŞ-ın mövqeyi daim hərbi güc təzyiqi və ara-sıra dialoq aparmaq cəhdlərinin çulğalaşması ilə xarakterizə olunur. ABŞ administrasiyasının realist düşüncəli nümayəndələri rəsmi Vaşinqtonun Yaxın Şərq siyasətində Suriyanı mühüm rol oynaya biləcəyini başa düşərək hesab edirdilər ki, rəsmi Dəməşq Yaxın Şərqdəki Amerika siyasətinin qarşısında duran iki əsas vəzifənin ərəb-israil münaqişəsinin sülh yolu ilə həllində və ABŞ-ın İraq düyünündən çıxmasında əsas rol oynaya bilər[2].

Səddəm Hüseyn rejimini hərbi müdaxilə ilə devirmək qərarının qəbul edilməsi və həyata keçirilməsində İsrail hökumətinin müəyyən qədər rol oynaması bu gün artıq dünya ictimaiyyəti tərəfindən qəbul olunmuş bir faktdır. Hadisələrin inkişafındakı sonrakı proseslər də göstərdi ki, İsrailin ətrafında olan və onun milli təhlükəsizliyinə təhlükə yaradan rejimlər silahlı müdaxilələrlə üz-üzə qalmağa məhkum oldular. Belə ki, 2001-ci il sentyabrın 11-dən etibarən başlayan qlobal antiterror mübarizəsi dalğasında ABŞ-dakı yəhudi lobbisi tərəfindən dəstəklənən İsrail hökuməti, Buş administrasiyasını daim İraqa və eyni zamanda Suriya və İrana qarşı güc tətbiq etməyə təhrik edirdi. İsrail hökumət dairələrində həmişə belə bir fikir hakim idi ki, Suriyadakı mövcud siyasi rejim dəyişilməsə, Dəməşqin İsrailə qarşı mövcud siyasəti dəyişilməz olaraq qalacaqdır. Hətta İsrail hökumətində Suriyaya birbaşa hərbi müdaxiləni dəstəkləyən qüvvələr var idi. İsrailin 2002-2006-cı illərdə müdafiə naziri olmuş Şaul Mofaz İsrail dövlətinin regionda Suriya tərəfindən mövcud olan potensial təhlükəni aradan qaldırmaq məqsədi ilə Yaxın Şərqdəki yeni situasiyadan istifadə etməyə çalışdığını söyləmişdi[3].

Digər tərəfdən II İraq böhranı ərəfəsində Pentaqonun bir sıra yeni mühafizəkar strateqləri (P.Vulfoviç, D.Feyt, D.Vays, U.Luti, R.Perl) İran və Suriyaya hərbi təzyiq göstərmək üçün müxtəlif planlar hazırlamağa başladılar. Həmin planlardan biri ABŞ-ın Yaxın Şərq regionunun "yenidən qurulması" proqramının "Fələstin problemini Bağdad vasitəsilə həll etməyə" yönəlmiş hissəsini təşkil edirdi. Bu planın tərəfdarları hərbi təzyiq kifayət etmədiyi təqdirdə İraq ssenarisi üzrə Dəməşq və Tehranda hakim rejimlərin devrilməsi ehtimalını belə istisna etmirdilər[4]. Lakin bu layihə Ağ Evdə, Milli Təhlükəsizlik Şurasında və Dövlət Departamentində, eləcə də Müdafiə Nazirliyinin hərbi rəhbərliyində sərt tənqid olundu. Nəticədə 2003-cü ilin aprel ayının ortalarında ABŞ

---

[2.] Анатоли Цыганок, «Сирийская карта в арабо-израильском конфликте». **http://www.iimes. ru/rus /stat/2006/16-11-06.htm**, istifadə tarixi: 06.06.2022.

[3] Салум Еддин, "Влияние военно-политической ситуации в Ираке на внешнюю политику Сирии", **Вестник РУДМ, серия Международные отношения**, №1, Москва 2012, с.81-87.

[4] **Вахид** Абдель Мажид, "Буш и Пауэлл и Фридман как они понимают нас?", **Аль-Ахрам. Центр политических и стратегических исследований,** http://acpss.ahram.org.eg/Ahram/ 2001/1/1/ ANAL203.HTM, istifadə tarixi: 2022

prezidenti Corc Buş Suriyaya qarşı hərbi əməliyyatın planlaşdırılması işlərini dayandırdı və rəsmi Vaşinqton yeni müharibəyə başlamağa risk etmədi[5].

Suriya-İraq münasibətlərinin tarixinə nəzər salsaq, qeyd etmək lazımdır ki, hələ 1990-cı illərin sonlarında Suriyanın sabiq prezidenti Hafiz Əsədin sağlığında, bu iki ölkə arasında münasibətlər tədricən yaxşılaşmağa başlamışdı. Birinci növbədə, bu yaxınlaşma iqtisadi amillərlə bağlı idi. Belə ki, İraq ilə ticarət və İraq neftinin Suriya ərazisindən daşınması hər il Suriyaya 1,5 milyard dollardan çox gəlir gətirirdi. Eyni zamanda iki ölkə arasında qarşılıqlı şəkildə yüksək səviyyəli rəsmi səfərlər geniş miqyas almağa başlamışdı. Suriya-İraq sərhədi açılmış, ikitərəfli ticarətin həcmi artaraq, iqtisadi əməkdaşlıq sahəsində bir sıra mühüm ikitərəfli sazişlər imzalanmışdı[6]. Bütün bu qeyd etdiyimiz amillərdən göründüyü kimi İraq müharibəsi təkcə siyasi-hərbi cəhətdən deyil, eyni zamanda iqtisadi baxımdan da Suriya üçün mənfi nəticələrə səbəb oldu. Suriya dövləti Kərkük-Banias neft boru kəməri vasitəsilə İraq neftini çox aşağı qiymətlərlə alınmasından və öz ərazisindən İraq neftinin daşınmasından böyük mənfəət əldə edirdi. İraqın işğalından qısa bir müddət sonra, İraq neftinin Suriya ərazisi ilə Aralıq dənizi hövzəsinə nəql edilməsi dayandırıldı. Məhz bu səbəbdən Suriya öz neft ixracını 10% azaltmağa məcbur oldu[7].

XX əsrin 90-cı illərində Yaxın Şərq regionunda növbəti toqquşmalardan biri olan İraqın Küveytə müdaxiləsi zamanı iki ölkə arasında geniş iqtisadi əməkdaşlığa baxmayaraq, Suriya ABŞ-ın və ərəb qoşunlarının İraq təcavüzünə qarşı 1991-ci il yanvarın 17-si həyata keçirilən “Səhrada tufan” əməliyyatına qatıldı. Məhz bu səbəbdən də, Birləşmiş Ştatlar administrasiyası elə fikirləşdi ki, II İraq müharibəsində də B.Əsəd hökuməti də 1991-ci ildə mərhum prezident H.Əsədin prezidentliyi dövründəki kimi Vaşinqtonun və onun müttəfiqlərinin İraqa qarşı hərbi əməliyyatlarına dəstək verəcəkdir.

Lakin 2003-cü ildə vəziyyət XX əsrin 90-cı illərinə nəzərən tamamilə fərqli idi. Belə ki, 1991-ci ildə İraq Küveytə hücum edən təcavüzkar rolunda çıxış etmişdi və bu səbəbdən də dünya ictimaiyyəti Küveyti müdafiə edirdi, indi isə hadisələr başqa cür cərəyan etməyə başlamışdı. Baş verən hadisələrin kontekstində rəsmi Bağdad təcavüz qurbanı rolunu oynayırdı. Birləşmiş Ştatlar Bağdadda nüvə silahlarının mövcudluğunu inandırıcı şəkildə sübut edə bilmədiyindən, dünya birliyinin nüfuzlu üzvlərinin əksəriyyətinin dəstəyini qazana bilmədi. Şübhəsiz ki, Dəməşq amerikalıların bu dəfə ümidlərini doğrultmadı. Sonuncu vəziyyət ABŞ-ın İraqdakı siyasi fəaliyyət manevrini əhəmiyyətli dərəcədə daraltdı. Bir nüansı xatırlatmaq lazımdır ki, 2001-ci il sentyabrın 11-dən etibarən Birləşmiş Ştatlar dünya ölkələrinin, o cümlədən ərəb ölkələri və

---

5 Anthony Cordesman, “**Al Qaeda and the Military Realities in Iraq**”, 28 October 2004, http://csis.org/publication/al-qaqaa-and-military-realities-iraq, istifadə tarixi: 1 March 2012.

6 Владимир Ахмедов, «Роль внешнеэкономических связей в процессе модернизации экономики САР». **Ближний Восток и современность** (сборник статей), №38, Москва 2008, с. 147-163.

7 Vladimir Axmedov, **a.g.m., s.**147-163.

Suriyanın dəstəyini görürdü. Hətta rəsmi Dəməşq Əl-Qaidə terrorçularının ələ keçirilməsində ABŞ kəşfiyyat orqanları ilə fəal əməkdaşlıq edirdi.

Məlum olduğu kimi ABŞ-ın anti-terror əməliyyatı adı altında İraqa qoşun yeritməsi Səddəm Hüseyn rejiminin devrilməsi və İraqın işğalından sonra Suriya hələ də Aralıq dənizində Aİ ilə qarşılıqlı faydalı ticarət sazişi imzalamış yeganə qeyri Avropa ölkəsi olaraq qalırdı. Bundan əlavə, Şamın qərb dünyasına müqavimət göstərməsi ağılsızlıq idi. Belə bir şəraitdə təbii olaraq Suriya administrasiyası özünü "amerikanpərəstlərin" əhatəsində görürdü. Xüsusilə, Türkiyə, İordaniya və İsrail ABŞ-ın istəklərinə zidd olaraq Suriya dövlətinə qarşı loyallıq göstərə bilməzdi. Beləliklə, regionda rəsmi Dəməşqə müttəfiq olan dövlətlər İran İslam Respublikası və Livan respublikası oldu[8].

Ancaq 2003-cü ildən sonra Ərəb baharına qədər Suriya ilə Türkiyə arasında münasibətlərə nəzər salsaq bu əlaqələrin ciddi şəkildə inkişaf etdiyini müşahidə etmiş olarıq. ABŞ tərəfindən təzyiqlərin artmasına baxmayaraq, B. Əsədin anti-amerikan əhval-ruhiyyəsi dəyişməmişdi. Suriya İraqın ABŞ tərəfindən işğalına açıq şəkildə etiraz edirdi. 2003-cü ilin aprel ayında Birləşmiş Ştatlar ABŞ-ın İraqdakı "qələbəsi"ndən erkən eyforiyaya qapıldıqda, B.Əsəd ərəbləri pan-ərəb müdafiə paktını qəbul etməyə çağırdı. O, Yaxın Şərqdə demokratikləşmə təşəbbüsünü şərh edərkən bildirirdi ki, "təkcə Suriyada deyil, bütün bölgədə heç kim Amerikanın təşəbbüsünə inanmır"[9]. 2004-cü ilin may ayında Qətərin "Əl-Cəzirə" telekanalına verdiyi müsahibədə B.Əsəd "ABŞ və koalisiya qüvvələri İraqda məğlub olduğunu" bəyan etdi[10]. Təbii ki, bu cür bəyanatlar Vaşinqtonun ciddi narazılığına səbəb olmaya bilməzdi.

Rəsmi Dəməşqin bu reaksiyasına cavab olaraq ABŞ rəhbərliyi də öz növbəsində Suriya hökumətini İraqın kütləvi qırğın silahlarını gizlətməkdə və Bağdadın işğalından sonra S.Hüseyn rejiminin rəhbərlərinə sığınacaq verməkdə ittiham edirdi. Suriyanın xarici işlər naziri F.Şaraa, "terroristləri" Suriya ərazisindən İraqa sızmasına imkan verməsi ilə əlaqədar ABŞ-ın ittihamına demək olar ki, sərt şəkildə cavab verərək, bildirdi ki, ABŞ Meksika ilə sərhədini tamamilə bağlaya bilmədiyi kimi, Suriya da İraq ilə sərhədində bunu edə bilmir. Eyni zamanda, F.Şaraa qeyd etdi ki, Suriyanın terrorçuların İraq ərazisinə keçməsinə kömək etməkdə ittiham edilməsi "Vaşinqtonun İraqdakı vəziyyəti sabitləşdirmək iqtidarında olmadığına haqq qazandırmaq cəhdi"dir[11].

Rəsmi Vaşinqton və Dəməşq arasında münasibətlərin gərginləşdiyi bir vaxtda 2003-cü ilin may ayının əvvəlində ABŞ dövlət katibi K.Pauel Dəməşqə səfər etdi. Səfərin əsas məqsədi Suriya rəhbərliyini "ekstremist Fələstin təşkilatlarına dəstəyi dayandırması

---

[8] **Александр Андреевич** Розов, «Иран и Сирия: стратегический союз», **http://www.iimes.ru/rus /stat/2006/23-01- 06a.htm,** istifadə tarixi: 2006/23-01

[9] Салум Хоссам Еддин**, a.g.m., s. 81-87.**

[10] Салум Хоссам Еддин, **a.g.m.**, s.85.

[11] Александр Андреевич Волович, «Осложнение сирийско-американских отношений в контексте иракского кризиса», **http://www.iimes.ru/rus/stat/2004/09-11-04.htm,** istifadə tarixi: 26.05.2011.

və S.Hüseyn rejimi nümayəndələrinə sığınacaq verməməsi" üçün razı salmaq idi. Səfər zamanı K.Pauel, ABŞ hökumətinin Suriyaya olan tələblərini B.Əsədə çatdırdı. Suriya hökumətindən tələb edirdi ki, rəsmi Dəməşq S.Hüseyn rejiminə məxsus və Suriya banklarında saxlanılan 3 milyard dolları İraqa qaytarsın. Dəməşqdə olan K.Pauel Suriya rəsmiləri ilə görüşlərində ABŞ-ın Suriyaya qarşı hərbi əməliyyatlar aparmağı planlaşdırmadığını söylədi. K.Pauel Suriya prezidenti B. Əsədlə görüşündə bildirdi ki, Səddam Hüseyn rejiminin süqutu ilə əlaqədar olaraq "Yaxın Şərq bölgəsində yeni bir qüvvələr nisbəti formalaşmışdır. Arzu olunandır ki, Suriya dövləti bölgədə yaranmış yeni reallığı qəbul etsin və bu reallığa uyğun siyasəti həyata keçirsin"[12].

K.Pauellin bu sözlərindən belə nəticəyə gəlmək olar ki, güclü diplomat yumşaq şəkildə B.Əsəd hökumətindən öz İraq siyasətini köklü şəkildə dəyişdirməyini tələb edirdi. Əlbəttə ki, bu təklif əsrlər boyu sınaqdan keçirilmiş ABŞ administrasiyasının xarici siyasət metodlarından biri idi.

Növbəti ilin yazında gözlənilmədən ABŞ-Suriya siyasi əlaqələrində yaxşılaşma istiqamətində müəyyən dəyişiklik oldu. Belə ki, 2004-cü ilin mart ayının sonunda Suriyanın Vaşinqtondakı səfiri İmad Mustafa ilə görüşən ABŞ Dövlət katibi qeyd etdi ki, "ABŞ Suriyanın düşməni deyil və B.Əsədin təkliflərini nəzərdən keçirməyə hazırdır"[13]. Elə həmin ilin aprelində C.Buş və K.Pauelin B.Əsədə Suriyanın müstəqillik günü münasibətilə göndərdikləri təbrik məktubları müəyyən dərəcədə Vaşinqtonun bu ölkə ilə münasibətləri "xeyirxah niyyətə" doğru dəyişməyi arzuladığını göstərirdi[14].

Həmin məktubda eyni zamanda Suriya rəhbərliyinə İraqdakı vəziyyətin normallaşdırılmasına dəstək verməsinə çağırış edilirdi. Ancaq bu cür hərəkətləri heç də Vaşinqtonun Suriya siyasətinin dəyişdirməsi kimi qiymətləndirmək olmazdı. Çox güman ki, bunlar ABŞ-ın İraqda dalana dirənməsi və onların Suriyanın yardımına ehtiyacı olması ilə bağlı idi. 2004-cü ilin sentyabrında BMT-nin 59-cu sessiyasında keçirilən görüşdə, K.Pauel və F.Şaraa arasında Suriyadan terroristlərin İraqa keçməsinin qarşısını almaq üçün Suriya-İraq sərhədinə nəzarət etmək məqsədilə üçtərəfli İraq-ABŞ-Suriya əməkdaşlığı məsələləri müzakirə edildi. Bu məsələlərlə bağlı praktiki tədbirləri müzakirə etmək məqsədilə 2004-cü ilin sentyabr ayının sonunda Dəməşqdə Suriya, İraq və ABŞ hərbi mütəxəssislərinin ilk toplantısı keçirildi[15].

Bu görüşdən sonra Suriya rəhbərliyi ümumi uzunluğu 600 km olan Suriya-İraq sərhədində 3 metr yüksəklikdə və 130 km uzunluğunda qoruyucu divar qurmağa başladı. Lakin bir faktı da qeyd etmək lazımdır ki, görülən tədbirlərə baxmayaraq ABŞ Dövlət Departamenti ilə müqayisədə Pentaqon ənənəvi olaraq Suriya-Amerika münasibətlərinin inkişaf etdirilməsinə daha çox maneə törədirdi. Belə ki, 2004-cü ilin oktyabr ayının

---

[12] Салум Хоссам Еддин, **a.g.m.,** s.86.
[13] Салум Хоссам Еддин, **a.g.m., s.** 81-87.
[14] Анатоли Цыганок, **a.g.m.**
[15] Anthony H. Cordesman, **a.g.m.**

əvvəlində D.Ramsfeld öz bəyanatında qeyd etdi ki, "İraqla sərhədin bağlanması məsələsində Suriya ilə əməkdaşlıq barədə danışmaq hələ tezdir, çünki terrorçular hər iki istiqamətə keçməkdə davam edir"[16].

O, həmçinin təsdiq edirdi ki, suriyalılar İraqdakı banklara investisiya qoymaqdan imtina etdiyi halda, Hizbullahı maliyyələşdirməkdə İran ilə əməkdaşlığı davam etdirir və Livanda əsgərlərini saxlayır[17].

Tanınmış politoloq V.M.Əhmədov bu proseslərə münasibətini bildirərək yazırdı ki, Suriya Ərəb Respublikası Orta Şərqdə Amerika siyasətinin iki əsas vəzifəsini – İraq probleminin və ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həllində də əsas rol oynaya bilərdi[18]. Bu baxımdan Birləşmiş Ştatlar Suriyanı Yaxın Şərqdə ABŞ-ın əlverişli mövqeyi üçün təsir göstərdiyi bir vasitə deyil, regiondakı siyasi prosesdə real iştirakçı kimi qiymətləndirir. İraqda döyüşlərin başa çatmasından sonra Suriyaya sərt təzyiq göstərməsinə baxmayaraq, Birləşmiş Ştatlar başa düşürdü ki, Suriyanın maraqlarını nəzərə almadan, bölgədə kompleks problemləri həll etmək çətin olacaqdır. Bu, xüsusilə ABŞ Dövlət Departamentinin sözçüsü R.Bauçerin bəyanatında özünü təsdiq etmiş oldu. Onun bildirdiyinə görə, İraqdan Suriyaya neft nəql edilməsi məsələsi ABŞ-ın müdaxiləsi olmadan iki ölkənin maraqlarına uyğun şəkildə həll edilməli idi. 2003-cü ilin yazında Dəməşqdə olan ABŞ konqresmeni N.Rahal ABŞ-ın Suriyanın iqtisadi problemlərinə həssas olduğunu və İraqdan neftin nəqlində Dəməşqin maraqlarını nəzərə aldığını söylədi[19].

Məsələnin digər tərəfinə nəzər salsaq ABŞ-Suriya münasibətlərinin gərginləşməsində digər faktorlarında mühüm rol oynadığının şahidi olarıq. Belə ki, ABŞ-ın hərbi qüvvələrinin 2003-cü ildə İraqı işğal etməsi Vaşinqtonun yalnız Şimali İraq Kürd Muxtariyyəti ilə əlaqələrini dəyişdirmədi, həm də Suriya və bölgədə olan digər kürdləri silahlı qrupları ilə təmas imkanlarını artırdı. İraqın Suriya ilə çöl bölgələrindən keçən və nəzarət etməsi çox çətin olan, uzun bir sərhədə malik olması, Vaşinqtona 2003-cü ildən sonra Suriya kürdləri ilə daha sıx əlaqə qurmağa imkan verdi.

ABŞ-ın Suriya kürdlərinə olan maraqları 2004-cü ildə Qamışlı hadisələrində özünü daha aydın şəkildə göstərdi. Belə ki, Kürd və ərəb qrupları arasında oynanan futbol matçından sonra Qamışlı və ətrafında baş verən toqquşmaları əks etdirən informasiyalar hətta prezident Buş və İsrail Baş naziri Netanyahu haqqında olan xəbərlərdən belə ön sıralarda yer aldı. Belə ki, matç sonrası etnik kürdlərlə ərəblər arasında baş verən toqquşmalar və iğtişaşları yatırtmağa çalışan ordunun müdaxiləsi nəticəsində əlli nəfərdən artıq etnik kürd öldürüldü. Suriyadakı kürd qruplarına rəsmi Vaşinqtonun eləcə də Tel-

---

16 Anthony H. Cordesman, "**If Its Syria: Syrian Military Forces and Capabilities**", 15 April 2003, http://csis.org/ publication/ if-its-syria-syrian-military-forces-and-capabilities, istifadə tarixi: 05.06.2022.

17 Абу Талеб. Хасан, «Видимое и невидимое в Новом Ближнем Востоке», **http://acpss.ahram.org.eg/ Ahram /2001/1/1/anal522.htm,** istifadə tarixi: 01.06.2022.

18 Vladimir Axmedov, **a.g.m., s.** 147-163.

19 Vladimir Axmedov, **a.g.m.,** s.150.

Əvivin maraqları sonrakı illərdə tədricən artdı və bu maraq 2011-ci ildə Suriyada başlanan vətəndaş müharibəsi zamanı ABŞ-ın PYD (Demokratik Birlik Partiyası) və YPG (Xalq Qoruma Dəstələri (qısaca: YPG) (kürd. Yekîneyên Parastina Gel) ilə əməkdaşlığının möhkəmlənməsinə və inkişaf etməsinə yardımçı oldu. Terrorçu təşkilat ABŞ-ın dəstəyi ilə Suriyanın Şərqi və Şimalında mühüm bir bölgəni nəzarəti altına aldı.

ABŞ-ın PYD / YPG ilə əməkdaşlığı İŞİD ilə mübarizə aparmaq üçün genişlənsə də, bu, indiki mərhələdə Vaşinqtonun bütövlükdə Suriya siyasətinin mərkəzində olduğu kimi nəzərə çarpır. Belə ki, Vaşinqton-PYD / YPG əməkdaşlığının Suriyanın ərazi bütövlüyünü, ən azından Suriyanın siyasi birliyini hədəfə aldığına inanıldığı ortaya çıxmaqdadır. Rəsmi Vaşinqtonun İraqda gerçəkləşdirdiyi və indi isə Suriyada reallaşdırmağa çalışdığı kürd federal bölgələr ilə Yaxın Şərqdə, İsrail baş naziri Netanyahunun da istədiyi kimi İrandan Aralıq dənizinədək uzanan bir Kürd dövlətinin infrastrukturunu qurmağa çalışdığına inananların sayı artmaqdadır.

***Nəticə***

ABŞ üçün Suriya münaqişəsinin əvvəlki İraq münaqişəsindən fərqləndirən bir çox vacib amillər mövcud idi. İraqın işğalı zamanı əsas təhlükə törədən dövlətlər İran və Suriya idi. Suriya münaqişəsində isə ABŞ artıq Türkiyə və Rusiya kimi dövlətlərin də milli təhlükəsizliyinə böyük təhdidlər yaratdığından bu dövlətlərin də ciddi müqaviməti ilə rastlaşdı. Türkiyənin Şimali İraqdakı proseslərə (xoşlanmasa da) birbaşa qarşı çıxmadığı, hətta (istəyərək və istəməyərək) əməkdaşlıq etdiyi, ancaq Suriyadakı proseslərin Türkiyənin həyati maraqlarına birbaşa zərbə olduğu ABŞ tərəfindən lazımınca dəyərləndirmədi. Rəsmi Vaşinqtonun Suriyada PKK terror təşkilatının Suriyada bir qolu olan PYD / YPG-ni dəstəkləməsi bölgə üçün yeni təhdidlər yaratdı. Vaşinqtonun Türkiyənin PKK-nın Suriyada (muxtar bölgə, federasiya kimi adlar altında da olsa) dövlət qurmasına razılıq verməyəcəyini görmək istəməməsi Türkiyə-ABŞ əlaqələri üçün çox perspektivsiz bir prosesdir. Vaşinqtonun, Türkiyə-ABŞ əlaqələrinin gələcəyi üçün, bir an əvvəl qəbul etməsi zəruri olan bir məsələ Türkiyənin cənub sərhədlərində Şimali İraqı və Şimal-şərqi Suriyanı içinə alacaq bir Kürd dövlətinin meydana gəlməsinə (ya bu istiqamətə gedə biləcək hər hansı bir prosesə) icazə verməyəcəyi gerçəkliyidir. Bu mülahizənin doğruluğunu rəsmi Ankaranın "Fərat qalxanı", "Zeytun budağı" və sonrakı addımları bir daha sübut etmiş oldu.

Eyni zamanda ABŞ-ın Suriyada mərkəzi hökuməti zəiflətmək və B.Əsədi devirmək cəhdləri bu bölgədə Rusiya-İran ittifaqını gücləndirdi. Rusiya və İran ABŞ-ın bütün cəhdlərinə baxmayaraq öz milli maraqlarını rəhbər tutaraq B.Əsədə açıq şəkildə hərbi, siyasi və iqtisadi dəstək göstərdilər. Sonrakı proseslər də göstərdi ki, məhz bu dövlətlərin qəti mövqeyini ABŞ-a Suriyada İraqda olduğu kimi rahat işğala imkan vermədi, ABŞ-ın Suriya siyasətində tərəddüdlər meydana çıxdı, ABŞ hökumətində ordu ilə siyasi rəhbərlik arasında Suriya siyasəti ilə bağlı fikir ayrılıqları yaranmağa başladı.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Aida Bağırova. 2003-cü il "İraq müharibəsi ərəfəsində böyük güclərin siyasətinə dair". Bakı, **Bakı Universitetinin Xəbərləri**, №1, 2010, s. 93-98.
2. Cavid Əlisgəndərli. "Ərəb baharı: geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri" **Tarix və onun problemləri**, №4. Bakı, 2013, s. 263.
3. Nicat Rəfael oğlu **Əkbərov**. "**Beynəlxalq münasibətlərdə Suriya böhranı**" magistr dissertasiyası. Bakı, 2018, 136 s.
4. Anthony H. Cordesman. "**If Its Syria: Syrian Military Forces and Capabilities**", 15 April 2003, http://csis.org/ publication/ if-its-syria-syrian-military-forces-and-capabilities, istifadə tarixi: 17.06.2022.
5. Anthony H. Cordesman, "**Al Qaeda and the Military Realities in Iraq**", 28 October 2004, http://csis.org/ publication/ al-qaqaa-and-military-realities-iraq, istifadə tarixi: 17.06.2022.
6. Wirtz I.I. and Russel A.A. "**US Policy on Preventive War and Preemption the Nonproliferation**" Review. 2003, 112-122 p.
7. Монейм Саид Абдель «Многие иракские сценарии», **Аль-Ахрам. Центр политических и стратегических исследований,** http://www.ahram.org.eg /archive/MaklatIndex. asp, istifadə tarixi: 17.06.2022.
8. Архипов А.В. «Сирия: факторы политико-экономических изменений». **Ближний Восток и современность** (Сборник "Ближний Восток и современность". Выпуск 16). 2002. Москва, №16, 440 с, с.13.
9. Владимир Ахмедов, "Роль внешнеэкономических связей в процессе модернизации экономики САР", **Ближний Восток и современность** (сборник статей), №38, Москва 2008, с. 147-163.
10. Вахид Аюбов, "Буш и Пауэлл и Фридман как они понимают нас?", **Аль-Ахрам. Центр политических и стратегических исследований**, http://acpss.ahram.org. eg/ Ahram/ 2001/1/1/ANAL203.HTM, istifadə tarixi: 17.11.2007.
11. **Александр Андреевич** Волович. «Осложнение сирийско-американских отношений в контексте иракского кризиса», **http://www.iimes.ru/rus/stat /2004/09-11-04.htm,** istifadə tarixi: 2016.
12. Салум Хоссам Еддин, «Влияние военно-политической ситуации в Ираке на внешнюю политику Сирии», **Вестник РУДМ, серия Международные отношения**, №1, Москва 2012, с. 81-87.
13. **Александр Андреевич** Розов. «Иран и Сирия: стратегический союз», **http://www.iimes.ru/rus/stat/ 2006/23-01- 06a.htm,** istifadə tarixi: 2006/23-01.
14. Абу Талеб. Хасан, «Видимое и невидимое в Новом Ближнем Востоке», **http:// acpss. ahram.org.eg / Ahram/2001/1/1/anal522.htm,** istifadə tarixi: 01.06.2022.

15. Анатоли Цыганок, «Сирийская карта в арабо-израильском конфликте», **http:// www. iimes.ru/ rus/stat/2006/16-11-06.htm,** istifadə tarixi: 17.06.2022.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Adıgözəlova Məleykə Zahir qızı – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, Azərbaycan, Bakı.

Adigozelova Maleyka Zahir – doctoral candidate at ANAS Institute of History, Azerbaijan, Baku.

# SİYASƏT TARİXİ – HISTORY OF POLITICS

## SİYASƏTİN FORMALAŞMASI VƏ TARİXİ İNKİŞAFI

©2021

GÜNEL MƏLİKLİ*

*AMEA-nın Fəlsəfə İnstitutu
ORCID: 0000-0001-6884-1744; e-mail: gunelmelikli88@gmail.com

***Xülasə:*** *Siyasət özünü dövlətin və cəmiyyətin siyasi həyatında göstərir. Siyasi fəaliyyətin nəticəsi olaraq cəmiyyət həyatında siyasi münasibətlər qərarlaşır və inkişaf edir, cəmiyyətin müxtəlif sferaları arasında siyasi əlaqələr formalaşır. Mifik təsəvvürlər yer üzündə mövcud olan bütün qaydaların ilahi mənşəyə malik olduğunu iddia edirdi. E.ə. I minillikdə sosial və siyasi təsəvvürlərin rasional xarakter alması mifoloji ideyaları tədricən ikinci sıraya keçirdi. Siyasi həyat əbədi mövcud olmayıb və onun yaranma tarixi qədim dövrə, yəni ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin yaranması dövrünə təsadüf edir. Sosial-siyasi təlimlərdə sinfi mənafelərlə yanaşı ümumbəşəri dəyərlər də öz əksini tapır. Qədim dövrdə sosial-siyasi təlimlər Babilistanda, Hindistanda, Misirdə, Çində və digər ölkələrdə yaranmışdır. Siyasi proseslər getdikcə daha mürəkkəb xarakter daşıyır, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynamağa başlayır. Siyasətin təhlili əsasında böyük bir kompleks siyasi elmlər formalaşaraq burada yaranan nəzəri və tətbiqi məsələlərin həllinə yardım edir.*

***Açar sözlər:*** *siyasət, siyasi fəaliyyət, sosial-siyasi təlimlər, siyasətin təhlili, siyasi münasibətlər, sosial prioritetlər*

# FORMATION OF POLITICS AND HISTORICAL DEVELOPMENT

©2021

GUNEL MELIKLI*

* ANAS Institute of Philosophy
ORCID: 0000-0001-6884-1744; e-mail: gunelmelikli88@gmail.com

***Abstract:*** *Politics is manifested in the political life of the state and society. As a result of political activity in the life of a society, political relations are established and developed; political relations are formed between different spheres of society. Mythical ideas claimed that all the rules on earth have a divine origin. In the 1st millennium BC, the rationalization of social and political ideas gradually pushed mythological ideas into the second plan. Political life did not last forever, and its history goes back to the depths of antiquity, that is, it coincides with the collapse of primitive community society and the emergence of a socially heterogeneous society.*

*Along with class interests, universal values are also reflected in socio-political teachings. In ancient times, socio-political teachings originated in Babylonia, India, Egypt, China, and other countries. Political processes are becoming more complicated and are beginning to play an important role in governing society. Based on the analysis of policy, a large complex of political sciences is formed which helps to solve the theoretical and practical problems that arise here.*

***Keywords:*** *politics, political activity, socio-political trainings, analysis of politics, political relations, social priorities*

# СТАНОВЛЕНИЕ ПОЛИТИКИ И ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ

©2021

ГЮНЕЛ МЕЛИКЛИ*

*Институт Философии НАНА
ORCID: 0000-0001-6884-1744; e-mail: gunelmelikli88@gmail.com

***Резюме:*** *Политика проявляется в политической жизни государства и общества. В результате политической деятельности в жизни общества устанавливаются и развиваются политические отношения, формируются политические отношения между различными сферами общества. Мифические идеи утверждали, что все правила на земле имеют божественное происхождение. В первом тысячелетии до н.э. рационализация социальных и политических идей постепенно отодвинула мифологические идеи на второй план. Политическая жизнь не длилась вечно, и ее история восходит к глубокой древности, к краху первобытного общин-*

*ного общества и возникновению социально неоднородного общества. Наряду с классовыми интересами, общечеловеческие ценности находят отражение в социально-политических учениях. В древности социально-политические учения зародились в Вавилонии, Индии, Египте, Китае и других странах. Политические процессы усложняются и начинают играть важную роль в управлении обществом. На основе анализа политики формируется большой комплекс политических наук, помогающий решать возникающие здесь теоретические и практические проблемы.*

***Ключевые слова***: *политика, политическая деятельность, социально-политические тренинги, анализ политики, политические отношения, социальные приоритеты.*

***Giriş***

Siyasət sözü qədim yunan sözü olub (polis, politikos) dövlət və vətəndaş arasındakı qarşılıqlı münasibətləri özündə əks etdirir.

Siyasət özünü dövlətin və cəmiyyətin siyasi həyatında göstərir. Siyasi fəaliyyətin nəticəsi olaraq cəmiyyət həyatında siyasi münasibətlər qərarlaşır və inkişaf edir, cəmiyyətin müxtəlif sferaları arasında siyasi əlaqələr formalaşır.

Politologiya elmi ictimai inkişafın məntiqini daha dərindən öyrənməyə kömək edir, siyasi həyatın, dövlət quruluşunun və beynəlxalq siyasətin əsasları barədə bilgilər verir.

Ümumiyyətlə, politologiyanın fəaliyyət sahəsi genişdir. O cəmiyyətin formalaşdırılmasında, idarə edilməsində əhəmiyyətli rol oynayır. Onun əsas təyinatı insanları siyasi baxımdan mədəni şəxsiyyətlər etməkdir[1].

Politologiya elmi siyasi fəaliyyətlə sıx bağlıdır. Siyasi fəaliyyətdə sosial qruplar öz mənafelərini müdafiə edir, sosial maraqlarını həyata keçirməyə çalışırlar. Siyasi fəaliyyətin əsas istiqamətlərindən biri də sosial siyasətdir.

Qeyd edək ki, cəmiyyətdə mövcud olan siyasi şüurun ictimai həyat hadisələrinə münasibəti sosial-siyasi proseslər haqqında fikirlərin yaranmasına səbəb olmuşdur. Sosial siyasətdən danışarkən ən əvvəl sosial siyasət haqqında ideyaların tarixinə nəzər salmaq lazımdır.

Sosial siyasətin nisbətən gənc olmasına baxmayaraq (sosial nəzəriyyənin bir bölməsi kimi, eləcə də sosial üstünlük kimi – dövlətin daxili siyasəti) onun konseptual əsasları yüz illər boyunca qoyulmuşdur[2].

---

[1] Леонид Куликов, **Основы социологии и политологии,** учебное пособие, Москва, издательство «Финансы и статистика», 2005, с.151.

[2] Сергей Смирнов, Татьяна Сидорина, **Социальная политика**, Москва, издательский дом ГУ ВЩЭ, 2004, с.122.

Erkən dövrlərdə insanların siyasi baxışları bütövlükdə nisbi-müstəqil bilik sahəsinə çevrilməmişdi və mifoloji dünyagörüşünün tərkib hissəsi kimi çıxış edirdi. Mifik təsəvvürlər yer üzündə mövcud olan bütün qaydaların ilahi mənşəyə malik olduğunu iddia edirdi. E.ə. I minillikdə sosial və siyasi təsəvvürlərin rasional xarakter alması mifoloji ideyaları tədricən ikinci sıraya keçirdi.

Siyasi həyat əbədi mövcud olmayıb və onun yaranma tarixi qədim dövrə, yəni ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin yaranması dövrünə təsadüf edir. Sosial-siyasi təlimlərdə sinfi mənafelərlə yanaşı ümumbəşəri dəyərlər də öz əksini tapır.

Qədim dövrdə sosial-siyasi təlimlər Babilistanda, Hindistanda, Misirdə, Çində, və digər ölkələrdə yaranmışdır.

E.ə. IV-III minillikdə Misirdə siyasi hadisələr Allahın iradəsinin təzahürü kimi təsəvvür olunurdu. Burada ilk quldarlıq dövlətləri yaranmış, siyasi ideologiyalarda, ictimai-siyasi sahədə müxtəlif təbəqələrin qeyri-bərabərliyi hökm sürmüşdür. Babilistanda quldarlıq cəmiyyəti inkişaf etmiş, siyasi ideologiya dini təsəvvürlərə yönəlmişdi.

Hindistanda sosial-siyasi ideyalar buddizm və brahmanizm ideologiyasından qaynaqlanırdı. Brahmanizmin sosial-siyasi ideyaları isə e.ə. II əsrdə “Manu qanunların”da öz əksini tapmışdır. Brahmanizmdə Varnaların Allah tərəfindən göndərilmiş qaydaları özünə təlqin etmələri bu ideologiyanın əsasını təşkil edirdi.

“Manu qanunu”da isə Varnanın yüksək təbəqəsinin nüfuzunun saxlanılması üçün mövcud dövlət quruluşunun qorunması vacib şərt kimi qeyd edilirdi.

Banisi şahzadə Qautama olan buddizm cərəyanının e.ə V-IV əsrdə yaranmışdır. Buddizm cərəyanın başlıca nöqteyi-nəzəri insanların azad olmaları idi.

E.ə. IV-III əsrlərdə Qədim Çində siyasi fikir geniş vüsət tapmışdı. Daosizm təlimi “Daodo tıszin” kitabında formalaşmış və kasıbların passiv etirazı ilə əks olunmuşdu. Ümumiyyətlə, Qədim Çin sosial-siyasi təlimlərində ziddiyyətli məqamlar çoxdur.

Belə ki, e.ə. 551-479-cu illərdə yaranan Konfutsi təlimində nüfuzlu təbəqələrin mənafeyi müdafiə edilirdisə, eyni dövrdə yaranan Mo-tıszı təlimi isə kasıb təbəqənin maraqlarından çıxış edirdi.

Qədim Yunanıstanda da sosial-siyasi ideyalar bir neçə istiqamətdə formalaşmışdır.

Qədim Şərqdən fərqli olaraq Antik Yunanıstanda fərdin cəmiyyətdəki vəziyyəti ilə bağlı məsələlər ön plana çəkilir, insanın davranışının subyektiv tərəfinə diqqət yetirilirdi.

E.ə. V əsrin II yarısında Yunanıstanda Periklin və sofistlərin təlimi də sosial-siyasi ideyalar tarixi üçün əhəmiyyətli hesab edilir. E.ə. IV əsrdə Demosfen insanların bərabərliyi, demokratiyanın sarsılmazlığını vacib hesab edirdi.

Platon ictimai bərabərsizlik tərəfdarı idi. Qədim yunan sosial-siyasi fikrinin daha bir nümayəndəsi Aristotel (e.ə.384-322) sosial hadisələri təbiətin qanunauyğunluqları nəticəsində yaranan hal kimi nəzərdən keçirirdi.

Aristotelin təliminə görə, cəmiyyətdəki qeyri-bərabərliyi şərtləndirən başlıca səbəb quldarlığın meydana gəlməsidir. Onun sosial-siyasi fikirləri "Siyasət" adlı kitabında şərh olunmuşdur.

Aristotelin sosial konsepsiyası imtiyazlı təbəqələrin mənafelərini müdafiə edir, varlıların hakimiyyətinə haqq qazandırırdı.

Qədim Romanın sosial-siyasi təlimləri ilə antik Yunanıstanın təlimləri arasında oxşarlıqlar yetərincə idi. Romalıların dünya görüşlərində orijinallıq onların yetkin quldarlıq cəmiyyətinin münasibətlərinə dair fikirlər irəli sürmələri ilə şərtlənirdi.

Mövcud ədəbiyyatda adətən Seneka, Mark Avreli, filosof Lukretsi Kar, aristokratiyanın ideoloqu M.Siseron yunan stoiklərinin Romadakı ardıcılları kimi göstərilir.

Siseron bütün adamların təbiətən bərabər olduqlarını və təhsil alan hər bir şəxsin yüksək səviyyəyə qalxmasının vacibliyini bildirirdi. Onun fikrincə sosial fərqlər təbiətdən deyil, cəmiyyətdə qərarlaşan münasibətlərdən formalaşır.

Digər Roma mütəfəkkiri Epiktet var-dövlətin əleyhinə çıxaraq, onları şər qüvvə adlandırmışdı.

Qədim Yunan filosofu Epikür isə (e.ə. 341-270) ictimai hadisələrə relyativist (şərti) münasibət bəsləyirdi. Onun fikrincə müxtəlif dövlətlərin qanunlarında təcəssüm olunan ədalət nisbi və şərti xarakter daşıyır, mütləq mənada birdəfəlik qərarlaşan ədalət mövcud deyildir.

Epikürün nəzəriyyəsini Yunanıstanda stoiklər, xüsusən də Zenon (e.ə. 336-264) tənqid edirdi. Onların fikrinə görə insanlar özlərini vahid dövlətin nümayəndələri hesab etməlidirlər və ictimai fəaliyyəti inkar etməməlidirlər. Onlar fərdlərlə müqayisədə dövlətin mənafeyini daha üstün tuturdular. Bununla da quldarlıq cəmiyyətinin ali aristokratik təbəqələrinin mənafeyini əks etdirirdilər.

Yunanıstanın qədim dövrünün axırıncı mütəfəkkiri Polibiyə (e.ə. 200-120) görə dövlətin qarışıq forması insanların mənafeyi baxımından daha səmərəlidir və bunun üçün monarxiya, aristokratiya və demokratiyanın başlanğıc prinsiplərinin əlaqələndirilməsi vacibdir.

Qədim Roma imperiyasının süqutu (e.ə. 476) orta əsrlər tarixinin əsasını qoydu. Orta əsrlərdə Avropanın fəlsəfi və sosial-siyasi fikrində sxolastika (məktəb deməkdir) hakim mövqe tuturdu. Onlar xristian dini təlimini əsaslandırmağa çalışırdılar.

Bu təlimin nümayəndələrindən Rocer Bekon (1214-1292) və Akvinalı Foma (1226-1274) tanınırdı. Onlar insanların bütün problemlərinin həll edilməsi üçün bəşər övladlarının hamısının vahid xristian bayrağı altında birləşməsini vacib hesab edirdilər.

Ərəb mütəfəkkiri İbn Xaldun (1332-1406) göstərirdi ki, bəşər cəmiyyətinin inkişafı və bütün sosial hadisələr insanların iradəsindən asılı olmayan, istehsal üsulu ilə şərtlənən sərt qanunlara tabedir.

Orta əsrlərdə Qərbi Avropa və Ərəb Şərqi ölkələri ilə yanaşı Azərbaycanın şair və filosoflarının, mütəfəkkirlərinin də sosial-siyasi fikrin təkmilləşməsi istiqamətində böyük xidmətləri olmuşdur.

N.Tusi (1201-1274) düzgün siyasətin xalqın xeyrinə, mürtəce siyasətin isə faciələrə səbəb olmasına diqqəti cəlb edirdi.

Nizami Gəncəvi (1141-1209) sosial-siyasi fikirlərində humanizmi müdafiə etmiş, öz əsərlərində bu prinsipləri əks etdirmişdir.

Bəhmənyar da sosial-siyasi görüşlərində haqsızlığa, insanların yoxsul həyat tərzinə qarşı çıxır, bu problemlərin aradan qaldırılmasını istəyirdi.

M.Şəbüstəri belə hesab edirdi ki, cəmiyyətin tərəqqisinin başlıca şərti ədalətli qayda və qanunların mövcudluğudur.

Sonralar sosial-siyasi problematik T.Morun və T.Kampanellanın məşhur sosial utopiyalarında müzakirə edilmişdir. İctimai saziş nəzəriyyələrinə həsr olunmuş elmi əsərlərdə sosial siyasətə dair məsələlər dövlətin daxili siyasətinin başlıca istiqamətlərindən biri kimi nəzərdən keçirilir[3].

XVI-XVII əsrlərdə Avropa həyatında böyük sosial-siyasi dəyişikliklər baş verirdi. Utopik sosialistlər T.Mor (1478-1535) və T.Kampanella (1568-1639) dövlətçiliyin inkişafını, cəmiyyətdə ideal sosial-siyasi şəraitin qərarlaşmasını xüsusi mülkiyyətin ləğv edilməsində görürdülər.

Fransız nəzəriyyəçisi Jan Boden (1530-1596) xüsusi mülkiyyəti, ailə münasibətlərini və bəzi şəxsi hüquqları ilahi sferaya və təbii hüquqlara aid edirdi.

İngilis filosofu T.Hobbsun (1588-1679) fikrincə xalqın rifahı naminə hakimiyyətdə olan şəxs qanunların qəbul edilməsində, vergi yığılmasında qeyri-məhdud hüquqlara malik olmalıdır.

Marks və onun ardıcıllarının əsərlərində sosial problematik məsələsinə xüsusi diqqət yetirilmişdir. Bu mövzu getdikcə sosial rifahın təmin edilməsini məlum eqalitar proqramına çevrilmişdir[4].

Əsasən liberal nəzəriyyəni qəbul edən Aristotel və Platondan başlayaraq Kant və Qrotiusa qədər gəlib çatan idealist və liberal məktəbi təmsil edən siyasətşünaslar siyasəti bir işbirliyi və mənfəətlərin uzlaşdırılması prosesi kimi görürlər. İxtibas?

Realist məktəbin nümayəndələri isə siyasəti daha çox rəqabət prosesi və hətta mənafe rəqabəti kimi qəbul edirlər. Siyasət eyni zamanda siniflərarası rəqabətdir. Yaxud istehsal vasitələri üzərində rəqabətdir. Əmək və sərmayə arasındakı, burjuaziya və proletariat arasındakı rəqabət, yaxud qarşıdurmadır[5].

Siyasi proseslər getdikcə daha mürəkkəb xarakter daşıyır, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynamağa başlayır. Siyasətin təhlili əsasında böyük bir kompleks

---

[3] Smirnov, Sidorina, **a.g.ə., s.** 123.
[4] Smirnov, Sidorina, **a.g.ə., s.** 123.
[5] Hikmət Babaoğlu, **Dünya siyasəti və beynəlxalq münasibətlər (dərslik),** Bakı, Çinar Çap, 2010, s.87.

siyasi elmlər formalaşaraq burada yaranan nəzəri və tətbiqi məsələlərin həllinə yardım edir.

XVIII əsrin fransız filosoflarından olan Ş.Monteskye, M.Volter, D.Didro, R.Holbax, J.Lametri, J.J.Russo və digərləri hakimiyyət bölgüsünə dair mühüm sosial ideyaları, ictimai sazişdən yaranan dövlət barədə, insanın təbii hüquqları kimi mülkiyyət azadlığı və təhlükəsizlik hüququ barədə, söz, fikir və vicdan azadlığı barədə və xalqların qeyri-məhdud suvereniteti barədə fikirləri inkişaf etdirmişlər[6].

Alman klassik fəlsəfəsinin görkəmli nümayəndəsi Hegel (1770-1831) "vətəndaş cəmiyyəti" və dövlət anlayışlarını fərqləndirərək, vətəndaş cəmiyyətini dövlətdən asılı olmayan, xüsusi tələbatların və mənafelərin reallaşması sferası kimi səciyyələndirmişdir.

Onun fikrincə vətəndaş cəmiyyəti mövcud tələbatların və mənafelərin subyektlərinin xüsusi mülkiyyət və insanların ümumi formal birliyi əsasında həyata keçirilən qarşılıqlı fəaliyyəti kimi çıxış edir.

XIX əsrin I yarısına aid olan spesifik şəraitdə liberalizm ideyaları ön sıraya çıxdı. Liberalizm "vətəndaş azadlığı"nı xüsusi təşəbbüskarlıq azadlığı, sahibkarlıq, müqavilə, söz, vicdan, mətbuat və s. azadlığı kimi başa düşürdü. Bu konsepsiyaya görə dövlət şəxsiyyətin "vətəndaş azadlığı"na əsaslanan təhlükəsizliyini, xüsusi mülkiyyətini təmin etməlidir.

XIX əsrin I yarısından sosialist (kollektivçi, kommunist) nəzəriyyələr İngiltərədə, xüsusilə Fransada geniş yayılmağa başladı. Onların fikrincə sənaye çevrilişi yeni cəmiyyətin yaranmasına səbəb olmuşdur və bu şəraitdə insanların rifahını yüksəldəcək, işsizliyi aradan qaldıracaq ən uğurlu cəmiyyət kommuna tipli cəmiyyət ola bilər. (S.Simon, Ş.Furye, P.Leri və s.)

Sosialist ideologiyasının əsas istiqamətləri XX əsrin başlanğıcında inkişaf etməyə başlamışdır. XIX əsrin ikinci yarısında sosialist partiyaların fəaliyyəti nəticəsində marksizm ideologiyası artıq bir doktrina kimi yayılmağa başladı.

Bu dövr ərzində sosial siyasətin müxtəlif modelləri formalaşmağa başladı. Bunlardan biri də kommunist modelidir. Sosial siyasətin bu modelindən marksizm ideologiyasının hakim olduğu sosialist ölkələrdə istifadə edirlər.

Bu dövrdə sosial-demokrat nəzəriyyəçilər (F.Lassal) belə hesab edirdilər ki, sosial məsələlər inqilabın deyil, elmin, istehsalın köməyi ilə həll edilməlidir. Həmin dövrün anarxistləri isə dövlət hakimiyyətini inkar edir, onun ictimai özünüidarə ilə əvəz olunmasını istəyirdilər.

XIX əsrdə Azərbaycanda A.A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundovun, H.B.Zərdabinin və digərlərinin sosial-siyasi fikrin inkişafında xüsusi rolu olmuşdur.

[6] Евгений Бабосов, **Общая социология**: **Учеб. пособие для студентов вузов,** Тетра Системс, 2004, с.53.

XIX əsrin sonu – XX əsrin əvvəlləri artıq sosial-siyasi fikir tarixində yeni meyillər yaranmağa başladı. Bu dövrdə sosialist, sosial-demokrat və bolşevizm ideologiyası üstün yer tuturdu.

Həmin dövrdə Azərbaycanda da sosial-siyasi və ədəbi fikir yeni mərhələyə qədəm qoymuşdur. Həmin dövrün sosial-siyasi fikrin görkəmli nümayəndələri M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Rəsulzadə və başqaları idilər. Onların sosial siyasi baxışlarında sosial ədalət və bərabərlik ideyaları əsas yer tuturdu.

XIX əsrin sonu – XX əsrin əvvəlləri sosial-demokratik ideyalar daha geniş yayılmağa başlamışdır. 1899-cu ildə alman sosial-demokratlarının görkəmli nümayəndəsi Eduard Bernşteynin nəşr etdirdiyi "Sosializmin zəmini və sosial-demokratiyanın vəzifələri" adlı kitabı da bu ideyalardan bəhs edirdi.

Qədim tarixə malik Azərbaycanda ibtidai icma quruluşu dövründə qocaların və əmək qabiliyyətsiz şəxslərin saxlanılması adətlərə görə qəbilənin əmək qabiliyyətli şəxsləri tərəfindən həyata keçirilirdi, quldarlıq cəmiyyətində isə qulların qocalığa və əmək qabiliyyətini itirməyə görə hər hansı təminat forması olmamışdır.

Müxtəlif mənbələrdə quldarlıq dövründə hərbi xidmət veteranları üçün Qədim Yunanıstanda pensiyaların verilməsi və Qədim Romada xidməti torpaq payının verilməsi ilə mükafatlandırılması göstərilir[7].

Feodalizm dövründə müsəlman dünyasının bir hissəsi olan Azərbaycanda bütün ictimai münasibətlər əsasən şəriət qanunları ilə tənzimlənirdi. Feodalizm dövründə sosial təminatın növləri əmək qabiliyyəti olmayan şəxslərin sosial cəhətdən təminatı xarakteri deyil, ancaq mükafat xarakteri daşıyırdı.

Qeyd edək ki, bu anlayış hazırkı mənanı alana kimi uzun bir tarixi inkişaf yolu keçmişdir. Hər bir tarixi mərhələdə dövlət öz funksiyasını müəyyən istiqamətlərə doğru dəyişdirmiş və fəaliyyət sahəsini genişləndirmişdir. Bəzi hallarda sosial siyasət anlayışını sosial sabitlik anlayışı ilə əlaqəli olaraq işlədirlər. Bu anlayışları müqayisə etmək üçün onların tarixinə qısa nəzər salaq.

Yeni yaranan sosial düşüncələrdə radikal tərəfi təmsil edən K.Marks və F.Engels "sosialist ideologiyası"nı irəli sürərək fəhlə sinfinin müdafiəsini həyata keçirmək üçün kapitalistlər sistemini kəskin tənqid edirdi.

Kapitalizm cəmiyyətin sinfi bölgüsünü sadələşdirirdi. Kapitalizm quruluşunda fəhlələr hüquqi cəhətdən azad olsalar da, istehsal vasitələri üzərində mülkiyyətdən məhrumdurlar. Nəticədə hüquqi cəhətdən asılı olan fəhlə sinfi iqtisadi cəhətdən kapitalistlərdən asılıdır. Bunları araşdıran K.Marks və F.Engels kapitalist quruluşunu muzdlu köləlik adlandırmışlar.

---

[7] **Социальная политика**, учебник, под общей редакцией Волгина Н.А. Москва, Издательство РАГС, 2003, s.482.

V.S.Andreyev, K.S.Batıgin və s. sosial təminat anlayışına tibbi yardımı, müalicəni, sanatoriya – kurort müalicəsi ilə təminatı və s. aid edirlər. İ.V.Quşin sosial təminat anlayışına ancaq pensiyanı və sosial xidməti aid edir.

Dövlət öz vətəndaşlarının sosial təminatlarını Konstitusiyaya və digər qanunvericilik aktlarına əsaslanaraq təmin edir, bütövlükdə vətəndaşların hüquqlarını müdafiə edir.

Cəmiyyət üzvlərinin sosial rifah vəziyyətinin yaxşılaşması sahəsində sosial siyasətin həyata keçirilməsi insanların bütövlükdə sosial vəziyyətinin yüksəldilməsinə, cəmiyyətdə sosial sabitliyin, ictimai rifahın, sosial ədalətin möhkəmlənməsinə gətirib çıxarır.

Cəmiyyətin sosial sferası dedikdə müxtəlif sosial, mədəni, etnik və s. qruplar arasında formalaşan sosial əlaqələr sistemi başa düşülür. Cəmiyyət inkişaf etdikcə onun xarakterinə uyğun sosial sfera yaranır.

Belə ki, ictimai sistem dəyişdikcə sosial sfera da dəyişir, yəni cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq inkişaf edir. Cəmiyyətin müxtəlif sferaları içərisində sosial sfera özünəməxsusluğu ilə fərqlənir və bu fərqlilik insanların burada sosial fəaliyyətinin olmasında özünü göstərir. Sosial sferada insan fərd kimi deyil, sosial birlik kimi iştirak edir və fəaliyyət göstərir.

Marksizm nöqteyi-nəzərindən sosiallıq intellektə malik olan bioloji varlıq olan insanın şüur və davranışının nəticəsidir. Buna qarşı hər hansı bir fikir yürütmək çətin olardı, yeganə olaraq bunu irad tutmaq olar ki, "insanın şüur və davranışının nəticəsi" olduqca mücərrəd bir anlayışdır. Beləliklə də, onun məzmununun mahiyyəti barədə araşdırma aparılması zərurəti vardır[8].

İnsan amili, cəmiyyət həyatının sosial-iqtisadi, siyasi, mədəni, intellektual və mənəvi potensialının təşkil edilməsi prosesində əhəmiyyətli rola malikdir. İnsan amili ölkə iqtisadiyyatının davamlı olaraq inkişafında əsas amil kimi çıxış edir.

Sosioloji baxımdan bəzilərinin həyatı və sosial təbəqədə mövcud olan mövqeyi mütəmadi dəyişə bilər və bu dəyişikliyi öncədən görmək mümkün ola bilər. Lakin bəzilərinin həyatı isə tənzimlənmiş və sabit şəkildə görünə bilər[9].

Bütün müasir cəmiyyətlərdə olduğu kimi ölkəmizdə də vətəndaşların sosial prioritetləri vacib məsələlərdəndir. Bu prioritetlərin həlli sosial siyasətin mühüm istiqaməti olub, onun ən ümdə vəzifələrindən birini təşkil edir.

Vətəndaşların sosial prioritetləri ilk növbədə əhalinin həyat şəraitinin yüksəldilməsi, bu istiqamətdə nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsidir.

Sosial prioritetlər sırasına ilk növbədə təhsil, mədəniyyət, səhiyyə və digər xidmətlər, maddi təminatlar, sosial yardımlar, müavinətlər, təqaüdlər və s. daxildir. Qeyd edilən

---

[8] Валентина Харчева, **Основы социологии**, учебник для студентов средних специальных учебных заведений, Москва, Логос, 2000, с. 15.

[9] Cox Harold G. **Later lıfe: the realities of aging**, New-York, Routledge, 1995, p.21.

sahələrin inkişafına vəsaitlər ayrılır, təhsil və mədəniyyət obyektləri, səhiyyə ocaqları inşa edilir, müasir avadanlıqlarla təchiz edilir, bir sözlə bu istiqamətdə ölkədə geniş miqyaslı və davamlı tədbirlər həyata keçirilir.

Bir sıra Avropa ölkələrinin alimləri belə hesab edirlər ki, SSRİ-də və Şərqi Avropa ölkələrində inzibati komanda idarəçiliyi sisteminin iflasa uğramasının əsas səbəbi dövlətin sosial problemlərin həllinə külli miqdarda vəsait ayırması və bu vəsaitin çox az səmərə verərək iqtisadiyyatı zəiflətməsidir.

İnkişaf etmiş ölkələrdə isə qeyd edilən sahəyə çoxlu vəsaitin ayrılması isə sosial sahələrdə çalışan işçilərin sayının süni artımına və bu sahədə qeyri-məhsuldarlığa səbəb olar ki, bu da büdcə defisitinin artması ilə nəticələnər.

Sosial sahədə aparılan elmi tədqiqatlarda Cənub-Şərqi Asiya ölkələrinin sosial siyasətindən də geniş bəhs edilir. Qeyd edək ki, hələ XX əsrin 70-80-ci illərində Cənub-Şərqi Asiya dövlətləri özünəməxsus aktiv sosial siyasət xətti yeritmişlər. Dövr dəyişdikcə isə bu sosial siyasət proqramı dəyişib başqa istiqamətə yönəldi. İnsan amilinin rolu ön plana çıxdı və bu ölkələrdə sosial vəziyyət daha da inkişaf edərək vətəndaşların yüksək həyat səviyyəsinə və rifah halına nail olundu.

***Nəticə***

Ötən əsrin 60-cı illərində dünyanın bir sıra alimləri inkişaf etmiş ölkələrin sənayedə inkişaf etmiş ölkələr sırasına keçmələri ilə əlaqədar olaraq müxtəlif fikirlər səsləndirmişlər. Onlar qeyd edirdilər ki, iqtisadi inkişafın sənaye və informasiya mərhələsində həlledici mənbə artıq maddi deyil, insan faktorudur. Elmi biliklərindən, təhsil səviyyəsindən asılı olaraq insanın vəziyyətə sürətlə adaptasiya olmaq bacarığı, şəxsi cavabdehliyi və şüurluluğu təkcə müasir istehsalın təhlükəsizliyindən deyil, həmçinin onun sonradan təkmilləşdirilməsi imkanlarından da asılı olur.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Hikmət Babaoğlu, **Dünya siyasəti və beynəlxalq münasibətlər (dərslik)**, Bakı, Çinar Çap, 2010, s.87.
2. Harold G. Cox. **Later lıfe: the realities of aging**, New-York, Routledge, 1995.
3. Евгений Бабосов, **Общая социология,** учеб. пособие для студентов вузов, Тетра Системс, 2004, с.53.
4. Валентина Харчева, **Основы социологии**, учебник для студентов средних специальных учебных заведений, Москва, Логос, 2000, с. 15.
5. Леонид Куликов, **Основы социологии и политологии,** учебное пособие, Москва, издательство «Финансы и статистика», 2005.

6. Сергей Смирнов, Татьяна Сидорина, **Социальная политика,** Москва, издательский дом ГУ ВЩЭ, 2004, с.122.
7. **Социальная политика,** учебник, под общей редакцией Волгина Н.А., Москва, издательство РАГС, 2003, s.482.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT THE AUTHOR

Məlikli Günel Qurbanəli qızı – AMEA-nın Fəlsəfə İnstitutu, "Sosial psixologiya" şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan, Bakı.

Melikli Gunel Kurbaneli – Doctor of Philosophy in political sciences, associate professor, ANAS Institute of Philosophy, Azerbaijan, Baku.

## RESENZİYALAR – REVIEWS

KAFKASYA'NIN YÜKSELEN YILDIZI İLHAM ALİYEV DÖNEMİNDE AZERBAYCAN
(yazarlar: Mitat Çelikpala v.b., editör Çağrı Erhan). **Ankara:** Atatürk Araştırma Merkezi, 2013, 402 s.

SELMA YEL*

*Qazi Universiteti, Türkiyə
ORCID: 0000-0002-9624-6966; e-mail: selmayel@gazi.edu.tr

Dünya coğrafyasında büyük öneme hâiz olan Kafkasya; Karadeniz ve Hazar Denizi arasında yer alan, Avrupa ve Asya'nın sınırında bulunan bölgeye verilen isimdir ve Kuzey Kafkasya – Güney Kafkasya olarak iki ana bölüm üzerinden değerlendirilmektedir. Azerbaycan ise Ermenistan ve Gürcistan ile birlikte Güney Kafkasya'yı oluşturmaktadır. Bölge, sahip olduğu stratejik ve jeopolitik öneminden dolayı, hem bölgesel hem de küresel güçlerin, yüzyıllardır devam etmekte olan mücadelelerine sahne olmaktadır. İçinde bulunduğumuz yüzyılda Güney Kafkasya'nın mihenk taşı olan Azerbaycan, geçmişin acı tecrübeleri üzerinden elde ettiği askerî, siyasî ve ekonomik başarılarla her geçen gün daha da dikkatleri üzerine çekecek şekilde gelişme kaydetmeye başlamıştır. Bunun sonucu olarak da gerek Türkiye'de gerekse Dünya genelinde Kafkasya'nın yükselen yıldızı Azerbaycan ile ilgili sayısız ilmî ve akademik çalışma ve araştırmalar yapılmaya başlanılmıştır. Bu çalışmalardan birisi de Prof.Dr. Çağrı Erhan tarafından editörlüğü üstlenilmiş olan ***Kafkasya'nın Yükselen Yıldızı*** *İlham Aliyev Dönemi'nde* ***Azerbaycan*** isimli eserdir.

Bu çalışmaya temel olan adı geçen eserde, 1991'de yeniden bağımsızlığını kazandığı günden itibaren birçok açıdan en istikrarlı süreç olarak nitelendirilen Cumhurbaşkanı İlham Aliyev yönetimindeki Azerbaycan tarihi incelenmektedir. Bu bağlamda Azerbaycan'ın 1991 sonrasındaki iç ve dış politikası, süreklilik ve değişim arz eden dinamikleri, ekonomi ve enerji politikaları, Karabağ eksenindeki gelişmeler ve Türkiye ile ilişkileri, akademik bir bakış açısıyla bölgesel ve küresel boyutta incelenmeye çalışılmıştır. Prof. Dr. Çağrı Erhan'ın editörlüğündeki 402 sayfadan müteşekkil olan eser, 2013 yılında, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu, Atatürk Araştırma Merkezi

tarafından yayınlanmıştır. Alanında uzman 10 akademisyen tarafından hazırlanan editörlü bir çalışma olması, eseri daha dikkate değer kılmaktadır. Eser, her biri kendi bütünlüğü içinde önem arz eden ve "İlham Aliyev Dönemi Azerbaycan" üst başlığı altında birbiriyle bağlantılı dokuz makaleden oluşmaktadır.

Eserde Cumhurbaşkanı Haydar Aliyev'den de bahsedilmekle birlikte, genel olarak Cumhurbaşkanı İlham Aliyev'in iktidarı dönemindeki gelişmelere çok daha fazla yer ayrılmış olduğu görülmektedir. Bu dönemde her alanda gerçekleşen icraat ile çağdaş Azerbaycan'ın doğuşu ile bölgesel ve küresel bir güç olma yolundaki faaliyetlerini konu alan eser, öncelikle giriş mahiyetindeki şu bölümlerden oluşmaktadır: Teşekkür (s. III), Tablo ve Haritalar (s. XI) ve Yazarların Özgeçmişleri (s. XIII).

Kitap Prof. Dr. Çağrı Erhan tarafından yazılan Giriş bölümü ile başlamakta olup, yazar, Azerbaycan'a ilk olarak 1993 yılının Ağustos ayında gittiğini, o dönem Siyasal Bilgiler Fakültesi'nden sadece iki ay evvel mezun olduğunu ve *Tercüman* gazetesinde diplomasi muhabiri olarak çalışmaya başladığını belirtmektedir. Yazara göre, çok acıdır ki o tarihlerde "Türkiye'de 1993'te Azerbaycan ve Orta Asya Cumhuriyetleri'yle ilgili yayınlanmış Türkçe kitaplar neredeyse yok mertebesindedir. Akademi dünyası, bölgeyle yeni yeni – ama ürkek biçimde- ilgilenmeye başlamış olup, "Turancılık"la itham edilmek ve üniversitede bir cadı avına kurban gitmek, bu coğrafyaya ilişkin akademik çalışma yapmak isteyenlerin çoğunun ortak endişesidir. Öylesine yabancıdırlar ki; bu alana ve bölgedeki devletlere ne isim verileceğine bile yıllarca karar verilemeyecektir. Önce, Türkiye'deki yayınlarda Batı literatüründen tercüme yoluyla "Türkik" (Turkic) kelimesi geçmiştir. "Kafkasya ve Orta Asya'daki Türkik Cumhuriyetler" kavramı sıklıkla kullanılmaya başlanılmıştır. Bunun fazlaca ecnebi lisanı koktuğundan hareketle bu kez de birileri "Türkî" kelimesini kullanmaya başlamışlardır. Yani, "Türksü" ya da "Türkümtrak" anlamındadır bu kavram da. Bu ne büyük garabettir ki; Türklerin ana-yurdunda halen oturmakta olanlara, Anadolu'da yaşayan Türkler "yarı Türk" anlamına gelebilecek bir kavramla hitap etmeye devam etmişlerdir yıllarca. Nihayet "Türk Cumhuriyetleri" ifadesi yaygınlaşmaya başlamıştır. Şüphesiz, bu tercihin yapılmasında Türk İşbirliği ve Kalkınma Ajansı'nın (TİKA) isminin bu şekilde oluşturulması da etkili olmuştur." Değerlendirmesini yapmaktadır Çagrı Erhan.

"Azerbaycan'a ikinci ziyaretimi yapacağım 2005'e kadar geçen 13 yıl boyunca Azerbaycan'la irtibatımı hiç kaybetmedim." diyen Prof.Dr. Çagrı Erhan, "Türkiye'nin 1992'de başlattığı *Büyük Öğrenci Projesi* çerçevesinde tüm Avrasya coğrafyasından, özellikle de Azerbaycan'dan önemli sayıda öğrencinin *Mülkiye*'ye gelmiş olduklarını ifade etmektedir. Böylece büyük bir şans eseri olarak artık Çağrı Erhan, Lisans ve lisansüstü öğrenim gören Azerbaycanlı öğrenciler vasıtasıyla Azerbaycan'daki gelişmeler hakkında daha güvenilir bilgiler almaya başlamıştır.

1995-1997 döneminde Azerbaycan'la ilişkiler, bazı Türk vatandaşlarının da isimlerinin karıştığı Haydar Aliyev'e karşı başarısız darbe girişimi sebebiyle kısmi olarak

bozulmaya başlamış da olsa, gerek Cumhurbaşkanı Süleyman Demirel'in Haydar Aliyev'le olan şahsi dostluğu, gerekse de enerji konusunun giderek daha önemli hale gelmesi sebebiyle, bu konu yavaş yavaş gündemden düşmeye başlamıştır. Çağrı Erhan, 2000'lerin başından itibaren yüksek lisans ve doktora düzeyinde çok sayıda Azerbaycanlı öğrenciye ders verme ve onlara danışmanlık yapma fırsatı bulduğunu ifade etmektedir. Azerbaycan'dan gelen öğrencilerin genellikle; Azerbaycan'ın dış ilişkileri, enerji ve Dağlık Karabağ vb. konularda tez çalışmış olmaları da dikkat çekicidir.

Hülâsa, ***Kafkasya'nın Yükselen Yıldızı*** *İlham Aliyev Döneminde* ***Azerbaycan*** kitabının Giriş bölümünü kaleme alan Prof. Dr. Çağrı Erhan, Azerbaycan'la 1993'te 21 yaşında başlayan tanışıklığı kapsamında, 20 yıl içinde ülkede meydana gelen gelişmeleri, şahsi gözlemleri ve bizzat görüştüğü Azerbaycanlı yetkililerden edindiği bilgiler çerçevesinde değerlendirmeye çalışmıştır. Bunda da başarılı olduğunu söylemek mümkündür.

Giriş bölümünden hemen sonra Yrd. Doç. Dr. Reha Yılmaz tarafından kaleme alınan "Azerbaycan'da Süreklilik ve Değişim" (s.19) konulu birinci bölümde, "Azerbaycan'da Siyasal Hayat" (s.21), "Demokratikleşme Adımları" (s.27), "Azerbaycan'ın Modernleşmesi ve Kalkınması" (s.30), "Azerbaycan'ın Güvenlik Politikası ve Askerî Modernizasyon" (s.35), "Modern Azerbaycan'ın Oluşturulmasında Eğitimin Rolü" (s.41) alt başlıkları bulunmaktadır. Yazar, bölümde; 15 Ekim 2003'teki seçimde oyların %76'sını alarak Azerbaycan Cumhurbaşkanı olan İlham Aliyev'in, babasının mirasını geliştirerek ülkeyi nasıl modern devletler sisteminin bir üyesi yaptığını anlatmaktadır.

Yrd. Doç. Dr. Samir Mardanov tarafından yazılan "Azerbaycan Dış Politikasının Temelleri (1991-2003)" (s.47) konulu ikinci bölümde ise; "Azerbaycan Dış Politikasının Genel Çerçevesi" (s.49), "Azerbaycan'ın Dış Politika Hedefleri ve Ulusal Güvenlik Stratejisi" (s.55), "Değişen İktidarlar ve Dış Politika" (1990-2003) (s.60), "Azerbaycan'ın Enerji Politikası" (s.69), "Azerbaycan'ın Küresel ve Bölgesel Güçlerle İlişkileri" (s.75), "Azerbaycan'ın Uluslararası Örgütlerle İlişkileri" (s.99) alt başlıkları altında, teorik arka planı ihmal edilmeksizin, Haydar Aliyev'in dış politika yaklaşımı tüm yönleriyle ortaya konulmaya çalışılmıştır.

Yrd. Doç. Dr. Güner Özkan'ın yazdığı "Azerbaycan-Ermenistan İlişkileri ve Karabağ'daki Ermeni İşgali (1991-2002)" (s.103) başlıklı eserin üçüncü bölümünde ise; "SSCB'nin Dağlık Karabağ'da Kontrolü Kaybetmesi" (s.105), "Azerbaycan-Ermenistan İlişkilerinin Belirleyicisi Olarak Radikalleşen Ermeni Siyasi Eliti" (s.110), "İşgal Edilen Azerbaycan Toprakları ve Sonuçları" (s.117), "21. Yüzyıla Devredilen Miras" (s.127) alt başlıkları çerçevesinde, Ermeni işgalinin Azerbaycan'ın sosyal ve ekonomik hayatına vurduğu darbe tüm boyutları ile gözler önüne serilmeye çalışılmıştır.

Prof. Dr. Kamer Kasım'ın kaleme aldığı "İlham Aliyev Döneminde Azerbaycan-Ermenistan İlişkileri" (s.133) konulu dördüncü bölümde ise; "İlham Aliyev Döneminde Azerbaycan Dış Politikasına Bakış" (s.135), "Azerbaycan Dış Politikası ve Dağlık Karabağ Sorunu" (s.141), "Ağustos 2008 Sonrası Süreç" (s.143), "Azerbaycan-

Ermenistan İlişkilerinde ABD Faktörü" (s.148), "Türkiye-Ermenistan İlişkilerindeki Gelişmelerin Azerbaycan'a Yansımaları" (s.152) alt başlıkları çerçevesinde, Ermeni meselesi hem Haydar Aliyev hem de İlham Aliyev dönemlerindeki boyutlarıyla ele alınmıştır. Bir yandan Key West görüşmelerinden sonra Bakü ile Erivan arasındaki uzlaşma arayışları üzerinde durulmuş, diğer yandan da Türkiye'nin Ermenistan açılımının Türkiye-Azerbaycan ilişkilerine etkileri tartışılmaya çalışılmıştır.

Dr. Cavid Veliyev ve Prof. Dr. Çağrı Erhan'ın birlikte kaleme aldıkları "Azerbaycan İç Siyasetinde Dış Müdahale Olgusu" (s.159) başlıklı eserin dördüncü bölümünde, "2003 Cumhurbaşkanlığı Seçimleri Öncesi ABD Örgütlerinin Hazırlığı" (s.161), "Seçimlerden Sonra ABD'nin Talebi: İran'a Karşı Askerî Üsler" (s.169), "2005 Parlamento Seçimleri: Turuncu Devrim Girişimi" (s.172), "2008 Cumhurbaşkanlığı Seçimleri" (s.187), "ABD Örgütlerinin Faaliyetlerinin Durdurulması" (s.188), "2013 Seçimlerine Doğru Aktifleşen Rusya" (s.192), "Rusya'ya Karşı ABD Desteği" (s.199) alt başlıkları bağlamında ABD ve AB ülkelerinin sivil toplum kuruluşlarının, son derece etkin ve doğrudan, Azerbaycan'daki seçim süreçlerine müdahil olmaya çalıştıkları, tüm ayrıntılarıyla ortaya konulmaya çalışılmıştır.

Doç. Dr. Mehmet Dikkaya ve Onur Demirci'nin birlikte yazdıkları "Petrol, Doğalgaz ve Ötesi: Modern Azerbaycan'da İlham Aliyev Dönemi'nin Ekonomi Politiği" (s.201) başlıklı altıncı bölüm, "Modern Azerbaycan'ın Genel Ekonomik Performansı (2002-2012)" (s.202), "Büyümenin Ana Unsurları Olarak Petrol ve Doğal Gaz Sektörleri" (s.210), "Enerji Dış Sektörler: Hollanda Hastalığı mı?" (s.213), "Enerji Eksenli Şekillenen Dış Ticaret ve Sanayi Akımları" (s.214), "Azerbaycan'ın Uluslararası Ekonomik Kurumlarla İlişkileri" (s.218) alt başlıklarından oluşmaktadır. Yazının genelinde İlham Aliyev dönemi petrol ve doğal gaz politikaları ve yansımaları, iç ve dış politika ekseninde değerlendirilip istatistiki veriler tablolarla sunulmuş, nihai olarak da; petrol başta olmak üzere enerji merkezli büyümenin kontrol edilmeye başlanılması ve yeni uzmanlaşma alanlarını oluşturacak şekilde sektörel çeşitlenmenin sağlanmasının hayati bir önem taşıdığı vurgusu yapılmıştır.

Yine Doç. Dr. Mehmet Dikkaya ve Dr. İhsan Çolak tarafından yazılan "Türkiye-Azerbaycan İlişkilerinin Ekonomi Politiği" (s.227) başlıklı yedinci bölümde, "Faktör Akımları ve Bölgesel Projeler: Büyük Resim" (s.228), "Mal Akımları: Ticari İlişkiler" (s.232), "Sermaye Akımları: Doğrudan Yatırımlar ve Müteahhitlik İşlemleri" (s.236), "Beşeri Sermayenin Geliştirmesine Yönelik Faaliyetler" (s.239), "Bölgesel İşbirliği ve Enerji Bağlantıları" (s.240), "Azerbaycan'dan Türkiye'ye Sermaye Göçü: Yeni Trend" (s.248) alt başlıkları çerçevesinde, iki ülkenin, retorik olarak Haydar Aliyev'e ait "bir millet, iki devlet" ifadesinin diğer Türk Cumhuriyetleriyle karşılaştırıldığında daha fazla gelişme gösterdiği vurgulanmıştır. Ayrıca, yüzlerce ikili işbirliği ve anlaşmanın mevcudiyetine rağmen, sivil ve formel olmayan ilişkilerin, Türkiye-Azerbaycan ilişkilerinin geleceğini belirleme noktasında şansının daha yüksek görüldüğü belirtilerek,

bu bağlantıların ekonomik ve politik altyapının kökleşmesinde en sağlam zemini oluşturacağı vurgulanmaktadır.

Doç. Dr. Mitat Çelikpala'nın yazdığı "İlham Aliyev'in Dış Politikası" (s.253) başlıklı sekizinci bölüm ise "Haydar Aliyev'den İlham Aliyev İktidarına Geçiş" (s.255), "İlham Aliyev Döneminde Azerbaycan Dış Politikası: Çıkarlar ve Tehditler" (s.257), "Birincil Öncelik: Toprak Bütünlüğünün Sağlanması" (s.260), "Çok Yanlı Diplomasi: Uluslararası Örgütlerle İlişkiler" (s.265), "Çok Yanlı Diplomasi: Azerbaycan Dış Politikasında İkili İlişkiler" (s.274), "Azerbaycan-Türkiye İlişkileri" (s.274), "Azerbaycan-Rusya İlişkileri" (s.283), "Azerbaycan-İran İlişkileri" (s.289), "Uzaktaki Ortak: Azerbaycan-ABD İlişkileri" (s.292) alt başlıklarından oluşmaktadır. Haydar Aliyev döneminde izlenen dış politikanın temel çizgisinin; Azerbaycan'ın milli çıkarlarına dayalı, bağımsız, küresel ve bölgesel dengeleri dikkate alan bir anlayış tarafından belirlendiği, İlham Aliyev yönetimindeki Azerbaycan'ın ise, dış politikada küresel ve bölgesel aktörlerin çakışan çıkarları arasında dengeli ve bağımsız bir dış politika izlemeye çalıştığı belirtilmiştir. İlham Aliyev dönemi için "Böylesine hızlı bir kalkınma yaşamakta olan bir ülkenin küresel sistem içindeki konumunun da olumlu biçimde gelişmesi doğaldır vurgusu yapılan kitabın ilgili bölümünde, özellikle son 10 yılda Azerbaycan dış politikasında öne çıkan konular, teorik bir çerçeve içinde kronolojik sırayla anlatılmaya çalışılmıştır.

Prof. Dr. Çağrı Erhan ve Aysun Gürbüz tarafından kaleme alınan, kitabın dokuzuncu ve son bölümü ise, "Azerbaycan'ın Enerji Politikası" (s.297) başlığı altında ve "Azerbaycan'ın Enerji Sektörü'nün Tarihsel Gelişimi" (s.298), "Günümüzde Azerbaycan Enerji Sektörü ve Yapılanması" (s.300), "Doğu-Batı Enerji Koridoru'nun İlk Ayağı: BTC Ham Petrol Boru Hattı" (s.308), "Doğu-Batı Enerji Koridoru'nun İkinci Ayağı: BTE Doğalgaz Boru Hattı" (s.319), "Doğu-Batı Enerji Koridoru'nun Topal Bacağı: Trans-Hazar Doğalgaz Boru Hattı" (s.319), "Güney Gaz Koridoru ve Azerbaycan'ın Büyük Seçimi" (s.323), "Güney Gaz Koridoruna Bir Köstek, Bir Destek" (s.338) alt başlıkları kapsamında şekillenmiştir. Eserin giriş bölümünde dikkat çekilen;"1990'ların ortalarında kendi ülkesinde çıkartılan petrolden elde edilen gelirden, reel anlamda sadece % 8 pay alabilen Azerbaycan'ın, 2013 itibariyle gelir payını % 75'e çıkarmış olmasının sebebi olarak, 1994-2003 yılları arasında *Azerbaycan Devlet Petrol Şirketi*'nin (SOCAR) Başkan Yardımcılığı görevini yapmış olan İlham Aliyev'in bu süreçte kazanmış olduğu tecrübe gösterilmektedir. Bu tespiti tamamlamak için de somut bir örnek gösterilmektedir: Şöyle ki; Trans Anadolu Doğalgaz Boru Hattı (TANAP) ve Trans Adriyatik Boru Hattı (TAP) gibi devasa teşebbüslerin yürürlüğe sokulması ile Azerbaycan'ın petrolden olduğu kadar doğalgazdan da ciddi gelirler elde etmesinin mümkün hale geldiği belirtilerek kitabın yazıldığı tarihe kadar gerçekleştirilmiş boru hatları ve inşası planlanan güzergâhlar hakkında kapsamlı bilgiler verilmiştir. Yazarlar nihai olarak da; "Literatürde "Hollanda

Hastalığı (Dutch disesase)"[1], olarak ifade edilen noktaya dikkat çekerek tedbir alınması gerektiğini ifade etmişlerdir. Yani Azerbaycan'ın birçok ülkenin başına geldiği gibi ülkenin "kaynak laneti"ne maruz kalmaması için doğal kaynağın olduğu sektörlerde yüksek ücretler vererek, daha eğitimli kişilerin bu sektörlerde yoğunlaşması sonucunda, diğer sektörlerin gelişiminin ve yenilikçiliğinin olumsuz etkilenmemesi uyarısını yapmaları son derece önemlidir. Bunun için de nitelikli insan kaynağının her alanda yetiştirilmesi ve ekonomi içinde homojen dağılımının gerekliliği tavsiyesinde bulunmuşlardır.

Prof. Dr. Çağrı Erhan tarafından yazılan, eserin "Sonuç ve Özet" başlıklı bölümünde ise, esere katkı sağlayan tüm yazarların kaleme aldıkları çalışmalarda ortaya koydukları gerçekler objektif bir yaklaşımla değerlendirilmeye çalışılmıştır. Evvela, "…Büyük aktörler arasındaki güç mücadelesi, sahip olduğu enerji kaynaklarının yoğunluğundan, içerdiği uluslararası ticaret hacminin büyüklüğüne, söz konusu aktörlere coğrafi yakınlığından, nüfus potansiyeline kadar birbirinden farklı olarak dört bölge üzerinde yoğunlaşmaktadır. Yazara göre, bunlar hâlihazırdaki kriz düzeylerine göre, Orta Doğu, Doğu Asya, Avrasya, Sahra-altı Afrika ve Latin Amerika bölgeleridir. "…Dünyanın "pivot(eksen)" alanı, Orta Doğu'yu da içerecek şekilde biraz daha Güneydoğu Asya-Kuzeybatı Afrika hattına doğru kaymışsa da, "kalpgâh" coğrafyası büyük ölçüde aynıdır. Bu kitapta son 20 yıllık dönüşümünü tüm yönleriyle ele alınmaya gayret gösterdiğimiz Azerbaycan da, bu kalpgâh alanının içinde yer almaktadır. Diyen yazar önemli bir tespiti dile getirmektedir. Günümüzde de bu durum artarak devam etmektedir demek mümkündür.

Yazar'a göre, İlham Aliyev döneminde Azerbaycan'ın devlet yönetim sistemi, Haydar Aliyev döneminin büyük ölçüde devamı niteliğindedir. Bununla birlikte, doğal kaynaklardan elde edilen kazançlarda büyük artışlar meydana gelmesi ve yönetimin daha da kurumsallaşması, İlham Aliyev döneminin önceki yıllardan farklılaşan yönleri olarak göze çarpmaktadır. Ekonomi politikası, dış politika ve enerji politikası açısından İlham Aliyev, Haydar Aliyev döneminden kalma statükoyu değiştirerek, revizyonist bir politika takip etmeye çalışmış ve bunun sonucu olarak, Azerbaycan, komşu devletlere ve dünyaya karşı kendini ispatlamanın ötesine geçerek, uluslararası sistemde daha itibarlı bir yer edinmeyi başarmıştır. Bunun sonuçları da 2020 yılında net bir şekilde görülmeye başlanılmıştır.

İlham Aliyev, iktidara geldiğinde, enerji kaynaklarının işletilmesi ve pazarlanması konularında da pek çok icraat yapılmış, gerekli yabancı yatırım desteği sürdürülmüş ve projelerin çoğu faaliyete geçirilmiştir. Bunun sonucu olarak da, 2002'de Azerbaycan'ın

---

[1] Arı, Ayşe; Özcan, Burcu, "Hollanda Hastalığı: Gelişmekte Olan Ülkeler Üzerine Bir Uygulama", Sosyo Ekonomi Dergisi, Temmuz-Aralık 2012-2, s.156." Hollanda hastalığı, günümüzde sermaye akımlarının etkileri için de kullanılmakta olup, petrol ya da doğalgaz kaynaklarının keşfedilmesi ve ihraç edilmesiyle imalat sanayinin daralması gibi, işçi dövizleri de, reel kuru değerlendirerek döviz cinsinden ihraç edilen malların fiyatlarının yükselmesine sebep olmaktadır. Bunun sonucunda da sanayileşme, ihracatın ve büyümenin düşmesi vb. gibi olumsuz sonuçlar ortaya çıkmaktadır.

yıllık petrol üretimi 15 milyon ton civarındayken 2011'e gelindiğinde bu rakam 45 milyon tona yükselmiştir. Yani yaklaşık olarak petrol üretimi on yılda 3 kat artmıştır. Aynı yükseliş doğalgaz alanında da görülmüştür. Kitapta, İlham Aliyev'in cumhurbaşkanlığının ilk döneminde Azerbaycan'ın, yabancı sermayeye ihtiyacı varken, sonraki yıllarda sermaye veren devlet konumuna dönüştüğü vurgulanmıştır. Dahası, başlangıçta kendi petrolünü ve doğalgazını dünya pazarlarına ulaştırmak için petrol ve doğalgaz boru hatları tesis edilmesi konusunda Batılı şirketleri ikna etmek zorunda kalan bir ülke konumundayken, kitabın yazıldığı tarihlerde "oyun kurucu" bir ülke olmaya doğru gelişmeye başladığı tespiti yapılmıştır. Kısaca, İlham Aliyev döneminde "petrol sermayesini beşeri sermayeye dönüştürme" çabaları yoğunluk kazanmış ve bu noktada Azerbaycan adına başarı sağlanmış olduğu sonucuna varılmıştır ki ,bu son derece doğru bir tespittir.

Cumhurbaşkanı İlham Aliyev`in 16 Nisan 2007`de imzalamış olduğu kararnameyle, 2007-2015 döneminde Azerbaycan gençlerinin yurt dışındaki eğitimleri için geliştirilen devlet programına ait mali giderlerin Petrol Fonu tarafından karşılanmasının kararına da yer verilmiş olan kitapta, 1 Temmuz 2013 itibariyle 488 öğrencinin bu programdan faydalanarak, yurt dışında eğitimlerini tamamlamış oldukları vurgulanmaktadır. Programa dâhil olan öğrencilerin büyük kısmı dönem itibariyle, İngiltere (% 23,1), Türkiye (% 20,8), Almanya (% 19,6), Kanada (% 8,3) ve Rusya (% 5,1) üniversitelerinde eğitim almıştır. Hülasa, ülke yönetiminde gençlere verilen önemin artmış olduğu ve devlet kadrolarında gençleşmenin devam etmekte olduğu bilgisi verilmektedir.

İlham Aliyev döneminde Azerbaycan'ın dış politika noktasında "atak diplomasi"nin bir yöntem olarak benimsendiği ve yurt dışında uzun yıllardır varlık gösteren Azerbaycan diasporasının örgütlenmesine büyük önem verildiğinin de altı çizilmiştir. Editör Prof. Dr. Çağrı Erhan'ın bu bağlamda tamamlayıcı tespiti çok önemli olup, İlham Aliyev'in Azerbaycan'da takip ettiği kalkınma stratejisinin nihai hedeflerinden birinin de, "Büyük Oyun"un nesnesi değil, öznesi olabilmek" olduğu ifade edilmiştir. Eserin "Sonuç ve Özet" bölümü, Prof.Dr. Çagrı Erhan'ın şu değerlendirmesi ile tamamlanmıştır: "…Kafkasya'da yükselen bir yıldız olan Azerbaycan, bölgesel liderlik hedefine ulaşmaya çalışan Türkiye ile bir ölçüde kader ortağıdır. İki ülke arasında, bugün var olandan çok daha kapsamlı ve çok yönlü bir stratejik işbirliği, hem Azerbaycan'ın önüne çıkan ve çıkabilecek engelleri kolaylıkla aşmasına, hem de Türkiye'nin kendi stratejik hedeflerine ulaşmasına katkı sağlayacaktır. Mustafa Kemal Atatürk'ün, "Azerbaycan'ın kaderi bizim kaderimiz, sevinci bizim sevincimizdir" ve Haydar Aliyev'in "Azerbaycan ile Türkiye iki devlet, tek millet" sözlerinin ışığında geliştirilen güçlendirilmiş ortaklık mekanizmalarının başarısı, küresel siyasetin kartları yeniden dağıtılırken, her iki devletin de uluslararası alanda arzu ettiği konuma ulaşabilmesine hizmet edecektir. Bölgesel gelişmeler karşısında Ankara-Bakü ekseninde takip edilecek ortak siyaset, bölgemize huzur ve istikrarın gelmesine de katkı sağlayacak…". Nitekim 2020-2021 yıllarındaki

Türkiye-Azerbaycan arasındaki işbirliğinin olumlu sonuçlarını sadece iki ülke kamuoyu değil, aynı zamanda bütün bölge ile birlikte dünya devletleri de görmeye başlamışlardır.

Çalışmanın sonunda zengin bir Kaynakça (s.367) ve Dizin (s.391) yer almaktadır.

Editör Prof. Dr. Çağrı Erhan, "Giriş" bölümünde, bu kitabın hazırlık çalışmalarını yapmak için 2012 yılının Ekim ayında Bakü'ye gittiğini ifade etmekte olup, güncel alan incelemesi ve veri taraması yapılması da kitabın kıymetini bir kat daha artırmaktadır.

Kısaca tanıtmaya çalışılan "**Kafkasya'nın Yükselen Yıldızı** İlham Aliyev Döneminde **Azerbaycan** "isimli eser, titiz bir kolektif çalışmanın ürünü olarak; hem akademik camianın, hem de ilgililerin istifadesine sunulmuştur. Sonuç olarak kitabın içindeki bütün bölümlerin ayrı ayrı değerlendirilmesi halinde dönem itibari ile Azerbaycan hakkında mufassal bilgi ve öngörüler içermekte olduğunu söylemek mümkündür. Özellikle de kitabın yazım ve basım tarihinde henüz Karabağ sorununun devam etmekte olduğu düşünüldüğünde, editörün büyük bir öngörü ile İlham Aliyev dönemi "Büyük Oyun"un nesnesi değil, öznesi olabilme" amacıyla icraata bulunduğu tespitinde de olduğu gibi, 2020 yılında büyük zafer ile Karabağ'ın istiklalini kazanmış olduğunu söylemek mümkündür. Yani artık Azerbaycan kendisi için planlananları kabul etmek mecburiyetinde kalan zayıf ülke olmayıp, kendi geleceğini belirleme gücünü ortaya koymaya başlamıştır. Bu anlamda Şuşa Beyannamesi de merhum Cumhurbaşkanı Haydar Aliyev'in "İki Devlet – Bir millet" fikrini kuvveden fiiliyata geçirmiştir[2]. Bu eserin incelenmesi sonucunda en kısa zamanda, Karabağ'ın istiklaline kavuşması ve yeniden Azerbaycan yurdu olması ile ilgili yeni bir bölüm eklenerek, diğer bölümlerin de güncellenmesi ve de Azerbaycan Türkçesine çevrilerek bu eserin tab edilmesi çok isabetli olacaktır.

[2] Selma Yel, "Türkiyəli tarixçi: "Şuşa Bəyannaməsi ilə bir millət, iki dövlət rəsmi olaraq yola çıxdı", **APA, Türkiyəli tarixçi: "Şuşa Bəyannaməsi ilə bir millət, iki dövlət rəsmi olaraq yola çıxdı", apa.az**, erişim tarixi: 28.06.2021.

**Рецензия на книги**: «Россия и азербайджанские ханства во второй половине XVIII – нач. XIX веков». Т.I, (1751-1775 гг.) (Сборник документов). Составитель, автор предисловия, транслитерации и комментарий: д.и.н. проф., Тофиг Мустафазаде, Баку, Турхан, ИПО, 2018, 340 с.; «Россия и азербайджанские ханства во второй половине XVIII – нач. XIX веков». Т.I, (1776-1800 гг.) (Сборник документов). Составитель, автор транслитерации и примечаний д.и.н. проф., заслуженный деятель наук Азербайджана Т.Т.Мустафазаде, Баку, Турхан, ИПО, 2020, 564 с.

МАРЗИЯ ИСКЕНДЕРОВА*

* Институт Истории им. А.А.Бакиханова НАНА, Azərbaycan, Bakı.
ORCID: 0000-0002-1545-9434; e-mail: marziya.i53@mail.ru

С наступлением нового этапа в отношениях Азербайджана с северным соседом - Российской Федерацией, изучение истории развития взаимосвязей между этими странами приобретает особую актуальность. Именно взаимоотношения Азербайджана с Россией на протяжении нескольких веков и составляли определяющее звено в цепи исторических событий, происходивших в Азербайджане. Более того, прослеживаются соответствующие исторические параллели между событиями конца XVIII – нач. XIX вв. и современными реалиями. И сегодня Азербайджан находится в центре столкновения геополитических интересов мировых держав и региональных государств и, продолжая оставаться мостом между Востоком и Западом, считается одним из важных геостратегических регионов. Но исключительность периода второй половины XVIII – нач. XIX вв. во взаимоотношениях России и Азербайджана состоит в том, что именно в этот период произошла закладка фундамента тех событий, которые получили дальнейшее развитие и имели резонанс в будущем. XVIII – нач. XIX вв. является переломным рубежом в истории и России, и Южного Кавказа, когда активизация время от времени политики России в данном регионе завершилась осуществлением задуманных гегемонистских целей и привела к глобальным изменениям в южно-кавказском регионе. Вот почему период XVIII – нач. XIX вв. является кульминационным в развитии российско-азербайджанских отношений и эта тема всегда была в центре внимания исследователей. Расширение же фактологической базы открывает перспективы глубокого осмысления различных сторон взаимоотношений России с Азербайджаном, представленном в указанный период в лице независимых ханств, и способствует формированию новых позиций в современной историографии. На это нацелен и опубликованные в 2018 и 2020 годах I и II тома сборника документов, составителем которого является азербайджанский историк Т.Мустафазаде «Россия и азербайджанские ханства во второй половине XVIII –нач. XIX веков». Сборник является* еще одним

вкладом в научные исследования Т.Мустафазаде, которые ведутся им в основном по следующим двум направлениям: взаимоотношения Азербайджана с Россией и Османским государством, а также исследования истории азербайджанских ханств.

Значимость данного сборника определяется не только подбором огромного числа первоисточников, собрать которые стало возможным с открытием многих фондов российских архивов после распада СССР. Большинство привнесенных в научный оборот документов изданы впервые и не привлекались исследователями. В публикуемом сборнике представлены документы из различных фондов таких российских архивов как Архив Внешней Политики Российской империи при МИД РФ, Российский Государственный Военно-Исторический архив и др. Приняв во внимание сложность прочтения русской письменности XVIII века, Т.Мустафазаде представил перевод текста этих документов на современный русский алфавит. Эти архивные документы, отражающие многие аспекты связей России с азербайджанскими ханствами, позволяют обозначить позиции в отношении гегемонистской политики России в южно-кавказском регионе, в частности – в Азербайджане. Выявление этих документов позволяет выделить ключевые сюжеты и направления, способствующие воссозданию общей картины.

Внимание автора привлекли документы, характеризующие как экономические, так и политические отношения между обеими сторонами. Интересными и неоценимыми являются первоисточники, отражающие вопросы торгово-экономических связей Азербайджана с Россией. Именно они позволяют дать оценку месту Азербайджана в восточной торговле России. Если же учесть такой важный фактор, как роль информатора, то представленные в сборнике донесения консулов, переписка с губернаторами и другими российскими чиновниками, осведомленными с положением дел на местах, раскрывают состояние азербайджано-российской торговли, характер импорта и экспорта, таможенные действия ханств и России, монетарную политику азербайджанских ханов, превалирующую значимость азербайджанских городов по сравнению с иранскими. Эти документы позволяют выявить и факторы, влиявшие на состояние торговли, обнаружить меры, предпринятые российским правительством по защите интересов российского купечества, отношение азербайджанских ханов к русским купцам, неравноправное положение местных и привилегии российских купцов.

В сборнике получили отражение и разведывательные акции России, стремившейся всячески реализовать свои хищнические планы в отношении Азербайджана. В этой связи ценным источником для истории Азербайджана является известное описание путешествия профессора С.Г.Гмелина в прикаспийские регионы Азербайджана (в трех частях), в котором автор четко выразил интересы российских деловых кругов. Заслугой Т.Мустафазаде является включение в сборник неизданной четвертой части путешествия С.Г.Гмелина, хранящейся в Петербургском фи-

лиале Архива РАН. Наряду с ценными сведениями для России об азербайджанских ханствах, определенное место в сборнике отводится и документам, показывающим недоверие азербайджанских правителей к разведывательной миссии Гмелина (Том.I: д.45, сс.190-191; д.50, сс.206-225; д.51, сс.226-274).

Сравнительную малочисленность документов, охватывающих политические отношения между азербайджанскими ханствами и Россией в период 1750-1765 годов, Т.Мустафазаде объясняет «занятостью России европейскими делами,… и меньшим вниманием к отношениям с восточными странами, в том числе с Азербайджаном», а также слабым развитием внешней политики азербайджанских ханств как находящихся «на стадии образования и самоутверждения» (Россия и азербайджанские ханства во второй половине XVIII – нач. XIX веков. Т.1(1751-1775 гг), с.10). Вместе с тем, в сборник включены документы, в которых отражены связи азербайджанских ханств с Грузией и с дагестанскими владельцами.

Политическую ситуацию в азербайджанских ханствах, позицию России к этим самостоятельным структурам Т.Мустафазаде умело представляет через отраженные документы постоянные междоусобные войны в ханствах, поиски союзников в борьбе против общего врага (Том I: док.23, с.92-93; док.53, с.281-283; Том II: док.140, с.257-258). Отсутствие единого государства в Азербайджане ослабляло обороноспособность страны и являлось объектом внимания российских информаторов, а в перспективе-фактически выгодным фактором при реализации Россией своих захватнических планов. В сборнике содержатся материалы, свидетельствующие об искусном использовании Россией противоречий и распрей между южно-кавказскими правителями в своих корыстных интересах, для направления событий в нужное для России русло.

Взаимоотношения между ханствами являются одним из главных вопросов, отраженных во многих документах. Они вносят ясность в перипетии взаимоотношений и политики таких крупных правителей как Фатали-хан Губинский-Ираклий II-Ибрагимхалил хан Гарабагский. (Том.II: док.56, с.127-132; док.63, с.137-143; док.66, с.144-146). Соответственно, раскрываются захватнические стремления Ираклия II в отношении азербайджанских земель и, в связи с этим, изменяются оценочные категории действий России. Показав Россию в качестве арбитра в вопросе территориальных претензий этих правителей друг другу, согласно документальным свидетельствам, обнаруживается изменение Россией своих позиций в зависимости от ситуации на местах, а самое главное – в соответствии, прежде всего, с собственными интересами.

На фоне отраженных в первоисточниках взаимоотношений России с азербайджанскими ханствами можно проследить проводимую большинством азербайджанских ханов политику лавирования между Россией, Османским государством и Ираном с целью сохранить свою независимость перед угрозой захвата их прежде

всего Россией. Включение Т.Мустафазаде в сборник документов, освещающих отношения азербайджанских ханств с Османским государством, позволило рассмотреть роль азербайджанских ханств в российско-османском противостоянии. В то же время, демонстрируемая в документах политика лавирования азербайджанских ханств вновь опровергает устоявшуюся в советской историографии точку зрения об их безоговорочной российской ориентации. (Том I: док.41, с.171-175; док.44, с.188-189). Эти же документы раскрывают и основные тактические направления южно-кавказской политики России: от двойственности и лицемерия до открытой экспансии. Некий имперский акцент при изложении материалов любого рода является общим для большинства документов. Трактовка событий в указанном направлении делает необходимой оценку методов и средств реализации Россией намеченных планов в южно-кавказском регионе, в том числе– Азербайджане. В этом отношении, в представленном сборнике особенно выделяются документы, в которых прослеживается армянский след. Эта группа документов носит богатый информационный характер. Донесения огромного числа армянских лиц, а также представителей российских властей, позволяет проследить проармянские позиции российского правительства. Том II: док.35, с.74-75; док.47, с.107; док.52, с.111-113). Вместе с тем, прослеживаемое в документах превалирование собственных интересов России над христианским единоверием с армянами, наводит на мысль об использовании, и даже их ложных информаций исключительно в качестве орудия для претворения Россией в жизнь своей оккупационной политики. Это особенно ярко проявляется во взаимоотношениях гарабагских меликов с российскими властями, в дифферентности действий российского правительства в отношении Ибрагимхалил хана Гарабагского и меликов. Важное значение имеют приводимые в документах меликами сведения о богатствах Гарабага, связях гарабагского хана, его воинской силе, и т.д. Эта информация предоставлялась с целью подстегнуть Россию начать поход в данный регион (Том II: док.53, с.113-115; док.75, с.162-164; док.160, с.284-291). Прослеживаемый в документах и отвечавший интересам России сепаратизм гарабагских меликов способствовал формированию процесса превращения меликов в марионеток России, стремившейся к созданию христианской опоры в Азербайджане и буферных христианских государств. Для современной историографии значимость этих документов заключается также в том, что они раскрывают перед читателем механизмы воздействия армян на российское правительство с целью добиться «успешного» разрешения вопроса о создании на территории Азербайджана христианских государств Албании и Армении, что являлось частью широкого «Восточного проекта» России. (Том II: док.99, с.197; док.111, с.215-217; док.183, с.324-327). При этом армяне, в поисках земли под будущее армянское государство, выдают ряд азербайджанских земель за армянские. Следует подчеркнуть, что сегодня, в условиях острого азербайджано-армянского противоборства, эти представ-

ленные в сборнике документы приобретают особую ценность и раскрывают истоки этого конфликта. Несомненно, эти документы проливают свет на многие актуальные на сегодняшний день вопросы.

В частности, содержащиеся в сборнике документы отчетливо свидетельствуют о роли российских военных властей в развитии политической ситуации в регионе. Воспользовавшись раздробленностью в регионе, царское правительство умело использовало армянский, христианский факторы, принцип «разделяй и властвуй» для усиления своего влияния, а впоследствии – аннексии южнокавказских территорий.

Особое внимание Т.Мустафазаде привлекли документы, выявляющие первостепенную значимость Азербайджана в российско-гаджарском противоборстве, наглядно отразившие методы осуществления гибкой и маневренной политики России. Эти документы подтверждают преемственность политики Екатерины II в отношении данного региона. В публикуемом сборнике, в этой группе документов изменения сбалансированного положения в регионе и столкновение интересов связываются с именем Ага Мухаммеда Гаджара. При этом данные материалы охватывают различные стороны политики России: от осторожности и двойственности вплоть до агрессивных действий царизма против Ага Мухаммеда Гаджара. Об этом свидетельствует получивший освещение в документах известный поход российских войск во главе с В.Зубовым (1796 г.), представленный в качестве реакции на нанесение удара политическому престижу России на Кавказе в ходе нашествия Ага Мухаммеда Гаджара (Том II: док.171, с.312-313; док.172, с.313-316). Известно, что поход Гаджара не только угрожал безопасности южных границ России, но и мог создать глубокий заслон российской торговле с Востоком.

На фоне отраженного в документах стремления к монопольному господству в Южном Кавказе, в целом-поход В.Зубова фактически являлся попыткой овладения и утверждения российской власти в Азербайджане. (Том II: док.184, с.327-333; док.187, с.336-339). Поэтому логически обусловлено включение в публикуемый сборник документов, в которых говорится о планах действий российских войск, в том числе Манифест Екатерины II, раскрывающий истинные захватнические замыслы России, скрытые под маской благих намерений (Том II: док.191, с.341-345; док.194, с.348-350). А рассматриваемые в материалах меры российского правительства относительно укрепления бакинского порта показывают значимость Баку в захватнических планах России (Том II: док.187, с.336-339; док.213, с.379-380). Несмотря на безуспешность российской военной кампании (1796 года), представленные в документах цели и задачи России, предпринятые ею меры позволяют расценивать поход, как начало осуществления захватнических планов в данном регионе, завершенных Россией в первой трети XIX века.

Безусловно, данная рецензия не претендует на исчерпывающий охват всех вопросов, затронутых в документах. Но даже этот краткий историографический обзор представленных в сборнике архивных документов показывает их научную важность и значимость для изучения российско-азербайджанских отношений во второй половине XVIII – нач. XIX вв. Исходя из вышеизложенного следует отдать должное составителю сборника Т.Мустафазаде, сумевшему посредством первоисточников выделить данную проблему, как предмет исследования, показав определяющую роль указанных отношений в истории Азербайджана и России. Вместе с тем только скрупулезный анализ и объективный подход к интерпретации документов в публикуемом сборнике позволит углубить освещение затронутых в них вопросов. Привнесенные в научный оборот новые материалы сыграют определенную роль в корректировке некоторых позиций в современной историографии.

Насыщенные фактологическим материалом эти документы обогатят исторические знания о России и азербайджанских ханствах и, послужив подспорьем для нынешнего поколения исследований, помогут определить перспективы будущего развития исторической науки в области изучения отношений между этими странами.

**The foreign policy of Azerbaijani Safavid state (in Turkish historiography)**, Tofig Najafli, Baku: “Turkhan NPB”, 2020, 520 pp.

REVIEWED BY AHMAD GULİYEV*

*A.A. Bakikhanov Institute of History, ANAS, Baku, Azerbaijan;
ORCİD: 0000-0002-5095-7439; e-mail: ahmadguliyev@yahoo.com

The Safavid age (1501-1736) has long been recognized as a period of special significance in the early modern history of Azerbaijan. Being a birthplace of the Safavid ideology, Azerbaijan was the political center of the Safavid Empire for most of the 16th century. Last three decades have seen considerable growth in Safavid studies in Azerbaijan Republic, as much the result of the regaining of its independence and national awareness processes, as well as the growth of available primary source materials. Furthermore, with the collapse of the Soviet Union the ideological constraints and some restrictions which were imposed on historical research ended.

The conceptual and methodological renewal gave rise to the process of revising the established concepts and paradigms of the history of the Safavid period. These factors contributed to the renewed interest in Safavid history and emergence of new generation of Safavid scholars in Azerbaijan.

In the last decade, contemporary Turkish historiography of Safavid history has been a subject of study by Dr. Tofig Najafli. Najafli’s work is a slightly revised and expanded version of his habilitation thesis submitted to the Institute of History of Azerbaijan National Academy of Sciences in 2016, and largely follows the organization and approach of that original endeavor. The book under review is one of numerous works produced by Tofig Najafli on the Safavid era. It examines the interpretation of the foreign policy of the Azerbaijani Safavid state in contemporary Turkish historiography and can safely be considered an important contribution to the field of Safavid studies in Azerbaijan.

The book is structured into five chapters plus an introduction, conclusion, and appendixes. The introduction presents some of the author’s assumptions, as well as the historical sources and secondary literature on which Najafli’s study is based (pp. 12-20), before he enters into a detailed study of the Safavid foreign policy in Turkish historiography. Najafli has made good use of a variety of primary sources written in Persian, Ottoman, and European languages. The author has been careful to test the assumptions of Turkish scholars against the primary sources and documents. In his introduction to the book, Najafli notes that the Turkish scholars have mainly concentrated their studies on military conflicts between the Safavids and Ottomans, and in this regard, they characterize Safavid rulers as the primary instigators of the wars between these two powers (p.18).

Chapter 1 examines the Turkish historiography of Safavid-Ottoman relations in the first half of the 16th century. Particularly, the author focuses on the interpretation of themes related to the establishment of the Safavid state and the origins of the Safavid dynasty in contemporary Turkish historiography. Najafli rightly notes that "due to relying mainly on accounts of Ottoman chroniclers, Turkish historians, in most cases, take biased approach when studying Ottoman-Safavid relations during the reign of Shah Ismail I" (pp.58-59).

The author supports the views of Turkish scholar Tufan Gündüz who challenges the traditional views in Turkish historiography on the role of the Anatolian Turks in the establishment of Safavid state. According to Najafli, the views of Faruq Sumer who attributes a prominent role to the Anatolian Turks in the establishment of Safavid Empire lacks scientific basis.

Chapter 2 attempts to analyze the Safavid-Ottoman relations in the second half of the 16th century in contemporary Turkish historiography. Firstly, the chapter scrutinizes the studies of the Turkish scholars regarding the Safavid-Ottoman relations following the Amasya peace treaty of 1555, Ottoman prince Beyazid's refuge with the Safavids. In concordance with the Turkish scholars, the author justly characterizes the nature of the Safavid-Ottoman relations as peaceful during the period stretching from 1555 until the death of Shah Tahmasp in 1576. As confirmed by the Turkish scholars, Shah Tahmasp did his utmost in order to maintain his peace accord with the Ottomans and for this purpose regularly sent embassies with precious gifts to the Ottoman court. As evidenced by the Ottoman chronicles, the Safavid embassies were received with honor.

The author indicates that there is a disagreement over the causes of the war of 1578-1590. Najafli supports Turkish scholar Ozer Küpeli who saw the cause of war with the Ottoman government's objectives to capture the Azerbaijani lands until the Caspian Sea which were the main raw silk producing provinces of the state. Another objectives included the gaining control of Northern trade routes of the Safavid state and halting the Russian expansion towards the Caucasus.

Chapter 3 examines the coverage of the Safavid-Ottoman relations in the 17$^{th}$ century and the first half of the 18$^{th}$ century in Turkish historiography. This chapter analyses the interpretation of the Safavid-Ottoman wars during that period. Najafli points out that "the Turkish historians try to explain the causes of Safavid-Ottoman military conflicts, military campaigns of Murad IV and the course of the wars from the Ottoman perspective" (p.147). According to the author, another problem is that the Turkish scholars avoid using Persian-language sources in order to compare them with the Ottoman chronicles.

Chapter 4 deals with relations of the Azerbaijani Safavid state with the neighboring powers in contemporary Turkish historiography. Najafli examines the relations of the Qizilbash state with the Shaibanids, Khanates of Turkistan, Great Mughals, Mamluks of Egypt, Georgian kingdoms, Grand Duchy of Moscow.

The final chapter explores the interpretation of the relations of the Azerbaijani Safavid state with Western European powers. Particularly, the author looks at the relations of the Safavids with the Republic of Venice, Papacy, Portugal, Spain, Germany, England, Holland, and France. Najafli notes that Turkish historians characterize the contacts between the Safavids and Western European powers as attempts to build anti-Ottoman alliance.

In the conclusion, Dr. Najafli remarks that "in contemporary Turkish historiography the Safavid state has usually seen as an Iranian state, thereby the statehood traditions of the Azerbaijani Turks have been largely ignored. According to the author, the early modern history of Azerbaijan has often been researched as a part of Iranian or Middle East history. Despite growing interest in Azerbaijani history and culture following restoring its independence, that traditional approach and trend in Turkish historiography still remain" (p. 366).

The author argues against the views of the Turkish historians who place relations between the Safavids and Ottomans in the context of sectarian rivalry. As evidenced by the primary sources, it is inappropriate to look upon the Ottoman-Safavid relations through the prism of Shia-Sunni differences. However, the political dimension was preeminent over the religious dimension in relations between these two powers. As indicated by some scholars, the Safavid-Ottoman struggle was mainly distinguished by extreme competition over territories, control of trade routes, prestige and political hegemony in the Middle East.

Notwithstanding, the author recognizes the contribution of Turkish scholars to the study of Safavid history, as their works, to some extent offers insights to our understanding of some aspects of Safavid-Ottoman relations. Concurring with the conclusions of numerous scholars who have addressed this theme, Najafli rightly notes that the nature of Safavids' contacts with the Ottomans was influenced by both internal and external factors.

The book is generously illustrated with maps of the Qizilbash state, portraits of the Safavid rulers and some Safavid diplomats, as well as scenes of reception of the Shah's envoys at various foreign courts. Moreover, the author provided a list of Safavid diplomats sent to the Ottoman Empire and neighboring powers, as well as the European courts. The book has an extensive bibliography comprising 540 studies written in various languages, including Azerbaijani Turkish, Turkish, Russian, English, French and Persian.

Altogether Dr. Najafli's study is expertly executed and offers valuable new insights into the ways in which the Safavid history has been and being written in Turkey, the conditions of the creation of this writing, and the influences on it. Apart from offering a valuable contribution to our knowledge of the foreign policy of the Safavid Empire, the book sheds light on the recent trends and methodological approaches to the study of Safavid history in contemporary Turkish historical scholarship. Najafli's work deserves to be read

with profit both by scholars and by those who have an interest in Safavid history, particularly the foreign policy of the Qizilbash rulers.

# TARİX İNSTİTUTUNUN YENİ NƏŞRLƏRİ




**Günel Aslanlı.** İlham Əliyev və Azərbaycanda idmanın tərəqqisi (2003-2020). Şəkil. Bakı, 180 s.

Kitabda 2003-2020-ci illərdə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət dəstəyi məsələləri tədqiq edilir. Əsərdə Azərbaycan idmanının hüquqi-normativ və maddi-texniki bazası təhlil olunur, bədən tərbiyəsi və idmanın kütləviləşdirilməsi istiqamətində dövlət siyasətinin əsasları, Azərbaycanın beynəlxalq idman yarışlarında iştirakı və nailiyyətləri, Ümumdünya Olimpiya hərəkatında yeri araşdırılır.

**ISBN** – 978-9952-8440-0-9




**Bəxtiyar Əhmədov.** Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımlar (XX əsr). Bakı, 180 s.

Monoqrafiyada Göyçə mahalında yaşayan azərbaycanlılara qarşı ermənilərin keçən əsrdə törətdiyi qətliam və soyqırımların ictimai-siyasi əsasları tədqiq edilir, hakim dairələrin bölgədə apardığı etnik təmizləmə siyasətinin yaratdığı problemlər araşdırılır.

**ISBN** – 978-9952-8434-3-9




**Ellada Bəkirova.** Albaniyanın qərb torpaqları (antik dövr). Xəritə və şəkil. Bakı, 220 s.

Monoqrafiyada Cənubi Qafqazın ən qədim dövlətlərindən olan Albaniya dövlətinin qərb ərazilərinin siyasi tarixi, tarixi coğrafiyası, əhali tarixi, təsərrüfat həyatı, bu sərhədlər daxilində baş vermiş siyasi və mədəni proseslər təhlil edilir.

**ISBN** – 978-9952-8434-9-1




**Tofiq Nəcəfli.** Azərbaycan Səfəvi imperiyasının Türküstan xanlıqları ilə siyasi əlaqələri. Bakı, 342 s.

Kitabda XVI əsrin birinci yarısı - XVIII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövləti - Türküstan xanlıqları hərbi-siyasi əlaqələri tədqiq edilir, tərəflər arasında qarşıdurma yaradan səbəblər, elçi mübadiləsi və digər xarakterik məsələlər işıqlandırılır.

**ISBN** – 978-9952-8434-2-2




**Fəzlullah Rəşidəddin.** Təsir və dirçəliş. Fars dilindən tərcümə. Bakı, 192 s.

Əsərdə Azərbaycanın XIII-XIV əsr florasından bəhs olunur. Yüzdən çox bağ və bostan bitkisinin becərilməsi haqqında məlumat verilir, toxumların mühafizəsi, peyvənd üsulları, gübrələmə, şumlama, suvarma işləri, istixanalar, ziyanvericilərlə mübarizə barədə elmi-təcrübi fikirlər irəli sürülür. Kitabdan tarixçilər, etnoqraflar və kənd təsərrüfatı tarixi ilə maraqlananlar istifadə edə bilərlər.

**ISBN** – 978-9952-84-34-6-0




**Elçin Cabbarov.** Terror: tarix və siyasət. Bakı, 268 s.

Monoqrafiyada terrorun transformasiyası, cəmiyyətdəki duruma və dövlətlərarası münasibətlərə təsiri araşdırılır, problemin etno-psixoloji aspekti və klassik hərb anlayışını dəyişdirən xüsusiyyətləri, yeni forma və məzmun mənimsəməsi məsələləri təhlil edilir. Tədqiqatın məqsədi terrora qarşı mübarizədə qabaqlayıcı tədbirlərin təşkili və təbliği imkanlarının formalaşdırılmasına və genişləndirilməsinə nəzəri dəstək olmaqdır.

**ISBN** – 978-9952-8434-7-7




Россия и Азербайджанские ханства (вторая половина XVIII – нач. XIX века). (Сборник документов). Т.3 (1801-1828 гг.). **Составитель, транслитерация и автор комментарий: Тофиг Мустафазаде.** “İdeal-Print” ООО, Баку, 2021. – 672 с.

В 3-й том сборника включены документы из российских архивов, многие из которых до сих пор не были изданы. А также документы из многотомного издания «Акты Кавказской Археографической Комиссии», относящиеся к политике царской России в период завоевания северо-азербайджанских ханств. Из множества документов, упомянутых Актов выбраны в основном документы, относящиеся к Гарабагскому и Иреванскому ханствам. Сборник рассчитан на исследователей истории Азербайджана и соседних стран.

**ISBN** – 978-9952-8434-8-4




British National Archives. Documents on the History of the South Caucasus 1918-1920. Volume 2. **Project manager, compiler and author of introduction: Nigar A. Maxwell,** “İdeal-Print” LLC, Baku, 2021. 495 p.

The collection of documents includes archival materials from the British NationalArchives, reflecting the events of 1918-1920 in the South Caucasus. These documents were gained from the funds: (Foreign Office), AIR (Air Ministry, Ministry of Defense); WO (War Office), CAB (Cabinet of Ministers), IOR (Political and Secret Department Records). The second volume of the collection consists of one part and contains 216 documents.

**ISBN** – 978-9952-8434-1-5

# QEYDLƏR

Format: 70*100$^{1}/_{16}$. Tiraj: 100.
Buraxılışa məsul: **Ramilə Şıxəliyeva**
Kompüter dizaynı: **Esmira Kərimova, Orxan Zeynalov**
Bədii tərtibat: **Rəvanə Mirzalıyeva**

"İdeal-Print" MMC-də çap olunmuşdur.
AZ 1130, Azərbaycan, Bakı, Binəqədi rayonu,
Sumqayıt şossesi, 2-ci km.